AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
FOLKLOR İNSTİTUTU

AZƏRBAYCAN FOLKLORU KÜLLİYYATI

IV cild

NAĞILLAR

IV kitab

BAKI - 2007

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

AMEA Folklor İnstitutu
Elmi Şurasının qərarı ilə çap olunur

REDAKSİYA HEYƏTİ

Hüseyn İsmayılov, filologiya elmləri doktoru **(sədr);**
İsrafil Abbaslı, filologiya elmləri doktoru, professor;
Teymur Bünyadov, akademik;
Məhərrəm Cəfərli, filologiya elmləri doktoru, professor;
Tofiq Hacıyev, AMEA-nın müxbir üzvü;
Paşa Əfəndiyev, filologiya elmləri doktoru, professor;
Oruc Əliyev, filologiya elmləri namizədi;
Qara Namazov, filologiya elmləri doktoru, professor;
Azad Nəbiyev, AMEA-nın müxbir üzvü;
Seyfəddin Rzasoy, filologiya elmləri namizədi **(məsul katib);**
Kamal Talıbzadə, akademik.

TƏRTİB EDƏNLƏR: f.e.d. Hüseyn İSMAYILOV
f.e.n. Oruc ƏLİYEV

NƏŞRİNƏ MƏSUL: f.e.n. Əziz ƏLƏKBƏRLİ

Azərbaycan folkloru külliyyatı, IV cild, Nağıllar (IV kitab), Bakı, "Nurlan" nəşriyyatı, 2007, 400 səh.

4603000000
A ---------- Qrifli nəşr
N – 098 – 2007

©Folklor İnstitutu, 2007

KÖYNƏK

O vaxtlar bir ovçu olub. Ovçular da cürbəcür olub. Kamil ovçu öz ölümünü bilirdi. O vaxt ki, bu adam ova gedəndə ki, bunun qabağında duracaq, onda onun buna güllə atmağa ixtiyarı yoxdu. Hə, onda ovçu biləcək ki, bunun işi tamamdı, qayıdacaq evə, yoldaşına deyəcək ki, yerimi üzü qibləyə sal. Mən getməliyəm. Bax, belə ovçuya kamil ovçu deyirlər.

Bu da özünü tanıyandan ta bu günə qədər ovçuluqla məşğul olurdu. Heç bir sənətin dalınca getməmişdi. Elə bir yer qalmamışdı ki, bu orada ov eləməsin.

O vaxtlar Qaradağ deyilən bir yer vardı. Bunun yönü düşdü ora. Qaradağnan bir dağ qabaq-qabağa olur. Dərənin arasında – dağın belində ot heç vaxt bitmir. O birində isə ot dizə çıxır, üstündən heç vaxt gül-çiçək əskik olmur. Bu da öz-özünə baxdı, heç bir şey anlamadı. Bu olsun tilsim. Ovçu gəldi kənddə ağsaqqallardan, özündən qabaqkı ovçulardan soruşdu ki, bu nə haqq-hesabdı. Bildi ki, o yer tilsimdi. Axşam söhbət düşəndə oğullarına belə bir vəsiyyət elədi. Dedi, nəbadənəbadə, ovçuluq sənətinin dalınca gedəsiniz. Özünüzə ayrıca bir sənət tapın. Ancaq, ey hana, birdən ovçuluq dalınca getsəniz, onda o Qaradağa üz çevirməyin. Bunun sizə tapşırıram.

Aradan bir müddət keçəndən sonra gəldi bunun əcəli tamam oldu. Uşaqlar atalarının vəsiyyətinə görə toru, yay-oxu yığışdırdılar. Dedilər, atamız vəsiyyət edib, da biz ovçu olmarıq. Bu uşaqlar elə ki, gəlirdilər camaatın yığnaq yerinə, ovçulardan söz düşürdü. Uşaqlar da öz atalarının adını eşidəndə qəmgin olurdular. Cavan ovçular deyirdilər ki, o filankəs kimi ovçu indi hanı?

O ovçunun böyük oğlu dedi, bu qədər atamızı tərifləyirlər, onun məharətindən danışırlar, necə olar bilər ki, bizlərdən birimizsə də onun yolunu davam etdirməyək. Böyük oğlan gəldi anasının yanına.

Dedi:

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Ay ana, istəyirsə, dünya dağılsın, atamın sənətinin dalınca gedicəyəm.

Bu atasının torunu, yay-oxunu götürüb ova çıxdı. Dedi indi ki, camaat görür mən ova getdim, da əliboş qayıtmayacağam ki. Gəl elə bir yerə get ki, əliboş qayıtma. Elə atamın dediyi tilsimli Qaradağa gedim.

Bu yol başladı düz tilsim dağa. Gördü, doğurdan, dağın birinə at tüpürsə, dişi çıxar. Birində də gül bülbülü çağırır, elə bil cənnətdi. Bu yavaş-yavaş çıxdı dağın başına. Sol tərəfdə hərləndi gördü ki, bir ceyrandı, otlayır. Dedi, hə atam yəqin ki, bunun deyirmiş. Nə əməl varsa elə bu ceyrandadı. Bu da ceyran donunda məleykə idi, bu dağda hərlənirdi. Gədə dizini yerə vurub yaya ox qoydu, istədi ki, ceyranı vura. Hara vuracaqdı, yay-oxu açılan kimi ceyran götürüldü. Ceyran sıldırım qayalardan üzüaşağı götürüldü. Bu da ceyranın ardınca. Ceyran girdi bir mağaraya. Gədə dedi, yaxşı oldu, mağaranın qabağına çıxan kimi vuraram. Gəldi ki, mağaranın ağzında bir qarıdı. Elə bir qarıdı ki, alt dodağı yernən gəlir, üst dodağı göynən gəlir. Bir belə saqqızı qaldırır belə salır, qaldırır elə salır.

Dedi:

– Ay qarı, ceyranı neylədin?

Dedi:

– Ceyran nədi, qadan alım?

Dedi:

– Ay qarı, bilmirəm, ceyranı ver.

Dedi:

– A bala, irəli gəl sənin ceyranını verim.

Gördü ki, bir iri qazandı, içində qara əriştə bişirir, yanında da bir qazan su.

Dedi:

– A bala, sən bir cavan adamsan, gəl bu əriştəni ye, bu suyu da iç, ondan sonra gəl güləşək. Əgər məni yıxdın, ceyran sənin, yox, mən yıxdım, onda mən bilərəm.

Gədə bir belə baxdı, gördü bir qoca qarıdı.

Dedi:

– Yaxşı, buna razıyam.

Bu oturdu, yaxşıca qara əriştəni yedi, sildi-süpürdü, bir qazan suyu da içdi. Qarı baxdı ki, neçəsi gəlib əriştəni yeyib, suyu içə bilməyib. Bu da hamısını eləmişdi bir daş.

Gədə dedi:

– Qarı, hazırsanmı?

Dedi:

– Hazıram.

Tutaşdılar. Bu çəkdi, o çəkdi, gədə qatladı qarını, qoydu dizinin altına. Qılıncını sıyırdı ki, başını kəsə, qarı ağladı.

Dedi:

– Ay qarı, niyə ağlayırsan?

Dedi:

– Əlini saxla, bircə kəlmə söz deyim, ondan sonra kəs.

Dedi:

– De.

Dedi:

– Mən əhd-peyman bağlamışam, kim mənim arxamı yerə qoysa, ona gedəm. İndi sən mənim arxamı yerə qoydun, mən də sənə ərə getməliyəm.

Gədə dedi:

– Bunun iştahına bax, bu da ərə getmək istəyir.

Dedi:

– Qarı, səni öldürmürəm, hara istəyirsən çıx get. Əmma səni ala bilmərəm.

Qarı qalxanda oldu bir dənə məleykə. Mağara burun şöləsindən işıqlandı.

Dedi:

– Mən ceyran donunda dağlarda gəzirdim. Neçə ildi ki, bu dağda hərlənirəm. Çoxları mənim ardımca düşüb gəlib məni yıxa bilməyib, daş olub. İndi sən gəldin, yıxdın. Mən sana ərə getməliyəm. Ancaq bu mağarada yaşamalıyıq, gündüzlər gedib ov elə, axşamlar gəl bura. Əgər razısansa, budur, razı

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

sağ olsun, başlayaq söhbətə. O saat bu oğlanın anasını da bura gətirdilər, yaxtan da arvadın yanında idi. Dedilər, şah sağ olsun, bu oğlan o nişangahı vuranda nə verdin? Dedi, vəzirə dedim, apar qoy xəzinədən nə istəyirsə götürsün. Vəzirə dedilər, nə verdin sən? arvad yaxtandan bir arşın qara ləstəyi çıxartdı. Dedi, şah, verdiyin xələt bu du. Dedi, mən vəzirə belə deməmişəm. Dedilər, o bu qədər məxluqun içində sənin nişanını vuran olmadı, bu vurdu, bəs yoxlamadınmı ki, vəzir ona nə verdi. Vəzir gecə yata bilmədi, yerinə qor doldu. Bunu göndərdi təpəgöz canavarın dərisini gətirməyə. Bütün dünya dəriyə baxmağa gəldi. Bəs onda sənin ənamın nə oldu? Arvad tez yaxtından qırmızı ləstəyi çıxartdı. Dedi, ay başına dönüm, ənam bu du. Qara döy qapını kəsmişdi. Gahdan bir qapıdan başını içəri soxanın başını üzüb bunlara sarı atırdı. Dedilər:

– Ay şah, adam qalmadı, qara döy qırdı.

Sarı döy dedi:

– Ay şah, narahat olma, bə toy nə təhər olar, toy elə-belə də keçər də.

Ağ döy dedi:

– Şah, bəs bu adam sana fil sümüyündən otaq tikdirdi, onda sən buna nə verdin?

Arvad əlini atıb yaxtandan beş tüməni çıxartdı, dedi, başına dönüm, şahın verdiyi bu du. Vəzir bu dəfə gədəni məhv etmək üçün min illik yola-ulduzlu dəryanın qırağında ki Çin padşahının qızını gətirməyə göndərdi. Bə bunu fikirləşmədin ki, necə gətirəcək, necə gedəcək. Vəziri qoydu ayağının altına, çəkib iki şaqqa elədi. Şahın qorxudan dodağı çatladı. Ağ döy əlini atıb şahın boğazını üzdü. Qızla gədeyi çəkdilər meydana. Dedilər, ay camaat, bu əziyyət çəkdi, bunun özünə qismət oldu. Qız da bunundu, öy də bunundu, şəhər də bunundu. Təpəgöz canavarın dərisi də, fil sümüyündən olan otaq da bunundu.

Həmən döylər ovçunun oğluna qırx gün, qırx gecə to elədilər. Onlar orada şad oldular, biz də burada şad olduq. Siz sağ, mən salamat.

ƏHMƏD ŞAHIN NAĞILI

Biri varıydı, biri yoxuydu, keçmiş zamannarda Əhmədnən Hümmət adında iki yoldaş varıydı. Onlar bir oturar, bir durar, birgə gün keçirərdilər. Aralarından su da keçməzmiş. Yedikləri də, içdikləri də biriymiş. Allah verənnən, azdan az, çoxdan da çox yeyif, bir qarnı aj, bir qarnı tox gün keçirərdilər.

Bir gün Əhməd dedi:

– Aya Hümmət, bu kasıfçılıq bizi tamam üzdü. Deyirəm gəlsən, gedək yaxınlıqdakı şəhərə. Bəlkə özümüzə bir gün ağladıx.

Əhməd deyir:

– Qardaş, getməyinə gedək, ancaq qorxuram kı, kasıfçılığın daşını atannan sonra bir-birimizi tanımayax. Pul dediyin şey ki, var ha, dostu-dostdan eliyir bu pul. Adam da var ki, əlinə pul kür kimi gəlir. Amma yazığın boğazından getmir ki, getmir. Yığır, gizlədir, o da qalır arvadın təzə ərinə.

Hümmət deyir:

– Əhməd, düz deyirsən, bir iş var ki, adam varlananda gözü ayağının altını seşmir. Dostu düşmənnən ayıra bilmir.

Hə, əzizlərim. Əhmədnən Hümmət dərs-kors eliyə-eliyə bu minvalla xeyli yol getdilər. Gethaget axırda gəlif bir şəhərin qırağına çatdılar. Gördülər ki, o qədər adam toplaşıf ki, iynə atsan, yerə düşməz. Onlar özdərini verdilər camaatın arasına. Hümmət bir nəfərə yaxınlaşıf soruşdu:

– Qardaş, xeyir ola. Bu qədər camaat niyə yığışıf?

Oğlan dedi:

– Ölkənin şahı ölüf. Təzə şah seçmək üçün şahlıq quşu uçururlar. Quş kimin çiyninə qonsa, o adam da, şah olajax.

Əhməd dedi:

– Hümmət, yaxşısı budu ki, gəl yolumuza rəvan olax.

Hümmət dedi:

– Əhməd, qardaş, bir az dayan görək bu şah nejə olur?

Bir az keçməmişdi ki, quşu uçurmağa başladılar. Quş

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

havaya qalxıf hərlənə-hərlənə gəlif Əhmədin çiyninə qondu. Camaat baxanda gördü ki, quş bir yolçunun çiyninə qonuf. Hamı gülməkdən özünü saxlaya bilməyif, qarnını tutdu.

Quş uçuranlar quşu Əhmədin çiyninnən götürüf yenidən uçurtmax üçün meydanın ortasındakı taxtın üstünə qalxdılar.

Əhməd dedi:

– Hümmət, tez ol qaçıf aradan çıxax. Quş bir də çiynimizə düşsə, camaat bizi öldürəjək.

Əhmədlə Hümmət qaçmaqda olsun, quş uçmaxda. Quş meydanda dövrə vuruf Əhmədnən Hümmətin dalısınca uçuf çatan kimi yenə Əhmədin çiyninə qondu. Əhmədnən Hümməti tutub meydana gətirdilər. Ağsaqqallardan biri irəli yeriyif dedi:

– Bu yolçuları buraxın. Atalar üçəcən deyib. Bir də uçurax. Quş bu dəfə də həmin adamın çiyninə qonsa, demək şah olur.

Nə başınızı ağrıdım. Üçüncü dəfə də quş meydanda dövrə vuruf Əhmədin çiyninə düşdü. Əhmədi tez gəcavəyə qoyuf iqamətgaha tərəf yollandılar. Hamamnan sonra, onun başına şahlıx tajı qoyuf taxta çıxartdılar.

İndi sizə kimdən danışax, kimdən deyək, Hümmətdən. Hümmət Əhmədin şah seçilməyinnən çox sevindi. Əli-ayağı yerə dəymirdi. Eləcə qulağı səsdəydi ki, indicə Əhməd onu yanına çağırajax. Bu minvalnan xeyli gözdədi. Gördü kü, yox, heş bu, Əhmədin yadına düşmür də. Düz altı ay bu xəyalnan gəzən Hümmət bir gün şah sarayının qapısına gəlif gözətçilərə dedi:

– Mən şahı görmək istiyirəm.

Əli qılınc-qalxannı keşikçilərdən biri Hümmətin döşünnən geri itələyif dedi:

– Sən hara, şah hara? Hər yoldan ötən şahın yanına gedə bilməz.

Bu minvalnan Hümmət qırx gün şahın iqamətgahı ətrafında hərrəndi ki, bəlkə özü gedif-gələndə məni gördü. Hümmətin bu qədər şah sarayının həndəvərində hərrəndiyini görən

keşikçilərdən biri şahın hüzuruna gedif, təzim elədi və dedi:

– Şah sağ olsun, düz qırx gündü ki, bir adam səni görmək istiyir.

Şah onun adını-zadını öyrənənnən sonra dedi:

– Buraxın gəlsin.

Hümməti şahın hüzuruna apardılar. Hümmət salam verif küsülü-küsülü dedi:

– Aya Əhməd, a sənin o başına qoyduxları taj boş qalsın, bəs sən deyirdin bir-birimizi unutmayax. İndi yeddi-səkkiz aydı kı, mən tək-tənha yoxsullux içində qalmışam. Sən də bu mərətə qalmışı başına qoyuf kef çəkirsən. Bəs demirsən yazıx Hümmət harada qaldı?

Əhməd şah gülə-gülə dedi:

– Qardaş düz deyirsən. Bu zəhrimar vəzifə çox axmax şey imiş. Səni tamam unutmuşdum.

Hümmət dedi:

– Qardaş, nə oluf sənə? Sən verdiyin sözü heş yadına salmırdın?

Əhməd şah:

– Ay axmaq, hardan yadıma salaydım. Elə bilirsən sən olsan məni indi axtarıf tafmışdın?! Onu bil ki, şahlıx yaman şeydi. Bizim kimi görməmiş adam da lap özünü itirir. Az qalır kı, vəzir-vəkilə də salam verməsin.

Hümmət dedi:

– İndi, de görüm, mən neyləməliyəm?

Əhməd şah vəziri çağırır və tapşırır ki, Hümməti filan mahala xan təyin eləyirəm. Savahdan göndərin getsin.

Bəli, Hümmət böyük bir mahalın xanı olur. Hamı başına and içir. Heç kəsi incitmir. Kim üstünə nə işə gəlsə, yerindəjə düzəldir. Tafşırır kı, qulluxçular bir nəfəri incitsə, əlimnən qurtarmıyajax. Ancax əmr verir ki, ölü düşəndə mənsiz dəfn etməsinnər. Qulağına deməli sözüm var.

Camaatın da xannan narazılığı elə təkcə ölünün dəfn işi imiş. Söz düşəndə deyərmişdər:

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Əşi, kişinin səxavətinə, adamlığına söz yoxdu. Rəiyyətin qədrini bilir. Bircə bu ölünün qulağına nə dediyini annıya bilmirik. Elə olur ku, xan gəlif çatmır. Üç günlə ölünü dəfn edə bilmirik.

Hümmət xannığını eləməkdə olsun, indi sizə xəvər verim, Əhməd şahdan. Əhməd şah vəzirini yanına çağırıf dedi:

– Vəzir, deyirəm bir çıxım ölkəni dolanım. Görüm xalqın vəziyyəti, dolanışığı nejədi?

Nə başınızı ağrıdım, Əhməd şah ölkəni xeyli dolaşannan sonra axır kı, gəlif Hümmətin xan olduğu mahala çıxır. Baxır kı, hər yerdə razılıx edillər. Amma ölünün qulağına söz demək işində bir balaca gileylənirlər. Əhməd şah Hümmətin yanına çatıf, onunnan görüşüf-öpüşənnən sonra deyir:

– Halaldı, qardaş, camaat səndən çox razıdı. Ancaq dedilər ki, ölünün qulağına nə isə deyirsən. Mən də çox fikirrəşdim, bir şey qana bilmədim. O nə adətdi ki, elə dəb qoyufsan?

Hümmət dedi:

– Vallah, hər nə soruşursan, soruş. Bircə o məsələni soruşma, demiyəjəm.

Əhməd şah daha da maraqlanır kı, yəqin bir şey bilir, özü demir. Əl çəkmir ki, de görüm, ölünün qulağına nə deyirsən?

Hümmət isə matahı baha söz kimi iki ayağını bir başmağa diriyir ki, demərəm.

Axırda Əhməd şah deyir:

– Əşşi, bizim sirrimiz ayrı ha deyil, demirsən. Mən ölüm de görüm, ölünün qulağına nə deyirsən?

Hümmət ciddi görkəm alarax deyir:

– Ölülərə deyirəm ki, a yazıxlar, görün nə günə qalıfsınız ki, şahınız Əhməddi, xanınız Hümmət. Gedin, canınızı bizdən bir yollux qurtarırsınız.

Əhməd şah gülə-gülə deyir:

– Halaldı sənə Hümmət, amma sözün düzünü deyifsən.

XOR-XOR MOLLA

Əzəldən variymiş, yoxiymiş, bi kor qarı variymiş. Bu qarının da bi dənə bişiyi variymiş. Qarı hara nə qoyursa, bişiyi ho qoyəni tapıb yiyirmiş. Qarı bişiyin əlindən bezir, axırda bişiyi döyüb öydən qovur. Bişiy az gidiy, üz gidiy, dərə-təpə düz gidiy. Bu yoruluy, haldan düşüy, gidiy bi tülkünün yuvasına giriy və yuxluyür. Tülkü yuvasına gəliy, uzaxdan xorultu eşidif, qorxuf qaçiy. Qabağına donquz çıxıy.

Donquz soruşur:

– Qaydaş, nə bəh qaçiysan?

Deyir:

– Yuvamda bi xorultu var, qorxumdan qaçıram.

Donquz diyir:

– Gə gidax, mən qovum.

Gəlib yuvaya çatanda xorultunu eşidif başliyirlər qaçmağa. Yolda qabaxlarına Canavar çıxıy.

– Xeyir ola, nə bəh qaçıysınız?

Tülkü diyir:

– Mənim yuvamda bərk xorultu var, honnan qorxub qaçiyıx.

Canavar diyir:

– Gəlin gedax, mən onu udum.

Gəliylər. Uzaqdan bişiyin xorultusunu eşidib başdiyir hamısı qaçmağa. Az qaçiylər, üz qaçiylər, dərə-təpə düz qaçiylər, qabaxlarına bi çaqqal çıxıy.

Çaqqal da bu məsələni eşidiy və gülə-gülə diyir:

– Gəlin gedax, mən honu qovaram.

Gəlib dinliyirlər, qorxularınnan dala qayıdıf başdiyirlər qaçmağa. Bular qaçəndə meşədə qabaxlarına ayi çıxiy. Məsələni eşidəndən sonra ayi gülüf diyir:

– Gidax, mən honu kotaxdiyim.

Yuvaya tərəf gələndə qabaxlarına bi xoruz çıxiy. Bular yığılıb gəliylər. Uzaxdan dayanıb xorultuya qulax asıylar.

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Fikirləşiylər ki, bunu nə tər yuvadan çıxarax.

Məsləhət eliyirlər ki, aş bişirsinlər. Ayı oduna gidiy. Canavar qoç tapıy, dovşən düyü. Donquz tiyan getirməyə, çaqqal toyux tutmaa razılaşiy.

Hamısını topalayif aş bişiriylər. Həlimnən bir az köseyin üstünə tökküllər. Ayi ağaca çıxiy, donquz ağacın dibində duruy, ləmbədə yeşiniy, canavarsa daşın dalınnan pusuy. Qalanlar da hərəsi bi tərəfdə yeşiniylər. İyi alan bişih yuxudan oyanıb yuvadan çıxıy, gərnəşiy, birdən canavarın qulağına çibin qonur və canavar qulağını tərpədiy. Bişih honu kəsyan bilib üstünə tullanıy. Canavar qorxusundan qaçiy, bişih də qorxusunnan ayi olan ağaca dırmaşıy. Bunnan hürkən ayi özünü ağacdan tullayır və donquzun belinə düşüy. Doqquz tülkünün quyruğunnan basıb qaçiy və o birilər də holaın dallariyjən.

Bişih qaçib nənəsinin yanına qəyidiy.

Tülkü yuvasına gəlif kefnən aşi yiyir və burda nağıl bitiy.

TÜLKÜNÜN HİYLƏBAZLIĞI

Biri variymiş, biri yoxuymuş. Bir ormanda aslan, qaplan, qurd, tülkü, çaqqal, dovşan, tısbağa yaşayırmış. Dava-dalaşdan, bir-birinin ətini didib yimaxdan uzaxmışlar.

Bir gün ormanda quraqlıq başlayır. Honnar da susuz bir müddət dolanırlar. Sora şir bütün heyvannarı başına yığıb diyir:

– Kələyimiz kəsilitdi. Gərəh başımıza bir çarə tapaq.

Hamı düşür meşənin janına. Axtarıllar, axtarıllar, axırda baxıllar ki, bi yerdə bi bulaxdan azja su sızır. Yığışıllar, bulağın ətrafını qazıf bir göl əmələ gətirillər. Bütün heyvanlar qan-tər içində işliyir, təkcə tülkü yaxasını kənara çəkif, yardım eləmir.

Honnar da öz aralarında belə qərara gəlillər ki, tülkünü sudan içməyə qoymasınnar. Başlayıllar gölün keşiyini çəkməyə. Əvvəlcə şir qoyunnara, sona da çöl dovşanlarına tapşırır ki, gözdə-qulaqda olsunnar, tülkü gəlib su içməsin.

Dağılışıb hərəsi bir yana gedir. Tülkü görür ki, bir dovşan suya nəzarət edir. Sudan ötrü ürəyi partlasa da ehtiyatlanır. Dovşan şiri, başqa heyvanları çağırsa, yaxasını qurtarammaz. Fikirləşir ki, dovşanı necə aldatsın? Gedif bir kələmlə kök tapır. Honnarı göldən bir az aralıda kolun dalında gizlədif dovşana yaxınlaşır. Diyir:

– Dovşan qardaş, xeyir ola, niyə habırda durmusan?

– Heç, özümü günə verirəm.

– Düz diyirsən, günə verməli havadı. O kolun dalında bir kələmnən kök də özünü günə veritdi.

Dovşanın ağzı sulanır. Tullana-tullana gedir baxsın. Tülküyə də bu lazım idi. Dovşan kələmlə kökü yeyənə kimi o da istədiyi qədər sudan içib gedir.

Sabahı gün tısbağanı gözətçi qoyurlar. Tülkü gəlib deyir:

– Tısbağa qardaş, təpənin o tayında arpa göyəritdi. Üzünə baxan yoxdu. Amma yolda bir dəstə tısbağa gördüm, ora gəlsələr biri də qalmayicihdi.

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Tısbağanı da beləcə arpaya yollayır, sudan istədiyi qədər içib gedir.

Axşam heyvannar bir yerə yığışıllar. Görüllər ki, gölün suyu günü-gündən azalır, belə getsə yayı başa çatdıramma-yacaxlar. Dovşanla tısbağanı çağırıllar. Onlar şirin qorxusun-nan açıb diyillər ki, bi dəfə suyu gözdən buraxıblar, ona da səbəb tülkü oluf.

Heyvannar başa düşüllər ki, tülkü kələh gəlif suyu içif. Qərara alıllar ki, tülkünü tutub cəzalandırsınlar.

Belə də edillər. Ayını gölün sahilində qoyub gedillər. Tülkü gəlib ona diyir:

– Dəymiş armuddar horda səni gözləyir.

Ayı gedir. Tülkü əyilib su içmək istəyəndə heyvanlar pusduxları yerdən çıxıf onu tutullar.

Aslan diyir:

– Tülkünün cəzası nə?

Yerbəyerdən diyirlər:

– Ölüm... Ölüm...

Şir soruşur:

– Nə yolla öldürəh?

Uzun məsləhətdən sora qərara alıllar ki, tülkünü qurda tapşırsınlar. Qurd tülkünün quyruğunnan yapışıb, yırğalasın, başı daşa dəyif, əzabla ölsün.

Şir üzünü tülküyə tutub soruşur:

– Tülkü, ölümqabağı bir arzun-zadın olar?

Tülkü diyir:

– Günahım böyükdü, şir qardaş, əzabla öldürsəniz də azdı. Amma bir istəyim var.

– Nədi?

– Bir az quyruğuma, bədənimə yağ sürtün. Əynim-başım təzələnsin. Qurdun ödü ağzına gəlməsin.

Tülkünün arzunu yerinə yetirillər.

Qurd tülkünün quyruğundan yapışıb göyə qaldırmaq istiyəndə sürüşüb ağzından çıxır. Ha çalışır, bir şey alınmır.

Axırda yoruluf oturur.

Şir qəzəblənif qabağa çıxır. Nəriltiylə tülkünün quyruğu-nu dişlərinin arasına alır, göyə qaldırıf başının üstündə yırğala-mağa başlayır. Bir-iki dəfə o tərəfə bu tərəfə yırğalamışdı ki, yağlı quyruq şirin ağzınnan çıxır, tülkü diyirlənif təpənin o tərəfinə düşür. Bir göz qırpımında qaçıf canını qurtarır.

Şir peşiman-peşiman heyvanlara baxanda üzünə yağış damcıları düşür. Bir azdan bərk yağış yağır. Hamı qaçıb mağarasında gizlənir.

Tülkü bi də o tərəflərə hərlənmir.

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

TÜLKÜ VƏ XORUZ

Bi Xoruz budahda oturub hərdən banlayırdı.

Tülkü onun səsini eşidib ağacın dibinə gəlir və diyir:

– Xoruz qardaş, səni yoluxmağa gəlmişəm.

– Sağ ol, tülkü baba, könlün xoş olsun. Kefin yaxşıdı?

Tülkü özünü eşitməməzliyə vurur.

– Hayındı nə dedin? Qulağım bir az ağır eşidir. Ağa qaçmır ki, xoruz qardaş, düş aşağı, gedib bir az meşədə gəzişək. Göyə çıxmısan, nəsə dimdiyoo tərpətdiyini görürəm, töbəə səsin qulağıma çatmır.

Xoruz bir az qürrələnib diyir:

–Yox, düşəmmicəm. Biz quşdara yer üzündə gəzməh haramdı.

– Bəlkə mənnən qorxursan? Mən töbəliyəm.

– Sənnən qorxmasam da saa oxşar heyvannardan qorxuram.

Tülkü diyir:

– Xoruz qardaş, sənin heç dünyadan xəbərin yorxmuş ki?

– Nolub ki?

– Bə eşitməmisən ki, təzə hakim gəlitdi. Hər yerdə əmin-amanlıq yaradıtdı. Qoyunu qurda tapşırıtdı. Hora bax, quduz köpəklər gəlir. Başqa vaxt olsıydı, baş götürüf qaçmalıydın. Hayındı rahatca yerində otur, işində ol. Saa heç biri dəymiyicihdi.

Xoruz köpək adı eşidən kimi qaçmağa hazırlaşır.

Tülkü yenə onu arxayın salmağa çalışır.

– Hara? Görmürsən mən sakit durmuşam. Qarnım bi il ət üzünə həsrət qala ha, yenə saa toxunmağı ağlıma gətirmərəm. Hayındı ö köpəhlər də gəlif yanınnan sakitcə keçəcəklər.

Xoruz boylanıf yola baxır diyir:

– Tülkü qardaş, kim bilir, bəlkə təzə hakimin hökmü habı kənddən gələn Alabaşa heç gedif çatmiyitdi? Hora bax, gör necə dişlərini qıcıda-qıcıda gəlir?

Alabaş çathaçatda tülkü gördü xoruzun başını bişirəmmədi.

– Sən diyəndi, xoruz qardaş, ho itin hələ qanunnan xəbərləri yoxdu. Mən qaçdım, sən öz canınnan muğayıt ol –, deyif qaç ki, qaçasan.

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

ARMUDAN BƏY

Biri var idi, biri yox idi, bir dəyirmançı var idi. Gecə-gündüz dəyirmanda qalardı. Üst-başı cırım-cındır idi. Bir gün dəyirmana bir şələquyruq tülkü girir. Dəyirmançı dəyirmanın qapısını örtüb beli əlinə alır. Öz-özünə deyir:"Hə, mənimkini Allah yetirib. Bu tülkünü öldürərəm". Tülkü dəyirmançının fikrini anlayıb insan kimi dilə gəlir, yalvarır:"Amandır, məni öldürmə, mən səni dünya malından doyuraram. Neyləyirsən tozlu, unlu dəyirmanı? Gəl gedək mənimlə". Dəyirmançı dəyirmandan təmiz bezmişdi. O saat razılıq verdi. Tülkü qabaqda, dəyirmançı dalda az getdilər, düz getdilər, iynə yarım yol getdilər. Gəlib suyu bulanlıq çaya çatdılar. Çayın suyu lilli idi. Tülkü dəyirmançıya dedi:

– Sən suya tullan, mən də gəlirəm. Suyun altında cinlər padşahı yaşayır. Onun qızı var, gözəllər gözəli. Səən o qızla övləndirəcəyəm.

Dəyirmançı özünü suya atır. Tülkü də onun dalınca. Gəlib cinlər padşahının imarətinə çatırlar. Cinlər padşahı tülküdən soruşur:

– Bu kimdi belə?

Tülkü deyir:

– Bu məəm qardaşımdı. Səən qızınla evlənməyə gəlib.

Tülkü dəyirmançıya işarə edir ki, sağa-sola baxsın. Cinlər padşahı tülküdən soruşur:

– O niyə sağa-sola baxır?

Tülkü deyir:

– Yəqin ki, səən qızını bəyənmir.

Cinlər padşahı tezliklə dəyirmançını çimizdirməyi əmr edir. Dəyirmançını çimizdirib geyindirirlər. Tülkü yenə də işarə edir. Dəyirmançı sağa-sola baxır. Cinlər padşahı soruşur:

– O niyə sağa-sola baxır?

Tülkü deyir:

– Onun paltarları çayda axıb. Deyir ki, bu paltar mənə yaraşmır. Cinlər padşahı görür ki, belə gözəl paltarı bəyənməyənin

məndən də çox var-dövləti olar. Əmr edir 40-gün, 40-gecə toy vurulsun. Toy vurulur. Dəyirmançını cinlər padşahının qızı ilə evləndirirlər. Bu müddətdə tülkü yenə dəyirmançıya işarə edir. Dəyirmançı sağa-sola baxır. Cinlər padşahı tülküdən soruşur:

– O niyə belə edir?

Tülkü cavab verir:

– Bu varlı-dövlətli bəy tayfasındandır. Belə imarətləri bəyənməz. Cinlər padşahı əmr edir ki, dəyirmançı ilə gəlini toyla öz imarətlərinə köçürsünlər. Toy camaatı bir nəfər kimi yola düzəlir. Yolda onları belə görənlər də dəstəyə qoşulurlar. Tülkü aralıq yolla divlər padşahının imarətinə gəlib deyir:

– Padşah sağ olsun, tez olun gizlənin, cinlər padşahı sizin üstünüzə gəlir.

Divlər bilmirlər harada gizlənsinlər. Tülkü deyir:

– Cəld olun, ot tayasının altına girin, sizi görən olmasın.

Tülkü tayalara od vurur. Toy divlər padşahının həyətinə girincə tayalar kül olur. Tülkü bəylə gəlini altı dəryadan nəm çəkən, üstü buluda dəyən evlərə qonaq edir. Bəyin də adını Armudan bəy qoyur. Günlər keçir. Armudan bəylə gəlin şad-xürrəm yaşayır. Günlərin bir günündə tülkü Armudan bəyə deyir:

– Armudan bəy, indi mən ölsəm məni neynərsən?

Armudan bəy deyir:

– Səən pambığa büküb sandığa qoyaram.

Günlərin bir günü tülkü özünü ölülüyə vurur. Armudan bəyə xəbər çatır ki, sənin dostun tülkü ölüb. Armudan bəy qullara, qulluqçulara əmr edir ki, tülkünü aparıb elə yerə tullayın ki, iyi-qoxu buralara gəlməsin.

Qullar, qulluqçular tülkünü zibilliyə atıb gəlirlər. Tülkü cəld ayağa qalxıb divlər padşahının qardaşına xəbər verir ki, bəs sənin qardaşlarını Armudan bəy öldürüb, mülk-malına sahib olub, amanın günüdü qoymayın.

Divlər padşahının qardaşı bir dəstə div götürüb saraya gəlir. Gəlinlə Armudan bəyi hop eləyib udurlar.

O vaxtdan çox vaxt keçib, indi nə div var, nə də cin.

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

SEHİRLİ KİSƏ

Biri var idi, biri yox idi, bir çoban var idi. Bu çobanın gözünün ağı-qarası bir oğlu var idi. Bir gün çoban su axtara-axtara gəlib bir quyunun başına çıxdı. Gördü ki, quyuda bir ilan, bir də bir qadın var. İlan çobana yalvardı ki, bu qadının əlindən onu qurtarsın. Çoban ilanı quyudan çıxartdı. İlan bu yaxşılığın əvəzində çobana bir papaq, bir də bir kisə verdi. Bu kisəni nə vaxt açsaydın içi pulla dolurdu. Papağı da başına qoyan adam gözə görünməzdi.

Bir gün çoban papaqla kisənin sirrini oğlu Əhmədə açıb, bir neçə gündən sonra ömrünü tapşırdı. Əhməd şəhərə köçüb burada bir dükan açdı. Papağı başına qoyub başqa dükanlardan əlinə keçəni yığırdı öz dükanına. Sonra da bu malları pulsuz-parasız paylayırdı kasıblara. Bu xəbər padşaha çatdı. Öyrəndi ki, deyilənlər doğrudu. Padşah gecə Əhmədi güdüb papağın da, kisənin də sirrini öyrəndi. Sonra vəzirin məsləhəti ilə Əhmədi qonaq çağırıb xörəyinə bihuşdarı qatdı, papağı, kisəni Əhməddən aldı. Özünü də kimsəsiz bir biyabana buraxdırdı.

Əhməd bir müddətdən sonra gəlib bir bulağın başına çatdı. Gördü burada alma ağacı, bir də armud ağacı var. Almadan birini dərib yeyən kimi buynuzu çıxdı, armudu yeyən kimi buynuzları yox oldu. Əhməd tez bir az alma, bir az da armud yığıb gəldi həmin padşahın imarətinin qabağına. Padşah da, vəzir də almadan aldılar. Ancaq pulunu vermədilər. Padşah da, vəzir də almanı ailələri ilə birlikdə yeyən kimi buynuzları çıxdı. Əhməd həkim sifətində padşahın yanına gəlib dedi ki, papağı da, kisəni də versin, sonra buynuzları yox olacaq. Padşah Əhmədə inandı. Əhməd camaatı çağırıb, padşahın zülümkarlığını onlara danışdı. Camaat padşahı yıxıb Əhmədi taxta çıxartdılar. Padşahın qızını da sağaldıb Əhmədə verdilər.

SƏBR DAŞI

Biri var idi, biri yox idi. Keçmiş zamanlarda Fatma adlı bir qız, bir də onun qoja anası var idi. Fatma çox yaraşıqlı, gözəl qız idi. Həm də bacarıqlı idi. Fatma həmişə gözəl xalçalar toxuyardı. Bir gün Fatma öz işi ilə məşğul olanda bir quş gəlib onun toxuduğu hananın başına qonub deyir:

– Fatma, qəşəng qızsan, gözəl qızsan heyif ki, itkin qızsan.

Fatma durub quşu qovub yenə də öz işi ilə məşğul olur. Bir azdan quş yenə gəlib həmin yerdə oturub deyir:

– Fatma qəşəng qızsan, gözəl qızsan, heyif ki, itkin qızsan.

Qız hirslənib quşu yenə də qovur. Quş isə Fatmanı rahat buraxmır. Elə hey gəlib həmin yerdə durub öz sözlərini deyir. Axırda yazıq qız cana doyur. Durub su gətirmək üçün hovuzun başına gəlir. Fatma əyilib su götürəndə quş yenə çarhovuzun başına gəlib həmin sözləri təkrar edir. Fatma quşu qovub evə gəlir. Oturub ağlamağa başlayır. Anası ondan soruşur:

– Ay qızım, niyə ağlayırsan?

Fatma deyir:

– Ana bir quş məni cana gətirib, elə harada oluram gəlib yanımda durub deyir:

– Fatma, qəşəng qızsan, gözəl qızsan, heyif ki, itkin qızsan.

Fatma bu sözləri deyib, yenə də ağlayır. Anası qızına təskinlik verib deyir:

– Ağlama, qızım. O quşu qovarıq çıxıb gedər, daha niyə ağlayırsan?

Anası quşu nə qədər qovursa quş getmək bilmir, öz sözlərini hər axşam-səhər deyir. Bu quşun əlindən cana gələn ana-bala buradan getməli olurlar. Ana-bala az gedib çox dayanır, çox gedib az dayanırlar. Üç gün, üç gecə yol gedir, gəlib bir evə çıxırlar. Görürlər ki, evin qapısı bağlıdı. Anası nə qədər çalışır qapını açа bilmir. Fatma irəli durub əlini qapıya vuran kimi qapı açılır. Fatma girir içəri. Anası da qızının arxasınca

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

evə girmək istəyəndə qapı yenə də bağlanır. Nə qədər çalışırlar qapı açılmır. Ana çöldə qalır, qız içəridə. Üç gün, üç gecə oturub gözləyirlər qapı açılmır, ikisi də başlayırlar ağlamağa. Ana çöldə ağlayır, qız içəridə. Ana-bala bir həftə aj-susuz oturub gözləyirlər. Anası naəlac qalıb Fatmanı evdə qoyub gedir. Fatma nə qədər çağırır ki, ana məni qoyub getmə, yenə də anası çıxıb gedir. Fatma qalır evdə. Qız baxıb görür ki, bu evdə nəsə bir şey var. Yaxınlaşıb görür ki, evin yuxarı başında bir oğlan var. Amma bu oğlanın bədəninə qırx dənə iynə sanjılıb. Oğlan ölüb. Qız əvvəljə qorxur. Sonra fikirləşir ki, bu oğlan kimdisə mənim bəxtimə çıxıb. Onun bədəninə sancılan iynələrin hər gün birini çəksəm bəlkə bu oğlan dirilə. Bu fikirlə qız yaxınlaşıb iynənin birini çəkir. Fatma iki gün bu evdə qalıb darıxır, istəyir ki, çölə çıxa yadına düşür ki, qapı bağlıdı. Bir də yoxlamaq məqsədi ilə qapıya yaxınlaşır, əlini qapıya vuran kimi qapı açılır. Fatma sevinir. Bayıra çıxıb anasını görmür. Anası artıq çıxıb getmişdi. Fatma əlacsız qalıb evə qayıdır. Hər gün oğlanın bədənindəki iynələrdən birini çəkir. Bir neçə gündən sonra Fatma bərk darıxır, çölə çıxıb görür ki, yol ilə köç gedir. Köçün dalınca bir axsaq qız gedir. Köçün başçısına yalvarıb özünə həyan məqsədilə bu qızı köçdən alıb gətirir evə. Bir müddət Fatma qız ilə burada yaşayır. Artıq oğlanın ayılmasına az qalmışdı. Fatma qırx iynənin otuz doqquzunun hər gün birini çəkib bir dənəsi qalmışdı ki, onu sabah çəksin, sabahı gün Fatma bulaqa su gətirməyə gedəndə axsaq qız oğlanın bədənində qalan axırıncı iynəni çəkir. Elə bu vaxt oğlan ayılıb axsaq qızı tutur ki, de görüm sən kimsən, məni bu dərddən qurtarmısan, daha bundan belə sən mənimsən mən sənin. Fatma evə gəlib görür ki, oğlan ayılıb axsaq qızla söhbət edir. Fatma heç bir söz deməyib öz işi ilə məşğul olur. Onlar isə bir yerdə yaşamağa başlayırlar. Fatma da əlacsız qalıb onlara nökərçilik edir.

Aylar, illər keçir, Fatma isə səbr edərək yaşayırdı. Bir gün oğlan bazara gedir, arvadına deyir nə lazımsa de, alım

gətirim. Qız deyir ki, mənə paltar al.

Fatmadan soruşur ki, bəs sənə nə alım.

Fatma deyir ki, mənə heç nə lazım deyil. Mənə bir səbr daşı al, bir dənə də bıçaq al gəti.

Oğlan Fatmanın tapşırdıqlarını alanda satıcı oğlana tapşırır ki, bunları aldığın adamı güdməlisən, bu adam özünü öldürəcək.

Oğlan evə gəlir, bıçaq ilə daşı Fatmaya verir. Fatma onlardan xəlvət suya getmək bəhanəsi ilə səbr daşı ilə bıçaqı da götürüb bir sakit yerə gedir ki, heç kim görməsin. Oğlan da Fatmanı izləyə-izləyə həmin yerə gəlir. Fatma səbir daşını qoyur qarşısına, bıçağı isə alır əlinə, bütün başına gələn əhvalatların hamısını ona danışır. Deyir:

– Səbr et, səbir daşım, eşit, ay bıçağım.

Bütün başına gələnləri danışıb qurtarandan sonra elə özünü bıçaqla öldürmək istəyəndə oğlan arxadan qəfil onu tutur ki, sən nə edirsən, niyə özünü öldürürsən? Bunları satan adam mənə tapşırdı ki, mütləq səni izləmək lazımdı. Mən də səni izlədim, özünü öldürməyə qoymadım. İndi isə gedək evə. Bundan belə sən mənimsən, mən sənin. Bizi bir-birimizdən heç kim ayıra bilməz.

Oğlan Fatmanı evə gətirir, özünə qırx gün qırx gecə toy edir. Həmin bu axsaq qızı da özlərinə qulluqçu edir. Xoşbəxt həyat sürməyə başlayırlar.

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

DARTANLA YIRTAN

Biri var idi, biri yox idi, bir kişi var idi. Bu kişinin bir oğlu var idi. Günlərin bir günü kişinin bir qızı da olur. O, hər gün evdə olan bütün olub-qalanı yeyirdi.

Bir gün oğlan anasına deyir:

– Ana, gərək sən bu qızı öldürəsən.

Ana buna razı olmur. Oğlan itlərini də götürüb evdən qaçır. O, yolda bir qarıya rast gəlir. Qarıya deyir:

– Nənə, məni oğulluğa götürərsənmi?

Qarı razı olur. O gündən qarı ilə oğlan bir yerdə yaşayır.

Günlərin bir günü oğlanın yadına evləri düşür. O, qarıya deyir:

– Nənə, itlərin qabağına süd tökərsən. Mən gedirəm səfərə. Süd qan olsa itləri buraxarsan.

Oğlan atını minib yola düşür. O yolda bir çinar ağacı əkir. Uzun yol gəlib evlərinə çatır. Bacısı qardaşını görüb sevinir, tez onun qabağına yüyürür. Onu içəri aparır. Sonra çıxıb atın qaçlıranı yeyir. İçəri girib deyir:

– Bacın ölsün qardaş, Sədəfəni minib gəlmişdin?

Oğlan qorxusundan deyir:

– Bəli, Sədəfəni minib gəlmişdim.

O çıxıb Sədəfəni də yeyir. Oğlan görür ki, bacısı onu da yeyəcək.

Oğlan deyir:

– Bacı, yaman suzmuşam.

Qız xəlbiri götürüb çaya gedir. Nə qədər eliyirsə, su gətirə bilmir, hirslənib evə gəlir. Qardaşı isə çəkmələrini soyunub içini kül ilə doldurub bacadan asır, özüsə evin damına çıxır. O, bacısı içəri girən kimi düşüb qaçır. Bacı baxır ki, qardaşı yoxdu. Görür ki, göydən çəkmə sallanır, çəkməni özünə sarı dartanda gözünə kül dolur. O, qardaşının dalına düşüb onu qovur. Qardaşı görür ki, bacısı ona çatıb. O, baxır ki, əkdiyi çinar böyüyüb. Deyir: “ – Əyil çinarım”. Çinar əyilir, o,

çinara çıxır, iti çağırmağa başlayır. Qıvz gəlib çatır. Qarı itləri açıb buraxır. Oğlan itə deyir:

Dartan elə edərsən qızın bir damcı qanı yerə düşməz. Bu zaman bir damcı qan çinar yarpağının üstünə düşür. Oğlan ağacdan enir. Gedəndə qan dillənir:

– Məni də apar, lazım olaram.

Oğlan çinar yarpığını qırıb cibinə qoyur. Yolda bir çobanla qarşılaşır. Çobanın onun itlərinə gözü düşür. Çoban oğlana deyir:

Sənə bir sual verəcəm, əgər bildin bu köçü sənə verəcəm, yox bilmədin bu iti alıb aparacam.

Oğlan razı olur. Çoban deyir:

– De görüm, bu əlimdəki ağac nə ağacıdı?

Oğlan suala cavab verə bilmir. Çoban itləri alıb aparır. Bu zaman qan dillənib deyir ki, “mır-mır mundarça”.

Oğlan çobanı çağırıb bu sözləri ona deyir:

Çoban bütün köçü oğlana verir. Oğlan nənəsi ilə xoşbəxt yaşamağa başlayır.

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

SEHİRLİ İLAN

Biri var idi, biri yox idi, bir qoca kişi var idi. Bunun bir qızı var idi. Kişi çox varlı idi. Bir gün kişi bərk xəstələnir, qızını yanına çağırıb ona vəsiyət edib dünyadan köçür. Qız atasının ölümündən çox pis olur. Vaxt gəlir, keçir. İllər dolanır.

Bir gün qız atasının qəbri üstündən gələn zaman bir çəpərə ilanın ilişib qaldığını görür. İlanın yalvarışına baxan qız onu götürüb evə gətirir. İlan demək olar ki, 20 ilə qədər qızın yanında, ona qulluqçu işləyir.

Bir gün ilan qıza deyir ki, gəl ova çıxaq. Onlar ova çıxmağı qərara alırlar. Az gedirlər, düz gedirlər, gəlib bir səhraya çıxırlar. Bura elə bir yer idi ki, bir damcı da su tapmaq olmazdı. Gəzməkdən yorulan qız susuzluqdan yanır, özünü ova gəlməkdə günahkar bilir. Artıq onun xeyli yaşı vardı. Ona görə çox istəyirdi ki, bir oğlana qismət olsun, onun da dünyada bir yadigarı qalsın. İlan ona deyir ki, səhraya gəlməkdə səbəb var. Ey mənim xilaskarım, daşın altında bir qıfıl var, daşı qaldırıb qıfılı götürsən, onu vurub parçalsan, mən oğlana çevriləcəm. Məni koldan götürdüyün gündən bu səhranın əjdahasının quluyam. O, burada su olmadığından su dalınca gedib, nə vaxt gələcəyi məlum deyil. Ancaq indilərdə gələr.

Qız ilanın dediyi kimi edir. İlan çönüb bir gözəl oğlan olur. Bu vaxt göy guruldayır, ildırım çaxır, əjdaha gəlir. Oğlan çox igid idi. O, qılıncını çəkərək əjdahanı dörd yerə bölür. Oğlan qızı da götürüb evlərinə gəlir. Toy edib, xoşbəxt ömür sürürlər.

PADŞAHLA OĞLU

Qədim zamanlarda acgöz, zalım bir padşah var idi. Onun övladı olmurdu. Bir gecə padşah yuxuda görür ki, bir dərviş deyir:

– Görürəm övlad dərdi çəkirsən, onu bil ki, övladın olsa, peşman olarsan.

Padşah deyir:

– Niyə peşman oluram?

Dərviş deyir ki, sən rəiyyətə zülm eləyibsən, oğlun da sənə zülm edəcək.

Bəli, padşahın yuxusundan doqquz ay, doqquz gecə keçir, arvadının bir oğlu olur. Uşaq qurşağacan ilan, qurşaqdan yuxarı adam şəklində doğulur. Padşah bunu eşidir, halı xarab olur. Bu uşaq saatbasaat böyüyüb yekəlirdi. O, bir gün atasının qabağını kəsib deyir ki, mənə Rum padşahının qızını al.

Padşah deyir:

– Sənə kim qız verər?

Oğlan deyir:

– Onu bunu bilmirəm, üç günə kimi Rum padşahının qızını mənə almasan səni elə vuracam, su kimi əriyəcəksən.

Padşahın canına üşütmə düşür. Belə qərara gəlir ki, ayrı bir qız tapıb ilana alsınlar, ona desinlər ki, Rum padşahının qızıdı. Padşah oğlunu çağırıb deyir ki, sabah toyundu. Oğlan deyir ki, mənə elə toy eləməlisən ki, orada bütün kasıblar yeyib içsinlər, durub gedəndə də hər adama bir xələt verməlisən.

Bəli, padşah qorxusundan xəzinəsinin yarısını xərcləyib oğlu deyən toyu düzəldir. Bir dələduz qızı tapıb öyrədirlər ki, deyərsən mən Rum padşahının qızıyam. Toy başlanır.

Üçüncü günün tamamında qızı gəlin aparırlar. İlan başa düşür ki, qız onu öldürmək istəyir, qızı elə vurur ki, qız o saat ölür. İlan yenə padşaha deyir ki, indi mənə Çin padşahının qızını almalısan. Əgər almasan, səni elə vuracağam ki, tos-tos olacaqsan.

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Padşah bu dəfə də bir qız tapıb, əvvəlki kimi öyrədir. Toy gecəsi ilan bu qızı da çalıb öldürür. Aradan xeyli keçəndən sonra ilan atasına deyir:

– Sənin bütün kələklərini bilirəm. Mənə aldığın qızlar nə Rum, nə də Çin padşahının qızlarıdı. Ona görə də onları öldürdüm. Bu dəfə mənə Hind padşahının qızını almalısan, qırx gün, qırx gecə toy eləməlisən.

Padşah qorxusundan bütün var yoxunun hamısını töküb Hind padşahının qızını alır. Xəzinəsində nə qədər qızıl, gümüş vardısa hamısını kasıblara paylayır. Xəzinə boşalır. Toy gecəsi padşahın əli ürəyinin başında idi ki, yəqin ilan bu qızı da vurub öldürəcək. Onda Hind padşahına nə cavab verəcək. Hər tərəfdən ilanla qıza güdükçü qoyur. Güdükçülər gecənin bir vaxtında görürlər ki, ilan dönüb gözəl bir oğlan olub. Tez gedib padşaha xəbər verirlər. Padşah çox sevinir. Səhər oğlundan soruşur ki, niyə mənə zülm elədin, xəzinəmi boşaltdın?

Oğlan deyir:

– Zülmlə yığdığın dövləti, varı kasıblara qaytardığın üçün mən də camaatın alqış-duasından sonra dönüb bir oğlan oldum.

İKİ QARDAŞ

Deli qardaşnən hağıllı qardaş variymiş, hağıllı qardaşin un-unbeş dənə qoyünü olar. Deli qardaş bunu hər gün aparar güdər. Hər gün qoynin biri eskiy gələr. Hağıllı qardaş soruşər ki, bu hara oldu. Dəli qardaş "satmişəm" diyər. Hağıllı qardaş diyər "bes pulu hanı"? Diyər pulunu sora gəl al, nisyə vermişəm.

Sora axıra bi dənə qoyün qalar, u da dəli qardaş apardığı yerdə kesif özü payliyər. Ora bi parıçə tulliyər, bura bi parça tulliyər, ötən quşdərə. Böördən görər ki, quyün ağzınnan keseyən baxıy. Unda bi parça kesif un üsdünə tulliyər ki, pulnu geti. Sora ha gözdiyər gəlməz. Deli qardaş başdiyər keseyən getdığı yeri qazmağa. Qazar haman çatar bi tiyan qızıla. Keseyenə diyər qoxma, etimə yetdıx aliyəm. Unnan iki dənəsini alıf geri qəyidər. Dəli qardaş gələr hağıllı qardaşa diyər ki, hələ ki, nisyəmin birini aldım, qızıl tiyanınnan bunu alıf qəyitdim. Hağıllı qardaş:

– Hardan aldın?

Diyər:

– Getdim tiyan ağzını aşdim, iki dənə aldım qəyitdim.

Sora ikisi də gidif bi tiyan qızılı gətirəllər. Getirif elə yerə qoyəllər ki, deli qardaşə diyəllər heş kesiyə dimə. Deli qardaş gidər hağılına gələn yerdə danişər ki, belə iş var. Bir vədə düşər boğuşəllər. Hağıllı qardaş bunnan aralaşə bilməz, çıxar ağacə ki, qoy mənnən el çehsin. Dəli qardaş dalında qapılarnən ağacə çıxar. Sora ağacin divinə qızıl ühləriynən dəvə kərvanı gəlif yatar. Sora gecənin bi diyarı ağaşdən qapıları salar oların başinə. Araflar duruf qaçər ki, qiyamət qopüy. Bi qədər sora dəli qardaş düşər yerə diyər bayax satdığım qoyünnərin pulu gəlif çıxdı, getirifdilər.

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

MOLLA İLƏ DOVŞAN

Molla bazara çıxanda bi dənə doşanı oltdı, apartdı bazara, ət altdı, bazarrıx eliyitdi. Doşana verir diyir ki, get öydə dinə səvzəli aş bişirsinnər, qonax var. Soruşallar:

– A molla dayı, bu doşan nə qar, diyər bu məm buyruxqulumdu.

Molla gələr öyə diyər: beş dənə qonax var, aş bişir. Bazarda da aldıxlarını doşan boynuna bağliyər, doşan çıxıf gidər. Bi dənə də doşan öydə olar. Qonaxlar gələr görəllər doşan öydədi, aş da hazır. Qonaxlar diyər, a molla dayi, bu doşanı sat alax. Molla diyər, un qıymatını bacarmasuz. Qərəz, bi qıymat qoyallar satar. Satdı, bular da getdi.

Doşanı alan kişi apardı bazara, zəmbili dolduruf görəllər bağladı doşana, doşan çıxdı getdi. Axşam gedəllər na aş var, na şey, heş nə yoxdu. Kişi diyər, ay arvat, mən sa xavar göndərdim, bazarrıx göndərdim ki, aş bişir. Arvat diyər, a kişi, sən hağlın hardadı, heş doşan da zəmbil gətirər?

Gəldilər savaxdan mollanın yanına didilər, a molla dayı, doşan yoxdu, çıxdı getdi. Molla diyır, sən doşanı yaxşı örgətməmisən, yaxşı qandırmamısan.

Molliyə diyəllər, gənə sizə qonağux. Molla diyər, yaxşı. Axşam qonaxlar gələr, görəllər olar diyən aş olmaz. Molla hirsdənər, diyər ay arvat, niyə biz diyəni bişirməmisən? Molla duruf arvadını kesər. Heşnədimə tox üferdeyinə qan dolduruf, arvadın boğazına qoyubbuş, unu kesər: sora dütdəx çalar, arvat dirilər. Qonaxlar diyəllər dütdəyi bizə sat. Molla satar.

Savax gecə yığılıf dütdəx alana qonağ olallar. Aş bişirmiyəndə bu dəfə dütdəx alan başdiyər arvadı kesər. Sora ha dütdəy çalar, arvat dirilməz. Diyəllər:

– A molla, nə işdi sən bizim başımıza gətirsən?

Diyər molla ki, siz tərini bilməmisuz. Kişin arvadı çıxar gedər, ölər.

ÜÇ SUAL

Paccahın bir vəziri varmış. Uun da bir qızı varmış. Vəzir də duymuş çox. Bir gün paccah eşidər ki, vəzirin yaxşı qızı var. Paccah vəziri çağırıf diyər, üş məsələ soruşacam, tapbasan boynu vurucam. Un gün sa möhlət verəm.

Bir, iylixdə nə iylidi? İki, qüvvətdə nə qüvvətdidi? Üç, şirinnixdə nə sirindi?

Vəzir hər kəsdən soruşdu, didilər, biz bilmirux. Diyər:

– Ay paccah, izin ver, gedim bir qızım var, unnan halallıx alım, görüşüm, sora gəlim.

Vəzir gidər əhvalatı qıza diyər.

Qız diyər:

– Heş xüfət eləmə. Yi, iç, kef elə, ata minəndə sa o məsələni diycam.

Pilo-cilonu yidilər, işdilər, ata minəsidi, atdanısıdı qız diyər:

– İylixdə çörək iylidi, qüvvətdə at qüvvətdidi, şirinnixdə ərnən arvat şirindi.

Bir də paccah gördü ki, vəzir kefi kök gəlir.

Paccah soruşar:

– Tafdınmı?

Diyər:

– Bəli, tafdım. Bir qızım var, o tapıtdı.

Paccah diyər:

– Qızı bura gətirin görax hardan bilir.

Qıza fayton göndərdilər gəldi, bir cənnət hurisi.

Qızdan paccah soruşdu:

– Sən buları hardan bilirsən?

Qız didi ki, mənim aşbazxanamda bişmiyən xörək yoxdu, uun iyisi ma gəlmir. Amma yeddi fəs mənnən uzaxda çörəx yapılır, un iyisi maa gəlir. Mənim öymin dalınnan qəflan, əslan keçir, un gubbultusu maa gəlmir, amma at iraxdan gələndə gubbultusı gəlir. Bir dənə aman-zaman öy-

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

ladiydim. Atamın-anamın arasında yatmışdım. Əlim oların altında qalmışdı. Ha uf elədim, baxmadılar. Unda bildim ki, ərnən arvat şirinmiş.

Paccah qızı alıv oturdu.

XAN İLƏ OGLU

Məəm bavam diyidi ki, xan çarıf bu camatı diyifdi:

– Ya qurbağanın səsini kesın, ya da bi qav aş, bi qız göndərin, uynən vaxdımı keçirim.

Diyi xanın oğlu camatın birini öyrətdi ki, üş gün icazə alın, sora gidin bi mal kesın, un barsaxlarını təmizdiyif, yarım metrə uzunnuxda qırıf, həmin barsağı üfürüf, dolduruf, hər başını bağliyif nəfəs çıxmasın, hər gölə qurbağa olan, bi dənə tulliyə-tulliyə gezın. Həmin qurbağalar unu ilan bilif ağzını açəsi döyü, ya gecə, ya gündüz, elə bilcaxdı ki, bu barsax ilandı.

Sora xan üş günün başində ha gözdədi, qurbağa səs eləmədi. Xan çarıf bulardan soruşdu ki, siz nətər kesdınız bun sesini? Bular cavaf verdi ki, mal kesif ətini özümüz yidıx, barsağını üfürüf dolduruf gölə atdıx.

Xan didi, bunu sizə kim örgədifdi? Samatdan heş kim boynuna almadı. Didi:

– Özümüz biliydıx.

Xan didi:

– Xeyr, bu işi mənim oğlumnan savayı heş kim bilməz.

Xan oğlunun boynunu vurdurdu, öz oğlunu qətl elədi.

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

ASLANLA CANAVAR

Bir gün bir ac canavar meşənin içərisi ilə təngildəyə-təngildəyə gedirdi. Birdən qarşısına bir aslan çıxdı və canavardan nə üçün təngildədiyini soruşdu. Canavar dedi, acınnan bu günə düşmüşəm. Bunu eşidən aslan, canavara əmr elədi ki, arxamca gəl. Onlar xeyli getmişdilər ki, meşənin içərisindəki talanın ortasında bir öküz otladığını gördülər. Aslan o dəqiqə marıta yatdı. Sanavara dedi:

– Keç qabağıma, gör gözlərim qızarıb?

Canavar aslanın gözlərinin qıpqırmızı olduğunu dedi.

– İndi də keç böyrümə, gör böyrüm enib-qalxır?

Olduğu kimi aslana dedi. Əmr etdi ki, keç arxama, gör tüklərim biz-biz olub?

Dedi:

– Bəli. Söz canavarın ağzından çıxan kimi aslan öküzün üzərinə atılıb onu parçaladı.

Canavara dedi:

– Doyunca ye.

Canavar doyunca yeyib, aslanla sağollaşıb getdi. Bir az keçmiş canavarın əvvəlki vəziyyətinə düşmüş bir ac çaqqal canavarın qarşısına çıxdı. Canavar çaqqalın nə üçün bu günə düşdüyünü soruşdu. O, ac olduğunu bildirdi. Canaıvar əmr etdi ki, dalımca gəl. Çaqqal canavarın arxasınca getdi. Onların qarşısına hörükdə bir ayğır çıxdı. Canavar tez marıta yatdı. Çaqqala əmr etdi ki, keç qabağıma, gör gözlərim qızarıb?

Çaqqal baxıb dedi:

– Xeyr.

Canavar əmr etdi ki, de, qızarıb.

Çaqqal dedi:

– Qızarıb.

– Keç böyrümə, gör boşum enib-qalxır?

Dedi:

– Yox.

Canavar qışqırdı ki, de, boşum enib-qalxır.

Çaqqal dedi:

– Enib-qalxır.

Canavar çaqqala dedi:

– İndi də gör tüklərim biz-biz olub?

Çaqqal dedi:

– Xeyr.

Canavar yenə qışqırdı:

– Denən olub. Çaqqal dedi, olub. O dəqiqə canavar ayğırın üzərinə tullandı. Ayğır ona cüt ayaqlı bir təpik vurdu. Canavar o dəqiqə yerə sərildi. Çaqqal gəlib canavarın başının üstündə dayandı və dedi:

– Hə, indi gözlərin də qızarıb, boşun da enib-qalxır, tüklərin də biz-biz olub.

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

HAQQI-SAY

Biri variymiş, biri yoxiymiş, iki qonşu – müsəlmanla yəhudi variymiş. Bunlar 40 il qonşulux eliyitdilər, amma nə müsəlman yəhudi tərəfə əyax basmiyitdi, nə də yəhudi müsəlman tərəfə. Günnərin bir günü bərk acdıx düşür, müsəlmanın ailəsi ac iydi, yəhudi varrı yaşiyirdi. Müsəlman arvadını yəhudinin yanına göndərir ki, borc azuqə alsın, uşaxlar acınnan qırılır.

Arvad qonşuyə keçir, vəziyyəti danışır. Yəhudi arvadiynən bu arvada toxtaxlıx verir, beş tay un, beş tay qənd gətirif bunların öyünə qoyuf gedillər. Yəhudilər bir də qayıdıf müsəlman kişiyə 150 dinar pul, bir dənə də tərəzi verdilər ki, un ilə qəndin alverini aparıf, pul qazansınnar. Yəhudi ərz elədi ki, un və qənd halal xoşunuz olsun, qaytarmiyin, amma əliniz uzananda pulunan tərəzini qaytarın. Müsəlman alver eliyir, varranır, nökərrər saxliyir. Yəhudi çox gözdiyir ki, müsəlman pulunan tərəzini qaytarar. Amma müsəlman qaytarmır. Günnərin bir günü yəhudi müsəlman qonşusunu kilsədə görür, pulunan tərəzini qaytarmağı onun yadına salır. Müsəlman bunun avırını ətəyinə tökür, diyir:

– Ə, pulu da, tərəzini də qaytarmışam, nə istiyirsən mənnən?

Yəhudi dinmir, fikirləşir ki, bəlkə pulunan tərəzini arvadına veritdilər. Öyə qayıdıf arvadınnan soruşur, o da diyir ki, qaytarmiyitdilər. Yəhudi müsəlmana diyir ki, mən kilsəni də, Tövratı da atdım bir tərəfə, gəl pənah aparaq sizin Məhəmməd Peyğəmbərin yanına, o, disə ki, sən pulunan tərəzini qaytarmısan, mən razı qalaram, yox, disə ki, verməmisən, onda gərək qaytarasan. Müsəlman fikirrəşdi ki, Məhəmməd Peyğəmbər məni qoyuf yəhudinin tərəfini saxlamaz. Sözdəşdilər, razılaşdılar ki, Məhəmməd Peyğəmbərin yanına birlikdə getsinnər. Bunlar Məhəmməd Peyğəmbərin yanına behişt bağınnan keçif getməliydilər. Müsəlman tez gəlir, gözdiyir, yəhudi gəlif çıxmır. Bu, behişt bağınnan bağbanın

icazəsiylə keşməliydi. Bağban bunnan soruşur ki, sən nə millətsən? Kişi qayıdır ki, şükür Allaha, müsəlmanam. Bağban qayıdır buna ki, ey müsəlman, sonra nəfsin olar ha? Müsəlman üç dəfə “ay töbə“ didi. Bu söz-söhbətdən sonra bağban müsəlmana behiştdən keşməyə icazə verdi. Bir az getmişdi ki, yolun qırağında pəzəvəng bir itin yatdığını gördü. Qorxusunnan yerində donuf qaldı. İt əyağa dursa, bunu şil-küt eliyərdi. Bağban didi:

– Bala, niyə durmusan, get, qorxma, bağın itidi, tutan döyül.

Bu qorxa-qorxa itin yanınnan keçəndə itin qarnında buna hürən quçiyhlərin səsini eşitdi. Əstəfürüllah! Bir şey qanmadı, getdi. Sonra gördü ki, bir arvad xeylağı bir təndir çörəyi yapıb başına qoyutdu, buğlana-buğlana “ay acınnan ölürəm“, ay acınnan ölürəm“ diyə-diyə başaşağı gedir. Kişi heş nə anlamadı. Başında bir təhnə çörək aparır, özü də acınnan öldüyünü bildirir. Baş tappadı gördüyünnən. Bir az qavağa gedif gördü ki, quş yasin duası oxuyur, qalxır havaya, enir yerə, gənə qalxır... Dəyandı baxdı, mat-məətəl qaldı, didi, şükür səən böyükluğuna, ya Rəbbim, bu quşa bax, yasin surəsini nətəri oxuyur. Bu yoluna davam eliyir, gedif bağın axırına çıxanda görür ki, adamı valeh eliyən bir alma ağacı var. O qədər gözəl almalar var ki, diyir mənnən bir dənə üz. Sən dimə, bağban da bu almaları nəzərində tutuf müsəlmana diyif ki, nəfsin olar ha?

Kişi özünü saxliyə bilmir, diyir:

– Ə, bağban dalda qaldı, qoy habı almadan üş dənə üzüm.

Üş dənə alma üzür. Birini soyuf görür ki, içi dolu xırda qurdlar, civir- civir qayniyir. İkinci almanı soyuf görür ki, zəhər kimidi. Üçüncünü soyuf görür ki, bir qavığı var içi çürüyütdü. Qərəz almaları yiyəmmədi. Bu gedif Qurbanolduğumun yanına çatanda gördü ki, qonşusu yəhudi onun yanındadı. Bu işə çox təəccüf elədi. Soruşdu ki, sən nətəri oldu ki, mənnən qavağa gəlif çıxdın bura. Yəhudi bildirdi ki,

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

gözdərimi açanda özümü burda gördüm. Yəhudi soruşur ki, bəs sən hardan gəldin. Müsəlman diyir ki, beyişt bağınnan keşmişəm. Nəysə, bunlar Məhəmməd Peyğəmbərin yanına gedillər. Peyğəmbər müsəlmannan hansı millətdən olduğunu soruşdu. Kişi dilləndi:

– Şükür Allaha, müsəlmanam.

Yəhudiyə eyni sualla müraciət etdikdə o, "yəhudiyəm" – didi.

Sonra Peyğəmbərin sualına cavab olaraq müsəlman behişt bağınnan keçif gəldiyini, yəhudi isə gözünü açanda özünü burada gördüyünü söylədi. Peyğəmbər müsəlmana didi ki, behişt bağınnan girif- çıxana qədər nə görmüsənsə, danış, qoy yəhudi eşitsin.

Diyir:

– Vallah, mən gəldim bunu gözdədim, gəlmədi. Mən behişt bağına girdim, bağban maa didi ki, müsəlman, sonra nəfsin olar ha? Didim, a tövbə! Bağa girəndə yekə bir it gördüm, qorxdum, bağban ürək-dirək verdi, itin yanınnan keçəndə onun qarnındakı balaları maa hürmağa başladılar. Sonra başında təzə yapılmış çörək aparan qadın gördüm. O, "ay acınnan öldüm, ay acınnan öldüm" diyirdi. Peyğəmbər soruşdu ki, daha nə gördün? Kişi duruxdu, fikrə getdi, bilmədi almaları üzdüyünü bildirsin, yoxsa yox. Axı o, behişt bağına girəndə bağbanın "nəfsin olar ha" sualına "ay tövbə" dimişdi. Məhəmmməd Peyğəmbər bunun fikrini duyur, diyir, əyər sən düzünü diməsən, Həzrət Cəbrayılı çağıraram cəzanı verər. Kişi danışmağa məcbur olur. Behişt bağındakı alma ağacınnan üş dənə alma üzdüyünü və almaların içinnən çıxannarı danışır. Məhəmməd Peyğəmbər bunun səbəblərini bildirir.

Diyir:

– Sən o iti gördün ha, o saa dəymədi. Amma onun qarnındakı balaları saa hürdülər. Bu, o dimaxdı ki, bir zaman gəliciyh kiçiklər bööyhləri saymiyiciyh, ağsaqqalları hörmətsiz eliyiciyh, onları ələ salıciyh, nüfuzdarını aşağı salıciyhlər.

Oğul atanın, qız ananın üzünə duruciyh, insannarda insannıx qalmiyəsidi.

O çörək aparan arvadın sözdərinin mənası bu idi ki, bir vaxt gəliciyh, millət o qədər hündür, daş, kərpic binalar tikiciyh, amma yerdə, torpaxda oturmağın həsrətində olasıdılar. Dünya malına həsrətdə oluf, yerdə oturmax arzumanında olasıdılar.

Yasin surəsini oxuyan quş Allahın kəlamını əzbərləyib, özü isə buna əməl eləmiyən ruhanidir. O almaları gördün ha, onlar görkəmi gözəl, amma dilləri acı, zəhər, qaynananın, qaynatanın üzünə duran, dava-dalaş salan zənənlərdi.

Məhəmməd Peyğəmbər müsəlmanın üzünə baxıf soruşdu ki, sən o hümmətdərdən olmax istəmirsənsə, yəhudinin pulunu da, tərəzisini də qaytar. Axı o saa yaxşılıx eliyitdi.

Müsəlman təzim eliyif qayıdır ki, ya qurban olduğum, məni o hümmətdərdən eləmə. Ya rəbbim, pulu da, tərəzini də qaytararam.

Haqqı-sayı itirmax günahdı. Yəhudi müsəlman qonşusuna əl tutmuşdu, onun ailəsini aclıxdan xilas eləmişdi. Müsəlmanın ailəsinin üsdündə onun haqqı-sayı variydi. Qurban olduğum Məhəmməd Peyğəmbər bu haqqı- sayın keşiyində durdu.

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

QORXAQ

Qədim zamanlarda bir qorxaq var imiş. O, evli idi. Günlərin bir günü axşam üstü ər və arvad pəncərənin yanında oturmuşdular, birdən arvad ərinə dedi:

– Bax, yolda qızıl var; get onu götür.

Qorxaq yola çıxdı, lakin heç nə tapmadı, arvadı onu aldatmışdı. O, geri qayıdarkən arvad qapını bağlamış və ərinin yalvarışlarına baxmayaraq onu içəri buraxmırdı. Arvadının inadkarlığına qarşı dura bilməyəcəyini görən və onu bu günə salan, qorxaqlığına görə özünü danlayan qorxaq yola düzəlib gözü gördükcə getdi..

O, bir az getdikdən sonra qızıl yükü aparan sahibsiz dəvələrə rast gəldi, qorxaqlığına görə dəvələrə toxunmadan onların yanından ötüb keçdi. Xeyli getdikdən sonra birdən onu bir nəfər qarşılayaraq soruşur:

– Sən dəvə karvanı görməmisən ki?

Bizim qorxaq qayıdır ki, görməmişəm, ancaq mən onları taparam, çünki mən cadugaram.

Dəvələrin sahibi qorxağa bildirdi ki, əgər o dəvələri tapsa, yüz dənə onluq alacaq. Bu zaman qorxaq dəvələrin onun tanıdığı bir meşədə olduxlarını bildirdi. Dəvələrin sahibi həmin meşəyə gələrək heyvanlarını tapdı. Sadugarın yanına qayıdaraq vəd etdiyi pulları ona verdi.

Bir dəfə bizim qorxağın yaşadığı dövlətin padşahının atasından yadigar qalmış qızıl üzüyünü oğurlamışdılar. Padşah çox istədiyi üzüyünün oğrusunu tapmaq üçün dövlətinin bütün cadugarlarını yanına çağırır. Lakin onların heç biri oğrunun kim olduğunu bilmirlər. Bu vaxt dəvələrin sahibi padşahın ayaqlarına sərilərək dedi:

– Ey böyük hökmdar! Mən bir dəfə qızılla yüklənmiş dəvələrimi itirmişdim, əgər əmr etsən, onu tapan cadugarı sənin hüzuruna gətirərəm.

Padşah həmin cadugarı gətirməyi əmr etdi. Dəvələrin

sahibi bizim qorxağı axtarıb tapdı və onu padşahın hüzuruna gətirdi. Padşah qabaqcadan içərisinə kəpənək qoyulmuş qutunu qorxaq cadugara göstərərək, dedi:

– Əgər bu qutuda nə olduğunu bilsən, şübhəsiz, mənim sevimli üzüyümü oğurlayanı da bilərsən.

Padşah qutunu ona verən kimi qorxaq öz dilində arvadını söydü:

– "Eh, kəpənək!" Sən məni qonşuların gözündən saldın və gör nə ilə məşğul olmağa məcbur etdin!

Padşah "kəpənək" sözünü eşidən kimi sevincindən çığırdı:

– Sən həqiqətən böyük cadugarsan! Görünür, sən üzüyü də tapa bilərsən!

Qorxaq, padşahdan vaxt istəyib, getdi.

Üzüyü, padşahın vəzirlərindən biri oğurlamışdı. Vəzir, padşahın sözlərini eşidən kimi işin üstünün açılacağından qorxaraq yalançı cadugara yaxınlaşaraq onun qulağına pıçıldadı:

– Ey böyük cadugar! Məni bəladan qurtar: bu üzüyü götür, padşahın istəkli kor qazına ver udsun.

Qorxaq vəzirin sözlərindən sevindi və bu barədə padşaha heç nə deməyəcəyini bildirdi. Çünkü bu ona padşahın üzüyünü tapmaq imkanı verirdi. Cadugar kor qazı tutaraq üzüyü onun boğazına ötürdü. Padşah müəyyən edilmiş gün qorxaq – cadugarı yanına çağıraraq dedi:

– Hə, qardaş, indi mənim sevimli üzüyümü tap.

Qorxaq-cadugar padşahın kor qazını onun yanına gətirməyi əmr etdi. Padşahın əmri ilə qazı gətirdilər, qorxaq qazı kəsərək onun xirtdəyindən padşahın üzüyünü çıxartdı. Padşah bizim qorxağın da iştirakı ilə bu münasibətlə böyük ziyafət verdi. Ziyafətdən sonra o, cadugara onun istədiyi bütün mükafatları verdi.

Bir neçə gündən sornra padşah hamama getdi. Bu vaxt bizim qorxaq onun bağışladığı atla çaya yaxınlaşırdı. Hamamın yanından keçərkən birdən elə qışqırdı ki, at hürkərək onu yerə sərdi və o, yaralandı. Padşah səsə çölə çıxan kimi hamam uçub

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

töküldü. Padşah qorxaqdan niyə belə bərkdən qışqırdığını soruşarkən, o dedi:

– Ey böyük hökmdar! Mən hamamın uçacağını bilərək atdan düşüb bərkdən qışqırdım ki, sən tezliklə hamamdan çıxa biləsən.

Padşah, qorxaq-cadugarın onun həyatını xilas etdiyini görərək onu ikinci dəfə qızılla mükafatlandırıb, pal-paltar verib yola saldı.

Bizim qorxaq varlanaraq arvadının yanına döndü. Onlar uzun illər xöşbəxt, sakit və varlı həyat yaşadılar və artıq arvad ərinin qorxaqlığını yadına salmırdı.

Göydən üç alma düşdü: biri bu nağılı danışanın, biri qulaq asanın, biri də Allahın.

XEYİRXAHLA BƏDXAH

Biri variydi, biri yoxiydi, Allahdan başqa heç kim yoxiydi.

Bir xeyirxah və bir alçax variydi. Onlar dostlaşırlar. Onlar hərəsinin cibində bir dənə çörəklə yolla gedirdilər. Yolda bərk acıllar və alçax xeyirxaha deyir:

– Gəl əvvəlcə sənin çörəyini yeyək, gələn dəfə acanda isə mənim çörəyimi yeyərik.

Beləliklə, o, xeyirxahı aldadaraq onun çörəyini yeyirlər. Bir müddət sonra bərk acan xeyirxah alçağa dedi:

– Qardaş, gəl indi də sənin çörəyini yeyək.

– Bağışla, əzizim, vermərəm! Əgər biz indi mənim çörəyimi yesək, sonra mən ac qalaram - deyə alçax cavab verdi.

Yoldaşının bu hərəkətindən inciyən xeyirxah onunla ağızlaşaraq öz yolu ilə getdi.

O, xeyli vaxt ac-yalavac gəzib dolaşdıqdan sonra nəhayət yiyəsiz bir dəyirmana rast gəldi. O dəyirimana girərək dəyirman təhnəsinə qalxıb yatdı. Gecə o, ayı, onun dalınca canavar və tülkünün dəyirmana girdiklərini gördü. Onların üçü də dəyirmanda oturdular. Ayı və tülkü çox şən idilər, zarafatlaşır və gülürdülər, canavar isə sakit oturmuşdu, kinli və qaraqabaq idi. Birdən ayı tülküyə müraciətlə dedi:

– Tülküciyəz, desənə, nədən belə şənsən!

– Mən necə şən olmayım? Bax o görünən kəndin yanında böyük, qollu-budaxlı bir ağac var; onun altında tükənməz xəzinə gizlədilmişdir; mən oradan pul götürüb xərcləyir və şükür Allaha, çox yaxşı yaşayıram- deyə tülkü cavab verdi.

– Bəs sən niyə belə şənsən?- deyə tülkü ayıya müraciət etdi.

– Bax o görünən dağın meşəsinin qırağında qoca bir ağac var, onun enli gövdəsi bal ilə doludur; Mən hər gün o ağaca çıxaraq doyunca bal yeyirəm. Nəyə görə mən dərd çəkməliyəm?- deyə ayı cavab verdi.

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Qardaş, sən niyə belə qaradinməzsən və sakit görünürsən? – deyə onlar canavardan soruşurlar.

– Mən necə qəmli olmayım? – deyə canavar mızıldadı, artıq üçüncü gündür ki, acam. Kəndin yaxınlığında qoyun sürüsü var, lakin orada nəhəng bir it sabaha kimi gözlərini yummur, sürünün yanında gəzir, qorxumnan bir dənə qoyunu apara bilmirəm. Çox təəccüblüdü ki, heç kim o iti öldürmür, halbuki kim bunu etsə onun üçün faydalı olardı: buranın padşahının qızı xəstələnibdir və onu həkimlər müalicə edə bilmirlər. Padşah qızını müalicə edən adama ərə verməyi vəd edir; əgər həmin itin beynini sürüdəki bir qara qoyunun beyni ilə qarışdırıb padşahın qızına yedizdirsələr, o sağalar. Lakin mənim bədbəxtliyimdən bunu başa düşən bir adam yoxdur ki, gözəl şahzadəni müalicə edərək onunla evlənsin, mənim isə lənətə gəlmiş itdən canım qurtarsın.

Xeyirxah insan bu söhbətlərə qulaq asdı. O, səhər yuxudan duraraq qızı xəstə olan padşahı axtarmağa getdi. Padşahın paytaxtına gələrək onun qızını müalicə edə biləcəyi barədə söz-söhbət yaymağa başladı. Dərhal bu barədə padşaha xəbər verdilər; o xeyirxah insanı yanına çağıraraq dərdinə kömək etməyi xahiş etdi və vədinə əməl edəcəyini bildirdi. Xeyirxah insan sürüdən qara bir qoyun və sürünü güdən nəhəng iti gətitdirdi, onları kəsərək beyinlərini çıxardıb qatışdıraraq padşahın qızına yedizdirdi. Qız dərhal sağaldı. Padşah təntənəli toy məclisi quraraq qızını xeyirxah insana verdi. O kürəkənini yaxın adamları ilə tanış etdi, çoxlu var-dövlət bağışladı. Xeyirxah insan hündür ağacın altındakı xəzinəni və ağacdakı balı gətirərək rahat və varlı yaşamağa başladı.

Bir müddət sonra onun yanına dilənçi və ac-yalavac vəziyyətə düşmüş alçaq dostu gələrək belə varlı yaşamasını görüb soruşdu:

– Qardaş, sən belə vəziyyətə necə çatmısan?

Xeyirxah dedi:

– Filan tərəfdə, filan yerdə bir dəyirman var; ora get,

təhnəyə çıxaraq gecəni yatannan sonra mənim bu var-dövlətə necə çatmağımı bilərsən.

Alçaq insan dəyirmanı axtarıb taparaq təhnədə uzanıb gözləməyə başladı. Gecə həmin ayı, canavar və tülkü dəyirmana gəldilər. Bu dəfə canavar şən idi, ayı ilə tülkü isə qəmli görünürdülər. Ayı tülküdən nə üçün qəmli olduğunu soruşur. Tülkü cavab verir ki, onun xəzinəsini qarət ediblər, yaşamağa vəsaiti yoxdur. Ayı da deyir ki, ağacı kəsərək balı aparıblar.

Canavar isə deyir :

– Lə'nətə gəlmiş iti öldürərək onun beyni ilə şahzadəni sağaldıblar. Artıq mənim düşmənim yoxdur. Mən hər gün bir qoyunu aparıb yeyirəm.

– Elə bil ki, bizə bir insan qulaq asır – deyə tülkü anladı.

– Belə olmasa idi bizim sirrimizi kim bilərdi ki?– deyə ayı donquldadı.

– Gəlin onu axtaraq; bəlkə o indi də buradadır.

Onlar dəyirmanı axtararaq təhnədə yatmış alçaq insanı tapdılar və tikə-tikə parçaladılar.

Alçaq insanın ömrü belə sona çatdı.

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

TACİR MEHDİNİN NAĞILI

Biri varıydı, biri yoxuydu. Keflinin kefi kök, kasıvın dərdi çoxuydu. Keçmiş əyyamda Azərbaycan torpağında addı-sannı, şan-şöhrətdi Mehdi adlı bir tacir var idi. Mehdi tacirin mal-dövləti, qızıl-gümüşü sərvəti aşıb-daşmışdı. El-obada, mahalda hamı onun səxavətinnən İranda, İraqda dünyanın çox yerində olan nüfuzunnan danışardılar. Tacir Mehdinin mal-dövləti nə qədər çoxuydusa, onun səxavəti, hamıya olan qayğısı onnan da çoxuydu. Allah bu kişiyə hərtərəfli xoşbəxtlik bəxş etmişdi. Mehdi tacir düz qamətli, enli kürəkli, ağbəniz, qara göz, qara qaş, uca boylu bir şəxs imiş. Hamı onun yerişinnən, duruşunnan davranışınnan danışarmış. Söyləyillər ki, kişinin şirin söhbətinnən, baxışınnan, duruşunnan doymaq olmazmış. Onun danışdıran bir də danışdırmaq istəyirdi. El onu, o eli çox sevirdi. Mehdi tacir uzaq ölkələrə səfər edərkən, şəhər əhalisinə daş-qaş paylayırdı. Ehtiyacı olanları sevindirir və onlardan tələb edirdi ki, xeyir-dua verin bu uzaq səfərdən uğurla qayıdım. Bu uğurda sizin də payınız var. O, həm səfərə çıxanda, həm də səfərdən qayıdanda şəhər əhalisini beləcə sevindirərdi. Onun şöhrəti hər tərəfə yayılmışdı. Mehdi tacir kimsəsizlərin dayağı, kasıvların köməyi idi.

Onun Gülbadam adlı bir qadını, Əli adlı bir oğlu varıydı. Qadını da, oğlu da özü kimi adamlara qarşı mehriban, ləyaqətli idilər. Tacir Mehdinin şəhərdə onlarca dükanı var idi. O, uzaq şəhərlərdən gətirər, tacir köməkçiləri də satardılar. Bir gün tacir Mehdi yenə uzaq səfərə çıxmalı olur. O, həm şəhər əhalisi ilə, həm də öz ailə üzvləri ilə halallaşmalı olur. Onlarla mehribancasına görüşür, karvanıyla yola düşür. Mehdi tacirin belə səfərləri üç-dörd ay çəkirdi. Kişinin Şərq ölkələrində tanıyanları, tacir dostları çoxuydu. Hara gedirdi, uğuru həmişə olurdu. Yollarda ona dəyib dolaşan olmazdı. Bu səfərdən də tacir Mehdi çox xeyirlə qayıtdı. Səfərdən qayıtması şəhərdə toy-bayrama çevrilərdi. Günlərlə Mehdi tacirin yanına gedib-

gələnlərin arası kəsmirdi.

Tacir Mehdinin oğlu Əlinin evlənmək vaxdı çatmışdı. Şəhərin adlı-sanlı adamları tez-tez onun yanına gələr və ondan xahiş edərdilər:

– Ay elimizin-obamızın şərəfi, səndən təvəqqe eləyirik, icazə ver, Əlinin toyunu edək.

– Sizi həmişə hörmətli olasınız, Əliyə qız seçin. Nə vaxt isdəyirsiniz, edək.

Bu söhbətə evin qadını Gülbadam da qoşuldu. Gülbadamın təklifinə görə tacir Mehdinin tacir yoldaşının qızı Gülcamalı Əliyə layiq bildilər. Şəhərin sayılan adamlarınnan tacir Mehdi bir xoş gündə Gülcamalın atası Mirdamətin həyətində göründü. Mirdamət gələnnəri xoş qarşılayıb, onları evə də'vət etdi.

Mehdi tacir və adamları Mirdamətə gəldiklərinin məqsədini belə açıqladılar:

– Mirdamət tacir, sənə məlum olsun ki, biz buraya həmişəki kimin qonaq gəlməmişik. Bizim bugünkü məqsədimiz başqadı. Belə ulu Allahın adı ilə, Peyğəmbərin buyruğu ilə şəriətimizin qanununa əsasən sizin öhdənizdə olan bir daşı sizin divarınıza qoymaq istəyirik. İstəyirik ki, qızınız Gülcamal Mehdi tacirin oğlu Əlinin evinə bəzək olsun.

Mirdamət:

– Çox əcəb edibsiniz, bir qız bir oğlanındı. Həndəqala mən Mehdi tacir kimi addı-sannı bir şəxslə qohum olmaq şərəfinə nail oluram. Qız sizə qurbandı. "Hə"si mənnən, icrası sizdən.

Elçilər xörək yeyib, çay içib təmannaşdılar. Onnar birbaşa toy gününü müəyyənnəşdirdilər. Hamı xeyir-dua verib, məclisdən mürəxxəs oldular.

Əli şəhərdə tanınmış cavannardan idi. Maşallah kişinin oğlunun qanacağına, qəddi-qamətinə, tərbiyəsinə. Tacir Mehdi var-dövlətdən daha əziz, daha vacib Əlini tuturdu. Pərvanə çırağın başına dolanan kimi o da, Əlinin başına dolanırdı. Alla-

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

hın ona bəxş etdiyi bu tək oğulu vardan, dövlətdən artıq tuturdu.

Bəli, vədə gəlib çatdı. Tacir Mehdi Əlinin toyuna başladı. Yeddi gün, yeddi gecə yeyən içən, oynayan-gülənlər Gülcamalı böyük bir izdihamla Əlinin evinə köçürdülər. Toy iştirakçıları toyun bu son günündə tacir Mehdiyə gözaydınlığı verib, ayrıldılar.

Əli ilə Gülcamalın evlənməsinnən üç gün sonra onnarın hər ikisini hüzuruna çağırıb, onnara belə xeyir-dua verdi:

– Mənim balalarım, həm mən, həm də siz murazına çatdınız. Allah sizi xoşbəxt eləsin, qoşa qarıyasınız. Mən sizin yaşayışınız üçün hər şəraiti yaratmışam. Heç bir ehtiyacınız yoxdu. Sizə ən böyük məsləhətim budur, mehriban yaşayın, səmimi yaşayın, indi isə gedin işinizdə olun.

Tacir Mehdi indi arxayınlaşmışdı. Yeganə oğluna toy edib atalıq borcunu yerinə yetirdiyi üçün Allaha şükür diləyirdi. Özünü bir növ borcdan qurtarmış adam kimi azad hiss edir, daha uzaq səfərə çıxmağa ehtiyac duymadığını düşünürdü. Öz-özünə deyirdi ki, əşi, bəsdi. Daha qocalmışam, oturum arxayın qazancımdan yeyim dolanım. Mənim nəyim çatışmır ki, bu şəhər mənim, o şəhər sənin deyib gəzirəm.

Tacir Mehdi belə də etdi, rahatlanıb xoş gün keçirməklə məşğul oldu. Bir müddət tacir Mehdi beləcə dolandı.

Günnərin bir günü bəd bir hadisə tacir Mehdinin üstünü kəsdi. Ömrü boyu sağ-salamat yaşayan kişi xəstələnib yatağa düşdü. Ailəni qara günlər yasa döndərdi. Şəhərdə elə bir adam qalmadı ki, tacir Mehdiyə əlindən gələn köməyi əsirgəməsin. Ancaq tacir Mehdi yaxşılaşmırdı kın, yaxşılaşmırdı. Kişi getdikcə ağırlaşırdı.

Bir gün tacir Mehdi oğlunu yanına çağırdıb belə nəsihət verdi:

– Oğul mən daha yaxşılaşmıram. Deyirlər vəsiyyət yüngüllükdü. Sənə üç şeyi vəsiyyət edirəm.

Birincisi odu ki, olmaya-bilməyə mənim bu var-dövlətimə haram qatasan, qumarbazlığa qoşulub xanimanımı dağıdasan.

İkincisi odu ki, mənim dostlarımla əlaqəni kəsmiyəsən. Qoy deməsinnər kin, tacir Mehdidən sonra onun qapısını açan olmadı.

Üçüncüsü odu ki, ailənnən mehriban dolanasan, arvadbazlığa uymayasan, ailə yanında üzü qara olmuyasan. Məni də yaxşı dəfn elə, adıma layiq işlər gör.

Kişinin bu söhbəti zamanı qaravaşlardan biri içəri girib tacir Mehdiyə belə bir xoş xəbər gətirdi:

– Ey başımızın tacı, gözün aydın olsun, oğul nəvən oldu.

Tacir Mehdinin üzü güldü, qaravaşa xələt verif yola saldı. Oğlu ilə söhbəti yenə davam etdirdi:

– Allah sənə qurban olum, bir əhdimə də çatdım. Oğul, uşağın adını Mehdi qoydum.

Tacir Mehdinin dostları onu hər gün yoluxmağa gəlir və ən əsası dünyaya gəlmiş nəvəsi üçün ona göz aydınlığı verirdilər. Son günlər kişinin əhval-ruhiyyəsi qismən yaxşılaşmışdı. Kişinin sevinci aşıb daşmışdı. Ancaq xəstəlik öz işini görürdü. Bir gün tacir Mehdinin halı xarablaşdı. O, bir daha ayağa qalxmadı. Tacir Mehdi gözünü yumub dünyadan köçdü.

Əli atasına ehsan verdi, onu hamının ürəyindən olan kimi götürdü, dəfn etdi, başdaşı düzəltdi, gözəl bir kümbəz qurdurdu.

Əli atasının ölümündən sonra tükanlara baş çəkir, onlara rəhbərlik edirdi. Xoş xasiyyət, həlim təbiətiylə hamı tərəfinnən hörmətlə qarşılanırdı. Amma sən demə, qara gün geridəymiş, acınacaqlı günlər gəlib Əlinin ailəsinə daxil olacaqmış.

Bir gün Əli işdən qayıdanda onu bir neçə tay-tuşdarı qarşıladı. Onnar Əliyə böyük ehtiram göstərərək yaxındakı binaya apardılar, ona hörmət edib şirindillik etdilər. Həmişə ona hörmət edib, tək qoymayacaqlarını bildirdilər. İndi Əli hər gün işdən qayıdanda bura dönür. Gecədən xeyli keçənə qədər bunnarnan yeyib-içir, gününü əyyaşlıqda keçirirdi. Bir gün belə, beş gün belə. Əli daha qumarbazlığa da qurşandı. Gülcamalın günü qara olmuşdu. Əli hər gün evə sərxoş halda gəlirdi. Ev öz normal həyatını itirmişdi. Gülcamal Əlinin bu

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

xoşagəlməz hərəkətlərinə dözürdü. Bir gün Gülcamal eşitdi ki, Əli dükanları uduzub. Beləliklə Əli atasının mülkünü də uduzdu. İndi ailə çətin vəziyyətdə qalmışdı. Tacir Mehdinin qurğu-büsatı, sərmayəsi tamam dağılmışdı. Ailə ağır vəziyyətə düşmüşdü. Gülcamal atası evindən gətirdiyi qızıl əşyaları satıb onun hesabına ailəni dolandırırdı.

Bir gün Əli evə yornuq halda gəlmişdi. Halı pərişan idi. Gülcamal hələ indiyə qədər bir dəfə də olsun Əlinin xətrinə dəyən söz deməmişdi. İndi Əliyə müraciət edib dedi:

– Ay Əli, mən indiyə kimi sənin hərəkətinə dözmüşəm. Ancaq indi sənə bir məsləhət vermək istəyirəm. Mən belə məsləhət görürəm kin, mərhum atayın çox etibarlı dostları var. Sən gəl həmişə atan ağızdolusu razı danışdığı tacir Həsənin yanına get. Daha burada bizə heç kəs kömək edə bilməz. Onu bilkin, belə getsə bütün şəhərdə biyavır olacağıq. Əli dedi:

– Ay Gülcamal, mən hər şeyi alt-üst etdim. Mən o dostların yanına nə ilə gedə bilərəm.

Gülcamal:

– Əli, mən sənin yol xərcini verəcəm. İşin tutar, yaxşı olar, qalarsan. Mən bir il, iki il, Mehdi ilə dolanacam. Mənim haqqımda fikir eləmə.

Əlinin başqa əlacı yox idi, razılaşdı.

Gülcamal onu günnərin bir günü İrana gedən bir karvannan yola saldı.

İndi Gülcamalnan Mehdi burada qalsın sizə kimnən xəbər verim, Əlidən.

Əli gəlib İrana çatdı, soraqlaşıb tacir Həsənin evini tapdı. Tacir Həsən Əlinin gəlməsinnən çox şad oldu, ona hörmət etdi. Dostunun ölümünnən isə bikef oldu. Bir axşam süfrə zamanı tacir Əhməd Əlidən soruşdu:

– Oğul, indi söylə görüm, fikrin nədi?

Əli atasınnan sonrakı vəziyəti olduğu kimi tacir Həsənə danışdı. Tacir Həsən dedi:

– Əli, sən narahat olma, itirdiklərini tapacaqsan. Bir iş

var kın, bir daha etdiyin yaramazlıqları təkrarlamayasan. Mən burdan ora kömək etmiyəcəm. Günü sabahdan bazardakı dükannardan birini sənə bağışlayıram. Ağılla işə başla, çevik ol, təmizkar ol.

Tacir Həsən Əlini bazara gətirdi 39-cu dükanı ona bağışladı, üstəlik söz verdi kin, indi gələn karvanı bütünlüklə ona verəcək. Tacir Həsən Əlini bazarbaşı ilə tanış edib qayıtdı.

Əlini indi bütün bazarda olannar tanıyır, ona hörmət edirdilər. Bir neçə gün içərisində Əlinin ayağının sayasınnan alış-verişi uğurlu gedirdi. Hamı onun bu xeyirxahlığına ehtiram bəsləyirdi. Bir gün Əli bazarbaşına dedi:

– Sən gəl mənə yaxşılıq elə, 40-cı otağı mənə sat, ailəmi gətirim orada yaşayaq.

Bazarbaşı Əlinin mə'rifətinə xoşu gəlirdi, ona görə də razılaşdı. Əli qırxıncı otağa gəldi, otağı nizama saldı və orada qaldı. Yenicə yuxuya getmişdi ki, otağın tavanından səsə gəldi:

– Ay Mehdinin oğlu tacir Əli, sənə nə qədər qızıl tökək?

Əli səsə ayıldı, ətrafa baxdı, heç şey görə bilmədi. Ancaq qorxmadı. Yenə yatmaq istərkən həmin şəxsin səsi eşidildi:

– Ay Əli, sənə nə qədər qızıl tökək?

Əli özünü itirmədən dedi:

– Siz bilən qədər tökün.

Birdən yuxarıdan qızıl pullar cağıltı ilə otağa töküldü. Yuxarıdan yenə səs gəldi:

– Ay tacir Mehdinin oğlu Əli, Allah sənə uğur versin, işin həmişə xeyirri olsun, bu qızılları halallıxnan işlət.

Əli qızılları yerləşdirib yatağa girdi. Səhər tezdən durub əl-üzünü yudu, dükanı açıb işə başladı. Bir neçə günnən sonra bazarın bağlı qapısında bir karvan dayandı. Karvan başçısı car çəkib elan etdi ki, tacir Mehdinin oğlu Əlinindi bu karvan. Karvanı qəbul edin. Əli karvanın yükünü boşaltdırdı. İndi Əlinin işləri xod gedirdi. Əli əhvalatı tacir Həsənə söylədi. Tacir Həsən Əli ilə Əlinin aldığı qırxıncı otağa gəldi. Əlinin qızıllarını görüb dedi:

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Əli, mənə heç bir şey lazım deyil. Mən məsləhət görürəm kin, bu qızılın bir hissəsinə bir karvan yükü mal alıb öz vətəninə apar, qoy deməsinnər kin, tacir Mehdinin yurdu boş qaldı, var-dövləti dağıldı. Mən öz dəvələrimi, adamlarımı göndərərəm.

Tacir Həsən Əli ilə halallaşıb onu dəvə karvanı ilə yola saldı. Əli dəvə karvanı ilə öz şəhərrərinə daxil olanda hər yerdən "Tacir Əli gəldi, tacir Mehdinin oğlu tacir Əli gəldi" – deyə qışqırışmağa başladılar. Əli karvanı Gülcamalın qarşısına çıxdı. Əli oğlu Mehdini bağrına basıb öpdü. Malları dəvələrdən boşaltdırdı. İndi Əli atasının sadiq və e'tibarlı dostu Həsənin köməyi ilə belə bir var-dövlətə çatdı. Əli bu var-dövlətin hesabına şən və xoşbəxt yaşadı. Onlar yaşadılar, ömür sürdülər, xoşbəxt oldular, xeyirxah adamlara duaçı oldular. Sizi də xoşbəxt və xeyirxah olun.

Göydən üç alma düşdü, biri nağıl danışana, biri nağıla diqqətlə qulaq asannara, biri də özümə.

HALVAÇININ NAĞILI

Biri varıdı, biri yoxudu, bir varrı kişi varıdı. Bu kişinin üç oğlu varıdı. Kişi bir gün bərh xəsdələnir və böyüh oğluynan ortancıl oğlunu çağırıb deyir:

– Artıx mən ölürəm. Mənim yeddimi verənnən sora kiçih oğlumu qapıdan çıxararsınız.

Kişi böyüh və ortancıl oğlannarını yola salannan sora kiçih oğlunu çağırtdırıb deyir:

– Mən ölürəm. Mən ölənnən sora cəzirədə bir alma var, onu götürərsən.

Bəli, kişi vəsiyyətdərini etdihdən sora canını oğlannarına tapşırır. Oğlannarı onun yeddisini verdihdən sora böyüh qardaşnan ortancıl qardaş kiçih qardaşı çağırıb deyillər:

– Atamız öləndə vəsiyyət eləmişdi ki, onun yeddisini verənnən sora səni qapıdan çıxarax. İndi ya qal bizə nökər ol, ya da kı qapıdan çıx.

Kiçih qardaş heş bir söz demir, cəzirədiki almanı da götürüb qapıdan çıxır. Oğlan az gedir, çox gedir, gəlib bir çöllü-biyabana çıxır. Oğlan görür kü, acıb, yanında heş bir şey yoxdu ku, yesin. Birdən yadına düşür kü, cəzirədən götürdüyü alma cibindədi. O, almanı ağzına salıb sıxanda, göy gurulduyur, ildırım çaxır, bir dəstə döv oğlanın başının üstünü alıb başdıyıllar yalvarmağa:

– Ey bəni-insan, biz sənə nə istəsən verərih, ancax sən o almanı yemə, bizim canımız o almadadı.

Oğlan dövlərə deyir:

– Mənə heş nə lazım dəyil, ancax məni bir avadan şəhərə çıxardın.

Söz oğlanın ağzınnan çıxan kimi, dövlər oğlanı bir şəhərə gətirillər. Onu qoca bir halvaçının dükanının qabağında qoyub gedillər. Gedəndə oğlana tapşırıllar kı, əyər dara düşsən almanı sıxarsan, onda biz gəlib sənə köməh edərih.

Bəli, sizə kimnən deyim, qoca halvaçıdan. Bu halvaçı o

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

qədər eybəcər idi ki, heş kəs gəlib ona görə onnan halva almazdı. Oğlan girir həmən bu qoca halvaçının dükanına, salam verdihdən sora deyir:

– Əmi, məni öz yanına şagird götürərsən? Mən bu şəhərdə qəribəm.

Oğlan bu sözdəri deyənnən sora kişi fikirrəşir ki, mənim öz qazancım heş özümə çatmır, mən necə şagird saxlıya bilərəm?

Ancax oğlan bu şəhərdə qərib olduğu üçün kişinin ona ürəyi yanır və onu yanında şagird saxlamağa razı olur. Oğlan gecələr də halvaçının dükanında yatır.

Bunnar burda qalsın, sizə kimnən deyim, paccahın qızınnan. Paccahın qızı bir gün öz qarabaşını göndərir ki, gedib halva alıb gətisin. Qarabaş qoca halvaçının dükanına girəndə görür kü, burda bir gözəl oğlan var. Halva almax da qarabaşın yadınnan çıxır, dayanıb heyran-heyran oğlana tamaşa edir. Nə vaxdan nə vaxda yadına düşür kü, xanım onu halva almağa göndərib, tez halvanı alıb qaçır evə.

Xanım onu görən kimi qışqırır:

– Ay çəpəl haramzada, niyə gec gəldin?

Qarabaş deyir:

– Xanım, qoca halvaçının bir gözəl şagirdi var kı, sən özün də olsaydın, ona baxmıya bilməzdin.

Bu sözdəri eşidən kimi xanım tərki-libas olub gedir qoca halvaçının dükanına. Xanım dükana girən kimi görür kü, qarabaş doğru deyirmiş. Tez evə qayıdıb bir kənkan çağırtdırır. Kənkan gəlib onun hüzurunda baş əyib soruşur:

– Xanım sağ olsun, nə buyurursunuz?

Paccahın qızı deyir:

– Mənim otağımnan qoca halvaçının dükanına qədər lağım atmalısan. Bu işi neçə sahata görə bilərsən?

Kənkan deyir:

– Xanım sağ olsun, üş sahata.

Bunu deyən kimi xanım onun boynunu vurdurur.

İkincini çağırtdırıb soruşduxda, o da deyir ki, iki sahata eliyərəm. Paccahın qızı onun da boynunu vurdurur. Üçüncünü çağırtdırdıxda deyir:

– Xanım, əgər toz-torpağımı çəkən olsa, yarım saata bu işi görərəm.

Xanım deyir:

– Sənin torpağını özüm çəkərəm.

Bəli, kənkan işə başdıyır. O, qazdıxca paccahın qızı da onun topağını çəkib tökür çölə. Kənkan işini gördühdən sora paccahın qızı ona çoxlu pul verib yola salır.

Bu tərəfdən də paccahın qızı aşbaza əmir eləmişdi ki, bir yaxcı plov bişirsin. Plov hazır olannan sora aşbaz onnan bir sini çəkib gətirir paccahın qızına. Paccahın qızı sinini götürüb yeraltı yolla gedir qoca halvaçının dükanına, içəri girəndə görür kü, oğlan yatıb. Oturur oğlanın başının üstündə. Oğlan ayılıb qızı başının üstündə görəndə, saralıb sapınnan düşür.

Bəli, qız oğlana necə vurulmuşdusa, oğlan da qıza eləcə vuruldu. Onnar gecədən xeyləh keçənə qədər oturub söhbət etdihdən sora qız gəldiyi yolnan geri qayıdır. Bu qayda ilə onnar hər gecə görüşüllərmiş.

Bunnar burda görüşməhdə olsun, sizə kimnən deyim, qoca halvaçıdan. Qoca halvaçı görür kü, şagirdi son vaxlar fikirri görünür. Qoca halvaçı səbəbini nə qədər soruşsa da, oğlan demir.

Nəhayət, oğlan bir gün qoca halvaçıya deyir:

– Mən paccahın qızına aşiq olmuşam. Get, onu mənə al.

Qoca halvaçı deyir:

– Ay oğul, sən hara, paccahın qızı hara, ağlını başına yığ, öz kasıbçılığını elə.

Qoca halvaçı nə qədər yalvarırsa, oğlan inadınnan dönmür. Kişi çar-naçar qalıb gəlir oturur paccahın elçi daşının üsdündə.

Bəli, paccaha xəbər verillər ki, qoca halvaçı sənin qızına elçi gəlib. Paccah hirsdənib əmir edir ki, onu qovun getsin.

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Paccahın nökərrəri gəlib kişini qovullar.

Qoca halvaçı oradan durub gəlir oğlanın yanına, deyir ki, hal-qəziyyə belə-belə.

Kişi deyir:

– Bala, əgər evlənməh istiyirsənsə, gedim sənə bir rəiyət qızı alım, neniyirsən paccah qızını.

Oğlan isə dediyinnən dönmür. Kişini ikinci dəfə paccahın yanına göndərir. Kişi yenə gəlib oturur paccahın elçi daşının üstündə.

Paccah deyir:

– Aparın elçi daşının üstünə bir soğan qoyun.

Nökər aparıb elçi daşının üstünə bir soğan qoyur. Nökər soğanı qoyan kimi qoca halvaçı durub gedir oğlanın yanına və əhvalatı ona danışır. Oğlan deyir:

– Sən bu dəfə də gedib elçi daşının üstündə oturarsan, nökərrər gələndə deyərsən ki, məni paccahın yanına aparın. Nökərrər səni paccahın yanına aparannan sora, paccaha deyərsən ki, qızına nə istəsən verəciyih. Ancax sən qızı bizə ver.

Kişi çar-naçar bu dəfə də gəlib oturur elçi daşının üstündə. Nökərrər gəlillər ki, kişini qovsunnar, kişi onnara yalvarıb-yaxarır kı, məni paccahın yanına aparın.

Bəli, nökərrər onu paccahın hüzuruna aparıllar. Kişi baş əydihdən sora oğlanın dedihlərini paccaha deyir. Paccah kişini dinnədihdən sora deyir:

– Qoca, sən mənim qızımı oğluna almax üçün divarının yarısı qızıldan, yarısı gümüşdən üzü qibliyə dörd otaxlı bir ev tihdirməlisən, qırx min dəvə, qırx min qoyun, qırx min sağmal mal, yeddi dəst qayçı kəsməz, iynə batmaz paltar gətiməlisən. Həm də onu Həzrət Süleymanın taxtında gəlin aparmalısan.

Qoca halvaçı bu eşitdihlərinnən dəhşətə gəlirsə də, üzə vurmur. Oradan durub başılovlu gəlir oğlanın yanına kı, bəs paccah belə–belə şeylər isdiyib. Oğlan sakitcə deyir:

– Sən qorxma, bunnar hamısı hazır olar.

Kişi eşitdihlərinə təccüb eləsə də, dimmir. Axşam olur, kişi gedir evinə, oğlan qalır dükanda. Gecədən xeyli keşmiş oğlan çıxır çölə, cibinnən almanı çıxarıb sıxır. O sahat dövlər hazır olur. Oğlan deyir:

– Divarrarının yarısı qızıldan, yarısı gümüşdən dörd otaxlı bir ev lazımdı. Qoca halvaçının boyana çöpünnən olan evini sökərsiz, əvəzində onu qoyarsız.

Bəli, aradan bir az keşməmiş ev hazır olur. Qoca halvaçının evi bütün şəhəri işıxlandırır. Paccah yuxudan hövlnak qalxıb nökərrərin üstünə qışqırır kı, gün-günortadı bəs məni niyə oyatmıyıbsınız, namazımın vaxtı keçib.

Nökərrərdən biri deyir:

– Paccah sağ olsun, hələ səhər açılmıyıb, bu, qoca halvaçının evidi ki, bütün şəhəri gündüz kimi işıxlandırıb.

Paccah qulaxlarına inanmır. Durub gəlir, baxıb görür kü, nökər necə deyib, elədi.

İkinci gün yenə gecədən bir az keşmiş oğlan çıxır dükannan çölə, almanı sıxır və dövlər hazır olan kimi deyir:

– Qırx min dəvə, qırx min qoyun və qırx min sağmal mal lazımdı. Bunnarı paccahın sarayının yanına gətirərsiz.

Bəli, sabah açılır, sizin də sabahınız xeyirriyə açılsın, paccah ayılıb görür kü, necə özü demişdi, qırx min dəvə, qırx min qoyun, qırx min sağmal mal bütün şəhəri bürüyüb.

Üçüncü gün yenə gecədən bir az keşmiş oğlan dükannan çölə çıxıb almanı sıxır və dövlər hazır olanda deyir:

– Yeddi dəs qayçı kəsməz, iynə batmaz paltar lazımdı.

Dövlər o sahat həmin paltarrarı hazır eliyillər. Səhərisi gün paltarrarı da aparıb verillər.

Dördüncü gün səhərə az qalmış oğlan dükannan çıxır çölə. Yenə almanı sıxır, o saat dövlər hazır olur. Oğlan deyir:

– İndi də Həzrət Süleymanın taxtı lazımdı.

Bəli, səhər tezdən dövlər Həzrət Süleymanın taxtını gətirillər saraya və tələb edillər ki, paccah qızı versin. Paccah da bir tərəfdən qızı verməh istəmir, bir tərəfdən də dövlərdən

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

qorxur.

Nəhayət, paccah belə qərara gəlir ki, qarabaşdardan birini bəzətdirib qoydursun Həzrət Süleymanın taxtına. Paccah dediyi kimi də edir.

Bəli, qarabaşı bəziyib qoyullar Həzrət Süleymanın taxtına. Gəlini evə gətirənnən sora oğlan baxıb görür kü, paccah onu aldadıb, ona öz qızını yox, qızının qarabaşını göndərib. Oğlan deyir:

– Sən mənə lazım dəyilsən, çıx get! Mən paccahdan səni yox, onun qızını istəmişdim.

Oğlan nə qədər deyirsə, qız getmir. Oğlan yatannan sora qız durub evi gəzir. O, başa düşür kü, bütün bunnarı etməh qoca halvaçının hünəri deyil. Burda nə isə sehirri bir qüvvə var. Ona görə o, evin bütün yerrərini gəzir bir şey tapa bilmir. Axırda gəlib oğlanın ciblərini axtarıb almanı tapır. Qız almanı dişinin altına qoyub sıxır. Bu vax dövlər hazır olur və başdıyıllar yalvarmağa:

– Ey bəni-insan, sən nə istəsən biz onu sənə verərih, ancax o almanı yemə, çünkü bizim canımız o almadadı.

Qız bu sözdəri eşitdihdə sevinib deyir:

– Aparın bu oğlanı başı aşağı Nil dəryasına atın!

Söz qızın ağzınnan çıxan kimi dövlər oğlanı götürüllər. Yolda onnar bir-birrərinə deyillər ki, bu oğlanın bizə yaxşılığı keçib, onu Nil dəryasına atmıyax. Onnar oğlanı çayın kənarına qoyub gəlillər.

Bəli, oğlan yuxudan ayılıb görür kü, ay dadi-bidad o, bir dəryanın kənarındadı. Ciblərini axdarır görür kü, alma yoxdu. Oğlan o sahat məsələni başa düşür. Bu vax burdan bir qoca keçirmiş. Oğlan onnan soruşur:

– Əmi, bura haradı? Mən burdan necə qurtula bilərəm?

Qoca deyir:

– Bura Nil dəryasıdı. Bax, görünən o ağacın dibində bir quyu qazıb oturarsan, bir azdan ora bir dəstə siçan gələcəh. Onnarın içində böyüh, boynunda qırmızı xalta olan siçan

onnarın başçılarıdı. Əgər onu tuta bilsən, buradan qurtularsan, tuta bilməsən, yox.

Oğlan qocanın dediyi kimi eliyir və ağacın dibində quyu qazıb oturub başdıyır siçannarı gözdəməyə. Gözdüyür–gözdüyür, bir də görür kü, budu ha ciyhə–ciy siçannar gəlib doluşdular quyuya. Oğlan əl atıb onnarın içərisindəki boynu qırmızı xaltalı siçanı tutur. Siçan başdıyır yalvarmağa ki, sən nə istəsən mən onu eliyərəm, ancax məni öldürmə.

Oğlan deyir:

– Səni bu şərtnən buraxaram ki, gedib filan şəhərdə, filan evdə bir qız var, o qızdakı almanı gətirəsən mənə.

Siçan “baş üstə” deyib, gözdən itir, gedib deyilən yerdə qızı tapır, görür kü, qız alma ağzında yatıb. Siçan gedib quyruğunu istota batırıb tutur qızın burnuna. Qız asqırır, alma ağzınnan düşür. Siçan almanı götürüb gətirir verir oğlana. Oğlan almanı sıxır, dövlər hazır olur.

Oğlan deyir:

– Mənə bir dəsd döyüş paltarıynan silah gətirin.

Dövlər o sahat oğlanın dedihlərini hazır eliyillər. Bu dəfə oğlan deyir ki, məni aparın öz evimə.

Oğlan evə çatan kimi qızın boynunu vurur. Sora paccahın qoşunnarı ilə döyüşə başdıyır. Paccahın qızı bu xəbəri eşidən kimi o da silahlanıb oğlana köməyə gəlir. Oğlannan paccahın qızı qoşunu qırır, paccahı da öldürür. Bunnan sora paccahın qızını alıb oğlan başdıyır səltənətə paccahlıx eləməyə.

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

TACİR OĞLU

Biri varıdı, biri yoxudu, keçmiş zamannarda bir tacir varıdı. Bu tacirin də üç oğlu varıdı. Günnərin bir günü tacir ömrünü oğlannarına bağışdadı.

Qardaşdarın ikisi hər gün ova gedirdi. Günnərin bir günü qardaşdar kiçih qardaşdarını da götürüb ova çıxdılar. Onnar kiçih qardaşdarını aparıb meşədə azdırmax isdiyirdilər. Kiçih qardaş qardaşdarını xeyli gözdədi, amma onnar gəlib çıxmadı. O, meşədə gəzib dolandı, gəlib bir düzənniyə çıxdı. Burda bir ev gördü. İçəri girdi. Evdə heş kim yoxudu. Hər tərəf bomboş idi, otaxların birində süfrə açılmışdı. Üş qab yeməh qoyulmuşdu. Tacir oğlu çörəyin hərəsinnən balaca bir tikə kəsib yedi, sora qapının dalında gizdəndi.

Bu vax üş quş uçub gəldi, özdərini yerə vurdular, gözəl oğlannara çevrildilər. İstolun arxasında oturub yeməyə başdadılar.

Böyüyü dedi:

– Kimsə yeməhdən yeyib.

İkincisi dedi:

– Düz deyirsən, görünür, kimsə bizə qonax gəlibbiş.

Qonağı axtarmağa başdadılar.

Dedilər:

– Ay qonax, özünü gizdətmə, əyər sən bir qocasansa, bizə ata olacaxsan, əyər qoca qarısansa, bizə ana olacaxsan, əyər bir gözəl qızsansa, bizə bacı olacaxsan, əyər cavan oğlansansa, bizə qardaş olacaxsan.

Bunu eşidən kimi tacir oğlu qapının dalınnan çıxdı, onnar tacir oğlunu mehribannığnan qarşıladılar. Tacir oğlunu özdərinə qardaş hesab elədilər.

Böyüyü tacir oğluna dedi:

– Sənnən xayiş edirih, sən burda qal, bir ildən sora həmin bu gündə bu süfrə kimi bir süfrə hazır elə.

Tacir oğlu dedi:

– Yaxcı, sizin dediyinizi yerinə yetirrəm.

Quşdar evin haçarrarını ona verdilər. Hər yerdə gəzməyə, hər şeyə baxmağa da izin verib, dedilər ki, təhcə divarrardan asılı haçara əl vurma.

Gözəl oğlannarın üçü də dönüb quşa çevrildilər, uçub getdilər. Günnərin bir günü tacir oğlu həyətdə gəzirdi, birdən yerdə qıfıllanmış bir qapı gördü, istədi ki, ora baxsın, haçarrarın hansını əlinə aldısa, qıfıla düşmədi. Açarrarın heş biri qıfıla düşmürdü kü, düşmürdü. Divardan asılmış açarı götürdü, qıfılı açdı.

Gördü bura bir zirzəmidi. Burda bir at, atın üsdündə qızıl, daş-qaşnan dolu bir xurcun var. Tacir oğlu atı mehribannığnan tumarramağa başdadı. At ona möhkəm bir təpih vurdu. Tacir oğlu yıxılıb quşdar gələnə kimi yuxuya daldı. Tacir oğlu ayılan kimi qapını bağladı, haçarrarı yerinnən asdı, tez bir süfrə hazırradı.

Quşdar uçub gəldilər, özdərini yerə çırpıb dönüb gözəl oğlannara çevrildilər. Tacir oğluynan görüşüb-öpüşdülər. Oturub yeməh yeməyə başdadılar. Tacir oğlunnan xahiş elədilər ki, bir il də burda qalıb həmən süfrəni gələn il də hazırrasın. Tacir oğlu yenə razı oldu.

Quşdar uçub getdilər. Tacir oğlu bu dəfə də həmən haçarnan həyətdəki başqa qapını aşdı. Gördü kü, burda da bir at var. Üsdündə də qızılla dolu bir xurcun.

Tacir oğlu bu atı da tumarramağa başdadı, at onun döşünnən vurub tulladı. Tacir oğlu yenə yıxılıb yuxuya getdi. Yuxudan quşdar gələn günü ayıldı.

Haçarı aparıb yerinnən asdı, süfrə hazırradı.

Bu vax quşdar uçub gəldilər, tacir oğlu ilə görüşüb-öpüşdülər, yeməh yeməyə başdadılar.

Quşdar tacir oğlunnan xahiş elədilər ki, o, bir il də burda qalsın. Tacir oğlu yenə razı oldu. Tacir oğlu bir il də burda təhcə yaşamağa başdadı.

Bir ilin tamamında yenə quşdar uçub gəldilər, dönüb

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

gözəl oğlannara çevrildilər.

Onnardan biri dedi:

– Tacir oğlu, çox sağ ol, atın birini yühlü-yüyənni sənə bağışdıyırıx.

O biri də ikinci atı, üçüncüsü isə sehirri bir qalxan verdi. O, qalxanı geyinəndə heş kəsin ona gücü çatmazdı.

Tacir oğlu atını minib silahlanıb, qalxanını götürüb gözəl paccah qızını almağa yola düşdü. Yolda bir qarıya rast oldu, istədi ki, onu öldürsün. Qarı yalvardı kı, ona aman versin. Əvəzində o da oğlana qulluxçu olar. Tacir oğlunun ona yazığı gəldi, onu da özüynən götürdü.

Tacir oğlu gözəl paccah qızıynan evləndi. Qarı da onnarın yanında qalırdı.

Günnərin bir günü tacir oğlu ova getmişdi. Qarı paccah qızını dilə tutub dedi:

– Sən bir örgən gör tacir oğlunun gücü nədədi? O, sirrini sənnən niyə gizdi saxlıyır?

Paccah qızı qarının hiyləsinə uydu. İstədi ki, ərinin sirrini öyrənsin. Əri gələndə onu dilə tutdu. Soruşdu:

– Mənim əzizim, de görüm, sənin ağlın, gücün nədədi?

Tacir oğlu dedi:

– Süpürgənin içində.

Bunu eşidən paccah qızı bu süpürgəni götürdü, onu yaxcı bir yerə qoydu. Tacir oğlu ovdan qayıdıb gələndə süpürgəni götürüb soruşdu:

– Bu süpürgəni niyə bəzəmisən?

Qız dedi:

– Ona görə ki, sənin ağlın, gücün bu süpürgədədi.

Tacir oğlu dedi:

– Sən necə də ağılsızsan. Heç mənim ağlım, gücüm də süpürgədə ola bilərmi?

Paccah qızı yenə soruşdu:

– Əzizim, de görüm, bəs sənin gücün haradadı?

Tacir oğlu öz sirrini açıb paccah qızına söylədi:

– Mənim gücüm qalxanımdadı. Tacir oğlu yuxuya getdi. Paccah qızı qalxanı götürdü, tacir oğlunu qılınşnan doğruyub, aparıb bir çöllüyə atdırdı. Özü isə qarıynan yaşamağa başdadı.

Tacir oğlunun ölüsü üş gün çöldə qaldı. Qarğalar uçub onun bədənini dimdihləməyə gəldilər.

Elə bu vax onun dostdarı da uçub gəldildər, onnar tacir oğlunun öldüyünü gördülər.

Böyüyü dedi:

– Tez ol get, sən dirilih suyu gəti.

Quşdarın biri uçub getdi, dirilih suyu gətirib gəldi.

Quşdar tacir oğlunun doğranmış bədənini bitişdidilər, üzərinə dirilih suyu səpdilər.

Tacir oğlu oyanıb soruşdu:

– Mən çoxmu yatdım?

Dostdarı dedilər:

– Sən düz yeddi gündü kü, yatırsan.

Tacir oğlu ayağa qalxdı. Quşdar başına gələnnəri ona danışdılar. Tacir oğlu onnara çox təşəkkür elədi. Quşdar tacir oğluna indi də bir qızıl üzüh verdilər.

Tacir oğlu üzüyü barmağına taxıb bir ata döndü. Qaçıb paccah qızının həyətinə gəldi.

Qarı o sahat əmr elədi ki, atı tutub tövlüyə salsınnar. Tacir oğlunu tutub tövlüyə saldılar, gözdədilər ki, sabah onun başını kəssinnər.

Paccah qızının yanında bir qulluxçu qız varıdı. Bu qız çox gözəl, həm də ürəyiyumşax bir qızıdı. Onun ata yazığı gəldi. Tövlüyə gəlib ağlamağa başdadı:

– Ay yazıx, sənin başını sabah kəsəcəhlər.

At dil açıb dedi:

– Ay gözəl qız, ağlama, qoy mənim başımı kəssinnər. Elə ki, gördün mənim qanım yerə töküldü, onda ayağını onun üstünə qoy, sora bu qanı torpaxla barabar bir yerə yığ, götürüb onu sarayın dörd tərəfinə səpələ.

Səhəri gün atın başını kəsməyə apardılar. Aparıb atın

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

başını kəsdilər. Atın qanı sıçrıyıb yerə töküldü. Gözəl qız ayağıynan qanın üstünnən basdı, sora qanı torpağnan birrihdə yığdı, aparıb sarayın dörd tərəfinə səpələdi, elə həmin gün sarayın dörd tərəfində gözəl meyvə ağaşdarı ucalmağa başdadı.

Qarı əmr elədi ki, bu ağaşdarın hamısını kəssinnər. Kökünü də çıxarıb atsınnar.

Bunu eşidən gözəl qız yenə hönkür-hönkür ağladı. Bağa getdi ki, doyunca ağaşdara tamaşa eləsin. Ağaşdardan biri dil açıb dedi:

– Ey gözəl qız, sözdərimə yaxcı-yaxcı qulağ as, bağdakı ağaşdarı kəsməyə başdıyanda, sən bir parçasını götürüb o yaxındakı gölə at.

Gözəl qız elə də elədi, qopardığı ağaş parçasını götürüb gölə atdı. Həmin ağaş parçası dönüb bir qaz oldu, başdadı göldə üzməyə. Qarı gölün kənarına gəldi, istədi ki, qazı diri-diri tutsun. Sehirri qalxanı yerə qoydu, özünü gölə atdı. Qaz getdihcə uzaxlaşmağa başdadı. Tez sahilə çıxdı. Dönüb gözəl bir oğlan oldu. Sehirri qalxanı çiyninə götürdü, qarını vurub öldürdü. Sora tacir oğlu saraya gəldi. Paccah qızını da vurub cəhənnəmə göndərdi. Gözəl qulluxçu qıznan evləndi. Onnar xoşbəx yaşamağa, şad günnər keçirməyə başdadılar.

Göydən üç alma düşdü, biri mənim, biri özümün, biri də nağıla qulax asannarın.

OVÇUNUN SİRRİ

Biri varıdı, biri yoxudu, keşmiş zamannarda bir ovçu varıdı. Bu ovçunun da iki iti varıdı. Günnərin bir günü ovçu itdərini də götürüb ova çıxdı. Hər tərəfi gəzib dolaşdı, meşələrdən, çöllərdən, dağlardan keşdi, qarşısına bir quş belə çıxmadı. Evə qayıdanda gördü kü, bir kötüh yanır. Alovun içində də bir ilan var. İlan onu görən kimi dil açıb dedi:

– Ey ovçu, məni odun içinnən çıxart, səni xoşbəxt eliyərəm. Sən dünyada bütün cannıların, heyvannarın, quşdarın, atdarın, hər şeyin dilini bilərsən.

Ovçu dedi:

– Mən sənə köməh eləməyə hazıram, ancax necə eliyim?

İlan dedi:

– Ağacın ucunu alova uzat, mən ağacın üstüynən burdan sürünüb xilas olaram.

Ovçu ilan deyən kimi elədi. İlan ölümnən qutardı. Ovçuya razılıx eliyib dedi:

– Ay ovçu, çox sağ ol, indi sən bütün cannıların danışığını başa düşəcəhsən, ancax bu barədə heş kəsə heş nə demə, əyər desən, onda məhv olarsan, bunu yadında yaxcı saxla.

Ovçu ilannan ayrılıb yenə ov axdarmağa başdadı. Bir azdan qarannıx düşdü. Ocax qaladı, ocağın qırağında uzandı, itdəri də onun yanında bir tərəfdə uzandı. Ovçu birdən eşitdi ki, itdər bir–biriynən danışır. Bir-birrərinə qardaş deyillər. Biri o birinə deyir:

– Ay qardaş, sən burda gecələ, mən də qaçıb evə gedim, həyətin keşiyini çəkim. İndi oğrular evi çalıb-çapallar.

O biri dedi:

– Yaxcı, sən get.

Sabah tezdən o biri it gəldi. Meşədə gecəliyən it dedi:

– Salam.

O biri dedi:

– Salam.

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Gecəniz yaxcımı keşdi?

– Yaxcı keşdi, evdə nə oldu?

Evdən gələn dedi:

– Heş soruşma, çox pis oldu. Mən qaçıb evə gəldim, xanım isə dedi: “Kim bilir, sahibsiz hardan gəlirsən?” Bunu deyib qabağıma bir parça yanıx çörəh qabığı tulladı. Mən bunu iylədim, iylədim, amma yemədim. Bunu görəndə xanım ağaş götürüb məni o qədər döydü kü, qabırğalarımı şil–küt elədi. Sora gecə yarısı həyətə oğrular gəldi, mən bərhdən hürüməyə başdadım. Onnar qaçıb cannarını zornan qutardılar.

Ovçu itin nə söylədiyini eşitdi. Evə qayıdanda arvadınnan soruşdu:

– Dünən it evdə idi?

Arvadı dedi:

– Hə.

– Sən ona yeməh verdin?

Arvadı dedi:

– Verdim. Ona ağzınacan dolu bir qab süd verdim, içinə də çörəh doğramışdım.

Ovçu dedi:

– Yalan deyirsən. Sən ona yanıx çörəh veribsən, özünü də döyübsən.

Arvad hər şeyi boynuna aldı, ancax bunu hardan bildiyini soruşdu. Əri dedi:

– Deyə bilmərəm.

Arvadı dedi:

– Gərəh deyəsən.

– Desəm, ölərəm.

Arvadı dedi:

– Heş nə olmaz.

Ovçu gördü kü, canını qutara bilmir, ağ köynəyi geyinib uzandı, ölümü gözünün qabağına aldı. Hazırraşdı kı, həqiqəti açıb desin. Bu vax toyuxlar qaçıb evə girdi, dalınca da xoruz. Xoruz toyuxların üstünə düşüb dedi:

– İndi mən sizin canınızı alaram. Yaxcı bilin ki, mən sahibiniz ovçu kimi o qədər səfeh deyiləm ki, arvadımın öhdəsinnən gələ bilmiyim. Siz qırx dənəsiniz, əyər istəsəniz hamınızın canını alaram.

Ovçu bunu eşidən kimi ağılsızdıx etdiyini annadı, yerinnən sıçrıyıb qalxdı və qamçısını götürüb arvadının üstünə düşdü. Arvadı sakitdəşib susdu. Bir də ərinnən belə şeylər soruşmadı.

Nağıl da burda bitdi. Göydən üç alma düşdü, biri mənim, biri özümün, biri də nağıl danışanın.

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

TACİRNƏN KƏNDDİ

Biri varıdı, biri yoxudu, keşmiş zamannarda bir kişi, bunun da bir arvadı varıdı. Onnar xoşbəx yaşıyırdılar.

Bu kişi əkin-biçinnən öz külfətini dolandırırdı. Onun arvadının gözəllihdə tayı-barabarı yoxudu. Aya deyirdi sən çıxma mən çıxım, günə deyirdi sən çıxma mən çıxım. Arvadın gözəlliyi dillərə düşmüşdü. Onu görən heyran qalırdı. Bu arvad həm də çox mehriban, qoçax, həm də sədaqətdi bir arvadıdı. O, ərinin bir sözünü iki eləməzdi. Günnərin bir günü onnarın evinə bir tacir qonax gəldi. Bir neçə gün onnarın qonağı oldu. Gedəndə tacir kişiyə dedi:

– Qardaş, sənə bir sözüm var.

Kişi soruşdu:

– Sözün nədi?

Tacir dedi:

– Gəl birrihdə gedəh, sən mənə yoldaş ol, qazancımız nə qədər olsa, sənə o qədər mal-pul verərəm.

Kişi fikirrəşdi ki, qoy bu tacirnən gedim, nə olar, kasıb adamam, bəkə bir qədər mal-pul qazandım. Dolanışığımız yaxcı olar, həm də gedib bir dünyanı gəzərəm, görərəm nə var, nə yox. Bu fikirnən də dedi:

– Yaxcı, gedirəm.

Kişi arvadıynan halal-hümmət eliyib, tacirnən yola düzəldi.

Onnar az getdilər, üz getdilər, dərə-təpə düz getdilər, gəlib bir düzənnihdə düşərgə saldılar. Yeyib-içənnən sora başdadılar hərə öz bildiyini, eşitdiyini ordan-burdan danışmağa. Hərə bir yaxın adamını təriflədi, onun haqqında xoş sözdər söylədi. Bu kişi də söhbətə qarışdı. Arvadının gözəl xasiyyətinnən, mehribannığınnan söhbət aşdı. Onun söhbətini eşidən tacirrər gülüşdülər, bunnan kişinin acığı tutdu, dedi:

– Əyər mənim fikirrərimə inanmırsınızsa, gəlin yoxluyun. Mərşdəşəh.

Bunu eşidən tacirrərdən biri dedi:

– Doğrumu deyirsən?

Kişi dedi:

– Hə, doğru deyirəm.

Tacirrərdən biri dedi:

– Mən sənnən mərş gələrəm, şərtimiz belə olsun, mən geri qayıdacam, gedib sənin arvadınnan bir nişanə gətirəcəm.

Kişi dedi:

– Gətirə bilməzsən.

Tacir dedi:

– Gətirrəm.

Onnar mərşdəşdilər. Belə dedilər ki, tacir gedib bu kişinin arvadınnan bir nişanə gətisə, kişi düz yeddi il bu tacirə pulsuz-parasız qullux eliyəcəh, yox əyər gətirə bilməsə, tacirin bütün var-dövləti kişiyə çatacax. Onnar razılaşdılar. Tacir atına minib geri qayıtdı, kişinin arvadının yanına gəldi. Arvad o sahat onun xoş niyyətnən gəlmədiyini başa düşdü, tacirə heş üzünü də göstərmədi, qapını üzünə bağladı. Tacir hiyliyə əl atdı, çox çalışdı, arvadı daş-qaşnan, qızıl-gümüşnən, bər-bəzəynən, pal-paltarnan ələ almağa çalışdı. Ancax bunnarın heş biri bir nəticə vermədi. Arvad taciri yaxına buraxmadı kı, buraxmadı. Belə olanda tacir başqa bir hiyliyə əl atdı, gedib bir hiyləgər qarı tapdı, göndərdi arvadın yanına. Qarı şirin dilini işə saldı, dedi:

– Ay qızım, mən də kimsəsiz bir qarıyam, qoy yanında qalıb sənə hayan olum.

Arvadın qarıya yazığı gəldi, həm də fikirrəşdi ki, elə yaxcı oldu, qarı bunun yanında olsa, haqqında da söz-söhbət olmaz. Ancax atalar yaxcı deyib ki, sən saydığını say, gör fələh nə sayır. Qarı gecə yatanda gördü kü, arvadın döşünün ortasında xal var. Qarı xəlvətcə arvadın köynəyinin birini də götürüb gizdətdi. Bu köynəyin yaxasında ərinin ona bağışdadığı sancax da varıdı. Sabahısı qarı bunnarı götürüb tacirə verdi. Arvad köynəyini çox axtardı, tapa bilmədi, sora bunun üsdünnən

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

keşdi.

Arvad burda qalsın, görəh tacir neynədi. Tacir atını minib öz yoldaşının yanına yollandı. Az getdi, çox getdi, gəlib yoldaşdarına çatdı. Kişiyə arvadının köynəyini verib dedi:

– Gecə arvadının yanında olmuşam, döşünün ortasında da xalı var.

Kişinin matı-qutu qurudu, yerindəcə donub qaldı, o, mərci uduzmuşdu. Daha heş nə demədi, arvadının xəyanət elədiyini yəqinnəşdirdi. Arvadına xəbər göndərdi: "Mənə xəyanət eləmisən. Mən geri qayıdana kimi evdən çıx get, gözüm bir də səni görməsin".

Arvad hər şeyi başa düşdü, bütün bunnarın tacirin hiyləsi olduğunu annadı. Odu ku, daha evdə qalmağın mənasız olduğunu bildi. Yır-yığış eliyib evdən çıxıb getdi. Az getdi, üz getdi, dərə-təpə düz getdi, gəlib bir sövdəgərə rast oldu. Sövdəgər onu götürüb evinə gətirdi. Bir xeyləh vax kənddi arvadı sövdəgərin evində qaldı. Sövdəgər o arvadın gözəlliyini görüb ona vuruldu. Dedi:

– Gəl mənə arvad ol.

Arvad qəm dəryasına batdı. Sövdəgər onun halını görüb fikrinnən əl çəhdi. Ancax sövdəgərin zalım bir arvadı varıdı, yazığın gününü göy əskiyə bühmüşdü, ona göz verib işıx vermirdi.

Sövdəgərin bir çoxbilmiş nökəri varıdı. Bir gün o, arvada əl uzatmağ istədi, arvad onu qarğıyarax dedi:

– Görüm sənin əlin qurusun.

Bu zaman doğurdan da həmin nökərin qolu yanına düşüb qurudu. O gördü kü, daha burda yaşıya bilmiyəcəh. Sövdəgərin də ona yazığı gəldi, yüz qızıl verib dedi:

– Bacı, sən daha burda qala bilməzsən, arvadım sənə göz verib, işıx vermir, çıx başqa yerə get.

Qız sövdəgərin evinnən çıxıb yola düzəldi. Az getdi, üz getdi, dərə-təpə düz getdi, gəlib üş yol ayrıcına çıxdı. Üçüncü yolu seşdi. Gethaget gəlib çıxdı bir komuya. Sən demə, bura

bir divin evi imiş. Div arvadı evə gətirdi. Dedi:

– Sən burda dur, mən gedib dəyirmanda dən üyüdüb gəlirəm.

Divin daxmasında bir qız da varıdı. Div gedənnən sora qız təzə gələnə dedi:

– Ay qız, tez ol get, div dəyirmana yox, dişini itiləməyə getdi, indi gəlib səni yiyəcəh.

Tacirin arvadı soruşdu:

– Necə qaçım?

Divin daxmasındakı qız dedi:

– Dəyirman daşını qapının başınnan al, bir qaba da kül doldurub çarxdan as, divin oturduğu yerə də mismar çal. Sora həmin qız bir güzgü, bir darax, bir qab da su verib dedi:

– Əyər div sənin izinə düşsə, güzgünü tutub de: "Bir dih qaya ol", onda da qutara bilməsən, darağı atıb: "Dəmir tikannığ ol", – de, yenə div əl çəhməsə, suyu atıb de: "Dərin dərya ol".

Tacirin arvadı qızın dedihlərinə əməl eliyib qaşmağa başdadı. Div dişini itiliyib qayıdanda gördü kü, arvad qaçıb. Qapıdan girməh istədi, dəyirman daşı başına düşdü. Div başını tutub evə girəndə gözünə kül töküldü. Oturmax isdiyəndə yanına mıx batdı. Komadan çıxıb uca bir təpiyə çıxdı, gördü kü, arvad lap uzaxlaşıb. Div düşdü qızın izinə. Az qaldı kı, çatsın, qız tez güzgünü atıb dedi:

– Bir qaya ol.

Güzgü bir göz qırpımında qaya oldu. Div ölüm-zülüm qayadan aşıb yenə qızın dalınca düşdü. Az qaldı kı, qıza çatsın, onu parçalasın. Qız tez darağı atıb dedi:

– Dəmir tikannığ ol.

Darax dönüb tikannığa çevrildi. Div xeyləh çalışıb dəmir tikannığı da bir təhər keşdi. Başdadı yenə də arvadın dalınca qaşmağa. Az qaldı kı, qıza çatsın, qız tez suyu atıb dedi:

– Dərin dərya ol.

Su dönüb dəryaya çevrildi. Div qaldı dəryanın bu

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

üzündə, qız o biri üzündə. Div xəbər aldı:

– Bu dəryadan necə keşdin?

Qız dedi:

– Boynumnan daş asıb keşdim.

O sahat div boynunnan daş asıb dəryaya girdi. Bir az irəlliyən kimi boğulub öldü.

İndi xəbəri sizə kimnən deyim, arvaddan. Arvad çox getdi, gəlib çıxdı bir şəhərə. Gördü kü, bir adamı dara çəkillər. Soruşdu:

– Bu adamı niyə asıllar?

Biri dedi:

– O, oğrudu, ona görə də asıllar. Əyər yüz qızıl verən olsa, onu buraxallar.

Arvadın bu adama yazığı gəldi. Sövdəgərin ona verdiyi yüz qızılı verib, həmin oğrunu ölümnən xilas etdi. Oğru da onun dalınca düşdü. Gəlib ona çatdı. Bu vax onnarın qabağına bir karvan çıxdı. Oğru qışqırdı:

– Bu mənim qarabaşımdı, qoymuyun, tutun onu.

Arvad nə qədər and-aman eləsə də, ona inanmadılar. Oğru arvadı karvan sahibinə satdı, özü isə çıxıb getdi. Qız əlaşsız qalıb oğruya dedi:

– Görüm səni elə pis günə qalasan kı, özünnən iyrənəsən.

Karvanbaşı arvadı satın alıb yola düzəldi. Onnar gəlib bir dəryadan keşməli oldular. Gəmiyə minib dəryanı keçəndə tufan qopdu. Hamı suya qərq oldu, arvad bir taxta parçasının üsdündə sağ–salamat qaldı. Dalğalar vurub onu sahilə çıxartdı. O, paltarını dəyişib kişi paltarı geyindi. Gəlib bir meşiyə çıxdı. Bir neçə gün burda qaldı.

Bir gün şahzadə ova çıxmışdı. O, meşədə bu arvada rast oldu. Yazığı gəlib özü ilə götürdü.

Bunnar burda qalmaxda olsunnar, sizə xəbər verim həmin bir qolu quruyan nökərdən. Nökər arvadın izinə düşüb gəzirmiş. Eşitdi ki, qız filan paccahın sarayındadı. Günnərin

bir günü dərviş libası geyinib saraya gəldi. Min hiyləynən bir neçə gün sarayda qaldı. Şahzadənin yeməyinə zəhər qatdı. Arvadı şərə salmax isdədi. Bunu duyan arvad saraydan çıxıb qaşdı. Yenə az getdi, üz getdi, dərə-təpə düz getdi, səhər açılana yaxın gəlib özgə bir şəhərə çatdı. Qız gəlib şəhər darvazasının ağzında dayandı.

İndi xəbəri sizə kimnən deyim, həmin bu şəhərin paccahınnan. Sən demə, bir gün əvvəl bu şəhərin paccahı ölübbüş. Bu məmləkətdə də adət beləymiş ki, paccah öləndə səhər tezdən şəhərin qapılarını açallarmış. Kim birinci görünsə, onu paccah seçəllərmiş. Darvazanı açanda oğlan paltarı geyinmiş arvadı gördülər, elə bildilər ki, oğlandı. Tez onu tutub apardılar. Arvad ağlıyarax dedi:

– Axı mən neynəmişəm, məni niyə tutursunuz?

Onun sözünə heş cavab vermədilər. Qızı saraya gətirib paccah libası geyindirdilər. Sora taxta çıxartdılar. Arvad dedi:

– Mən kasıb, kimsəsiz bir adamam, mənnən paccah olmaz.

Ona heş kim qulağ asmadı. Beləliynən arvad oldu bu məmləkətin paccahı. O, ədalətdi bir paccah oldu. Xoş sədası hər tərəfə yayıldı. Onun yanına gələn xəsdələr də ümidsiz qayıtmırdı.

Arvad burda paccahlığında olsun, xəbəri verim sizə bu arvada vurulan tacirdən. Tacir səfərdən qayıdıb gəldi. Aradan bir xeyləh keşdi. Xəbər yayıldı kı, filan yerdə bir paccah var. O, həm də bütün dərddərin dərmanını bilir. Taciri götürüb ora apardılar. Yolda bir sövdəgərə ras gəldilər. Sövdəgər də nökərini bunnara qoşdu. Onnar az getdilər, üz getdilər, gəlib bir adama rast oldular. Onun bütün bədəni sağalmaz yara töhmüşdü. Həmin adam da bunnara qoşuldu. Az getdilə,. üz getdilər, gəlib həmin məmləkətə çatdılar.

Bir gün paccah bazardan çıxmışdı. Gördü kü, bir tacir ipəh gecə köynəyi satır. Onun bahalı sancağı da həmin köynəyin yaxasında. O, öz köynəyiynən sancağını tanıdı.

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Taciri, yanındakı bütün adamnarıynan saraya gətirtdi. Soruşdu:

– Bu köynəyi, bu sancağı, sənə kim verib?

Tacirin matı-qutu qurudu. Dili söz tutmadı, səsini çıxarda bilmədi. Paccah yenə onun üsdünə qışqırdı.

– Tez ol, de görüm bunnarı hardan alıbsan, sənə kim verib? Düzünü desən, səni dara çəkdirmiyəcəm. Onsuz da mən hər şeyi bilirəm. Düzünü de.

Tacir dili topux çala-çala danışmağa başdadı:

– Bir kənddinin namusdu bir arvadı varıdı. Mən onun əriynən mərş gəlmişdim, amma onun arvadı məni yaxına buraxmadı, sora mən bir qarını öyrətdim, qarı mənə hər şeyi başa saldı, onun köynəyini oğurruyub gətirdi.

Paccah hirsdənərəh soruşdu:

– Hə, sorası necə oldu, indi o arvadın əri hardadı, qarı hardadı?

Tacir dedi:

– Kişi mənə nökərçilih eliyir, qarı da evindədi.

Sora canını yara töhmüş danışmağa başdadı. Paccah dedi:

– Sənin günahın böyühdü, boynuna almasan, dərdinə əlaş yoxdu.

Kişi dedi:

– Paccah sağ olsun, mənim heş bir günahım yoxdu.

Paccah hirsdənib dedi:

– Cəllad!

Cəllad hazır oldu. Kişi qorxusunnan günahını açıb söylədi. O danışdıxca, arvadın ərinin hirsinnən dişi bağırsağını kəsirdi. Sora nökər, onnan sora, sövdəgər hər şeyi bir-bir açıb danışmağa başdadılar. Paccah onnarın hamısını dar ağacınnan asdırb dedi:

– Qoy bir də heş kim belə günah işdər tutmasın.

Ona köməh eliyib yüz qızıl verib yola salan sövdəgərə isə çoxlu bəxşiş verib yola saldı.

Ərinin dərddən beli bükülmüşdü. Paccah onnan soruşdu:

– İndi arvadını sağ-salamat görsən, onnan necə rəftar

edərdin?

Yazıx kişi dedi:

– Canımı ona bağışdıyardım. Günah məndədi ki, onu günahkar saymışam. Müxənnət adamnarın sözdərinə inanmışam. Kişi belə deyib hönkür-hönkür ağladı. Bu zaman paccah papağını başınnan çıxardıb ərini qucaxladı. Hamı mat qalmışdı. Vəfalı ər-arvad göz yaşdarı içində bir-birini qucaxladılar. Arvad başına gələnnəri ərinə danışdı, onu taxta əyləşdirib paccah elədi.

Qırx gün, qırx gecə toy çaldılar, murada çatdılar, mən də yedim, işdim, sora sizə də bir qazan plov gətirdim, yolda bir it qazanı əlimnən alıb qaşdı.

Göydən üç alma düşdü, biri mənim, biri özümün, biri də bacadan baxıb “istəmirəm” deyənnərin.

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

BƏHRAMIN NAĞILI

Biri varmış, biri yoxmuş, keşmiş zamannarda Bəhman kişi addı bir ilxıçı varmış. Onun atdarının şöhrəti uzax-uzax məmləkətdəri, ölkələri dolaşar, addı-sannı adamnar onnan at alarmışdar. Lakin o, ilxısındakı atdardan birini heş kəsə verməz, ona xüsusi qayğı, qullux göstərərmiş.

Ömür-gününü at üsdündə keçirdən Bəhman kişi bir gün xəsdələnib yatağa düşür. Uzun müddət xəsdə yatan, bütün var-dövlətini xəşdiyən, nəhayət, əlaşsız qalan Bəhman kişi canı qədər sevdiyi, maral baxışdı, ceyran qaçışdı, qiyməti heş nəynən ölçülmüyən atını onu sağaldan adama – loğmana verəcəyini vəd edir. Lakin həkimlihdən başı çıxannardan heş biri Bəhman kişinin mərəzinin əlacını tapa bilmir. Ömrünün sona çatdığını duyan Bəhman kişi gözünün ağı-qarası bircə oğlunu – Bəhramı yanına çağırıb deyir:

– Oğlum, hiss eliyirəm ki, ömrümün sonu yaxınnaşıb. Arzu etmişdim ki, atımı məni malicə eliyən ağıllı adama verəcəm. Lakin bu, mənə qismət olmadı. Odu ku, sən mənim vəsiyyətimi yerinə yetir, atımı dünyanın ən axmax adamına ver, – deyib Bəhman kişi əbədi olarax gözdərini yumur.

Atasının dəfninə başı qatışan Bəhram Bəhman kişinin vəsiyyətini unudur. Bu minvalla bir neçə ay keçir. Bir gün Bəhram yuxuda atasını kədərri vəziyyətdə və təhlükə içində görüb ilan vurmuş kimi ayılır. Bir qədər fikrə getdihdən sora o, bu qarışıx yuxunu yozmağ üçün bir müdrüh qocanın yanına gəlir. Qoca Bəhramı diqqətnən dinniyib, ağır-ağır qəlyanını ağzına qoyur, bir qədər fikrə gedib təmkinnən dillənir:

– Yaxcı fikirrəş, atan rəhmətə gedəndə sənə nə vəsiyyət etmişdi? Sən atanın vəsiyyətinə əməl etmədiyinə görə, o, sənnən narazıdı.

Müdrüh qocanın bu sözünü eşidən Bəhram barmağını dişdiyir.

Bir neçə günnən sora dünyanın ən axmağ adamını

tapbax, atasının vəsiyyətini yerinə yetirməh üçün yola düşür. Neçə kənddər keçir, şəhərrər gəzir, lakin hər gördüyü, ras gəldiyi adamda bir ağıllı cəhət görür.

Şər qarışan zaman fikirri-fikirri bir imarətin qabağınnan keçəndə ayağını sürüyür, içəridən bir gözəl musiqi səsi eşidib qapını döyür. Qərib olduğunu bildirir. Gəldiyi yer bağlı-bağçalı, qullu-qaravaşdı bir iqamətgahıdı və hərə öz işi ilə məşğuludu. Lakin kənarda bir nəfər saqqallı kişi taxdın üsdündə oturub, həzin-həzin, qəmli-qəmli tar çalır. Hətta quşdar da nəğməsini kəsərəh bu ecazkar səsə qulağ asırdı.

Bəhram gecələdihdən sora səhər ev yiyəsiynən vidalaşarax getməyə hazırraşır. Sonda qocuya yaxınnaşarax: «Ey dünyanın müdrüh və dərdsiz-qəmsiz qocası. Salamat qal», – deyib qocanın əllərini sıxıb getməh isdiyir. Bu vax qoca hönkür-hönkür ağlıyır. Bəhram bu sirri öyrənməh isdiyir. Lakin qoca bu sirri açmır. Bəhram həmin iqamətgahı tərk edir. Yolda o, dərvişnən rasdaşır, oturub nahar eliyir, söhbət edillər. Bəhram keşdiyi yerrərdən, gördühlərinnən, bir də öz səfərinin məqsədinnən söz açır. Rastdaşdığı qoca tarçalan haqqında dərvişə danışır. Sora o, dərvişnən vidalaşarax yoluna davam etməh isdiyir. O, dərvişdən ayrılarkən «oğlum, atını həmin qocuya bağışdasan, həm atanın vəsiyyətinə əməl etmiş olar, həm də qocanın sirrini bilərsən», deyən dərviş Bəhrama səfərində uğurrar arzuluyur. O, qocanın sirrini bu dəfə dərvişdən öyrənməh isdiyir. Lakin dərviş bu sirri qocuya açmır, deyir ki, sən atanın vəsiyyətini ona çatdır. Əgər o, atı qəbul etsə, mən o sirri sənə açaram.

Əlaşsız qalan Bəhram yenidən qocanın yaşadığı məmləkətə qayıdır, qoca ilə görüşür, başına gələn əhvalatdarı ona danışır, dərvişin dediyi kimi edir. Qoca Bəhramı dinniyərək: «Bəli, həmin at mənə çatmalıdı», – deyərəh atı qəbul edir, ona bir kisə qızıl bağışdıyır. Sora isə öz sirrini ona danışır:

– Gördüyün bu ev-eşih, qul-qaravaş hamısı mənimdi. Gənşdiyimdə gözəl bir qıznan evlənmişdim. Biz bir-birimizi

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

dəlicəsinə sevirdih. Buna görə də bir-birimizə söz vermişdih ki, hansı birimiz xəsdələnsəh, ya ölsəh daha heç kimnən ülfət bağlamıyacıyıx. Günnərin bir günü sevdiyim qadın bərh xəsdələndi, ölümcül hala düşdü. Məni yanına çağırarax: «Vədinə əməl et, mən daha ölürəm», – dedi. Mən də dərhal özümü kişilihdən məhrum etdim. Lakin tale elə gətirdi ki, o ölmədi, sağaldı, başqa bir adama ərə getdi. Mən isə gördüyün kimi günümü tar çalmağnan keçirirəm. Bəli, dünyanın ən dərddi və axmağ adamı mənəm və at da mənə çatmalıdı. Oğul, mənim nəsihətimnən nəticə çıxart.

Bəhram qocadan ayrılıb evlərinə qayıtdı.

ÜŞ BACININ NAĞILI

Biri varıdı, biri yoxudu, bir qoca kişiynən bir qoca arvad varıdı. Bunnarın da üş qızı varıdı. Kişi naxırçıydı. Acdıx vaxdarı olduğuna görə, haqq olarax hərə əlinə keçənnən, kimisi bir parça çörəh, kimisi bir girvəngə un naxırçıya verərdilər.

Bir gün bunnarın bir az unu olur. Axşam kişi naxırdan qayıdannan sora deyir:

– Ay arvad, bir parça quru çörəhdən-zaddan nəyimiz varsa, gəti yeyəh.

Arvad deyir:

– Çörəyimiz yoxdu, bir az unumuz var.

Kişi arvadına deyir:

– Qızdar yatannan sora, unnan çörəh bişir, bir az yeyəh, qalanını da mənim heybəmə qoyarsan, səhər naxırda yeyərəm.

Qızdardan biri bu söhbəti eşidir, o birrərinə də deyir. Axşam olanda onnar yerrərinə girib yalannan gözdərini yumullar. Arvad da çörəyi bişirir, əriynən ikisi yeyillər, qalanını da ərinin heybəsinə qoyur, sora yatıllar.

Qızdar ata-analarını yuxuya verib heybədəki çörəyi yeyillər.

Kişi tezdən durur heybəsini də götürüb gedir naxıra. Günorta heybəsini açır kı, axşamnan qalan çörəyi yesin. Baxıb görür kü, heş nə yoxdu. O sahat başa düşür kü, çörəyi qızdarı yeyib. Axşam kişi evə gələndə əhvalatı arvadına danışıb deyir ki, qızdarı aparıb meşədə azdıracam. Arvad ərinə nə qədər yalvarır kı, a kişi, uşaxdılar, qanmıyıblar, kişi onun sözünə baxmır, qızdarının yanına gəlib deyir:

– Bir azdan sizi dayınızgilə aparacam.

Bunu eşidəndə qızdar sevinillər. Axşam düşənnən sora ataları onnarı götürüb yola düşür. Gəlib bir meşənin içərisinə çatanda ataları deyir:

– Siz burda dayanın, dayınızgilin bir bəd itdəri var, həmişə açıx olur, gedim onnara deyim ki, iti bağlasınnar sora

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

gəlib sizi aparacam.

Ataları bunu deyib gözdən itir. Qızdar nə qədər gözdüyüllər, ataları gəlmir.

Meşənin kənarında bir paccah yaşıyırmış. Bu paccahın da atı xurma yeyərmiş. Kiçih qız bu paccahın atının axuruna dadanır. Hər gün paccahın atının axuruna tökülən xurmadan həm özü yeyirmiş, həm də bacılarına gətirirmiş.

Paccah bir gün mehtərinə əmir edir ki, atı hazırra mən vəzir-vəkilnən ova çıxacam.

Mehtər deyir:

– Baş üstə, ağa.

Mehtər atı hazırrıyır, sora paccahın yanına gedir və deyir:

– Paccah sağ olsun, əmriniz yerinə yetirildi.

Paccah o saat vəzir-vəkilə xəbər göndərir ki, hazır olsunnar, ova gedirih.

Atı paccahın yanına çəkillər. Paccah görür kü, at çox arıxdı.

Mehtərə deyir:

– At niyə belə arıxdı? Yəqin bunun yemini sən yeyirsən.

Mehtər and-aman eliyir ki, xəbəri yoxdu. Paccah deyir:

– Onda yəqin atın axuruna kimsə dadanıb. Onu axtarıb tapbalısan. Əgər tapbasan, sənin boynunu vurduracam.

Bu hadisədən sora mehtər hər gün atın yemini axura töküb, qapının arxasında gizdənir. Bir gün görür kü, bir kölgə gəlib içəri girdi. Mehtər bir dəfə dəymir, iki dəfə dəymir, üçüncüdə bu qızı tutub aparır paccahın yanına. Paccah qızdan soruşur:

– Ay qız, sən kimsən?

Qız başına gələn əhvalatı paccaha danışır. Paccah deyir:

– Get, o biri bacılarını da çağır gəlsinnər bura.

Qız gəlib əhvalatı bacılarına danışır. Onnar üçü də durub gəlillər paccahın yanına.

Paccah böyüh qızdan soruşur:

– De görüm, əlinnən nə iş gəlir?

Böyüh qız deyir:

– Paccah sağ olsun, mən bir yumurta bişirərəm, ev dolusu adam yeyər, hələ artıx da qalar.

Paccah ortancıl qızdan soruşur:

– Bəs sənin əlinnən nə gəlir?

Ortancıl deyir:

– Paccah sağ olsun, mən bir xalça toxuyaram, ev dolusu adam oturar, hələ artığı yerdə qalar.

Növbə kiçih qıza çatanda deyir:

– Paccah sağ olsun, mən bir oğlan doğaram, bir üzü qızıl, bir üzü gümüş.

Paccah qızdarı dinniyənnən sora, böyüh qızı aşbazdığa, ortancılı xalça-palaz toxumağa təyin edir, kiçih qıza da qırx gün, qırx gecə toy edib oğluna alır.

Vax gəlir, vədə tamam olur, paccahın gəlini bir oğlan doğur, bir üzü qızıl, bir üzü gümüş. Paccah bu xəbəri eşitdihdə böyüh şaddıx eliyir. Xəbər gətirənnərə xələt verir.

Bu tərəfdən, bu xəbər böyüh bacıya da çatır. Onun bacısına paxıllığı tutur. O, uşağı bacısının yanınnan götürüb, onun yanına it küçüyü qoyur.

Uşağı da bir qutuya qoyub, dəyirman çayına atır.

Paccaha yenidən xəbər çatır kı, bəs bayaxkı xəbər yalan imiş, gəlinin it küçüyü doğub. Paccah bu xəbəri eşidən kimi əmir edir ki, gəlini qırx arşınnıx bir quyuya salsınnar. Hər gün bir az su, bir az da çörəh verin.

Bunnar burda qalsın, sizə kimnən xəbər verim, uşaxdan. Dəyirmançı görür kü, çayda bir qutu üzür. Dəyirmançını marax götürür kü, görəsən bu qutudakı nədi?

Buna görə də gəlib çaydan qutunu tutub aparır. Qutunun ağzını açanda görür kü, qutuda bir uşax var, bir üzü qızıl, bir üzü gümüş. O, gözdərinə inanmır. Bir-iki dəfə kirpih çalır, görür kü, yox, gördüyü həqiqətdi.

Demə, dəyirmançı sonsuz imiş. Uşağı götürüb sevinə-

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

sevinə evlərinə aparır. Arvadı da bu xəbəri eşidəndə sevinir.

Nağıllarda vax tez ötür, bir gün bir il olur, nəhayət, uşax böyüyüb altı yaşına çatır. Bir gün o, məhlə uşaxlarıynan aşıx-aşıx oynuyurmuş. Oynuyan zaman deyir:

– Aşığım-aşığım xan dur, görüm şah babam gəlirmi?

Paccah da bu vax öz vəzir-vəkiliynən ova çıxıbmış. Ovdan qayıdanda yolu həmin dəyirmançının evinin yanınnan düşür. O, uşağın bu sözdərini eşidir. Uşağı yanına çağırıb deyir:

– Get mənə su gəti.

Uşax qaça-qaça gəlib anasınnan su alıb gətirir ancax yarı yolda dağıdır. Təzədən geri qayıdıb su gətirir. Paccah suyu içənnən sora soruşur:

– De görüm, əvvəlcə suyu niyə dağıtdın?

Uşax cavab verir:

– Paccah sağ olsun, əvvəlcə gətirdiyim su isti idi, gördüm kü, şah babam hirsdidi, ona görə gedib sərin su gətirdim.

Paccah baxıb görür kü, bu uşax bunnar tərəfə çox oxşuyur. Həm də bu uşağın bir üzü qızıl, bir üzü gümüşdü.

Bunnan paccah şübhüyə düşür. Uşaxdan soruşur:

– De görüm, sən kimin oğlusan?

Uşaq deyir:

– Paccah sağ olsun, mən dəyirmançının oğluyam.

Paccah heş bir söz demir, atını sürüb gedir. Axşam paccah tərki-libas olub gəlir dəyirmançının evinə və deyir:

– Qəribəm, bu gecəliyə məni Allah qonağı saxlıyın.

Dəyirmançı deyir:

– Buyur, qardaş. Allaha da qurban olum, qonağına da.

Bəli, paccah keçib əyləşir. Ortuya süfrə salınır, çay-çörəh gəlir, yeyillər-içillər, sora surfa yığışdırılır. Başdıyıllar ordan-burdan söhbət eləməyə. Söhbət əsnasında paccah dəyirmançıdan uşax haqqında soruşur. Dəyirmançı da olan əhvalatı ona danışır. Paccah heş bir söz demir. Gecəni orda qalır, səhər tezdən durub gedir. Gedib taxta çıxır və fərraşdardan birini çağırıb əmir edir:

– Gedin filan dəyirmançını mənim yanıma gətirin.

Fərraşdar gedillər dəyirmançının evinə, deyillər ki, paccah səni çağırır. Dəyirmançı heş bir söz demiyib düşür yola. Yol boyu fikirrəşir ki, görəsən paccah məni neyniyir, nə üçün çağırır.

Nəhayət, gəlib çatır saraya. İçəri girəndə görür kü, axşam onnarda qonax qalan kişi budu oturub taxda.

Paccah deyir:

– Kişi, sən mənim nəvəmi qaytar!

Dəyirmançı soruşur:

– Paccah sağ olsun, hansı nəvənizi?

Paccah deyir:

– Sənin oğlun mənim nəvəmdi. Mən sənə onun ağırrığında qızıl verərəm, əvəzində nəvəmi verərsən.

Bəli, dəyirmançı gedib uşağı gətirir. Tərəzinin bir gözünə uşağı qoyullar, bir gözünə də qızılı.

Beləliynən, paccah nəvəsini dəyirmançıdan alır. Gəlinini də quyudan çıxartdırır. Gəlin quyudan çıxannan sora əhvalatı paccaha danışır. Paccah əmir edir, böyüh bacını qırx metirrik quyuya salıllar. Təzədən qırx gün, qırx gecə şaddıx eliyillər.

Onnar yedilər, işdilər, yerə keşdilər, xeyirə rəhmət, şərə nəhlət dedilər. Siz də yeyin, için, dövrə keçin.

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

QADIN SƏDAQƏTİ VƏ YA QARA SÖVDƏGAR

Həkatı–hükatı. İldə verər yeddi tavar zəkatı. Boyaqçı küpün açdı, boyadı məmləkəti. Milçək mənzilli Kür keçdim. Yaba ilə dovğa içdim. Bu boyda yalan görməmişdim...

Belə rəvayət edirlər ki, müsəlman ölkəsində çox varlı bir sövdəgar var idi. Həmin sövdəgarın gözünün ağı–qarası bir oğlu var idi. Oğlan gözəl olduğu qədər də fərasətli və gözüaçıq idi.

Şəhərin ən varlı ailəsindən olan gözəl-göyçək bir qızı sövdəgar oğluna nişanlamışdı. Payızın əvvəli idi. Sövdəgar oğluna toy edib, təntənə ilə gəlin gətirdi. Həmin axşam yoldaşları sövdəgara dedilər ki, gəmi çıxıb getmək istəyir. Sövdəgar başılovlu oğlunu yanına çağırıb deyir ki, bir dəqiqə də olsa kecikmək olmaz. Özünü tez gəmiyə çatdır, yoxsa evimiz yıxılar.

Oğlan gəlinin üzünü görmədən yola düşür və tacirlərlə birgə gəmiyə minir. Gəminin yolu uzaq ölkələrə idi. Bir neçə gün yol gedirlər. Gecənin bir aləmində dənizdə fırtına başlayır. Gəmi suyun üzərində saman çöpü kimi gah fişəngə qalxır, gah da elə bil dənizin dibinə gedir. Nəhayət, şiddətli bir dalğa gəmini bir qayaya çırpır. Gəmi və gəmidəkilər məhv olur. Qəzadan sövdəgarın oğlu bir taxta parçasının üstünə düşür. Səhər açılanadək oğlan özünə gəlir. Dənizdə əsən külək üstündə həmin oğlanın olduğu taxta parçasını suyun üzərində qarşısına alıb qovur. Nəhayət, oğlan bir də görür ki, taxta parçası qəzaya uğramış bir gəmiyə yaxınlaşır. O birtəhər gəmiyə çıxa bilir. Oğlan gəmini gəzib dolaşır və görür ki, burada azı altı aylıq azuqə var. Bu qayda ilə oğlan gəmidə yaşayıb, ümidini Allaha bağlayır.

Oğlanın gəmidə yaşamasından üç gün sonra, görür ki, dənizdən üç qız çıxıb gəmiyə tamaşa eləyir. Bu hadisə iki-üç gün belə davam edir. O, qızların sudan hansı vaxt çıxdıqlarını dəqiq yadında saxlayır. O, qızların sudan çıxdığı yerin yaxınlığında gizlənir. Qızlar sudan çıxıb gəmiyə tamaşa edəndə, əlini atıb qızın birinin biləgindən yapışıb gəmiyə çıxarır.

Gəmiyə çıxarılan qız quruya öyrənmədiyi üçün təngənəfəs olur. Ona görə də oğlan vaxtaşırı qızı suya salıb çıxarır. Bir müddətdən sonra qız quruya öyrənir. Oğlan dənizdən balıq tutaraq, aclıqlarını dəf edir. Gəmidə oğlanla qız yaxınlıq edir. Doqquz ay, doqquz gün, doqquz saat, doqquz dəqiqə, doqquz saniyə tamam olandan sonra, qız bir oğlan uşağı doğur.

Xeyli müddət gəmidə yaşadıqdan sonra dəniz qızı oğlandan icazə istəyir ki, izin ver, gedim ata-anamı görüm. Tez qayıdıram. Oğlan dəniz qızına icazə verir. Qız vaxtında qayıtmadığı üçün oğlu deyir: “Ata, icazə ver gedim anamı gətirim“. Atası icazə verir. Oğlu isə vaxtında qayıtmır. Təklik Qara sövdəgarı kor edir. Bir gün oturub öz halına ağlayırdı. Bu vaxt deyirlər ki, bir naqqa balıq qərbdən-şərqə doğru üzür. Qara sövdəgar gəmidə olan bütün alətlərdən istifadə edərək böyük bir qarmaq düzəldir. Naqqa gəlib keçərkən qarmağı onun quyruğuna keçirir. Qarmağın bir ucu gəmiyə bənd edilmişdi. Naqqa sahil boyu üzürdü. Bir meşənin yaxınlığından keçərkən Qara sövdəgar kəndiri həlqə edərək bir yekə daşa atır və sahilə çıxır. Bir qədər meşədə gəzərək meyvə ilə qidalanır. Axşamüstü qurd-quşdan qorunmaq üçün bir uca ağaca dırmaşıb, budaqlar arasında özünə yer düzəldir. Axşamdan bir qədər keçmiş bir meymun ağacın dibinə gələrək, ağacdakı adama işarə edir ki, yerə düşsün. Sövdəgər qorxudan meymunun tələbini yerinə yetirir. Meymun onun dalınca gəlməyi əmr edir. Bir qədər getdikdən sonra bir mağaraya daxil olurlar. Gündüzlər, gecələr müəyyən vaxtlarda ov edirlər.

Meymun mağaradan çıxan kimi Qara sövdəgar da mağaradan çıxır. Bir dəfə meşəni gəzərkən sövdəgar təknəyə oxşar bir ağac qalığı tapır və onu dənizin lap yaxınlığına sürüyür. Sabahısı meymun mağaradan çıxıb ova getdikdən sonra Qara sövdəgar sahilə gəlir. Təknəni suya salaraq onun içinə atılır. Neçə gün, neçə gecə yol getməsindən xəbəri

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

olmur. Çünki acından bayılmışdı. Nəhayət, külək içində Qara sövdəgar olan təknəni bir limana gətirir. Sahildə olan adamlar təknəni və içərisində bir qaraltı görürlər. Onlardan iki nəfəri qayığa minib, təknədəki adamın huşunu itirdiyini görürlər. Ona tez yemək və su verirlər. Qara sövdəgar özünə gəldikdən sonra adamlar onu şəhər başçısının yanına aparırlar. Başçı onu dinlədikdən sonra deyir: Biz sənə iki təklif edirik. Əgər gedəcəksənsə, sənin üçün pul yığaq, yola salaq, yox, əgər qalmaq istəyirsənsə, səni evləndirək. Qara sövdəgar ikinci təklifi qəbul edir. Başçı adam göndərir, bir qadın gətirirlər. Qadının və kişinin razılığını alandan sonra onların kəbinini kəsirlər. Qadın ərini evinə aparır. Kişi görür ki, bunun dövlətinin qədəri-qəsəmi yoxdur.

Payızın axırı idi. Qadın iki yəhərli at gətirdi. Ərinə deyir ki, gəl gedək, qoyun sürümüzü, naxırımızı və ilxımızı yoxlayaq. Bunlar ata süvar olub otlaqlara gedirlər, sürüləri və ilxını yoxlayıb, axşamüstü evə qayıdırlar. Həmin adamlar nazik paltarda idi. Soyuq kişiyə bərk kar edir. Evə çata-çatda kişi deyir:

– Pah atonnan, nə yaman soyuqdur. Bu sözü eşidəndə arvad üzünü kişiyə tutub deyir:

– Sən Allahın işinə qarışdın. Bizimki tutmaz.

Qadın darvazadan içəri girib qapını bağlayır. Kişi nə qədər yalvar-yaxar edirsə, qadın ona cavab belə vermir. Bundan sonra Qara sövdəgar fikirləşir ki, bunların qadınları belədir. Kişilər bilsələr, məni öldürərlər. Ona görə də gecəykən həmin yerdən baş götürüb qaçır. Sövdəgar bir neçə gün acsusuz yol getdikdən sonra bir şəhərə çatır. O, məscidin həyətinə gedir. Günorta namazından çıxan camaat yad bir adamın həyətdə oturub başını döşünə doğru əydiyini görür. Həmin adamı axundun yanına aparırlar. Axund deyir:

– Əgər burada qalacaqsansa, sənə bir qız verək, bizimlə yaşa.

Sövdəgar razılıq verir.

Axundun göstərişinə əməl edərək gözəl-göyçək bir qız gətirirlər. Axund bunların kəbinin kəsir. Kişi ilə arvad bir müddət yaşayırlar. Günlərin bir günü arvad ölür. Kişi qəm dəryasına qərq olur. Sövdəgar buradakı həyatından çox razı idi. Ona görə ki, arvadı onu çox əzizlər, hər sözünü can-başla yerinə yetirirdi. Meyiti dəfn üçün hazırlayandan sonra ağsaqqallar kişinin yanına gəldilər. Onlar kişiyə ürək-dirək verdikdən sonra dedilər ki, hazırlaş. Sövdəgar niyə hazırlaşdığın onlardan soruşdu. Cavab verdilər ki, bizdə qayda belədir, kişi öləndə arvadı da onunla o dünyaya yola salırıq. Həmçinin arvad öləndə də belə edirik.

Bəli, camaat evdən kişi üçün altı aylıq ruzi götürüb dəfn yerinə gəldilər. Sövdəgar bütün bu işlərə mat qalmışdı. Bu yerdə kişinin belinə ip bağlayıb dərin bir quyuya salladılar. Kişi meyiti açıb bir tərəfə tulladı. Sonra onun üçün hazırlanmış yemək-içməyi quyuya salladılar. Qara sövdəgarın ağılı üstünə gələndən sonra, buranın çox geniş yer olduğunu və çoxlu insan sümüklərini nəzərdən keçirdi.

Beləliklə, sövdəgar quyuda qənaətlə gün keçirməyə başladı. Bir gün quyunun ağzında səs-küy olduğunu eşitdi. Bir də gördü ki, bir arvad salladılar. O, arvadın belindən ipi açdı, sonra kişinin meyitini və var-dövlətini, yemək-içməyini növbə ilə salladılar. Bütün bunları qaydaya salandan sonra sövdəgar qadına diqqət yetirdi. Arvad, nə arvad, yemə-içmə xəttixalına, gül camalına tamaşa elə. Yetkinlik yaşına çatmış bu arvadla meyit damında gün keçirən sövdəgar günlərini başa vururdu. Bunlar burada çoxmu qaldı, azmı qaldı, deyə bilmərəm, bircə onu deyə bilərəm ki, kişi növbəti dəfn zamanı diri göndərilən qadın və ya kişi olsun, onları öldürüb və yemək-içməyini özlərinə götürürdülər.

Bir gün səhər tezdən yuxudan duran sövdəgar eşitdi ki, yaxınlıqda hənirti var. O, səssiz addımlarla səs gələn tərəfə gəldi. Gördü ki, bir tülkü təzə meyitin ətindən yeyir. Tülkü insanın ona yaxınlaşdığını görüb, qaçmağa başladı, sövdəgar

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

onun arxasınca getdi, gördü ki, tülkü bir lağıma girdi. Tülkü lağımdan çıxandan sonra çöl tərəfdən meyitlər olan yerə işıq düşdü.

Sövdəgar yatdığı yerə gəldi. O, arvadı yuxudan oyatdı. Tülkü əhvalatını söyləyəndən sonra dedi ki, hazırlaş, işıqlı dünyaya çıxacağıq. Bəli, bunlar qiymətdə ağır, vəzndə yüngül, gücləri çatana qədər qiymətli şeylərdən götürdülər. Qadın üçün bir dəst kişi paltarı götürdülər.

Lağımın ağzına gəldilər. Lağım dar olduğu üçün paltarlarını soyundular. Qiymətli şeyləri və paltarlarını boxçaya yığıb ayaqlarına bağladılar. Kişi qabaqda, arvad da onun dalınca süründülər. Çox əzab-əziyyətdən sonra işıqlı dünyaya çıxdılar. Bu yer dənizin sahili idi. Onlar gördülər ki, uzaqdan bir gəmi gəlir. Bir ağacın başına parça dolayıb gəmiyə işarə verdilər. Gəmi sahilə yan aldı. Gəmidən iki qayıq suya saldılar. Həmin adamları gəmiyə apardılar. Gəmidə rahatlanandan sonra gəmi başçısı onlara yaxınlaşıb sorğu-suala tutdu. Arvad hələ kişi libasında idi. Gəmi başçısı onun gözəl qız olduğun başa düşmüşdü. Gəmi başçısı öz yerinə qayıtdıqdan sonra adamların içərisinə gəlib dedi ki, camaat gəmi batmaq üzrədir. Gəmidə artıq adam var. O adam dənizə atılmalıdır. Adamlar təşvişə düşdülər.

Bunu görən gəmi başçısı dedi:

– Biz bu işi ədalətlə həll etməliyik. Çöp ataq, çöp kimə düşsə, o adam suya atılmalıdır. Hiyləgər gəmi başçısı elə etdi ki, suya atılma çöpü Qara sövdəgara düşdü.

Mancanaq quruldu. Başıbəlalı Qara Sövdəgarı mancanağa qoyub dənizə atdılar. Sövdəgar havada olarkən dənizdən bir adam çıxıb qışqırdı:

– Qorxma, ata, gəl!

Dənizdən çıxıb sövdəgarı xilas edən onun dəniz qızından olan oğlu idi. Oğlan atasını gəmiyə gətirdi. Gəmi başçısını və onun tərəfdarlarını dənizə tulladı. Demə, həmin dənizdən çıxan qız – oğlanın anası dəniz padşahının qızı imiş. Oğlanın əmri ilə

gəmini hərəkətə gətirdilər. Gəmi limana gəldi. Gəmi başçısının nə qədər əmlakı var idi sahilə daşıdılar. Gəmi də Qara Sövdəgarın ixtiyarına keçdi. Oğlan sağollaşıb, dənizə baş vurdu.

Qara Sövdəgar gördü ki, bura öz şəhəridir. Neçə illər bundan əqdəm həmin limandan yola düşübdür. O, öz şəhərinə gəldiyinə sevindi. Pillələrlə yuxarı qalxdılar. Qara Sövdəgar gördü ki, pillənin lap qurtaracağında bir qadın oturmuşdur... Onun saçları ağappaqdır. Qadın gəlib keçənlərdən kimi isə soruşur. Onlar qadının bərabərinə çatanda, istədi qadına ianə versin. Qadın ağlayaraq, ianəni rədd etdi. Qadın bunlardan neçə il bundan qabaq, toy günü gəmiyə minərək sövdəgarlığa getmiş ərini soruşdu. Qara Sövdəgar fikrə getdi. Qadını sorğu-suala tutdu. Gördü ki, bu onun arvadıdır. O, arvadı yerindən qaldıraraq başa saldı ki, həmin arvadın əridir.

Qara Sövdəgar arvadı ilə öz mülkünə gəldi. Agah oldu ki, ata-anası onun fərağına dözməyib dünyalarını dəyişmişlər. Qayınatası və qayınanası öləndən sonra gəlin hər gün limana gəlib pillələrin qurtaracağında oturub ərini soraqlamışdır.

Budur qadının sədaqəti!

Qara Sövdəgar gəmiçidən qalan var–dövləti evinə daşıtdırdı. İstəkli qadınları ilə xoş gün keçirməyə başladı.

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

MÜRSƏLİN NAĞILI

Bir varmış, biri yox imiş. Bir kişi varmış. Bu kişinin övladı yoxmuş. Bir günləri bu kişi ağacın altında oturmuşdu. Bunun yanında bataqlıq var idi. Bu bataqlıqdan bir cırcırama çıxıb bu kişinin üstünə yeridi. Kişi nə qədər elədisə, cırcırama əl çəkmədi. Axırda cırcırama kişiyə dedi ki, mən cırcırama deyiləm. Mən bir qızam və dönüb gözəl bir qız oldu. Kişi qızı götürüb evlərinə gəldi.

Kişi bir gün qıza dedi ki, ölürəm. Qız dedi ki, mən olan yerdə ölməzsən. Kişi dedi ki, axı hamı öləcək. Qız dedi, yox. Sübut etmək üçün onlar bir çayın kənarına gəldilər. Qız özünü suya tulladı. İki saatdan sonra çıxdı. Qız dedi:

– İnanırsanmı?

Kişi dedi, yox. İkinci dəfə bunlar ağac qırıb tonqal yandırdılar, qız özünü tonqala atdı. Özü də tonqal yanıb qurtarandan sonra çıxdı. Kişi yenə inanmadı. Kişi dedi ki, yəqin sənin istikeçməz paltarın var. Qız xəncəri kişiyə verib dedi ki, məni doğra. Kişi hirslənmişdi. Qızı tikə-tikə doğradı. On dəqiqədən sonra qızı diri gördü. Kişi qıza dedi ki, sən sehrlisən. Bir dəfə qız güzgünü verib kişiyə dedi ki, özünə bir bax. Kişi baxanda gördü ki, o, cavan bir oğlandır. Qız bir gün üzüyünü çıxarıb kişiyə göstərdi, orada o, gözəl bir qız gördü. Qız kişiyə dedi ki, həmin gördüyün qızı sənə alacam. Qız kişini alma edib cibinə qoydu. Onlar qızın sərhədinə qədər gəlib çatdılar. Qız kişiyə dedi ki, burdan o yana özün tək gedəcəksən. Üç yol var: sən orta yolla get, üç gündən sonra qabağına iki çay çıxacaq. Bu çayın biri od çayı, ikincisi qurğuşun çayı. Bu çaylardan sonra qabağına üç heyvan çıxacaq: aslan, pələng və qaplan. Bunlardan kənar qaçarsan. Ondan sonra qız olan yerə çatacaqsan, kişiynən qız halallaşıb yola düşür. Qız dediyi yolla gedir. Qənşərinə od çayı çıxır. Kişi baxıb görür ki, bu çaydan keçmək mümkün deyil. Oturub namaz qılır. Allaha yalvarır ki, çayı keçə bilsin. Birdən çayın

ortasından yol açılır. Bir qədər gedəndən sonra ikinci çaya – qurğuşun çayına rast gəlir. Kişi yenə namaz qılır və dua edir. Bu çaydan da salamat keçir. Tez yerə oturub namaz qıldı, Allahı çağırdı. Yer aralandı, kişi yerə girdi. Aslan sovuşub keçdi. Kişi yenə yerdən üzə çıxdı. Qaplan rast gəldi. Kişi namazını bitirib Allaha dua etdi. Qəflətən kərtənkələyə dönüb kolun altına soxuldu. Qaplan keçib gedəndən sonra Allaha dua etdi. Kərtənkələ yenə kişi oldu. Kişi bir qədər gedəndən sonra pələngi gördü. Yerə oturub namazını qıldı, Allaha dua etdi. Quş olub pələngdən uzaq bir yerə uçub getdi. Sonra yenə insan şəklinə qayıdır. Kişi bir qədər yol gedəndən sonra bir körpüyə rast gəldi. Körpünün üstündə bu sözlər yazılmışdı: burdan keçən adamın ya başı, ya leşi, ya da döşün qoyub gedər. Kişi baxıb gördü ki, bir qalaça var. Qalaça adam başından və ya leşindən düzəldilib. Kişi ora getməyin mənasız olduğunu bildi. Kişi yenə körpünün yanına qayıtdı. O tayda görünən adamnan soruşdu:

– Ay adam, kimsən, nəçisən?

Oradakı adam dedi:

– Bu vaxta qədər bu sözü xəbər alan yox idi. Sən xəbər alırsan deyəcəm:

Məni atam dayım oğluna verirdi. Mən getmirdim, bir yoxsul oğluna vurulmuşdum. Oğlan gündə mənim yanıma gəlirdi. Atam bir bəhanə ilə həmin oğlanı rədd etmək istəyir. Oğlana çoxlu qızıl verir ki, get filankəsin qızı ilə evlən. Oğlan gedib həmin pulla varlı bir kişinin qızını almalı olur. Toy günü atam gəlib mənə dedi ki, qızım, səni dayın oğluna verirəm. Mən dedim ki, xeyr, mən o oğlana gedəcəm. Atam dedi ki, həmin oğlan başqa bir qızla evlənir, özü də bu gün toyudur. Mən inanmadım. Atam mənə kişi paltarı geyindirib həmin toya apardı. Gördüm ki, doğrudan da, bəy həmən mən istəyən oğlandır. Özümü saxlaya bilmədim. Bəyi qılıncla öldürdüm. Kim mane olurdusa, onu da qılıncla öldürməyə başladım. Qaçanlara aman verdim. O gündən bu körpüdən keçəni öldürürəm.

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Kişi bu sözləri eşidib, namaz qılmağa başladı. Allahı çağırdı. Birdən quş olub körpüdən o taya keçdi. Qız gördü ki, kişi körpünü keçə bilib. Ona görə də kişiyə yalvardı ki, qayıdanda məni də özünlə götür. Kişi söz verdi. Kişi yola davam etdi. Bir qədər gedəndən sonra gördü dərə-təpə oynayır. Kişi məətəl qaldı. O, namaz qılıb, Allaha dua etdi. Elə bil kişinin ayağının altına taxta döşədilər. Həmin yolla gedib bir saraya çatdı. Uzaqdan gördü ki, qırx incə belli qızlar ona sarı gəlir. Hərəsinin əlində dəyənək boyda bir oxlov. Qızlar kişini o ki var bu oxlovla döyəməyə başladılar. Kişi özünü bağçaya atdı. Padşahın qızı gəlib baxdı və qızlara dedi ki, mənim yuxuma girən oğlandır. Oğlanın üstünə su səpib durğuzdu. Oğlan qızı görən kimi qucaqlaşdılar. İkisinin də ürəyi gedib tirtap yerə yıxıldılar. Qızlar tez gedib padşaha xəbər elədilər ki, qızın bir oğlanla ölüb. Padşah həmin oğlanı qırx arşın quyuya atdırdı. Qızı ayıltdılar. Ayılan kimi qız, mənim sevgilim hanı – soruşdu?

Heç kəs oğlanın harda olmasını boynuna almadı. Dedilər ki, biz oğlan, zad görməmişik. Padşah fikirləşdi ki, yəqin qızı dəli olub. Tez qızın əlini-ayağını bağlatdırdılar ki, bəlkə oğlan yadından çıxa. Qız heç nə yeyib-içmirdi. Qızın analığı bu xəbəri eşidib qızın yanına gəldi. Qızdan hal-əhval tutdu. Qız hər əhvalatı Pərrux xanıma danışdı. Pərrux xanımın qıza yazığı gəldi. Dedi ki, sən hamıya de ki, daha o oğlanı sevmirsən. Qız deyilənlərə əməl etdi. Padşah gəlib dedi ki, səni Həbəş padşahının oğluna verəcəm. Qız dedi razıyam. Qızın əl-ayağın açdılar. Pərrux xanım padşahdan izin istədi ki, qızla bağçanı gəzib seyr etsin. Bunlar burada qalmaqda olsun, sizə xəbər verim quyudakı oğlandan. Həmin oğlanın adı Mürsəl idi. Quyunun, suyun içində oturmaq onu zinhar etdi. Bir az quru yerə çəkildi. Birdən iki qurbağa peyda oldu. Bunlardan biri balaca, digəri isə iri idi. Birdən bu qurbağalar böyüyüb inək boyda oldular. Böyük qurbağa Mürsəli uddu. Kiçik qurbağa dedi ki, gedib cırcıramaya deyəcəm ki, Mürsəli udmusan. Bu-

nu deyib sürətlə getməyə başladı. Böyük qurbağa da onun dalınca getdi. Nəhayət cırcırama olan yerə çatdılar, cırcırama qurbağanın qarnını cırıb Mürsəli azad etdi. Başına gələnləri cırcıramaya danışdı. O, Mürsəli evinə gətirdi və özü harasa getdi. Cırcırama əvvəlcə körpünün üstünə gəldi. Oradakı qızı – Qönçəni götürüb saraya getdilər. Saraya çatanda gördülər ki, qızı köçürürlər. Axşama qədər gözlədilər. Axşam düşəndən sonra gördülər ki, qız tərəfdən Cəvahir adlı bir qarı, əlində bir qab su gətirməyə gedir. Cırcırama yaxınlaşıb ona dedi ki, biz Mürsəlin adamlarıyıq. Arvad çox xoşhal oldu. Tez paltarını çıxarıb Qönçəyə verdi. Qönçə tez özünü qız olan yerə çatdırdı və dedi ki, mən Mürsəlin adamıyam. Qız çox sevindi. Onlar cırcıramanın yanına qayıtdılar. Pəhləvan paltarını geyib Həbəş padşahının başını kəsdi. Sonra isə qalanları öldürdülər.

Qızı da götürüb, cırcıramanın sərhədinə gəlib çatdılar. Mürsəl üçün qırx gün, qırx gecə toy elədilər. Qönçəynən padşahın qızın Mürsələ verdilər. Mürsəllə cırcırama halallaşıb ayrıldalır. Onlar xoşbəxt yaşamağa başladılar.

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

KASIVIN NƏFSİ

Varıydı, yoxuydu. Qədər addı bir kişi varıydı, əmə bu kişi elə kirnazıydı daha nə deyim. Dünyuya beləsi gəlməmişdi. Düzdü, Qədər kişi çox varrı-hallıydı, əmə qəpiyi çıxanda elə bil onun canı çıxırdı. Bir gün bunun qapısına bir kasıf kişi gəldi. Bu vaxıt Qədər surfa başında oturuf yeməh yeyirdi. Gördü kasıf gəlif, qaş-qabağını töhdü. Yanı nəyə gəlifsən qoymazsanmı çörəyimizi yeyəh. Əmə kasıf çox acıydı deyin duruxub qaldı. Neyləsin, yazıq acınan oğunurdu. Beçaranın gözü surfada, çörəhdə qalmışdı, kişinin yeməyə tamahı tüşmüşdü. Əmə Qədər buna heş fikir vermədi, kasıva acıxlandı:

– A kişi, niyə qapıda quruyuf qaldın. Qoymazsan bir əz əvimizdə irahat oturuf çörəyimizi yeyəh. Sən tənbəlsən, mən neynim. Sən də kişi deyilsənmi. Çalış, vuruş... Pul-para qazan, daha nə tüşüfsən qapı-qapı.

Qədər belə deyəndə kasıf kişi dərinnən köysünü ötürüf kirimişcə ordan uzaxlaşdı. Qədər yeyif dayanannan sonra görsədiş verdi surfuyu yığdılar. Kişi nə fikirrəşdisə dedi:

– Gərəh yola tədarüh görüm, gecəynən yola çıxacam. Günüz o, bu görüf əsniyir üstümə, nazar yetirir, var–dövlətin bərəkəti qaçar.

Qədərin arvadı nə qədər dedi gəl gecədi, getmə, sabax səfərə çıxarsan. Di gəl Qədər razı olmadı. Bəli, Qədər dəvələrini, qatırrarını, atdarını yühlətdi, öz adamlarını götürüf gecəynən yola tüşdü. Gəlhagəl gecənin bir vədəsi gəlif bir bulağın başına çatdılar. Qədər adamlarına dedi:

– Gəlin burda bir əz dincələh. Heyvannarın yükünü açın, bir əz də Allah verənnən yeyəh, bir çimir də yuxu alax. Sonra yolumuza davam eliyərih.

O sahat karvan dayandı. Qədərin adamları dəvələrin, qatırrarın, atdarın yükünü aşdılar. Sonra surfa salıf bulağın başında oturdular. Ortuya xörəh gələn kimi bir qara ilan bunnarın yanında peydah oldu. Qədər adamlarına kışqırdı:

– Əyə, bunu vuruf öldürün, bizə xata-zad yetirər.

O sahat hərə əlinə nə gəldi tulladı ilanın üstünə. Əmə ilana heş nə olmadı. İlan elə bil bir əz də yekəldi. O, başını yuxarı qaldırıf dedi:

– Qədərsən, nə zəhrimarsan. Bu surfa mənim olacax, sana burdan bir tikə də vermərəm.

Qədər ilannan adını eşidəndə quruyuf qaldı bu işə ki, əyə Allahın ilanı mənim adımı hardan bilir. Əmə sizə deyim ilannan. Həyə, ilan sözünü qurtaran kimi surfuyu elə bircə dəfiyə uddu. Qədər işi belə görəndə bərk qorxuya tüşdü. İlan Qədərə dedi:

– A kişi, acınnan ölürəm, laf ürəyim gedir. İndi gərəh mana sən bir yaxşı dəvə, bir yaxşı at, bir də qatır verəsən yeyəm, yoxsa səni diri-diri udaram.

Qədər istədi bir ilanın dedihlərini verməsin. Əmə gördü ilan ağzını ayırıf, özü də necə. İlanın ağzının içi işıx saçır. Baxdı əyə bunun ağzı ucu-bucağı görünmüyən kaha kimidi. Qorxusunnan tir–tir əsdi kişi. İlan irəli gəlib qabaxcax bir dəvəyi, sonra bir atı, sonra bir tütün heyvannarın hamısını bir dəfiyə uddu. Əmə deyəsən doymadı deyin heyvannarın yühlərini də uddu. İndi xəbər verim Qədərdən. Qədər tamahkar adam qalmışdı belə... İlan hər dəfə bir şey udduxcah o da elə bil ölüf dirilirdi, o dünyuya gedif gəlirdi. Bəli, ilan hər şeyi uduf kutarannan sonra Qədərin adamlarına dedi:

– Siz çıxıf əvinizə gedin. Mənim siznən işim yoxdu, əmə Qədər qalsın, mənimki onnandı.

O sahat Qədərin adamları çəkilif getdilər. Qaldı Qədər dizdəri əsə-əsə. İlan irəli gəlif onun üzünə bir lomba tüpürdü. Elə bil Qədərin üzərinə neçə yerdən iynə, biz batırdılar, suvatı elə ağrıdı kı, kişi özünü itirif yıxıldı. Özünnən getdi. Ayıldı nə... çıl-çılpax, lüt-üryan qalıf, paltarı yoxdu. Genə həmin ilan duruf yanında. İlan Qədərə dedi:

– Gərəh sənin ağ gövdəni qara tulux eliyəm, yoxsa səni buraxmaram.

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

İlan başdadı quyruğuynan Qədəri döyməyə. Qafqara tulux eliyif yıxdı yerə. Kişi özünnən gedəndə ilan onun üstünə su töküf ayıltdı Qədəri.

– A kirnaz kişi, kirnazdıx yaxşıdımı. Get, səni öldürərdim, əmə səni beş yaşındakı uşağına bağışdıyıram. Bir də sən olasan gecə yola çıxasan, özün yeyəsən, başqası baxa vermiyəsən.

Qədər quruyuf qaldı. İlana heş nə deyə bilmədi.

– Bə sən birmirsənmi mən kiməm?

İlan belə deyəndə kişi qorxa–qorxa ona baxdı.

– Mən nə bilim.

– Mən sən qapınnan qavaladığın kasıvın nəfsiyəm. Bir də tobalatma elə, belə iş tutma.

– Yaxşı.

– Onda gözdərini yum.

Qədər gözünü yuman kimi özünü itirdi, huşu getdi. Bir də özünə gəldi ki, öz əvindədi, əmə arvadı üstündə ağı deyif ağlıyır. Bu özünə gələndə arvadı sevindi:

– A kişi, bə mən dedim ölüfsən. Bə karvan necoldu, adamlar hanı?

– Heş nə demə. Daha karvan-zad yoxdu.

– Bə cümü gövdən qafqaradı. Sana nə oluf?

– Onu da xəbər alma. Əmə dünən bizə bir kasıf gəlmişdi ha...

– Həyə, sözünü kəsmə, de a kişi, de görüm nə isdiyirsən?

– Onun əvinə çoxlu pul-para, yeməh-işməh yolla. Daha mən gördüyümü görmüşəm, bildiyimi bilmişəm. Bir də qələt eliyərəm tamah eliyəm.

Arvad o sahat kişisinin dediyini yerinə yetirdi. O günnən Qədər kirnazdığını yerə qoydu. Hamıya əl tutdu, köməh elədi. Ona görə də ömrü uzun, işi yaxşı, özü hörmətdi oldu. Xata-bala, azar–bezar onnan uzax oldu. O yeyif-içif ömür sürüf yerə keşdi. Siz də yeyif-içif dövrə keçin, mənim əzizdərim.

DAŞ-AĞAC

Biri varıydı, biri yoxuydu. Dədə Aral addı bir kişi varıydı. Bu kişi eldə-obada ağsaqqal, başbilən adam sayılırdı. Di gəl belə bir kişinin əvladı yoxuydu. Bir gün genə Dədə Aral öz əyalıynan əvdə oturuf söhbət eliyirdi. Birdən nə təhər oldusa arvad kövrəlif başdadı ağlamağa. Dədə Aral dedi:

– Ay arvad, niyə ağlıyırsan. Şükür heş nədən korruğun yoxdu. Sana genə nə oluf gözünün yaşı əlindədi.

– A kişi, yaşımız ötüf keçir. Bə bizim axırımız nə olacax. Bir zürüyyətimiz yoxdu ku, biz ölənnən sonra ocağımızı yandıra.

Arvad belə deyəndə kişi də dərin fikrə getdi. Xeylax keşdi aradan, əmə heç biri danışmadı. Əmə Dədə Aral nə fikirrəşdisə arvadına dedi:

– Ay arvad, mən Göy dağa gedirəm. Ora müqəddəs yerdi. Gedim tanrıya duvamı eliyim, bəlkə tanrı bizə bir zürüyyət verdi.

Arvad dillənmədi. Dədə Aral gəldi Göy dağa. Qara qayaynan Ceyran qayasının arasındakı bir yerdə əlini göyə açıf tanrıya duva elədi:

– Tanrı özün bilirsən ki, mən sənin altında heş vaxıt bir pis iş tutmamışam... Həməşə adamlara yol görsədif məsləhət eləmişəm. Dünya varı gözümü tutmuyuf. Haqqın yoluynan getmişəm. İndi mənim duvamı qəbul elə, bax bu boz qayanın içinnən mana, bir əvlət yetir, əmə sonsuz, məğmun eləmə məni.

Kişi duva eliyif kutaran kimi baxdı boz qayadan qəribə bir səs gəldi:

– Ay Allah, ölürəm, vay, vay... Sancı öldürür məni.

Kişi o sahat işi başa tüşdü, gözdədi. Daşa arxasını çəvirdi. Azmı keşdi, çoxmu keşdi, bir uşax səsi eşidif Dədə Aral geri döndü. Baxdı boz qayanın ortasınnan qan tökülüf, bir də əl boyda bir ağaş parçası tüşüf. Səs də ağaşdan gəlir. Dədə

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

gedif bir avış torpax gətirif daşın üstünə tökən kimi qan qurudu. Əmə ağaş parçasının səsi kəsilmədi, o, balaca uşax kimi ağlıyırdı. Birdən boz qayanın yuxarısınnan süd rəhli bir su axmağa başdadı. Dədə Aral o sahat ağaş parçasını götürüf qoydu suyun altına. Bir də baxdı ki, ağaş parçasının səsi kəsildi. Tez onu ətəynə püküf üzünü tutdu göyə.

– Tanrı, verdiyinə çox şükür.

Nolacax, Dədə Aral gəldi əvə. Arvad baxdı kişi ətəyi dolu gəlif, səvindi. Dədə Aral arvadına dedi:

– Ay arvad, beşiyi bəri qoy. Tanrı bizə bir əvlət verif. Onu bələ, qoy oruya bir əz yatsın.

Arvad irəli gəlif gördü nə... bir parça ağaş... Daha heş nə demədi. Ağacı bəliyif qoydu beşiyə. Kişi o sahat Göy dağa gedif boz qayanın yuxarısınnan axan süd rəhli sudan dolduruf gətirdi. Beşihdə uşax səsi gələn kimi sudan bir qavda qoydu bələyin böyrünə. Ağaş parçası o suyu içif kiridi. Belə–belə ağaş parçası böyüyüf yekəldi. Dədə Aral onun adını Daş-ağaş qoydu. Daş-ağaş elə ki, on–on iki yaşına çatdı döyüşmədiyi, tutaşmadığı oğlan uşağı qalmadı. Hamının gözünün odunu aldı, onnar daha Daş-ağaşdan qorxmağa başdadılar.

Bir gün Dədə Aral otumuşdu qapıda, özünü günə verirdi. Bir də baxdı dağ boyda bir kişi gəlir. Dədə gələni o sahat tanıdı. Bu gələn Kələmyeyən Adamyarımdı. Bu adam bir otu-ruma yirmi-otuz kələm yeyif ləzzət alardı. Həlbət ki yeyəndə yirmi-otuz qalın çörəh, bir qırx-əlli yuxa, isdi xörəh də öz yerində. Bəli, Dədə Aral Kələmyeyəni tanımağına tanıdı, əmə onun yühlü qatırrarı, dəvələri, atdarı, həm də adamları varıydı. Bə onnar necolmuşdu. Dədə Aral Kələmyeyəni təh görüf çox təəcüf elədi. Kələmyeyən Adamyarım gəlif Dədə Aralın barabarına çatanda ona salam verif dedi:

– Nə var, nə yox, ay dədə?

– A Kələmyeyən, sən de görüm şeylərin, adamların, dəvələrin–zadın hanı?

– Dədə, xəbər alma, dədə, alan aldı.

– Sənnən də şey alan olar?! Bu necə oluf. Kim aldı, harda aldı, danış.

– Dədə, məni ki, yaxşı tanıyırsan. Gözdən iti, əldən iti, elə işdahdan da itiyəm. Di gəl, Sarıqamış tərəfdə bir Dəli Əmən addı biri peydah oluf, kəsif yolun ağzını. Ona rast olan kimi mənnən çox yekə-yekə danışdı. İstədim cavavını verim, başıma elə bir əmud vurdu ki, axlımı itirif atdan yerə yıxıldım. Dəli Əmən var-yoxumu aldı, adamlarımı da özünə qulluxcu-nökər elədi. Mən də beləcə yəyax tuşdum yola, gəlif burya çıxdım.

Dədə Aral daha heş nə demədi. Kələmyeyənə yavannıx, pul-para verif onu yola saldı. Əmə bu əhvalat Daş-ağaca çox təsir elədi deyin Dədə Arala dedi:

– Ata, izin ver gedim mən də bir Dəli Əmənnən gücümü sınıyım.

– Hələ sana tezdi. Sən gəl belə elə. Get meşəyə, orda çox yekə bir palıt ağacı var, onu taf. Yanında duruf ucadan səsdən.

– Ay Sarıqız, ay qohum, ay bibi, mana bir az ağaş qabığı ver.

O sahat Sarıqız əlində qızıl ilan düz üstünə gələcək. Yerindəcə dur, irəli, nə geri getmə. Onda Sarıqız sana bir parça ağaş qabığı verəcəh. Onu alan kimi yanıma gəti, o ağaş qabığı sehirridi. Bunu heş kəsə demə ha.

– Yaxşı.

Daş-ağaş o sahat meşəyə getdi. Gəzif Dədə Aral deyən palıt ağacını tafdı. Sarıqızı çağıran kimi baxdı bir ucaboylu, sarıbəniz bir arvad əlində qızıl ilan peydah oldu. Əmə bu vaxıt palıt ağacı dilləndi:

– A qız, bu bizim qohumlardandı, isdədiyini ver, peşman eləmə.

Sarıqız irəli gəlif Daş-ağaca bir parça ağaş qabığı verdi. O, ağaş qabığını götürüf gəldi Dədə Aralın yanına. Dədə Aral qabığı götürüf bir qazanın içinə saldı, üsdünə xeylax su töhdü, sonra Daş-ağaca dedi:

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Bala, indi bunu sənin üstünə tökən kimi mən üzümü o yana çevirəcəm. O sahat sənin üstündəki ağaş qabığı çıxacax. Paltar qoymuşam, dəyişihdi, geyin. Qabığı da götürüf torpağa basır. Eşitdinmi?

– Yaxşı.

Dədə Aral Daş ağacın başına suyu tökən kimi doğurdan da onun bədəninin üstündəki ağaş qabığı qopuf aşağı tüşdü. Oğlan lüt-üryan oldu. O o sahat Dədə Aralın onun yanına qoyduğu paltarı geyindi. Qabığı da götürüf torpağa basdırdı. Dədə Aral baxdı Daş-ağaş tüşdü adam qılığına, tanrıya çox şükür elədi. Dedi:

– İndi get içəri, oğul. Mənim yirmi batmannıx gürzümü, qırx batmannıx şeşbərimi götür get... Get Dəli Əmənin qabağına, əmə ona fursat vermə, yoxsa o səni cinnəndirər, əlinnən xata çıxar. Elə ona çatan kimi birinci sən vur onu. O yıxılan kimi onun dəmir papağını götür o, sehirridi. Onu başına qoyan kimi gücün birə beş artacax. Bunnan sonra Dəli Əmən sana tabe olacax. Onu öldürmə ha, o çox gücdü, quvatdı adamdı. Bu qoy ona dərs olsun, bir də yol kəsif quldurrux eləməz.

– Yaxşı, ata.

Daş-ağaş gəldi əvə. Dədəsinin dediyi gürzü də, şeşbəri də götürdü. Onnarı götürüf gəldi Kələmyeyənin dediyi yerə. Baxdı əyə yolu azman bir adam kəsif. Vallah, vallah bunun qaraltısı, xofu adamı basır. Gözdərinnən qan daşan bu adamın çox heybətdi suvatı var, üsdəlih bədəni lay tufar, boyu minara kimi. Əmə Daş-ağaş heş qorxuf pəsinmədi. İrəli yeridi. Salamsız-kəlamsız əlindəki gürzü onun başına elə çaldı kı, Dəli Əmən gurultuynan yerə sərildi. O sahat Daş-ağaş onun başının üsdünü aldı. Dəmir dəbilqiyi götürüf başına qoydu. Dəli Əmən işi belə götürüf dizi üsdə qaxdı, əmə Daş-ağaş ona toxunmadı:

– Qalx ayağa, əmə bir də yol kəsif adam soyma. Bu səni kimi mərdə, igidə yaraşmır. Gəl dost olax, arxa arxıya verif dolanax.

Dəli Əmən Daş-ağacın dediyinə razı oldu. Əlini irəli uzatdı, əhdi-peyman bağladılar, dost oldular. Daş-ağaş Dəli Əmənin dəbilqəsini geri qaytardı. Gəldilər Dədə Aralın yanına. Dədə Aral Dəli Əmənə dedi:

– Oğul, bir də yol kəsif, adam soyma. Dəlininki pəhlivannıxdı, kişilihdi.

Dəli Əmən dillənmədi. Suçluydu axı. O vaxıtdan Dəli Əmənnən Daş-ağaş qardaş oldular. Beləcə ömür sürüf dövran keçirdilər. Allah sizdəri də xoşbəxt eləsin.

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

DƏRVİŞ XUDAYARIN NAĞILI

Xudayar adlı bir dərviş var idi. Bu dərviş qəsidə deyə-deyə bir neçə şahın paytaxtları ətrafında ənam alırdı. O, günlərin birində bir şahın şəhərinə daxil olanda gördü ki, şahın dərgahında Günəş hər tərəfə şəfəq saçır. Dərviş bərgaha yaxınlaşanda gördü ki, şahın bərgahına daxil olmaq üçün bərgahın bütün ətrafında qırx darvaza var. Şahın bərgahının bir kərpici qızıl, bir kərpici gümüşdür. Xudayar dərviş birinci darvazada bir qəsidə oxuyur, dərvişə bir sini plov, bir sini qızıl verirlər. Dərviş qırx darvazada on gün qəsidə deyir, qırx sini qızıl yığıb özünə bir at alıb qayıdır. Xudayar dərviş böyük ad sahibi olan şahların hamısından ənam almışdı. Başqa şahların ənamından doymayan acgöz dərviş qadın şahından aldığı qırx sini qızılı öz xəzinəsinə doldurub, İsfahanda böyük şöhrət sahibi olan Şah Abbasın bərgahına gəldi. Ətrafı dolanıb bircə darvaza olduğunu görüb, onun ağzında qəsidə deməyə başlayır.

Şahın xidmətçiləri dərvişə bir sini plov,bir dənə də onluq qızıl verirlər. Dərviş qızılı almır, nə də qəsidəni kəsmir, elə oxuyur. Şah Abbas dərvişin oxumağını eşidib dərvişi qəbul edir.

Dərviş Şah Abbasın hüzurunda dayanıb deyir: "Ey qibleyi-aləm, Şah oğlu şah Abbas, sənin adın bütün dünyanı götürüb, bərgahın sadə kərpicdir, bərgahıyın darvazası bir dənədir. Mənə bir sini plov, bir dənə də qızıl onluq göndərdin. İndi sən eşit Güldəstə şahın bərgahının büsatını. Binasının bir kərpici qızıl, biri gümüşdü, bərgahının qırx darvazası var. Hər darvazada qəsidə deyən dərvişə bir sini plov, bir sini də qızıl verir".

Dərvişin sözlərini Şah Abbas eşidən kimi onu öz paytaxtında nəzarət altında qoyub özü dərviş libasına girir. Çox əziyyətdən sonra gəlib Güldəstə şahın bərgahına çatır. Görür dərviş düz deyirmiş. Şah Abbas bir gün axşama kimi bütün darvazaları nəzərdən keçirir. Bir sini plov, bir sini qızıl

alır, sonra şahın bərgahında sığınacaq tələb edir. Güldəsdə şah Şah Abbasa bərgahında yer verdirir, eyni zamanda Güldəstə şah dərvişin Şah Abbas olduğunu bilib onu qəbul edir. Şah Abbasa Güldəstə şah qızıl–gümüşlü binaların sirlərini belə izah edir: "Ey Şah Abbas sən çox əziyyət çəkərsən bu sevdadan, qayıt öz paytaxtına. İndi ki məcbur edirsən, onda səhər tezdən mənim paytaxtımın qarşısında bir böyük bazar var. O bazara gedərsən. O bazara bir kor gələcək, o koru yedəkdə gətirəcəklər, korun yedəyində bir at olacaq. Həmin kor, atın yükünü boşaltdırmaq istəyəndə tayların ağzını açacaq, görəcəksiniz ki, taylarda qızıldır. Həmin kor öz üzünə tüpürtdürüb, boynuna bir yumruq vurub, özünə axirətə bir inam dedirdib bir ovuc qızıl verir. Axşama kimi yenə qızıl qurtarmır. Ata yüklədib aparır. Get ondan öyrən, o sənə deyər mənim binamın nəyə görə qızıl–gümüş olduğunu.

Şah Abbas yenə səhər tezdən bazara gəlir ki, korun bir at yükü qızılı necə payladığını görə. Kor qızılı nə qədər paylayır yenə qızıl qurtarmır, axırda yenə qızılları ata yükləyib öz evinə qayıdır.

Şah Abbas həmin günün axşamı yenə qonaq olur ki, bu qəribə sirri öyrənsin. Həmin kor tacir Nəsir olur. Şah Abbas kordan sirri öyrənmək istədikdə, kor deyir:

Dərviş babasan, get qəsidəni oxu, bir parça çörək pulu qazan, o sirri sən öyrənə bilməzsən.

Dərviş Şah Abbas cürbəcür dəlillərlə kora dönə–dönə müraciət edir.

Kor deyir: "Dərviş, indi ki əl çəkmirsən, onda mənə qulaq as. Dərviş, bax bizim bu şəhərin sağ tərəfində bir məscid var, ikimərtəbəlidir. Günorta əzanının vaxtında pinəçi ikinci mərtəbəsindən özünü yerə atar, nə yıxılmaz, nə qol-qıçası ağrımaz, yenə də oturub ayaqqabıları tikməyə başlayar. Get onun yanına, o, mənim dərdimi sənə deyər. Şah Abbas pinəçini tapır. Korun söylədikləri doğru olur. İndi də o, pinəçiyə qonaq olur.

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Şah dərviş indi də pinəçiyə yalvar-yaxardan sonra pinəçi dərvişə deyir: “Dərviş, şəhərin qurtaracağında bir dəmirçi dükanı var. O dəmirçi dırnaxlarını tutmur, bığının qabağını kəsdirir. Dəmiri əli ilə tutur, əli ilə döyür, əlinə çəkic almır, yenə əlləri tərtəmiz olur. Həm də əllərini od yandırmır, yanında bir donuz saxlayır özü nə yesə qabaqca donuzu doydurur, sonra özü yeyir. Donuz səslənəndə donuzun istədiyi yerini qaşıyır, həm də donuzun üzündən-gözündən öpüb yenə dəmrini döyür. Get onun yanına, mənim dərdimi sənə deyər”.

Dərviş libasında Şah Abbas dəmirçinin qonağı oldu. Dəmirçinin sirrini bilmək istədikdə dəmirçi dedi: “Dərviş siz bu sirri bilmək üçün altı ay yol getməlisiniz. Altı aylıq yolda sizi çox təhlükələr gözləyir. Getdiyiniz yolun qurtaracağında bir ucsuz-bucaqsız meşəyə çıxacaqsınız, həmin meşənin vəhşi heyvanları sizi parça-parça edəcəklər. O, vəhşi heyvanların rəhbəri bəni-adəmdir. Siz onu vəhşilərdən qabaq tapa bilsəniz mənim dərdimi o, sizə deyər”.

Dərvişlibas Şah Abbas deyillər, çox ağıllı, təmkinli şah olub. O, bu səfəri edəndə onu müşayət edən pəhlivanları vardı. Onlar hər cür silahlarla təmin edilmişdilər, ancaq onlar şahdan bir-iki vers aralı gedirdilər. Özləri də üç bir, beş bir gedirdilər. Şah Abbas həmin yolu qət etdikdə meşədən xeyli aralı çadır qurdurub özü ilə apardığı bilicini hüzuruna çağırdıb soruşdu ki, de görüm mən necə edim ki, birinci dəfə o, bəni-insanı tapa bilim?

Şahın bilicisi deyir: “Qibleyi aləm sağ olsun, siz dəvriş libasınızı soyunmayın”. Səhərin dan yeli əsəndə siz meşənin qırağında olmalısınız. Çünki o bəni-adəm neçə illərlə vəhşilərlə bir yaşayıb, o bəni adam sübhün çağında meşənin kənarına çıxmalıdır”.

Dərvişlibas Şah Abbas bilici dediyi sözə riayət edir, məqsədinə nail olur. Vəhşilərin rəhbəri bəni-adam Şah Abbası görən kimi tanıyıb qaçmağa başlayır. Nə qədər qaçırsa, şah ondan əl çəkmir, axır dayanıb deyir: “Ay Şah Abbas, məndən

nə istəyirsən? Sizin əlinizdən qaçıb vəhşilərlə yaşayıram”. Şah Abbas çox yalvardıqdan sonra bəni-adəm deyir ki, Şah Abbas sağ olsun, bu meşənin sağ tərəfində bir bina var. O, binada bir nurani qoca olur, bilir mən nə üçün vəhşilərlə yaşayıram. Şah Abbas bəni-adəmdən ayrılıb həmin bina ilə qocanı tapır. Qoca da Şah Abbası tanıyır, deyir:

– Ey şah, nə çox əzab çəkibsən, buyur qonağımsan.

Şah Abbas qocanın evinə daxil olmaq istədikdə qoca deyir:

– Şah sağ olsun, siz sizi müşayət edənləri də çağırmasanız, sizə heç bir sirr söyləməyəcəyəm.

Şahın müşayətçiləri də gəlir, bir gecə orda qalırlar.

Səhər həmin qocanı da Şah Abbas özü ilə gətirir, bütün sirləri açа-açа gəlib çatırlar Güldəstə şahın bərgahına. Güldəstə şah Şah Abbasın özü ilə gətirdiyi qocanı tanıyır, Şah Abbasa ultimatum elan edir.

Şah Abbas azlıq edən öz dəsdəsini çəkib həmin şəhəri tərk edir. Sonra qoşun çəkib Güldəstə Şahın şəhərinə müharibə elan edib, yeddi günlük döyüşdən sonra şəhəri alır, Güldəstə Şahı özü ilə öz qəsrinə gətirir. Həmin şəhərdə qızıl xəzinələri Şah Abbasın ixtiyarına keçir.

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

ƏDALƏTLİ VƏZİR

Biri var idi, biri yox idi, bir padşah var idi. Bu padşah əzazil, camaatnan dolanmayan idi. Ancaq bunun bir vəziri var idi ki, bu padşahın əksinə. Bütün camaat onu sevir, onun hər bir əmrini can-başla yerinə yetirirdilər. Bir gün vəzir padşaha deyir ki, mənə icazə ver, gedim dünyanı gəzim. Padşah ona icazə verir. Vəzir gedir paltarını dəyişir, yola düşür. O gedir-gedir bir çobana rast gəlir. Görür ki, çoban uzanıb tütək çalır, qoyunlar isə hərəsi bir tərəfdə yatır. Çobanın yanında isə bir it var. Vəzir bu itdən qorxub yaxına getmir. Uzaqdan çobanı çağırır. Çoban dinmir, ancaq ayağının birini göyə qaldırır. Vəzir heç bir şey başa düşmür, bir də çağırır, bu zaman çoban dalı üstə qalxır, üzünü vəzirə tutub deyir: "Nə deyirsən, səhərdən sənə hay vermirəmmi?" Vəzir çobana deyir: "Ay çoban, bu qoyun sənin kilərdi, yoxsa kimindi? Yox özgə adamındı". Vəzir gördü ki, yox, bu ağıldan kəmdir, üzünü ona tutub deyir: "Ay çoban, mən bu ölkənin vəziriyəm. Apar qoyunları yiyəsinə tapşır, sənə sözüm var". Çoban deyir, yaxşı, de görüm nə deyirsən. Vəzir başlayır çobanı öyrətməyə. Sən gedib padşaha deyərsən ki, ay padşah, mənim sənə gizli bir sözüm var. Padşah da deyəcək yaxşı de. Onda sən ona belə deyərsən: "Ay padşah, filan çoban mənim dörd qoyunumu aparıb, buna sən nə deyə bilərsən". Sən ona belə deyəndə padşahın sənə acığı tutacaq ki, məni dolayırsan, sənin gizli sözün budurmu. Bu vaxt o cəllad çağıracaq ki, sənin boynunu vursun. Bu vaxt sən qorxma, mən gəlib səni azad etdirərəm. Ancaq sən bu vaxtı ağlayarsan. Mən səndən soruşacam ki, ə, niyə ağlayırsan? Onda sən deyərsən ki, ay vəzir, padşah məni öldürür. Mən öz ölümümə ağlamıram, ancaq bir neçə vaxt olar ki, quş dili öyrənmişəm. Ancaq heç kəsi öyrədə bilmədim, qarnımda gedir. Ona görə də ağlayıram. Onda deyəcəyəm, əyə, onu mənə öyrədə bilərsənmi? Deyərsən ki, niyə öyrətmirəm. Onda deyəcəyəm, neçə günə öyrədərsən, deyərsən ki,

2-3 aya. Onda padşahın əlindən səni alacam. Deyəcəm ay hökmdar, bu çoban nə qanır, qoy quş dilini bizə öyrətsin, lazım olar. Çoban onunla razılaşıb, saraya tərəf üz tutdu, padşaha necə ki, vəzir demişdi o cürə də dedi...

Doğrudan da padşah acıqlandı, cəllad çağırdı ki, onun boynunu vurdursun. Bu vaxt necə ki, vəzir demişdi, gəlib çıxdı, çobanı onun əlindən alıb aşbazxanaya gətirdi. Aşpaza tapşırdı ki, ona nə qədər ki, yemək istəyir verin yesin. Çoban burada qalmaqda olsun, sizə kimdən deyim, vəzirdən.

Elə üç ay keçmişdi ki, padşah vəziri yanına çağırır, ona tapşırır ki, qoşun-zad hazırlasın, səyahətə gedək. Vəzir qoşun-ləşkər yığıb, padşaha xəbər verir, birlikdə gedirlər. Az gedirlər, çox gedirlər, gedib bir xəraba olmuş şəhərə çatırlar, barının üstündə iki quş görürlər. Padşah görür ki, bunlar bir-biri ilə danışırlar. Vəzir bir az dincəldikdən sonra deyir ki, ey hökmdar, bu quş öz oğluna o biri quşun qızını istəyir. O biri quş ona deyir ki, yaxşı mən qızı versəm nə verəcəksən. O biri quş deyir ki, xəraba yer görsən bunların hamısının adını sənin qızının adına saldıracam. Quş buna razı olmur, deyir ki, bu azdır. O biri quş ona deyir ki, sən heç narahat olma. Bu gələn padşahı görürsən. O, bu ölkənin hökmdarıdır. Bu padşah hara getsə, ora xəraba qalacaq, mən də hamısın sənə verərəm. Padşah bu vaxt bərk qəzəblənir, vəzirə deyir ki, vəzir, mənim zülmkarlığımı quşlar da bilir. Bunlar elə burdanca geri qayıtdılar. Gecə düşdü, hamı yatmağa getdi. Ancaq padşah yata bilmədi. O fikirləşdi. İndi mən zülmü necə aradan qaldırım, haqnan, nahaqqı necə ayırım. Bu fikrnən o yatır. Səhər yuxudan ayılanda görür ki, eyvandan aşağı bir zəncir sallanır. O, bu işə çox məəttəl qalır, vəziri çağırtdırır. Vəzir gəlib padşaha deyir ki, mənə görə qulluq. Padşah deyir ki, ay vəzir gör bu zəncir nədir, buradan niyə sallanıb. Vəzir deyir ki, de görüm bu gecə yatanda nə fikirləşib yatmısan. Padşah deyir ki, heç, elə fikirləşirdim ki, görəsən mən nə bilim haqq nədir, nahaq nədir. Vəzir bunu eşitdikdən sonra əmr edir ki,

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

dustaqxanadakı bütün dustaqları bura gətirin. Bütün dustaqlar gələndən sonra vəzir üzünü padşaha tutub deyir ki, indi bilərsən. Vəzir əmr edir ki, dustaqlar gəlib bir-bir bu zəncirdən tutsunlar. Hansı ki, haqq dustağıdır zəncirdən tuturdu. Hansıkı nahaqdır, zəncirdən tutan kimi zəncir yuxarı qalxırdı. Burada padşahla, vəzir haqqla, nahaqqı seçdilər. Bundan sonra vəzir üzünü padşaha tutub dedi ki, bu zəncirə ədalət zənciri deyillər. Padşah həmin gün çox kədərli gəzdi. Səhərisi gün o yenə yuxudan durub eyvana çıxanda, buradan zəncirin yenə asıldığını gördü, qabağa getdikdə gördü ki, zəncirin üstündən yekə bir ilan yuxarı qalxır, aşağa enir. Padşah qorxub vəziri çağırtdırdı. "Ay vəzir, gör bu ilan nə istəyir?" Vəzir baş üstə deyib, qabağa gəldi. Sonra padşahın yanına gəlib danışdı: "Ey hökmdar, bu ilanın dərdi var. Ərz elə şəhərdə olan nə ki, sənətkarlar var hamısı bura yığılsın. Görək ilanın hansı sənətkarlarla işi var". Bütün sənəkarlar hamısı yığıldılar. Bu vaxt ilan zəncirdən açılıb dülgərin ətəyindən tutdu. Dülgər qorxdu, qışqırdı ki, axı mən nə pislik eləmişəm. Vəzir ona dedi ki, qorxma. Camaat dağıldı. Vəzir dülgəri götürüb padşahın yanına gəldi. Dedi: "Ey hökmdar, ilanın işi dülgərlədir, ancaq o qorxur ki, əgər başına bir iş gəlsə, onun övladlarını kim saxlayacaq?" Padşah ona dedi ki, ey dülgər, sən ilanla get-qorxma, əyər sənin başına bir iş gəlsə, onda mən sənə söz verirəm, sənin övladlarını mən saxlayacam. Dülgər qorxa-qorxa razılaşır ilanla getməyə başlayır. Az gedir, çox gedir axırda gəlib ilanlar şəhərinə çatır. Buraya çatanda dülgərin qorxudan ürəyi sıxılır, bir azdan özünə gələndə görür ki, ilanların hamısı bunun başına toplanıb. Bununla gələn ilan dülgərə him eyləyir ki, qorxma, dalımca gəl. Dülgər ayağa qalxır, ilanın dalınca dərəyə düşür. Birdən o gördü ki, bir səs gəlir, qorxudan gözləri qaralmağa başladı, dizləri əsdi. İlan ona işarə elədi ki, qorxma, gəl. Dülgər yenə onun dalınca getdi. Bunlar getdikcə səs çoxalırdı. Getdilər, gördülər ki, bir əcdaha uzanıb, ağzında maral. Ancaq maralın buynuzları qoymur ki, o maralı yesin. Bu

çığırtı ona görədir. İlan dülgərə him eyləyir ki, qorxma. Gəl bu maralın buynuzlarını kəs. Dülgər gedib maralın buynuzlarını kəsir. Əcdaha özündən gedib yıxılır. Qalxanda ilana him eyləyir. İlan da dülgəri yanına çağırıb onunla bərabər gedib bir zağaya girirlər. Dülgər bura girəndə qorxdu, istədi geri qayıtsın, gördü ki, zağanın ağzı bağlıdı. İlan ona him elədi ki, qorxma, gəl. Dülgər də qabağa getdi, gördü ki, burada o qədər buğda sünbülü var ki, zağanın bir tərəfini tutub. İlan dülgərə him elədi ki, bundan götürsün. Dülgər az götürdü. Ancaq ilan him elədi ki, xurcunun hamısını doldursun. Dülgər xurcunu ağız-ağıza doldurdu, ilanın qabağına düşdü. İlan onun gəldikləri yola qədər gətirdi, dedi ki, sağ ol!

Kişi sevincək evə gəldi. Arvadı xəbər aldı, ay kişi, de görüm ilan səni neyləyirdi? Kişi başına gələnin hamısın arvadına danışdı, axırda dedi ki, ay arvad, o xurcundakı buğda sünbülünü mənə verdilər. Arvad durub xurcunu gətirib dedi: "Ay kişi, nə çox sünbül veriblər". Bunlar sünbülün birini qıranda gördülər ki, bu buğda deyil, bunun içi ləldir. Bunlar axşam yatdılar. Səhər dülgər həmin xurcunu padşahın yanına gətirdi. Başına gələnin hamısını padşaha nəql elədi. Padşah baxıb gördü ki, doğurdan da bunun içi ləldir. Tez vəziri çığırtdırdı: "Ay vəzir, de görüm bu nə olan şeydir?" Vəzir dedi: "Ay padşah, bu çox çətin şeydir. Mənə möhlət ver gedim görüm bu nə işdir". Padşah vəzirə möhlət verir. Vəzir yol tədarükü görüb gedir ki, harada qoca varsa onları yığsın, öyrənsin. Gedir-gedir, bir qocaya rast gəlir. Deyir: "Ay qoca, neçə yaşın var". Deyir: iki yüz. O, əhvalatın hamısını söylədi. Qoca dedi ki, yox, mən elə şey görməmişəm. Vəzir soruşdu ki, ay qoca, ayrı qoca yeri bilirsənmi. O dedi: "Ay oğul, get Təbrizə, orada bir qoca var, üç yüz yaşı var, bəlkə o bildi. Vəzir buradan üz tutur Təbrizə, gedib qocanı tapıb əhvalatı ona danışır. Qoca deyir ki, ay oğul, mən bilmirəm. Ancaq İsfahanda mənim bir qardaşım var, onun 400 yaşı var. Get onun yanına, o bilər. Vəzir İsfahana gedir, qocanı tapır. Əhvalatı ona

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

danışır. Qoca deyir ki, ay bala, belə bir əhvalat var. Vəzir deyir ki, ay qoca, onu yerli-yerində mənə danış. Qoca başlayır danışmağa. Deyir ki, ay oğul, neçə illər bundan əvvəl bir kəndli bir əkin yeri alır. Bu başlayır buranın torpağını yumşaltmağa ki, taxıl əksin. Bu taxılı əkdiyi yerdə birdən əlindəki dəmiri yerə batır. Bu nə qədər əlləşirsə dəmiri çıxara bilmir. Bunu belə qoyub evə gedir, evdən bel götürüb bir də geriyə qayıdır. O, gəlib yeri qazmağa başlayır. Görür ki, burada bir zəncir var, dəmir də gedib ona ilişib. O, bu yeri qaza-qaza getdi gördü ki, bu zincir bir qazana dolanıb. O, qazanın ağzını açanda gördü ki, bunun hamısı qızıldır. O, hər şeyi burada qoyub, hansı ki bu yeri satmışdı o adamın yanına gedir. Deyir ki, ay kişi, sənin yerindən qızıl çıxıb, gəl hamısını apar ki, mən də yerimi əkim. Kişi ona deyir ki, əyə qızıl sənə çatır.Çünki o yer sənindir. O, əyər mənim olsaydı mən o yeri əkəndə çıxardı. İndi o sənin bəxtinə çıxıb. Bunlar başlayırlar burada dalaşmağa. Axırda camaat bunlara deyir ki, niyə dalaşırsınız. Gedin qazının yanına o ayırd etsin. Bunlar bu işə razı olurlar, ikisi də qazının yanına gedir. Qazı bunları qarşılayır, nə olduğunu soruşur. Bunlar bütün əhvalatı söyləyirlər. Qazı deyir ki, yaxşı, deyin görüm hansınızın oğuldan, qızdan var. Bunlardan biri deyir ki, mənim oğlum, o biri deyir ki, mənim də qızım var. Qazı deyir: "Lap yaxşı. Onda sən qızını ver onun oğluna, qızıl da elə bil ki, ikinizə də çatıb. Hə oğul, o həmən sünbüldür ki, ondan da ilan aparıb". Vəzir qocaynan görüşdükdən sonra ona öz təşəkkürünü bildirib geriyə qayıdır. O, gəlib necə ki qoca ona danışmışdı, hamısını nəql edir. Bundan sonra padşah vəzirə deyir ki, ay vəzir, gör o kəndli necə yaxşı adam olub ki, o qızılın hamısını özü heç kəsə bildirmədən götürməyib.

Bundan təsirlənən padşah o gündən ədalətli, camaatla yaxşı dolanmağı fikirləşdi, belə də etdi. Vəzir isə onun bu işinə çox sevindi.

QARAÇUXASINI AXTARAN KİŞİ

Bir kişi varmış. Çox həylə də yaşdı dəyilmiş. Çox kasıp tüşür. Kim bını görür, deyir:

– Də, bədbaxtın Qaraçuxası yatıp.

Bir gün gedir ağsakqalın yanına, deyir:

– Də, mən neyniyim?

– Get peyğəmbərdən xəbər al.

Deyir:

– Saa fəda olum, ya peyğəmbər, məxlux maa deyir ki, Qaraçuxan yatıp. Mən neyniyim? Qaraçuxamı hardan tapım mən?

Peyğəmbər buyurur ki, Qaraçuxan filan yerdədi, məsələn, Süsən dağının təpəsindədi, get, axtar, tap.

Deyir:

– Mən gedip Qaraçuxamı tapacam.

Kişi bir–iki cad götürür, düşür yola. Xeyli gedənnən soyra bir kor şirə irast gəlir. Şir bına tərəf cumanda deyir:

– Ay Allahın heyvanı, niyə cumursan məni yeməyə?

Deyir:

– Mən müstəhəqəm. Gözüm olsa, səni görsəm, ya irəhm elərəm, ya da məslahat elərəm, heş yemərəm. Ama koram, heş bir şeyim yoxdu, səni bıra göndərən yəqin maa urzu göndəripmiş.

Dedi:

– A Allahın heyvanı, mən bəni-insanam. Mən də bədbaxtam. Ona görə ki, çox kasıp tüşmüşəm, deyillər, Qaraçuxan yatıp. Mən Qaraçuxamı axtarmağa gedirəm. Maa dəymə, bəlkə orda saa da bir şafa yolu taparam. Gedim, ordan xəbər gətiməsəm, gənə yolum bırdandı, genə yeyərsən də.

Dedi:

– Yaxşı, indi ki, həylədi, mənim gözümə şəfa gətisən, nəinki səni yeyərəm, illah saa ənam verərəm.

Razılaşdılar. Şir buna dəymədi. Getdi boyul. Bir müddət

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

gedənnən sora bir vilayətdə görür ki, ağaş var, kölgədi, bir-iki cütcü oturup çörəh yeyir, öküzdəri də ötürüplər ottamağa, dincəlmağa.

Deyillər:

–Yolnan gedən şəxs, kimsən? Gəl çörəh yeyəh.

Kişi gəlir:

– Salaməleyküm.

– Əleyküməsalam.

Oturur, cütcülərnən çörəh yeyir. Cütcülər soruşullar ki, qardaş, kimsən, hardan gəlip hara gedirsən?

Deyir ki, qardaş, vallah, nə deyim. Allahdan gizdin deyil, bəndədən nə gizlədim, çox kasıbam, hər kim elə məni gördü, dedi, Qaraçuxan yatıp, get peyğəmbərdən səval elə. Gedip peyğəmbərdən soruşdum, dedi: "Qaraçuxan odu, Süsən dağının təpəsində, get axtar, tap, oyat daa". Düşdüm yola, indi gəlmişəm bıra çıxmışam.

Cütcülər dedi:

– Əə, qardaş, indi ki, gedirsən, bizim də elə Qaraçuxamız yatmış kimidi, bu zəminin neçə ildi toxumun səpirih, ancax ya toxumun götürürüh, ya götürmürüh, bı torpax bizə ürüsxət vermir. Qaraçuxaya bizim də dərdimizi de.

Dedi:

–Yaxşı.

Kişi düşdü yola. Getdi gördü ki, bir quru vilayət var , ora arx çəkillər, millət qarışqa kimi işdiyir. Zənənnən tutmuş ağsakqala, qarasakqala kimi hamı işdiyir.

– Salaməleyküm.

– Əleyküməsalam.

Dedilər:

– Qardaş, bırdan su çəkirih. Bir çaydan arx götürürüh. Arxı çəkirih, gətiririh bı düzə, gecə yatırıx, səhər gedirih ki, düppələndüzdü, arx-zad yoxdu.

Dedi:

–Vallah, mən bir bəni-insanam. Mən gedirəm Qaraçu-

xamı axtarmağa, deyillər, Qaraçuxam yatıp. Qaraçuxamı tapıp sizin də vəziyyətinizi dəərəm. Bəlkə sizə bir yol oldu.

Arxı çəhdirən patşah dedi:

– Kişi, indi ki gedirsən, əgər bı sudan bir sorax gətisən, bizim bı arx başa çatsa, səni dünya malına qəni elərəm. Səni göz bəbəyim kimi saxlıyaram.

Dedi:

– Baş üsdə.

Getdi, elə bil Süsən dağının təpəsinə çatmışdı, gördü ki, bir sürü qoyun var, çoban yatıb, üzdən irax, elə itdər də yatıp yanında, canavar gəlir qoyuna təpilmağa. Bir adam qoymur, canavarrar qoyuna təpilə. Kişi də getdi ora yaxın. Dedi:

– Ə qardaş, kimsən ki, qoyunun sahibi yatıp, itdər yatıp, sən bı sürünü qoruyursan?

Dedi:

– Vallah, mən bı çobanın Qaraçuxasıyam. O yatıp, ama mən oyağam da, onun malın qoruyuram.

Dedi:

– Əə, saa qurban olum. Mən də bu dərdin sahibiyəm. Mən də Qaraçuxamı axtarıram.

Dedi:

– Odu ha, Qaraçuxalar ordadı. Sən də Qaraçuxanı çağır, gələcəh.

Getdi, bir az gedənnən sora dedi:

– Ey mənim Qaraçuxam, hardasan, gəl, niyə yatmısan?

Dedi ki, bilirsən nə var?

Dedi:

– Nədi?

Dedi:

– Gedərsən bırdan bir saxsı cürdəyi doldurarsan suynan, bir nazih qatmaynan asarsan bir qəlbi yerdən. Nə vədə ip qırılıp saxsı düşərsə yerə, sınsa, bil ki, mən oyanmışam, sınmasa mən də yatmışam.

Kişi dedi:

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Ha belə, başıma bir iş gəldi. Bir kor şirə ürcah oldum.

Dedi:

– O şirə de ki, bir axmax adam yesin, gözü açılacax.

Dedi:

– Ha belə, gəlirdim, iki qardaş cüt əkirdi.

Dedi:

– Onnara da denən ki, o ağacın dibində bir küp qızıl var,nə qədər ki, o qızılı götürmüyüplər, o torpax bar verməz. Bir torpax iki bar verməz. Bir torpax bir bar verər.

Dedi:

– Ha belə, bir patşah da var.

Dedi:

– Get o patşaha denən ki, o qızdı, nə qədər ki, başbir olmuyup, ərə getmiyip, onun mətləbi hasil olmuyacax.

Kişi qayıtdı, düşdü yola. Gəldi sifdə patşaha ürcah çıxdı. Xoş beş, on beş, dedi ki, qibleyi–aləm, vəziyyət belədi.

Padşah dedi:

– Bıra gə, bıra gə. Bı sirri bir sən bilirsən, bir mən. Elə gə sən məni al, sən ol patşah, mən də olum sənin xanımın. Ta bını başqa adam bilməsin.

Dedi:

– Yox, mən bı işə yaxın durammaram. Mənim Qaraçuxam deyip, gərəh ipdən cürdəh asasan.

Nəkqədir dedi, dedi, vır, öldür, qəbul eləmərəm.

Gəldi iki qardaşdarın yanına. Dedi ki, ha belədi. Qardaşdar getdilər, qızılı eşdilər, çıxartdılar. Dedilər:

– Qardaş, elə torpax ki, bizə urzu verip, qızılın hamısı sənin.

Dedi:

– Əə, yox, maa lazım dəyil.

Dedilər:

– Onda üş bölax daa. İki biz, bir də sən, üş böləh.

Dedi:

– Yox, maa lazım dəyil.

Dedilər:

– Niyə?

Dedi:

– Mənim Qaraçuxam deyip, cürdəyi ipdən asarsan, gözdərsən.

Kişi qızılı götümədi. Gəldi gördü bıdı şir nərildəyir. Hənirti eşitdi, cumdu bının üsdünə. Dedi:

– Cumma, cumma, şad xəbər gətimişəm. Haman adamam ki, Qaraçuxamı axtarmağa gedirdim.

Dedi:

– Həə, de görüm, nə dedi Qaraçuxan?

Dedi ki, ha belə, bir axmax adam beyni yesin, onun gözdəri açılar.

Dedi:

– Yaxına gəl eey, axı eşitmirəm sən dediyin sözdəri.

Belə yaxına gələndə bırdan-xirtdəyinnən belə tutdu, dedi:

– Əə, patşahlığı bıraxmısan, qızılı bıraxmısan, gəlmisən ki, mən gedəcəm saxsı asacam. Elə sənnən axmağın tapmıyacam.

Kişini xirtdəyinnən qopartdı, yedi.

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

GÜLÜ QAH-QAHIN NAĞILI

Biri gecə yatır, görür bir ay bir çiyninnən çıxıp, bir gün də bir çiyninnən. Yuxudan ayılır. Bı oğlanın adı olur Baxtıyar. Ata-anasına deyir ki, bəs mən bu gecə bir yuxu görmüşəm, gərəh bı yuxunu yozam. Ata-anası deyir:

– Ay bala, tək oğlansan, hara gedirsən?

Deyir:

– Yox, gərəh gedəm.

Yolda Baxtıyar bir çobana irast olur. Çoban bınnan soruşur ki, hara geersən? Deyir ki, bəs sirdi.

Deyir:

– Nə verim sirri maa verəsən?

Deyir:

– Çoban qardaş, adın nədi?

Deyir:

– Baxtıyar.

Deyir:

– Sən də Baxtıyar, mən də Baxtıyar. Sirrimi saa verrəm, ancax əvəzində gərəh qoyun verəsən.

Deyir:

– Verrəm.

On qoyun verir, Baxtıyar götürmür, on beş qoyun verir, deyir:

– Yox. Gərəh bütün sürüü verəsən.

Deyir:

– Yaxşı, sürümü verdim.

Bı Baxtıyar sürüün verir yuxugörən Baxtıyara. Altdan-üsdən geyinip düşür yola. Az gedir, çox gedir, gəlip çıxır bir körpünün yanına. Qarannığıymış, görür körpüün altında bir atdı dayanıp, yanında bir at. Bı atdı bını görən kimi çağırır, deyir:

– Baxtıyar, gəldin, min ata, dalımca sür.

Bəli, Baxtıyar minir ata, bı qaraltın dalısıcan düşür. Bir

xeyli gedənnən sora qabaxdakı atdı dayanır, Baxtıyar çatır bına. Atdı baxır ki, bı onun gözlədiyi Baxtıyar dəyil. Deməynən bı qızıymış. Körpüün altında vədələşippişdər, bı vilayətdən qaçırmışdar. Qız deyir:

– Ay adam, bilmirəm kimsən, ancax belə görükür kü, qismət beləymiş. Sənin də adın Baxtıyardı, onun da adı Baxtıyardı. Taleh yazan, görükür ki, belə yazıppış. Atdan düş, bir qismət kəsəh.

Atdan düşüllər, bir çəmənnihdə atdarın çidarrıyıp bıraxıllar. Oğlan subaşına çıxır, qayıdıp görür ki, vallah, qız bir sıfra açıp kim, təndirüsdü, hər nə desən, var sıfrada. Qız deyir:

– Baxtıyar, mən bir xəzinadarın qızıyam. Atam məni bir nəfərə verirdi, mən bir ayrısını istiyirdim. Odu ki, vədələşdih ki, qaçax, atamın xəzinəsinnən bı sırfanı götürmüşəm. Bı sırfa sehirri sırfadı. Hər vəda dadımıza çataceh. Mənim adım Pəridi, heş fikir eləmə, qızıldan-gümüşdən nəkqədər istəsən, varımızdı.

Bınnar yeyip-içillər, sırfanı yığışdırıllar, qoyullar atın xurcununa, düşüllər yola. Bəli, bınnar qırx gün, qırx gecə yol gedillər, gəlip çıxıllar bir padşahın vilayətinə. Pəri xanım Baxtıyara qızıl-gümüş verip deyir:

– Çıx şəhəri axtar, bir usta tap, apar padşahın imaratına baxsın, o cürə bir imarat tihtirəh.

Baxtıyar çıxır şəhərə, axtarıp bir usta tapır, deyir:

– Padşahın bı imaratınnan tikə bilərsən?

Deyir:

– Tikərəm.

Bəli, usta yığışıp gəlir şəhərin qırağında Pəri xanımnan Baxtıyara bir imarat tikir. Baxtıyar Pəri xanıma maslahat eliyir, deyir:

– Qoy bu vilayətin padşahını qonax çağırım, bizi də bir adam yerinə saysın.

Pəri xanım deyir:

– Baxtıyar, sən gəl bı padşahı qonax çağırma. Məəm

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

gözəlliyim bir yana, bı padşah bizim sırfanı görsə, sancılanaceh, bizi qoymuyaceh bırda irahat yaşıyax.

Baxtıyar razı olmur. Pəri xanım çox deyir, Baxtıyar az eşidir, dediyinnən dönmür, gedip padşahı qonax çağırır. Padşah deyir vəzir-vəkilinə:

– Balam, bı kimdi ki, belə, məni qonax çağırır? Gedəh görəh bı nətər adamdı?

Bəli, padşah vəzir-vəkiliynən yığışır gəlir Baxtıyarın imaratına. İmarat, nə imarat, padşahınkınnan da gözəl cahcalallı. Söhbətdən sora ortaya sırfa salınır. Padşah baxır ki, bı sırfada nə desən var. Onun qarnına sancı dolur. Durup gəlir sarayına. Bir-iki gün keçir. Padşah vəziri çağırır, məsləhət eliyir, deyir:

– Necə eliyəh ki, Baxtıyarı itirəh, sırfası qalsın bizə?

Vəzir məslahat eliyir, deyir:

– Çağır Baxtıyarı, göndər dərya atının südünü gətirsin. Ora gedər-gəlməz yoldu, gedər, qurd–quş tələf eliyər, sırfa da qalar sana.

Baxtıyarı çağırıllar, padşah əvvəldən girir yorğan-döşəyə. Baxtıyar gəlip görür ki, padşah yorğan-döşəhdədi. Deyillər:

– Bəs şah xəstələnip, ona dərya atının südü lazımdı.

Şah zıkkıldaya-zıkkıldaya deyir ki, Baxtıyar, bı südü ancax sən gətirə bilərsən, gərəh gedəsən.

Baxtıyar kor–peşman qayıdır imaratına. Pəri xanım görür, bıdı, Baxtıyar gəlir, fikir-zikir içindədi. Soruşur ku, noolup?

Deyir:

– Bəs padşah azarrıyıp, təbib dərya atının südünü dərman buyurup, padşah bı işi maa tapşırıp.

Pəri xanım deyir:

– Gördün, mən saa demədimmi ki, padşahı qonax çağırma. Hələ yaxşı ki, məni görmüyüp, yoxsa məni də əlinnən alaceydi.

Baxtıyar deyir:

– Bəs necə eliyəh? Yaxşısı bıdı bırdan qaçax gedəh.

Pəri xanım deyir:

– Yox, bı namarddıx olar. Sən belə elə. Gedərsən, filan yerdə bir dərya var, qırağında təhnəli bulax. Bırdan da bir tulux çaxır alarsan. Gedip o bulağın suyunu qurudup təhnənin suyun boşaldarsan, yerinə çaxır tökərsən, çəkilip gizdənərsən. Bir də göreysən, dəryadan bir sürü at çıxdı. O atdarın içində bir yəhərri-yüyənni maydan olaceh, o maydan təhnədən içəndə atılıp minərsən belinə, çaparsan bıra kimi. Nəbada dönüb dala baxasan.

Baxtıyar Pəri xanımın dediyi kimi eliyir. Görür kü, bıdı, dəryadan bir sürü at çıxdı, ilxının içində bir yəhərri-yüyənni kəhər maydan da var. Maydan təhnədən içəndə atılıp minir belinə, çapır. İmaratına çata-çatda deyir, bir dönüm baxım, görüm bı nə tappıltıdı? Dönüp baxan kimi arxadan gələn ilxı yoxa çıxır. Atı gətirip salır tavlıya. Səhər südün sağıp isti-isti aparır padşaha. Padşah görür Baxtıyar südü gətdi, sağ-salamatdı. Tez vəziri çağırır hüzura, deyir:

– Vəzir, bir tədbir qıl, Baxtıyar qayıtdı.

Padşah Baxtıyarnan əhd bağlamışdı kı, Baxtıyar qayıtmasa, onun imaratına saab dursun. Fikirrəşirdi ki, Baxtıyar qayıtmaz, imarat da, sehirri sırfa da ona qalar. Vəzir deyir:

– Padşah sağ olsun, bu dəfə ona bir kələh düzəldəcem ki, ömür-billah qayıda bilmiyəceh. Çağır denə bəs azarramışam, təbib buyurup kü, gərəh Qah-Qah gülünü iyliyəsən. İyləsən, sağalacehsən. Bını da ancax sən gətirə bilərsən.

Padşah genə girir yorğan-döşəyə. Baxtıyarı çağırtdırır. Baxtıyar gəlip görür kü, padşah genə yorğan-döşəhdədi. Padşah deyir:

– Baxtıyar, ölürəm, təbib buyurup ki, gərəh Qah-Qah gülünü iyliyəsən ki, sağalasan. İndi əlaş qalıp saa, gərəh gedip o gülü gətirəsən.

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Bəli, Baxtıyar genə bikefləyir, qayıdıp gəlir Pəri xanımın yanına. Pəri xanım görür kü, Baxtıyar genə bikefdi. Soruşur kü, noolup? Deyir:

– Bəs padşah genə azarrıyıp, mənnən Qah-Qah gülünü istiyir.

Pəri xanım deyir ki, Baxtıyar, o gül çox uzaxdadı, Təbriz şəhərinə gərəh gedəsən. Gedərsən, Təbrizin qırağında bir göl var, qırağı qamışdıxdı, gizdənərsən o qamışdıxda. Görəsən üş dənə quş uça-uça gəlip qonaceh gölün qırağına, çevrilip olacehlər qız, soyunup girəcəhlər gölə. Gərəh gizdincə o qızdardan biriin paltarın oğurruyasan. Sora o quşdar nə niyyət eləsən, yerinə yetirəcehlər.

Baxtıyar düşür yola, gəlip çıxır Pəri dediyi gölün qırağına. Gizdənir, xeyli keçənnən sora görür kü, bıdı, üş dənə quş uça-uça gəlip qondu gölün qırağına, dönüp oldu gözəl-göyçəh qız, soyunup girdilər gölə. Baxtıyar göz-gözə vırıp bu qızdarın biriin paltarın oğurruyur, girip qamışdıxda gizdənir. Qızdar sudan çıxıp geyinəndə görüllər biriin paltarı yoxdu. Qızdardan biri qalır paltarı oğurranan qızın yanında, biri genə quş olup uçup gedir. Deməynən bı quşdar Gülü Qah-Qah xanımın üş malekə qızdarıymış. Çox keşmir, uçup gedən quş yanında da bir quşnan qayıdıp gəlir. Deməynən bı quş da Gülü Qah-Qah xanımın özüymüş. Deyir:

– Ey bəni-insan, nə niyyətə gəlipsən, hasil olaceh, qızın paltarın ver.

Baxtıyar qamışdıxdan paltarı tulluyur, qız geyinir. Gülə-gülə qamışdıxdan çıxır. Quşdar Baxtıyarı da qanaddarına alıp uçullar öz məkannarına, gətirip qırx gün, qırx gecə toy eliyillər, həmən qızı verillər Baxtıyara.

Bir gün Baxtıyar çox bikaflıyır. Gülü Qah-Qahın qızı deyir ki, niyə bikefsən? Baxtıyar açıp danışır kı, bəs mənim bir arvadım var, filan vilayətdə qoyup gəlmişəm, niyyətim də budu. Gülü Qah-Qah gəlir, qızı danışır kı, bəs hal-nağıl belə.

Gülü Qah-Qah deyir:

– Gedin, əyər qızım Pəri xanımnan gözəl olsa, qızım olsun arvadın, Pəri olsun qulluxçun. Pəri xanım gözəl olsa, onda qızım olsun qulluxçun, Pəri xanım arvadın.

Bəli, Baxtıyarı alıp qanaddarına gətirip qoyullar imaratının yanında. Baxtıyar içəri girip görür kü, Pəri xanım bının yolun gözdəməhdən heyva kimi saralıp. Bını görəndə Pəri xanım çox sevinir. Gülü Qah-Qahın qızın görəndə bıkaflıyır, bilir ki, Baxtıyar bını alıp gətirip. Nəysə, Gülü Qah-Qahın qızı qah-qah çəkip güləndə ağzınnan bir dəstə gül düşür. Baxtıyar bu gülü götürüp gedir padşahın yanına. Padşah görür kü, Baxtıyar gülü də gətdi. Baxtıyar gedənnən sora vəziri çağırtdırır, deyir:

– Bir tədbir qıl.

Vəzir deyir:

– Şah sağ olsun, ta tədbirim yoxdu. Gərəh bı dəfə öldürəh, odda yandırax.

Bı sirr Pəri xanıma agah olur. Deyir:

– Baxtıyar, padşah səni yandıraceh, səni iki dəfə ölümnən qutarmışam, ancax bı dəfə mənnih dəyil. Bı dəfə Gülü Qah-Qahın qızı səni qutara bilər.

Gülü Qah-Qahın qızı deyir:

– Arxayın ol, səni odun içinnən elə götürəcem ki, heş kimin xəbəri olmuyaceh.

Sabah olur. Padşah əmr eliyir, meşədən odun gətirip çin vırıllar. Baxtıyarı tutup gətirillər, qaldırıllar çinin üstünə, altdan od vırıllar. Gülü Qah-Qahın qızı Baxtıyarı odun içinnən elə götürür kü, heş kim xəbər tutmur, gətirip qoyur öz imaratında yorğan-döşəyin içinə. Tonqal yanıp qutarır. Padşah əmr eliyir ki, külü əliyin, içinnən sümühlərin seçip çıxardın, görəh bı nətər yanıp. O işdəri görən birdən yanmaz. Külü əliyip görüllər ki, içində sümüh-zad yoxdu. Padşah deyir:

– Vəzir, bı nə işdi?

Vəzir söz tappır, deyir:

– Şah sağ olsun, yağın Baxtıyar gedip cənnətə.

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Padşah deyir:

– Çin vırın, mən də yanıp gedəcem cənnətə.

Çin vırıllar, şahı yandırıllar. Şah odun içində gözdüyür kü, uçup getsin cənnətə, görür, heş uşmax olmadı, başdıyır qışqırmağa: “Ay yandım, ay kül oldum! Qutarın məni”. Kim girəceh odun içinə?! Padşah yanıp kül olur. Sora quş uçurullar ki, təzə padşah tihsinnər. Quş uçup qonur Baxtıyarın imaratıın üstünə. Neçə dəfə uçurullar, quş genə gedip qonur Baxtıyarın imaratına. Deyillər ki, Baxtıyar yanıp, gedəh görəh orda kim var axı, quş gedip qonur ora? Gedip görüllər ki, Baxtıyar sağ-salamatdı. Deyillər, elə əsl padşah bıdı. Gətirip Baxtıyarı eliyillər padşah.

Bir gün Baxtıyar yorğan-döşəhdə uzanıppış, hər arvaddan da bir uşağı oluppuş: biri oğlan, biri qız. Uşaxların biri gəlip çıxır Baxtıyarın bir çiyninə, biri də çıxır bir çiyninə. Baxtıyar bərhdən qah-qah çəkip gülür. Arvaddar soruşur ku, ay Baxtıyar, bırda nə gülməli şey var kı, gülürsən? Baxtıyar deyir:

– Bəs mən bir yuxu alıp, bir sürü qoyun vermişdim, bı uşaxlar həmən yuxudu.

Bırdan başdıyıp Baxtıyar hal-nağılı danışır. Bınnar əhvalatdan halı olullar. Deyillər, bınnar xoşbaxt ömür sürüllər.

NARGİLƏ

Biri də varmış, yeddi qardaşmışlar, bir kişinin, bir arvadın yeddi oğluymuş. Bir gün ana hamilə olur. Diif ki, ana, biz çıxacağıx ova, qardaşımız olsa, tüfəng asarsan, bacımız olsa, ələh. Qardaşımız olsa, qayıdacağıx, bacımız olsa, yox. Bunun da gəlir bir qızı olur. Paxıl qonşu ələyi dəyişdirib tüfəng asır. Tüfəng asanda oğlanlar çıxıf gedif dağlara. Qızın da adı olur Nargilə. Qız bir gün (bir ala danası varmış) bunnan hərrənirmiş. Ala dana da ölür. Öləndə durur aparıf bunun qarnın yuyanda görür bir qarğa gəldi qondu ora ki, niyə ağlıyırsan bir danadan ötəri? Diif:

– Da mənim heş nəyim qalmadı. Bir canımdı, atamdı, anamdı. Qardaşlarım yox, bacım yox.

Diif:

– Sənin qardaşların var, sən bilmirsən.

Diif:

– Yox.

Diif:

– Onda sən o qarından bir xeylax ver ma, yeem, qarnımı doyuzdurum. Get bir torba da arpa götür. Asacam mən ayağımdan. Səni aparıf çıxardacam həmən qardaşların olan yerə.

Bu belə də eliyir. Arpanı yerə tökə-tökə gedir. Gedir görür ki, qardaşları yoxdu. Qapıın dalında dəyirman daşı var, nə var, girir bura. Girif görüf ki, qazan var, nə var, yeməh var. Duruf bunnara bir qazan yeməh bişirir. Bir dirəh varmış, diif:

– Dirəh, aralan, girim içəə.

Dirəh aralanıf, girif içinə. Qardaşlar gəlif məəttəl qalıf. Bu nə işdi, nə gücdü? Əvvəl böyüh qardaş qalır, sora o biri qardaşı qalır. Yeddisi də qalır, görür ki, yox. Yatırmışlar, durmuşlar hər şey hazır. Balaca qardaş barmağını yarır, elə qız dirəyə girəndə qızı tutur. Qızı tutanda qız düzünü danışır ki, mən sizin bacınızam. Qardaşlar diir:

– Bacı, bir ala pişih var. Birdən nəbadə bir şey yiyəndə pişiyə verməzsən. Pişih işiyif ocağımızı keçirsə, ta od

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

tapmıyacağıx.

Qız təsadüfən qardaşıın cibindən kişmiş tökülmüşdü, yadından çıxır kişmişin hamısını yeyir. Yiyəndə pişih gəlif ocağı keçirir. Baxıf görür ki, aralı yerdə ocax yanır. Bu gedif görür bir komadı. Bu komada qız saçından asılıf. Qız bunu görən kimi deef ki, bura niyə gəldin? Bura divin evidi. Səni bu saat yeyəcəh. Diif:

– Onda ma bir az köz ver, mən qaçım, çıxıf gedim.

Diif:

– Qaçını götür, kəs közdən götür.

Qaçıynan közdən kəsir, götürəndə cibində sap varıymış, bu sap düşür, bir ucu da ilişir buna. Sap düz bunnarın evinə qədər gedir. Div gəlif der ki, bura adam gəlif. Burdan adam-badam iysi gəlir, yağlı gödəm iysi gəlir. Qız and-aman eliyir. Diir ki, udey, qaçı ocağın qırağındadı. Bu səfər baxır görür ki, ip gedir. İpnən gedir, çatır. Qapını möhkəm qaarmışlar. Diif ki, barmağıı çıxart, sa bir üzüh gətirmişəm. Qız barmağın çıxaranda qızın barmağın salır ağzına, sorur, çıxardır. Neçə gün gəlir, deer ki, barmağını çıxartmasan, qardaşlarının gedif hamısını öldürəcəm. Qız da qorxusundan barmağın çıxarırmış, bu sorurmuş. Qardaşlar baxıf ki, qız soluf-saralıf, tamam əldən düşüf. Qız boynuna alıf ki, bəs belə-belə.

Qapıın ağzında böyük bir quyu qazıflar. Quyu qazanda div gəlir düşür quyuya. Quyuya düşəndə bunun üstünü basdırırlar. Quyunun ustündən bir yeməli ot bitir. Qız bu otdan götürüf ye-yir. Yiyəndə qız olur hamilə. Qardaşları diir ki, bu nə işdi belə. Qız başına gələni danışır ki, o otdan qırdım yedim. Qardaşları bir də baxıb ki, həqiqətən, div diridi, ölmüyüf. Qız deer ki, biz gedəh atamızın, anamızın yanına. Mən atamı bilirəm da hardadı. Qardaşdar durur gedir. Gedəndə qardaşları həmən divin adam-larımı, nəyi olursa, əsir götürürlər. Qız gedir çatır atasının, ana-sının yanına. Ordan gedir xəbər verir. Xəbər verəndə qayıdıf gəlif bunları qurtarırlar-qardaşları. Camaat köməh eliyir. Ge-diflər atasının, anasının yanına. Orda bir yaxşı şənlih edif, yeyif-içif yerə keçiflər. Biz də yeyif-içif məddi-muradımıza çatax.

FATMANIN NAĞILI

Bir arvadın iki qızı varıymış – biri doğmaymış, biri ögey. Arvadın bir danası da varıymış. Dananı qatır doğma qızın qabağına, bir çəngə də yun verir, deyir:

– Apar dananı Humayın yalında otar, bu yunu da apar did.

Qız aparır dananı Humayın yalında otarır, yunu da yavaş–yavaş didməyə başlıyır. Birdən küləh qalxır, qızın bir əlçək yununu yumalıya–yumalıya atır dərəyə, ordan da aparıb bir qarının bacasından içəri salır. Qız gəlir qarının qapısına. Çağırır deyir:

– Qarı nənə, Yel baba bir əlçək yunumu əlimdən aldı, bacannan saldı içəri. Onu ver, aparım.

Qarı çıxır qapıya, deyir:

– Ay bala, gəl içəri, əlçəyi verim, apar.

Qız deyir:

– Qarı nənə, niyə gəlim, ver aparım dayna.

Qarı deyir:

– Ay bala, gəl içəri.

Qız baxır qarı əlçəyi verməyəcəh, deyir: “Gedim görüm qarı məni neyləyir”. Qız içəri keçənnən sonra qarı deyir:

– Ay bala, başıma bax, gör nə var?

Qız baxır, görür qarının başında bit qaynaşır, deyir:

– Uyy, qarı nənə, başın nə gündədi?!

Qarı deyir:

– Bala, Allah üzünü qara eləsin.

Qız deyir:

– Qarı, ağzını Allah yoluna qoyma, tez ol əlçəyi ver, çıxım gedim.

Qarı deyir:

– Bala, get Humayın dərəsiynən aşağı, çaya çatmamış qabağına iki bulax çıxacax, birinin suyu qaradı, birinin suyu ağ. Ağ suda başını yuyarsan, qara suda üzünü. Sonra gəl, əlçəyi

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

verim, apar.

Qız naəlac qalıb qarı dediyi kimi eləyir: ağ suda başını, qara suda üzünü yuyur. Başı olur ağappax, üzü olur qapqara. Qayıdıb gəlir, əlçəyi alıb, ala dananı da qabağına qatıb gedir evlərinə. Anası görür, budur, qızı gəlir – yaman gündə. Bir dizinə çırpır, bir başına, deyir:

– Uyy bala, bu nə gündü düşübsən, səni hansı yamangünnü bu hala salıb?

Səhər olur. Arvad dananı qatır ögey qızın qabağına, bir çəngə yunu da verir əlinə, deyir:

– Apar dananı Humayın yalında otar, bu yunu da did.

Ögey qızın adı Fatmaymış. Fatma ala dananı aparır Humayın yalına, bir daşın üstündə oturub yunu didməyə başlıyır. Küləh qalxır, qızın əlinnən yunu qapıb göyə qaldırır, yumalıya-yumalıya gətirib həmən qarının bacasınnan salır içəri. Qız yunun dalınca gəlib çıxır qarının qapısına. Çağırır, deyir:

– Qarı nənə, qarı nənə, Yel baba əlçəyimi gətirib bacannan saldı içəri, sən Allah, onu ver, aparım gedim.

Qarı deyir:

– Gözəl qızım, göyçəh qızım, gəl içəri, verim əlçəyi, apar.

Qız keçir içəri. Qarı deyir:

– Ay bala, Allah dadına yetsin, dadıma yet, kürəyimi qaşı.

Qız bir söz deməyib qarının kürəyini açır, görür yara-xoradı. Qarıya yazığı gəlir, xartdıya-xartdıya qaşıyır. Qarı deyir:

– Ay bala, Allah üzünü ağ eləsin, Humayın dərəsiynən sallan aşağı, çaya çatmamış qabağına iki bulax çıxacax, birinin suyu ağdı, birinin suyu qara. Ağ suda üzünü yuyarsan, qara suda başını. Sora gələrsən, əlçəyi verrəm, gedərsən.

Fatma qarı dediyi kimi eliyir. Ağ bulaxda üzünü yuyur, qara bulaxda başını. Üzü olur ağappaq, gün kimi işıq verir. Qara bulaxda başını yuyur, saçı olur qapqara, şəvə kimi

parıldıyır. Qayıdıb gəlir qarının yanına, əlçəyini alıb, ala dananı qabağına qatıb yollanır evə. Analığı görür bir şey uzaxdan işıx verə-verə gəlir bunnara sarı. Yaxınnaşanda baxır görür ki, ögey qızıdı. Qızın başına bir-iki qapaz salır, belinə bir-iki təpih vurub deyir:

– Yarımıyasan, harda qalıbsan, gəlib çıxmırsan? Ev süpürülməyib, odun yarılmayıb.

Arvad qızın paltarını çıxardıb cırım-cındır geyindirir, başına cındır çarşab salıb oturdur bir puşkaxda. Sabah olur. Arvad yenə ala dananı qatır Fatmanın qabağına, deyir:

– Apar dananı otar, həm də çır-çırpı yığ.

Bərk-bərk də tapşırır ki, üz-gözünü açma. Fatma dananı aparır Çobantaxtaya. Dana otduyur, Fatma da başdıyır yavaş-yavaş çır-çırpı yığmağa. O tərəf-bu tərəfə baxıb görür, heç kim yoxdu, üz-gözünü açır. Demə, Qara quzeyin ətəyində bir çoban qoyun otarırmış. Çoban görür dərədə bir şey işıx verir, yaxınnaşıb görür ki, bir qızdı. Az qalır çobanın ağlı başınnan çıxsın. Pusub görür ki, bu qız axşam filan evə getdi. Sabahısı çoban özü elçiliyə gəlir. Arvada deyir ki, bəs sənin qızını istiyirəm alam.

Arvad Fatmaya cılım-cındır geyindirib oturdubmuş bir puşkaxda. Öz qızını gətirib çobana görsədir. Çoban baxıb görür ki, bu qız gördüyü qız deyil. Kor-peşman çıxıb gedir.

Arvad Fatmaya deyir:

– Gedəh su gətirəh, paltar yuyax.

Gedirlər çayın qırağına. Arvad qızıynan köməkləşib Fatmanı basır çaya, Fatmanı çay aparır. Bir xeyli gedənnən sonra su vurub Fatmanı çıxardır qırağa. Çoban yalda qoyun otarırmış. Görür ki, çayın qırağında nəsə bir şey par-par parıldıyır. Gəlir görür ki, Fatmadı. Tez çuxasını çıxardıb salır qızın çiyninə, götürüb gəlir evə. Deyir: “Allah mənimkini yetirdi”.

Çoban özünə bir yaxşı toy eləyir, Fatmanı alır. Fatmanı alandan sonra çobanın var-dövləti başınnan aşır.

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

GÖYÇƏK FATMA

Biri varıydı, biri yoxuydu, Fatma addı gözəl, göyçək bir qız varıydı. Fatmanın bir qardaşı, bir atası, bir də anası varıydı. Onlar hamısı bir yerdə çox xoşbəxt yaşıyırdılar.

Bir gün bədbəxtliydən Fatmanın anası ölür. Atası uşaqlarının üzülməməsi üçün yenidən bir arvad alır, evlənir. Bu analıx uşaxlara yaxşı baxmır, onları axşama kimi iştədir, ağır işdərə göndərir. Hər gün uşaxların üstündə əriynən dalaşır. Deyir, gərək uşaxları azdırasan, yoxsa bir gün də səndə oturmaram. Axırda arvad ərinə deyir ki, yox, sən gərək bıları öldürəsən. Kişi razılaşır, əlaçsız qalıb razılaşır. Deyir:

– Biz bu uşaqları necə öldürək?

Analıx deyir ki, mən Fatmanın saçını darayaram, bu vaxt darağı onun boynuna batıraram, ölər. Kişi deyir:

– Bəs oğlum?

Analıx deyir ki, sən də onun başın qırxanda lezvanı başına batır, qoy ölsün.

Əri razılaşır.

Fatma atasıynan analığının bı söhbətini eşidib gəlib qardaşına danışır. Qardaşı deyir:

– Axı indi biz neyləyəcəyik?

Fatma deyir:

– Sən mənim darağımı götürüb qaçarsan, o, mənim saçımı daramax istiyəndə, mən də darağı almax bəhanəsiynən sənin dalınca qaçaram. Beləliynən canımızı qurtararıx.

Belə eliyirlər. Analıx Fatmanın saçını daramağa çağırır. Bu zaman qardaşı gəlib onun darağını götürüb qaçır. Fatma da bının dalınca qaçır. Onlar az gedib, üz gedib, dərə-təpə düz gedib, bir yaşıl çəmənliyə çıxırlar. Qardaşı Fatmaya deyir ki, mən su-suzluqdan yanıram. Fatma uzaxda bir çobanı görür. Gedib ondan harada su olduğun soruşurlar. Çoban suyun çox uzaqda olduğunu deyir. Onlar qərara gəlirlər ki, su olan yerə qədər getsinlər. Çoban olara deyir ki, oradan bir neçə çay axır. Bunların hərəsi bir heyvanın çayıdı. Ən axırıncısı insan üçündü. Onlar çaya tərəf üz

tuturlar. Maral çayına çatanda qardaşı dözə bilməyib bu çayın suyundan içmək istəyir. Fatma qardaşına mane olmax istəsə də, qardaşı bı sudan içir. Dönür olur maral. Bına görə Fatma çox ağlıyır, qardaşıynan birlikdə yol gedib bir neçə çinara rast gəlirlər. Fatma qardaşıynan çınarın dibində oturur, deyir:

– Əyıl, çınarım, əyil, əyil çınarım, əyıl.

Fatma elə bı sözdəri demişdi ki, çınar əyilir. Fatma çınarın ucuna çıxır, çınar göyə qalxır təzədən. Fatma bir müddət çınarın ucunda qalır, quş kimi görünür. Qardaşı da gündüzdər meşədə otdıyır, gecələr gəlib çınarın dibində yatır.

Bılar düşən vilayətin bir patşahı olur. Bir gün patşah köməkçisini göndərir ki, get atı sula. At suya yaxınnaşır, amma nə qədər eliyir, içmir. Köməkçi bından təəccüblənir, atı evə gətirir. Patşaha bı əhvalatı danışır. Bir-iki gün belə olduqdan sonra patşah özü atı sulamağa gətirir. At yenə də su içmir. Patşah suya baxanda çınarın kölgəsini görür, dönüb çinara baxanda onun ucunda nəsə görür və əmr verir ki, onu düşürsünlər. Köməkçilər nə qədər edir, onu düşürə bilmirlər. Birdən meşənin yanında bir daxma görürlər. Daxmadakı qoca qarını çınarın dibinə gətirirlər. Patşah deyir:

– Ay qarı, sən çinarın ucundakını düşürə bilsən sənə özün ağırlığında qızıl verəcəm.

Qarı bununla razılaşır. Qarı gedib çör-çöp və qazan gətirir. Sonra ocaq qalıyır, qazanı tərsinə ocağın üstünə qoyur. Ona nə qədər su tökürsə, qazan ağzı üstə olduğuna görə dolmurdu. Fatma bına dözməyib ağacın ucundan aşağı düşür. Qazanı döndərib içini suynan doldurannan sonra deyir:

– Ay qarı nənə, bını belə eləmək lazımdı.

Qarı deyir ki, get çınarın dibindəki sandıqdan mənim darağımı gətir. Fatma sandığa baxır ki, daraq yoxdur. Qarıya deyir ki, bırda darax yoxdu. Qarı deyir ki, bir də əyil bax. Fatma əyiləndə qarı onu sandığa salıb ağzını örtür. Qarı sandığı götürüb saraya aprır.

Padşah əmr verir ki, sandığın ağzını açsınlar. Qarı sandığı açanda patşah görür ki, onun içində gözəl, göyçək bir

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

qız var. Padşahın oğlu bı qıza vırılır. Qız da ona vırılır. Bınnar qırx gün, qırx gecə toy eliyirlər. Fatma başına gələn əhvalatların hamısını bına danışır. Bir gün Fatma yoldaşınnan xayiş edir ki, həmin çınarın dibinə getsin. Yoldaşı bına razı olur. O, çınarın dibinə gedir və deyir:

– Əyil, çınarım, əyil.

Çınar əyilir. Fatma çınarın ucuna çıxır. Axşam qardaşı çınarın dibində yatmağa gələndə Fatma onu görür, görüşürlər. Sonra yenidən çınarın başına çıxır. Ordan görür kü, bir qaraçı dəstəsi gəlir. Dəstənin başçısı Fatmadan xayiş eliyir ki, onu da oraya çıxartsın. Fatma bınnan razılaşır. Onu çınarın başına çıxardır. Bı Fatmanın təzə paltarını soyundurur, Fatmanın özün də aşağı atır. Bu zaman yer aralanır, Fatma ora düşür, yer təzədən bağlanır. Qaraçı Fatmanın təzə paltarını geyinib padşahın evinə gedir. Ora getməmiş üzünü-başını örtür. Fatmanın əri bınnan şübhələnir. Fatmaya deyir ki, üzünü niyə örtmüsən? Qaraçı deyir:

– Başımı yumuşam, ona görə də örtmüşəm ki, soyux vırmasın.

Bir həftə keçir. Əri soruşur:

– Ay Fatma, bəs başın qurumadımı?

Bını padşah eşidir. Gəlib onun üzünü açır. Görüllər ki, bı qaraçıdı. Patşah bı qaraçını cəzalandırır. Patşahın oğlu gedir çınarın dibinə. Görür kü, çınarın dibində bir maral dil açıp ağlıyır. Patşahın oğlu Fatmanın danışdığı əhvalatı yadına salır. Bilir ki, bı maral Fatmanın qardaşıdı. Ondan soruşur:

– Fatmanı gördünmü?

Maral əhvalatı ona danışır. Deyir ki, Fatma düşdüyü yerdə gül bitif. Oları, o gülləri apar bəstə. Yaxşı bəsləsən Fatma da, mən də düzələcəm. Patşahın oğlu bı gülü yaxşıca bəsliyir. Bir müddət keçdikdən sonra padşahın oğlu görür ki, güldan partlıyır. Fatma güldanın içinnən çıxır. Bı vaxt qapı döyülür. Qapını açanda görüllər ki, gələn Fatmanın qardaşıdı. Padşahın qızı ilə Fatmanın qardaşına qırx gün qırx gecə toy edirlər. Bınnar hamısı bir yerdə mehriban yaşıyırlar.

OVÇU PİRİM

Bir gün Ovçu Pirim ova gedirmiş. Yolda görür ki, iki ilan bir-birinə sarılıblar. İlanların biri ağ, o birisi qaradı. Ağ ilan gözəl, qara ilan çirkiniymiş. Qara ilanı vurmax istiyir. Amma güllə ağ ilana dəyir, yaralanır. Qara ilan qaçır. İlannar Ovçu Pirimi ilannar padşahın yanına aparıllar. Yolda Ovçu Pirimə deyillər ki, padşah sənə deyəcəh mənnən nə istiyirsən, sən denə tüpür ağzıma. Ovçu Pirim əhvalatı olduğu kimi padşaha danışır. Padşah deyir ki, qara ilan mənim düşmənlərimdəndi. Mənim qızımı onun əlinnən aldığın üçün məndən nə istiyirsən? Ovçu Pirim deyir ki, tüpür ağzıma. Padşah ona deyir ki, saxlaya bilmərsən. Sora kişinin ağzına tüpürür. O vaxtdan Ovçu Pirim bütün canlılalın dilini bilir. Ovçu Pirim qayıdıb evinə gəlir. Günlərin bir günündə yaylağa köçürmüş. Madyan atını yüklüyür. Atın balası da varıymış. Yükün üstünə arvadını mindirir. Yolda getdihləri yerdə görür kü, dayça kişnədi. Ovçu Pirim görür ki, dayça deyir: "Ay ana, yavaş get, yorulmuşam". Anası cavap verir ki, ay sağ olasan, yük belimdə, bala qarnımda, biri yükün üstündə, biri də onun qucağında. Necə olur ki, mən yorulmuram, sən yorulursan? Ovçu Pirim bu söhbətə gülür. Arvad bunu eşidir. Deyir ki, sən niyə güldün, burda heç kəs yoxdu axı. Kişi demir. Mübahisə düşür. Arvad deyir:

– Ə, əgər belədirsə, onda mən səndə oturmayacağam.

Yollarına davam eliyillər, görüllər yolun qırağında bir sürü qoyun otduyur. Ovçu Pirim görür ki, qoç bir şişəyi qovalıyır, gətirir arxın qırağına. Şişəh tullanır, qoç tullana bilmir. Baxır, baxır, deyir:

– Ağzına qaya dəysin, sən qızıl kərə şişəh olmasın, o biri qumral kərə şişəh olsun.

Ovçu Pirimə bu söz çox pis təsir eliyir. Öz-özünə deyir ki, bu heyvan mənnən ağıllı tərpəndi. Mən əl çəkə bilmirəm, heyvan əl çəkə bilir. O günnən gedir arvadının kəbinini geri oxutdurur. Arvadınnan ayrılır. Arvad iki körpə uşağıynan qalır.

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Ovçu Pirim böyüh oğlunu özünnən götürür. Bu Allaha xoş gəlmir.

Ovçu Pirim bir gün ova gedir. Oğlunu da özüylə aparır. Bir dağ keçisi vurur. Hava çox dumanlı, yağışlı olur. Ocax qalıyıb bir az ət bişirib yeyillər. Sora deyir ki, oğul, sən burda gözdə, gedim, bəlkə ov düşdü. Ovçu Pirim gedən kimi uşağı yuxu tutur, durur keçinin dərisininin içinə girir. Qayanın dibində yatır. Ovçu Pirim hərlənib qayıdanda görür ki, qayanın dibində bir heyvan yatır. Ona güllə atır, uşax ölür. Ovçu Pirim çox peşman olur. Öz-özünə bir söz qoşur:

Kəhlik daşa dağıldı,
Səhdi daşa dağıldı,
Ovçu Pirim öz balasın vurdu,
Qanı daşa dağıldı.

O günnən Ovçu Pirim ovçuluğu atıp. Gəlir ayləsiynən barışır.

İTİN PAYI

Bir gün Avçı Pirim həm kasıfın, həm də varrının evinə qonax gedir ki, görsün necə hörmət eliyəcəhlər?

Siftə varrının evinə qonax gedir.

Deyir ki, məni qonax istiyirsız? Deyillər ki, niyə qonax istəmirih, Avçı Pirim, nə yaxşı gəldin? Qarşılıyıllar bını. İndi kişiynən arvad qalıb məhəttəl ki, neynəsinnər, Avçı Pirimə nə kəssinnər.

Kişi deyir ki, qoyunu kəssəm, quzu məliyəcəh, quzunu kəssəm, qoyun məliyəcəh.

Sora deyillər ki, gətirəh pişiyi kəsəh. Pişiyi gətirib kəsillər. Soyub aşın altına qoyullar. Sora diricə qoyullar Avçı Pirimin qavağına. Avçı Pirim bilir haa pişiyi kəsiflər. Sora əlini belə eliyif (göstərir)deyir: "Allahın heyvanı, dur çıx bırdan get". Pişih axsırır, aşı teyxa dağıda-dağıda qaçır. Ev yəələri utanıllar, bilmillər ki, neyləsinnər. Avçı Pirim deyir ki, kişi, malın mar olsun, dağlara sirr olsun. Sən bir həylə mal-heyvannan qıyıf maa kəsmədin. Çıxıb gedir.

Ev yəəsi səhərisi tezdənnən duruf görür ki, malı, heyvanı açılıb çıxıb gedib. Gediblər dağlara sirr oluflar. Avçı Pirimin dediyi söz görürsən də nətər olub?

Sora gedir bir kasıbın evinə. Bir naxırçı varıymış. Qoyun otarırmış. Gedir onnarın evinə. Avçı Pirimi yaxşı qarşılıyıllar.

Kişi tez əlbəhəl gedir qoyunu gətirib başın kəsir. Avçı Pirimə yaxşı aş bişirillər, qoyullar aşın altına. Bir qab qoyullar məcmeyiynən Avçı Pirimin qavağına. Avçı Pirim dil bilirmiş. Görür ki, it qəpidə uluyur. Əənədə kişinin sürüsü varımış, o tərəfdə. Ordan da bir qurd uluyur ki, indi yaxşı olub elə. Avçı Pirim bı kişinin başın qatacax, mən də yaxşı qoyunnardan yeyəcəm.

İt də bırdan uluyur ki, bı Avçı Pirimə yaxşı aş bişiriflər. Əyər o aşdan siftə gətirif maa versələr, mən gəlib səni boğub öldürüb, başımı da qoyub sənin üstünə yatacam. Avçı Pirim aşı

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

məcmeyidə aparıb diricə qoyur itin qabağına. Ev yəəsi, deyir ki, itə özümüz verəcəyih da. Avçı Pirim deyir ki, indi maa nə gətirirsiz, gətirin onu yəəciyəm.

Yeyib içənnən sora kişi deyir ki, indi mən gedim heyvanın yanına da. Qurd-zad gələr heyvanı aparar.

Avçı Pirim deyir ki, a kişi, getmə, arxayın ol. Bir heyvanın əysih olsa mən verərəm. Kişini qoymur getsin. Yatıllar. Səhər durub gedillər. Görüllər ki, gedib canavarı boğub öldürüb. Başını da qoyub üstündə yatıb. Bir heyvan da əysih dəyil. Avçı Pirim görür ki, bir qoyun məliyir ki, mən yüz balanın anası olacam. Ama cüt-cüt gətirir da, ekiz.

Naxırçı deyir ki, ay Avçı Pirim, gəlginə bı qoyunnardan hansın seçib-götürürsən, götür.

Avçı Pirim məliyən qoyunu götürüb gedir.

DARININ NAĞILI

Biriin uşağı olmurmuş. Deef ki, nətər eliyim? Görür ki, bir kişi bəri gəlir. Deef ki, bu darını tök altına, səhər duruf görəcsən ki, çoxlu uşağın var. Duruf görür ki, darı boyda okqədər uşağı var, okqədər uşağı var. Arvad təndirə çörəh salırmış. Deef: "Mən nətər eliyim?" Deef: "Yığılın təndirin başına". Bunnarı süpürgəynən süpürüp hamısını tökür təndirə. Tökür təndirə, deer ki, ay Allah, mən bının birin niyə saxlamadım ki, atasına çörəh apara? Deef ki, nənə, mən burdayam. Baxıf ki, balaca bir uşaxdı. Deef:

– Mən səni hara qoyum?

Deef:

– Məni qoy eşşəyin qulağına, çörəyi də qoy, mən atama çörəh aparacam.

Gedir. Yolda padşahın adamları gedirlərmiş, görüllər ki, eşşəyin yanında kimsə bunnara söyüş söyür. Nəkqədər gəlillər eşşəyin yanına, hərrənirlər, heş nə tapmıllar, qayıdıllar. Bir də gedillər, bir də hərrənillər, bir də qayıdıllar, heş nə tapmıllar. Oğlan gedir, düşür atasının yanına.

– Ata, mən sənə çörəh gətirmişəm.

Kişi ayna–bayna baxır, diir:

– Hardasan?

Diir:

– Eşşəyin qulağında.

Eşşəyin qulağından götürüf. Diif ki, ata, sən otur, mən bir az öküzləri sürüm. Deef:

– Öküzləri sür, amma göyə baxma.

Göyə baxır, görür ki, nə? Okqədər meyvələr var. Bu meyvələr də divin imiş. Çıxır ağaca, meyvələri didir tökür, dişdiir tökür. Div gəlir, hamı yerdə dişdənib tökülüb. Bunu bir təhəriynən salıf yerə, qoyuf torbasına, götürüf aparır. Aparır evə. Bunun bir keçisi varmış, bir də quzusu. Quzuynan keçini tez salır torbaya, özü çıxır qaçır. Div diir:

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Bunu elə-belə öldürməyəcəm, ağaşnan döyüf öldürəcəm. Ağaşnan vurduxca keçi bəərir, qoyun məliyir.

Deer:

– Keçim kimi mələ, qoyunum kimi bəyir. Qoyunum kimi mələ, keçim kimi bəyir.

Bunu öldürüf. Bir də baxıf görür nə? Keçi. Bir də görür ki, odey, orda hərrənir. Diif ki, ana, təndir qalıyarsan, bunu qoyarsan təndirin qırağında. Deyərsən ki, gəl təndirə çörəh sal. Çörəh salanda itəliyif salarsan təndirə, ağzını örtərsən. Təndiri odduyuf diyir ki, qarı nənə, mən çörəh salmağı nə bilirəm. Sən birin sal, sora da mən salım. Elə bu çörəyi salanda itəliyir salır, ağzın da örtür. Div gəlir ki, bu qıfqırmızı bişif, qoyuf qabağına yeyəndə deef ki, bəh, bəh, bəh, nə bişirilif. Bu deef ki, bəh, bəh, bəh, ananın ətidi, ye. Deer: "Bunu neynim-neynim, bunu salacam atın yanına, at təpihnən vura, öldürə". Gedib görür ki, bir atdı, bir donuzdu, bir itdi. Atın qabağına sümüh tökülüf, itin qabağına ot qoyuluf, donuzun qabağına nə qoyuluf, donuz da bunu yeyə bilməzmiş. Bir yerdə də kişmiş var. Kişmişi götürüf tökür atın qabağına, sümüyü götürüf tökür itin qabağına, əti də götürüb qoyur donuzun qabağına. At dillənif deer ki, səni mən burdan azad eliyəcəm. Div də qapıya dəyirman daşdarı qoymuşmuş yekə–yekə, salmışmış bura. At da dəyirman daşın açır. Ordan minif ata, qaçır gəlir.

AŞBAZ OĞLU PADŞAHIN NAĞILI

Belə deyillər ki, Ərəb vilayətində bir rəhimdar padşah var imiş. Şahın adı Qiyas şah idi. Qiyas şahın üç oğlu var idi. Oğlannar hər üçü buy-buxunlu, güzəl, səxavətli və qüvvətli oğlannar idi. Böyük oğlun adı Cavad, ortancılın adı Təraz, kiçiyin adı isə Altay idi.

Qiyas şah artıx qucalıb, haldan-olandan düşmüş idi, şahlığı idarə etməyə taqəti qalmamışdı. Bir gün şah oğlannarını yanına çağırıb, onnardan şahlığı idarə etmək üçün razılıx istədi. Cavad razı olmadı. Təraz bəhanə etdi ki, büyük qardaş qalıb, mən bu işə sahib ola bilmərəm. Nüvbə kiçik oğlu Altayın üsdündə dayandı. Altay fikirrəşib dedi:

– Mən sizin hamınızdan kiçiyəm, atam sağ qala-qala mən bu işə sahiblik etməyimi özüm üçün əyib sayıram. Mən razı olmaram ki, şah olum, böyük qardaşdar mənə səcdə etsinnər – dedikdən sunra hürmətlə baş əyib otağdan çıxdı.

Padşahın qəzəbi tutdu, o hirsləndi, vəzir-vəkili çağırıb oğlanların şahlıxdan çıxarılmasını əmr etdi.

Oğlannarın hər üçü atası ilə vidalaşıb şahlığı tərk etdilər.

Onnar bir neçə vaxt yul gedib bir şəhərə çatdılar. Şəhərin kənarında bir malikanənin qabağında, şam ağacının altında uturdular. Bu malikanə demə, Tərvaz şahın malikanəsi idi. Xəbər şaha çatdı ki, ağacın altında üç nəfər qunax var, gecələmək üçün daldalaçıx axdarıllar. Padşah əmr etdi ki, qunaqları evə dəvət etsinnər. Axşam naharı yetişirdi. Bir çux sühbətdən sunra qunaxları yemək otağına apardılar. Onlara pilov aş, üsdündə quyun quvurması, al şərab hazırrandı. Şah adəti üzrə qunaxları xəlvət quyub, qapı dalınnan onnarın sühbətlərinə qulax asardı.

Yemək başlandı, büyük qardaş aşın üsdən bir qızaran ət tikəsini alıb ağzına apardı və tez geri qaytarıb yerinə quydu.

– Bu ki it ətidir, şah, bizi it ətinə qunax edib, – dedi.

Şah hirsləndi. İstədi içəri girsin, birdən dayandı. Bu

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

zaman qunaxlar şərab badələrini qaldırdılar.

Ortancıl qardaş:

– Adə, bu şərab deyil, insan qanıdır, – dedi:

Şah daha da hirsləndi, ancax səbr etdi, gürsün üçüncü nə deyir.

Üçüncü qardaş bu zaman "aşbazdan əmələ gələn şahdan bundan artıx nə güzləmək olar?" – dedi.

Şahın qanı elə qaraldı ki, özünü qoymağa yer tapmadı. O, tez çubanı çağırtdı.

– Quyun hardadır?

– Sürüdən, şah sağ olsun.

– O quyun nə quyundur ki, sən kəsmisən?

– Şah sağ ulsun! Bir südsüz quyunumuz var idi, o duğdu, ancax südü yox idi. Həmin vaxtda, bizim yatax itdərindən bir kar it balalamışdı. Quzunu həmin kar itin südü ilə saxladıx, o quyun ki unlara kəsilmişdi, həmin quyundur. Şah dərinnən ah çəkdi. Tez şərabçını çağırdı.

– Şərab hardan olan şərabdır?

– Şah sağ olsun, gül bağınnan, – dedi.

– O bağ əvvəlcə necə yer olub?

– Şah sağ olsun. Ora kühnə qəbirstannıq idi. Rəhmətlik atan onu sökdürüb yerində üzüm bağı saldırdı. Şərab da həmin bağın üzümündən hazırlanan şərabdır, – deyə bağban dilləndi.

Şah daha bir dərin fikrə getdi, sonra dedi:

– Bunnar düz, bəs mənim atam-anam belli, o oğlan niyə elə dedi? Onun buynunu vuracağam – deyə qapıya yaxınlaşdı.

Birdən dayanıb: "Yux, gərək onu da yuxlayım" – dedi.

Şah anasının yanına getdi.

– Ana, mənim atam kimdir?

– Necə yəni kimdir, atan rəhmətlik şah Sənardır.

– Yux, ana, düzünü de, mənim atam kimdir? Yuxsa işlər başqa təhər olacax. Şahın anası gürdü ki, işlər başqa cür ulacax, unda düzünü demək məcburiyyətində qaldı. Oğul, otur qulax as, düzünü deyim:

– Mənim həmişə qızım olurdu, rəhmətlik atan, onnarı itirirdi. Son vaxtdar sən mənə həmli olanda, atan səfərə getməli oldu. O, mənə tapşırdı ki, əyər qızın olsa, səni də onunla bir qəbirə salacam.

Gün yetişdi. Mənim yenə qızım oldu. Həmin gecə qunşumuz aşbazın arvadı isə uğlan doğdu. Mən şah arvadı olduğum üçün hiylə ilə uşaqları deyişdirdim. Sən həmin aşbazın oğlusan – deyə arvad süzün bitirdi. Şah işə çox mətəl qaldı. "Bu oğlannar bu sirri hardan bilirlər?" – deyə fikir dəryasında qunaxların otağına girdi. Qunaxlar tez ayağa durdular qapandı, ədəblə baş eydilər. Şah eyləşdi.

– Hə, de gürüm sən nə bildin ki, bu ət it ətidir? – deyə büyük qardaşdan soruşdu.

Oğlan özünü itirdi, demək, şah bunların dediklərini eşidib, – deyə sözün düzünü süyləməyi fikirrəşdi.

– Şah sağ ulsun, mən əti ağzıma alanda ətdən iy gəldi. Fikirləşdim ki, sürüdə ulsa, it ulacax yəqin ki, it ətidir, deyə öz-özümə dedim.

– Hə, bəs sən nə bildin ki, bu şərab insan qanınnan əmələ gəlib? – deyə şah ortancıl oğlana üz tutdu.

– Belə bu şərab mənə insan qanının dadını verdi. Canıma lərzə saldı, bu isə insan qanının vəhiməsi idi.

Şah üzünü kiçik oğlana tutdu:

– Bəs sən necə cürət edib, mənim aşbaz oğlu olmağımı süylədin? – deyə ən kiçik oğlana müraciət etdi.

Kiçik oğlan dedi:

– Şah sağ olsun, biz axşamnan sizə yoxsul kişinin oğlanları olduğumuzu söylədik, bu yalandı. Biz Ərəb vilayətində adlı-sanlı Qiyas şahın oğlanlarıyıx. Atamız bizi öz şahlığına sahib ulmağı təklif etdi. Biz üç qardaş ulduğumuz üçün aramızda inciklik olar deyə, bu işi buynumuza gütürmədik. Atamızın qəzəbi tutub, bizi öz vilayətinnən çıxardı. Bu gecə sizdə qunax uldux. Bizə hər zaman çuxlu şahlardan, xanlardan qunax gəlirdi. Onnarın sühbətlərinə biz maraqla qulax asırdıx. Onnarın

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

hərəsi bir tərəfdə “filan şaha belə zərbə vurdum”, “filan xanın mülkünü belə dağıtdım”, “quşuna belə əmr verdim” və sairə kimi sühbətlər edirdilər. Siz isə axşamdan halva belə bişər, kabab belə olar, plovun quvurması belə bişər, dulma neçə cür olur və s. kimi aşbaz sühbətləri etməyə başladınız, onda mən bildim ki, siz aşbazdan əmələ gəlmisiniz. İndi buyun bizim, qılınc sizin, nə isdəsəniz buyurun, – deyə kiçik oğlan süzünü bitirdi.

– Narahat olmayın, dediklərinizin hamısı duğrudur, – deyə şah otağınnan çıxdı.

Səhər tezdən şah oğlannarı çağırıb ən kiçik oğlanı şah, büyük və ortancıl oğlannarın birini vəzir, o birini vəkil təyin etdi. Özü isə isdirahətə çıxıb yaşamağa başdadı.

Onnar orda qaldı, mən isə bura gəldim ki, sühbəti sizə söyləyim.

DƏVƏ İLƏ DƏVƏÇİNİN NAĞILI

Yuxsul bir kişi, düvlətə çatmax üçün bir dəvə alıb, bəzirgannığa başdamağı qərara aldı. O, Həmədan bazarınnan cavan bir dəvə aldı. Tanış bəzirgannara quşulub bir neçə şəhərdən mal alıb satmağa başdadı. Dəvəçi bəzirganın varı günü-gündən artmağa başladı. İş o dərəcəyə çatdı ki, o, şəhər qurmağı, orda nükər, qulluxçu, kəniz saxlamağı qərara aldı.

Vaxt çatdı, bəzirgan öz niyətinə çatdı. Bir düzlük sahədə, sakit axan bir çayın kənarında bir şəhər saldı. Şəhəri bir çux bəzirganlara tanıtdı. Şəhər bir az müddətə iri alver mərkəzinə çevrildi. Bəzirgan həm şəhərə gələn bəzirgannardan xərac alırdı, həm də özü başqa şəhərrərdə alver edirdi.

Bir dəfə bəzirgan səfərə çıxmışdı. Qumlu səhradan keçib ərəb ülkələrinə getmək isdəyirdi. Günün bir isti çağında bir tufan qupur, yulları qum suvurtusu basır, bəzirgannar yulu itirir. Bəzirganın ümidi qoca dəvədə idi. O, birdən fikirrəşdi ki, dəvəni ulağın quyruğuna bağlasın, ikisi birgə olsa, külək onnarı tərpədə bilməz. Bəzirgan o cür də ələdi, dəvəni bərk-bərk ulağın quyruğuna bağladı, yula davam etdilər. Axşam vədələrində hava sakitdəşdi, karvan yula düşdü. Ərəbistan şəhərində alverdən sunra bəzirgan nükərrəri ilə öz şəhərinə qayıtdı. Bu dəfə işdər daha yaxşı düzəlmişdi. Bəzirgan şadlığınnan sətəlcəm olub xəsdələndi. Ancax ölüm-itim olmadı.

Günnər bir-birinin arxasınca keçirdi. Bəzirgan da qucalıb haldan düşmüşdü. Bir neçə vaxt keçdi. Bəzirgan yurğan-düşəyə düşdü. Əcəl onun əl-ayağını bağladı, quhum-qardaşı tuplayıb halallıx almağa başdadı. Hamıdan halallıx alıb sonra o xahiş etdi ki, o quca dəvəni də çağırıb halallıx alsın. Dəvəni bəzirganın hüzuruna gətirdilər. Bəzirgan dəvəyə üz tutub dedi:

– Qucaman dəvə! Mən bu malı-mülkü sənin hünərinnə qazanmışam. Ancax səni çux incitmişəm, ac quymuşam, susuz qalmısan, qısa deyim, çux əziyyətdər çəkmisən. İndi mənim ölüm məqamımdır. İsdəyirəm, sənnən halallıx alım, buna nə

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

deyirsən? – deyə bəzirgan, qırıltılı səslərlə süzünü tam etdi. Dəvə dedi:

– Mehriban ağam! Sən deyənnər hamısı həqiqətdir. Biz birgə əziyyətdər çəhmişik, nə qədər ulsa da, biz bir yerdə yaşamışıx, odur ki, mən hər əzabımı sənə halal edirəm, amma bir şey var ki, onu sənə bağışlamaram. Sən bir on-on beş il bunnan qabax, Ərəbistanın qumlux səhrasında tufan qupanda mən buyda dəvənin nuxtasını ulağın quyruğuna bağladın, məni ulaxdan da aşağı tutdun. Bu hərəkətin məni çux təhqir etdi. Odur ki, bunu sənə bağışlamaram. Sağ ol! – deyə dəvə qayıtdı.

Bu süzdər bəzirgana ağır zərbə olub ölümünü yaxınnaşdırdı və o, Allah rəhmətinə getdi.

ZÜMRÜD QUŞU

Həbəşistan şəhərində addı-sannı bir şah var idi. Onun malı-düvləti başınnan aşırdı. Şahın uğlu yox idi, ancax qəşəng bir qızı var idi. Qızın adı Hüristan idi. Qızın uzun saçdarı, Aya bənzər sifəti, qara qaşdarı, sul yanağındakı qara xalı ona daha güzəllik verirdi. Qızın on iki kənizi var idi. Adəti üzrə hər cümə günü qızdar dənizdə gəmi ilə seyr edirdilər. Bir gün qızdar gül bağında gəzəndə, bağlıx yaxınnığında seyr edən Səddar addı bir uğlan bunnarı gürdü. Ürəyi gedib, yerə sərildi. Demə bu vaxt qızlardan biri bunu gürmüşdü. O, Hüristana dedi:

– Xanım, o uğlana bax, bizə baxıb birdən yerə sərildi. Rəhm et, gedib una kümək edək.

Hüristan qızın sözünü yerə salmadı. Uğlana yaxınnaşdılar. Uğlan nə uğlan... Sərv buylu, ənli güvdəli, qara saçlı, təzəcə bığ yeri qaralan bir uğlan idi. Qızdar tez uğlanın üzünə su çilədilər, o, güzdərini açdı və dedi:

– Məni bağışlayın.

Hüristanın ürəyi titrəməyə başladı. O, uğlana bir könüldən min könülə vuruldu. Qızların hərəsi bir tərəfə bəhanə ilə dağılıb, uğlanın kim ulduğunu üyrəndi. Qızlar əvlərinə, Səddar isə öz əvinə getdi. Hər iki aşiqin sonrakı ürəy düyüntüsü sizə bellidir. Sevişənlər necə olur? Məncə sizlərdən sevişən olub. Qız artıx günü-günnən saralırdı, əşqin bəlası onu sarsıdırdı.

Qızın bu əhvalı şaha çatdırıldı. Şah "rəm" vurub bütün həkimləri tupladı. Qızının xəsdəliyini hərə bir süzlə izah etdi. Ancax əslini bilən ulmadı. Şəhərdə bir biləndər arvad yaşayırdı. Şah onu yanına çağırtdı. Qızın xəsdəliyini ona süylədi.

– Əh, bunda nə var ki? Qız həddinə çatıb, yəqin ki, aşiq olub, əşqdən xəsdələnib, – deyə, arvad dilləndi. Siz qıza, ayax deyməz dağın başında, uca çinarın altında olan züm-züm suyunnan su gətirib verin. Qız dərhal sağalacax.

Şah əmr etdi ki, kim gedib su getirsə, qızı ona verəcəm. Bu xəbər Səddara çatdı. O, tez özünü şahın sarayına yetirdi.

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Şah sağ ulsun! Mən suyu gətirməyə süz verirəm, ancax ilqar bağla ki, qızı mənə verəcəhsən.

Şah dedi:

– Sənə bir həfdə vaxt verirəm, əyər suyu gətirsən, qız sənindir, yox, əliboş gəlsən, buynunu vuracağam.

Səddar, qılınc-qalxanı gütürüb yüla düzəldi. O, əli-qulu qüvvətdi qəşəng bir oğlan idi. Bir neçə gün yul gedib dağın ətəyinə çatdı. Dağın başındakı uca sərv buylu çinarı gürdü. Su çəşməsi bu çinarın altında idi. O, yavaşca özünü ağacın altına çatdırdı. Əl-üzünü sərin suda yuyub, bir qədər dincini almax üçün ağacın altında uzandı. Şirin yuxuda o, quş balalarının cib-cib səsdərini eşitdi. Tez qalxıb, gürdü ki, ağacda quş yuvası var. Yuvaya bir yekə ilan yaxınnaşır, balaları yemək niyyətindədir.

Səddar tez qılıncı gütürüb ağaca qalxdı. İlanı fal-fal doğrayıb quş balalarına verdi. Balalar əti yeyib rahat uldular. Səddar isə yenə külgədə uzanıb yuxuya getdi. Bu zaman Zümrüd quşu balaların yedirmək üçün yuvaya qundu. O, birdən Səddarı gürüb, tez geri uçdu. Qanadı üsdə yekə bir daş gətirib Səddarın üsdünə atanda balalardan biri:

– Ana, dayan! Bu insan bizi ölümnən xilas etdi. Bir yekə ilan bizi yaxalayanda, o, ilanı öldürüb bizə də ətini payladı. Bax mən qəsdən sənə güstərmək üçün dilimin altda bu tikəni saxladım – deyə diləndi.

Demə, ilan hər il bu quşun balalarını yeyən ilan imiş. Zümrüd quşu Səddarın üstünə gün düşməsin deyə, qanaddarını yayıb dayandı. Səddarın vəd verdiyi vaxta bir gün qalmışdı. O, birdən uyandı. Zümrüd quşu dilə gəlib dedi:

– Oğlan! Sən mənim balalarımı ölümnən xilas etmisən, indi de gürüm nə mətləbin var? Mən sənin qulluğunda hazıram.

Uğlan əhvalatı una süylədi. Sonra çəşmədən bir qab su gütürüb Zümrüd quşuna dedi:

– Məni öz vilayətimə çatdır. Artıx sənə qulluğum

yuxdur. Zumrud quşu uğlanı qanaddarı arasına alıb səmayə qalxdı. Deyillər, nağıllarda vaxt tez yetişir. Odur ki, Zümrüd quşu bir neçə sahatda Səddarı öz vilayətinə çatdırdı. Sağollaşıb ayrılanda, o, uğlana bir qanad teli verdi və dedi:

– Hər vaxt çətinniyə düşsən, bu teli yandır. Mən hazır olacağam.

Səddarın gəlişi xəbəri şaha çatdı. Onu tez şahın sarayına apardılar. Səddar şahdan xahiş etdi ki, onu qız olan utağa aparsınnar. Şah tez əmr verdi. Uğlanı qızın otağına apardılar. Şərt ilə otağda qızdan başqa heç kes olmamalı idi.

Hüristan uğlanı görcək tez unun buynuna sarıldı. İki aşiqməşuqə bir-birinə, avandlı tənək payaya sarmaşan kimi sarmaşdılar. Sonra qız dərhal paltarın geyinib, otağdan əyvana çıxdı. Əhvalatı gürən şah sevincindən nə edəcəyini bilmirdi.

O, saray əhlinə əmr etdi ki, tuy tədarükü görsünnər. Şah toyu bazar gününə təyin etdi. Tuy başdandı, Həbəşistan şəhri ömründə belə tuy görməmişdi. Yeddi gün, yeddi gecə tuy çalındı, iki cavan muradlarına çatdılar. Səddar Zümrüd quşunu yaddan çıxarmadı, teli yandırıb onu gətirdi. Tuy mərasimində Zümrüd quşuna xüsusi yer ayırdı. O, quşu öz yuvası ilə bura küçürməyi quşdan razılıx aldı. Quş semimiyyetlə razı olub, balalarını da şahın sarayı qarşısında uca bir ağacın başında yuvada yerləşdirdi. Səddar, Hüristan və Zümrüd quşu xoşbəxt yaşamağa başladı.

Bir gün şah Səddarı yanına çağırıb şahlığı ona tapşırdı. Özü isə Allah rəhmətinə getdi. Səddar da şahlığı daha ədalətlə idarə etməyə başdadı.

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

ŞAHZADƏ YUSİF VƏ CEYRAN QIZIN NAĞILI

Adı hər yanda məşhur olan Şərkəni şəhərində bir şah şahlıx edirdi. Onun Nəvaziş adında bir arvadı var idi. Arvadın daim qızı olurdu, oğlana möhdac idi. Şahın arvadı yenə həmli oldu, vaxt yetişirdi. Şah yığışıb nükərrəri ilə bir həfdəlik ova çıxmağı qərara aldı. Arvadına tapşırdı ki, bu dəfə də qızın olsa, buynunu vuracağam. Şah yula düşür. Şahın arvadı ağrı keçirdi. Mamaçaya tapşırdı ki, qızı olsa gizlətsin, onun ölü olduğunu şaha xəbər versinnər. Arvadın qızı oldu. Macal çəhmədən şah ovdan qayıtdı. Arvadın qızı olmasını bildi. İsdədi arvadın və qızın buynunu vursun, arvad yalvardı ki, onu qızı ilə çülə atsın, üldürməsin. Şah bu xayişə razı oldu. Nükərə tapşırdı ki, onnarı, Taras çülünə atsın, quy qurdlara-quşlara yem olsunnar. Nükər bir qədər rəhmdar idi. Şahın arvadı üçün bir xurcun çörəh, ət və başqa sursat alıb, onnarı Taras çülündə bir qayanın daldalacağına qoydu. Arvad sursat qurtarana qədər bu yerdə qaldı, sonra bir meşə cığırı ilə yula düzəldi. Bir neçə vaxt getdihdən sunra uca bir qalaçaya çatdı. Qalaçanın qapıları açıx idi. Amma içəridə heç kəs yux idi. Arvad, nə olursa olsun, burda qalacağam, fikirləşib kürpəsi ilə bir əvdə yerləşdi. Günnər keçirdi, ancax qalaçaya gələn yux idi. Beləliklə, arvad qala sahibi olub orada yaşamağa başdadı.

Deyillər, nağılda illər tez-tez keçir. Bizim də söhbətimiz on-on beş ilə çatdı. Şahın qızı boy-buxun atdı. Bir dəfə o, qalaçanın ən kiçik utağına girdi. Gürdü nə gürdü: burda bir qız daşa dünüb yatır, yanında isə bir ceyran **liqabı*** var. Qız bir qədər fikirrəşənnən sonra liqabı anasına güsdərdi. Anasının məsləhətilə liqabı eyninə taxdı, qız qəşəng bir ceyrana dündü, atılıb-düşməyə başdadı. Liqabı alan kimi yenə həmişəki qız oldu. Şahın qızı o qədər güzəl qız oldu ki, heç bir mahalda ona tay olmamışdı. Qız həftədə bir dəfə ceyran liqabını geyib çülə

---

*liqab – niqab, libas.

çıxır, sıldırım qayaların, yaşıl çəmənnərin içində seyr edərdi. Axşam isə qalaçaya dünərdi.

Beləliklə, ana-bala şən və xuşbəxt yaşamağa, qalada quyun-quzu, tuyuq-cücə, qaz-ürdək saxlamağa başdadı. Mal-dövlət günü-günnən artırdı. İndi sizə kimdən deyim, qala sahibinnən. Demə, bu qala sahibi bir quca meymun imiş. O, öz qəbiləsinin yanına gedib on-on beş il idi ki, qayıtmamışdı. Qəbiləyə çuma xəstəliyi düşdüyü üçün o, öz qalasına qayıtmağı qərara almışdı. Bir axşam arvad gürdü ki, qalaya, insan şəklində bir meymun gəldi. O, bir tərəfdə gizdəndi. İşin axırını yuxlamax üçün qızını da xəbərdar etdi. Meymun darvazadan girib:

– Ey yerim-yurdum, səndən ötrü çux darıxmışdım. Yaxşı ki, hər şey öz yerindədir, – dedi. O, tez daş qız ulan utağa girdi. Vay çekib ağlamağa başdadı. Mənə sənsiz həyat nə lazım! – deyə ağlamağa başladı. Daha mən bu diyarda yaşayası deyiləm; – deyib qalanın damına çıxdı. Qala çux hündür idi. Damdan meymun özünü hələ bir sıçrayışla yerə atdı ki, sümükləri dərinin içində xurd-xəşil uldu. Arvad qızı ilə meymunu dəfn etdilər. İndi onlarda qala sahibliyi üçün heç bir şübhə qalmadı. Anası qızının yanında oturub, ona əqil-nəsihət verdi, çüldə çux gec qalmamağı tapşırdı. Təhlükədən tez başını qurtar, – dedi.

İlin bahar fəsli idi. Hər tərəf gül-çiçək içində ulub bahara başqa bir gözəllih verirdi. Ananın qızı seyrə çıxmax fikirinə düşdü. Səhər öz liqabını geyinib çülə çıxdı. Xeyli seyr etdi. O, dağın başınnan axan şəffaf bir çayın gülməçəsindən xuşu gəldi. Gülməçə Məleykəyə o qədər xuş gəldi ki, suyunub çimməyə başdadı. Demə, bu gün Şəmaxı şahının uğlu at belində dağlar seyrinə çıxmışdı. O, çayın axarında durub, atı bir ağaca bağladı, hər tərəfə güz gəzdirdi. Birdən gözü gülməçədə çıplaq çimən qıza sataşdı. O, özünü itirmədi, bir kulun dalında gizlənib işin axırını gözləməyə başladı.

Zalımın qızı Məleykə gülməçəyə işıq salmışdı, qızın zahiri güzəlliyi uğlanı valeh etmişdi. Onun səbri tükənməz

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

uldu, isdədi gülməçəyə yaxınlaşsın, birdən:

– Yux, bu kişilikdən deyil, kimsəsiz qızı xəflətmək olmaz. Quy çimib geyinsin, sunra baxax görək nə olacax? – dedi.

Məleykə çimib qurtardı. Bir qədər güy otlar üzərində uzanıb yatdı. Oğlanın əl-ayağı titrəyirdi. Çülün bu mənzərəsində tək qız, bu nə işdir? – deyə fikir dəryasına qərq oldu.

Birdən şah oğlunun atı kişnədi, qız ürkək kəklih kimi paltarrarına yaxınnaşdı. Liqabı başına atan kimi dünüb ceyran uldu. Yay kimi dartınıb, ox kimi süzdü. Birbaş qalaya üz qoydu. Oğlan firsəti əldən vermədi. Tez ata minib ceyranın dalınca çappağa başdadı. Qız qalaya çatanacan uğlan onu izdədi, özünü qalıya yetirdi. Onu Mələykənin anası qarşıladı. Oğlan atdan yerə endi. Arvaddan ceyranın hara getdiyini suruşdu. Arvad dedi:

– Oğlum! Nə ceyran, nə ov, sən nə danışırsan? Burda ceyran nə gəzir? – dedi.

Oğlan yalvarmağa başladı. Ceyranım bura gəldi, gəl unu mənnən ayırma. Anacan, bütün dünyaları sənə qurban edərəm, ancax o qızcığaz ceyranı mənnən ayırma. Məleykənin anası işi başa düşmüşdü, ancax özünü biruzə vermirdi. İş o yerə çatdı ki, oğlan özünnən gedib yerə sərildi. Ana Mələykəyə tez su gətirməyi tapşırdı. Mələykə əlində su bardağı ilə uğlanın başı üstə dayandı, anası oğlanın üzünə su çiləməyə başdadı. Oğlan yavaşca güzdərini açdı, başının üsdündə duran qızı dərhal tanıdı. Onun göldə çimən qız ulduğuna şübhə etmədi. Güzdərin yenidən yumub, güz altdan qızı seyr etməyə başladı. Atın kişnəməsi onu oyatdı, tez ayağa qalxdı. Qız dərhal evə qaçdı. Oğlan anaya bu Tanrı payı ulan qızı una verməyi xahiş etdi:

– Mən Şəmaxı şahının oğlu Yusifəm. Allah mənə bu qızı qismət elədi. Sabah sizə elçi göndərərəm, ancax etiraz etmə, anacan – deyə oğlan sun süzünü süylədi.

Arvad Mələykəni çağırdı. Qızım, bu oğlan səni gülməçədə çiməndə gürüb, artıx aşiğin olub, indi məsləhət sənindir.

Şahzadə oğlanı sevirsənmi? – deyə qızdan suruşdu.

Ana, məsləhət sahibi sənsən, özün necə layiq bilsən, elə də elə dedi.

Oğlan ata minib, yula düzəldi. Əhvalatı ata-anasına süylədi. Ərtəsi gün şah, arvadı, vəzir-vəkil oğlan ilə qalaya qunax gəldilər. Ana ilə məsləhətdən sonra qızı, ananı qalada olan mal-düvlət ilə öz şahlığına gətirdilər. Yeddi gün-yeddi gecə tuy düyüldü. Mələykə xanımla Şəmaxı şahın uğlu Yusifə kəbin kəsildi.

Məleykə ceyran liqabını sandığa salıb gizlin saxlayırdı. Günnər bir-birinin ardınca su kimi axıb keçirdi. Vaxt yetişdi, Mələykə həmli oldu. Onun qəşəng bir uğlu uldu. Şahlıxda tarixdə belə şaddıx olmamışdı. Şah bütün kasıb-kusuba pul payladı. Şahlıx məclisinə yaxşı şahlıxlardan qunaxlar gəlmişdi. Qunaxlar arasında Şərkəni şəhərinin şahı Məsum da var idi (bu həmin qızın atası idi). Arvaddar məclisi kişilərdən aralı idi. Məsum birdən arvad məclisinə güz gəzdirdi. O, Nəvaziş xanımı tanıdı. Ayağa qalxıb şahdan xahiş etdi ki, o arvadla danışmağa ona icazə versin. Şah razı oldu. O, arvadla Məsumu bir utağa saldı. Məsum arvadın ayağına yıxılıb, əhvalatla onu tanış etməyi xahiş etdi. Arvad bütün başına gələn əhvalatı ona süylədi. Məsum öz günahlarını boynuna aldı. Qızı ilə də gürüşdü, onu da bağrına basdı. İki şahlığın quhumluğu meydana çıxdı. Məsum öz arvadını alıb evlərinə gəldi. Mələykə xanım şahzadə Yusiflə oğlu Məhərrəmlə xuş düvran sürməyə başdadılar. Allah sizi də xoş günə çıxarsın, daim xuşbəxt olasız.

Toy məclisinnən bir kəllə qənd pay vermişdilər, yulda əlimnən aldılar. Heyif ki, əlibuş gəldim.

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

ZƏRNİŞAN XANIMIN NAĞILI

Zərnişan qələm qaşdı, al yanaxlı, xumar güzdü, incə belli bir arvad idi. Onun uzun, daban dügər saçdarı, sul yanağındakı quşa qara xalları, gülümsər baxışdarı, bütün kişiləri valəh edirdi. Onda belə bir şücaət var idi ki, hər hansı bir kişi ulursa ulsun, onu dərhal bir güz qırpımında aldadırdı. Beləliklə, Zərnişan mahalda yux, bütün şəhərdə ad qazammışdı. Zərnişan gecə yuxuda bir çox mal-düvlət sahibi ulmuşdu. O, yuxunu çinədmək niyyətinə düşdü. Şəhərin addı-sannı düvlətlilərinin siyahısın aldı. On iki nəfər düvlətlinin ipini əlinə almağı vəd etdi. İş başlandı. O, əvvəlcə cavan bir uğlana rəm atdı. Oğlanın ata-anası ülüb yetim idi, ancax mal-düvlətinin sayı-hesabı yux idi. Zərnişan uğlana ərə getdi. O, ürəyində tuturdu ki, bu un iki nəfəri bir il ərzində ələ almağı, mal-düvlətinə sahib olmalıdır. Birinci müştəri, bütün mal-düvlətin sahibliyini arvadı Zərnişana təhvil verdi. İkinci müştərini bir gecə əvə dəvət etdi. Bu gecə əri əvdə yux idi. Onunla məsləhətləşdi ki, sabah gecə yenə gəlsin. Qəflətən əri səfərdən qayıdanda qunşusu Dursun gecə əhvalatını ona süylədi. Zərnişanın əri bir məlumsuz yerdə gizdənib pusquda oturdu. Axşam qaş qaralanda müştəri əlində bir yekə sürtüklə əvə daxil olur. Güzünə dündüyüm Zərnişan onun buynundan ələ sarıldı ki, əri onnarı ayıra bilmədi. Bu həngəməni görən ər səhər qazını çağırıb orada üç süzünü verdi. Zərnişana ələ bu lazım idi. O, oğlanın malınnan çux payını özünə aldı. Malı əvində yerləşib, ikinci müştəriyə xəbər etdi ki, onunla əvlənmək isdəyir. Bu arvad ikinci müştərini də valəh etmişdi, odur ki, məsələ tez həll olundu.

Bir dəfə o, daha **bicəlp*** oldu. Oğlanın malın öz kəbin kağızına yazdırıb, qazıya kəbin kəsdirdi. Zərnişan şirin ayilə qurdu, amma ürəyi başqa niyətdə idi. O, gərək bu un iki nəfərin arvadı ulsun, axırnı isə gözləmirdi.

---

*Bicəlp – fərasətli, cəld.

İkinci ay başa çatdı, Zərnişan işə başladı. Üçüncü müştərini dilə tutdu. Demə bütün müştərilərin güzü arvadda imiş.

– Ay Zərnişan, gör hansı bəxtəvərin malı olursan!... deyirdilər. Üçüncü müştəri gündüz onun əvinə gəldi. Əşq-məhəbbətin qızğın vaxtında əri utağa daxil oldu. Vəziyyəti belə gürən ər isdədi bunnarın hər ikisini üldürsün, birdən fikirləşdi, yux, yaxşısı budur arvadı buşayım. Hələ o gün üçüncü müştərini əli bağlı əvdə quyub şəhərin qazısını çağırdı və arvadı buşadı. Qazı kəbin kağızında yazılan bütün malı arvada verdi. Bu da belə qurtardı.

Şəhərdə güzəllikdə, görkəm və səxavətdə durna bulağının suyu tək işıqlanan bir uğlan var idi. Zərnişanla cüt duranda, hər ikisi bir-birinə güzəllik verirdi. O, Zərnişana evlənməyi qərara aldı. Ancax Zərnişanın qabaxkı hərəkətləri onu sarsıdırdı. Dili şirin, əməli bəd Zərnişan bu uğlanı da aldatdı. Tuy tədarükü başdandı. Qazı gəlib kəbin kəsdi. Oğlan bu işə də firsəti əldən vermədi. Kəbin kağızında yazdırdı ki, hər ikisinin mal-düvləti birgədir. İşdə puzqunlux olub, ayilə ayrılıpsa, mal-düvlətdən təxsirkar əl çəkəcək. Birgə həyat başdandı, günnər bir-bir keçirdi. Zərnişanın ürəyi qaynıyırdı. Nə etsin, nə həngamə çıxarsın ki, ərini təxsirkar edib, onnan buşansın, mal-düvlətə sahib olsun. Öyrənən durmaz, deyiblər. O da dura bilmirdi.

Şəhərin kənarında yetim bir qız yaşıyırdı, güzəllikdə Zərnişandan iki qat artıq idi. Zərnişan qızı dilə tutdu. Ona dedi ki, sən bu gecə bizə gəl, mən evdən çıxıb gedəcəyəm, səni ərimlə quyaram razılıx edib ona ərə gəlsən, hər ikimiz bacı kimi yaşayarıx, ərimizin də iki arvadı olar. Qız aldandı. Axşam qarannıxda Zərnişanın əvinə gəldi. Zərnişan ərinnən, bu gecə rəfiqəsinə qunaxlığa getməyin bəhanəsilə rüsxət aldı. Özü isə mətbəxdə gizdəndi. Ələki yetim qız evə girdi, o tez gedib qazını özü ilə evə gətirdi. Qız ilə ərini qazıya güstərib dedi:

– Sən Tanrı şahidi. Ərim məni buşayıb bu qızla evlənmək isdəyir. İndi buna təklif et ki, məni buşasın, mən çıxıb gedim. Quy bunnar yaşasınnar. Qazının əslində bu işdən xəbə-

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

ri yux idi. Odur ki, kəbini tərs oxudu, ər-arvad buşandı.

Ərtəsi gün Zərnişan furqunlar gətirib, malı daşımax isdədi. Kəndin qazı və kovxası da gəldilər. Ər-arvadın kəbin kağızını isdədilər. Oğlan kağızı tezdən gizlədib saxlıyırdı. Zərnişanın bundan xəbəri yux idi. Oğlan dedi:

– Kəbin kağızı Zərnişandadır, mənim onnan xəbərim yuxdur.

Zərnişan o qədər kağızı axtardı ki, tapa bilmədi. Şəhərin kovxası ilə qazı bütün mal-düvlət sahibi əri təsdiq etdilər. Zərnişansa yanan od içində tüsdüsüz quvruldu. Əli mal-düvlətdən çıxıb tək-tənha qalmışdı. O, çux gütür-qoy ələdi, ancax qəti bir məqsədə nail ola bilmədi. Çünkü hamı onu tanıyırdı, hiyləsi ilə tanış idi, udur ki, daha heş kesi aldada bilməzdi.

Bir gün Zərnişan şəhərin yuxarı tərəfində olan seyrangaha dərd-qəmini buşaltmax məqsədilə seyrə getdi. Seyrangah çux səfalı bir yer idi, unun cənub tərəfində, yaşı yüzdən artıx olan quca bir çinar ağacı var idi. Çinarın altında sərin sulu bir çeşmə həmini valəh edirdi. Zərnişan bu çeşməyə yetişəndə külgədə dincin almax üçün yatan bir oğlanı gürdü. Oğlan şirin yuxuda idi. Odur ki, Zərnişanın onun yanında əyləşməsinnən xəbəri yux idi. Bu uğlan Zərnişana tanış deyildi. O, bunu Allah vergisi hesab etdi. Oğlan ayılana qədər unun yanında oturdu. Günəş dağın ətəyinə ənirdi. Artıx çeşmə başı sərinnənirdi. Sərin külək oğlanı yuxudan ayıltdı. Oğlan arvadı gürcək tez ayağa qalxdı. Zərnişan hiyləyə əl atdı. O dedi:

– Oğlan, anan namaz üsdə idi. Səni ölümnən xilas ələdim. Burda bir şahmar ilan az qala səni sancıb, zəhərləyirdi. Mən unu üldürə bilmədim, o, bu çinarın kükləri arasında gizləndi. Mənsə səni ayıltmağa qıymadım, quy dincin alsın dedim. İndi de gürüm, sən kimsən, haralısan? Burada niyə yatmısan? Məyər şəhərdə tanışın yuxdur? Onda buyur gəl mənimlə, səni qunax aparım. Zərnişanın bu süzləri uğlanın ürəyinə yatdı. Duğrudan da, unun bu şəhərdə tanışı yox idi. Odur ki, arvadın təkliflərinə razı uldu. Onnar şəhərə –Zərnişanın əvinə

gəldilər. Zərnişan qunağı o ki var, lazımilə qarşıladı. Axşam yeməyi qutardı. Yatmax muğamına çatdılar. Qunax Zərnişannan bu evdə kişi xeylağı ulub-ulmamasını da suruşdu. Ürəyi arxayın yataxda uzandı, ancax güzünə yuxu getmirdi. Birdən qunax otağının qapısı açıldı. Zərnişan utağa daxil uldu. O, alt paltarında idi. Qunax fikirrəşdi. Aha, dərə xəlvət, tülkü bey! – deyə Zərnişanı qartal kimi caynağlarına aldı. Gecəni belə keçirdilər. Oğlan getməyə izn isdəyəndə: ”Mən səni güydə axtarırdım, ancax yerdə tapmışam, hara gedirsən, səni buraxan deyiləm” – dedi.

Qız qazını çağırıb “nikah qılmalıyıx, qoy namərdlər bizim xuşbəxtliyimizə paxıllıq etsinnər”, – deyə oğlanın başını qulları arasına aldı. Onnar kəbin kəsdirib, rəfah yaşamağa başdadılar. İndi sizə kimnən deyək, kəndin qazısınnan. Qazı Zərnişana, bir künüldən min künülə vurulmuşdu. Demə, özü ona sahib olmax isdəyirdi. Bir gecə xəlvətcə qazı Zərnişanın qapısına gəlir, sakitcə qapını düyür. Zərnişan qapını açır, qazını gürüb karıxır. Qazı, gecənin bu vaxtında sən burda nə axtarırsan? – deyir.

Qazı titrək səslə: “Maralım”... – deyə Zərnişanı qucaxladı. Qapıdan içəri girdi. Zərnişan nə edəcəyini bilmirdi. Səs salsa, əri uyanar, bu işin təxsirini mənim üsdümə atar – deyə səsini çıxarmadı. Zərnişan qazını rahat etdi ki, bu utax xəlvətdir, bura gir, mən bu sahat gələrəm. Arvadın süzünə inanan qazı otağa girdi, uzanıb yatdı. Zərnişan əlində bir yekə balta utağa girdi. Baltanı qazının başına ələ əndirdi ki, qazıdan heç səs belə çıxmadı. Onu sürüyüb küçəyə atdı. Ancax bu sirri bir qunşu arvad gürüb tez kovxaya xəbər verdi.

İşin üsdü açıldı. Zərnişan məhkəməyə çekildi. Şəhərin qazısını üldürdüyü üçün ona ülüm cəzası kesildi. Cəlladdar hükmü yerinə yetirilər. Zərnişanın var-düvlətə çatmax niyəti belə qurtardı.

Mən hükmün yerinə yetirilməsini bilib geri qayıtdım. Onnar orda qaldılar, mən öz mənzilimə gəldim.

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

PAXIL QARDAŞDAR

Belə nağıl edillər ki, bir kənddə varrı, düvlətdi, İslam adında bir kişi yaşayırmış. İslamın malı-düvləti başınnan aşırdı. Onun üç oğlu, bir qızı var idi. Büyük oğlanın adı Sərdar, ortancılının adı Mərdan, kiçiyinin adı isə Mustafa idi. Bacısının adını qaradaşları Zümrüd deyə çağırdılar.

Kiçik qardaş Mustafa çux ağıllı bir uğlan idi. İslam kişi hər üç uğlunu evli-eşikli eləmişdi. Onu qucalıx haldan salmışdı. Bir gün o, uğlanlarını yanına çağırıb mal-düvlətini onların arasında bülür. Bülgü zamanı Mustafaya bir qədər artıx mal düşür. Mustafanın arvadı o qədər güzəl idi ki, qardaşların paxıllıxdan ürəyləri partdıyırdı. Malın çuxu, səfalı yerrər, güzəl arvad, hamısı Mustafaya düşüb bizə nə? – deyə iki qardaş dilə gəlmişdilər. Mustafa isə bunnara çux hürmət eləyir, xətirlərini əziz saxlayırdı. Onun ürəyində pislik, paxıllıq yux idi.

Çox keçmədi, İslam kişi Allah rəhmətinə getdi. Onu kiçik oğlu öz xərci ilə dəfn etdi. O, vaxdan artıq bir il keçmişdi. Onnar qardaşını üldürmək, unun malına və arvadına sahib ulmax niyətində idilər.

Bir gün büyük qardaş o biri qardaşları da çağırıb, səhərisi günü qartal ovuna çıxmağı təklif etdi. Onnar dağ zirvələrindən, qartal yuvasınnan quşları tutub evdə üyrətməli, sonra ova aparmalı, qırqovul, kəklik tutmalı idilər.

Səhər açılanda qardaşlar, ox-yaylarını, **kəməndlərini*** gütürüb uva çıxdılar. Yüksək uçurumlu bir qayanın üsdündə durdular. Bu qayalar arasında qartal yuvaları ulmalı idi. Qardaşlar kimin düşməsi barədə məsləhət etdilər. O biri qardaşların niyyətindən bixəbər ulan Mustafa, "mən düşəcəyəm" deyib, kəməndi belinə bağladı. Qardaşdar bir-birinə işarə edəedə onu qayanın təpəsinnən uçuruma uzatdılar.

---

*Kəmənd – hündür dağlara çıxmaq üçün uzun iplər.

Mustafa uçurumu yuxladı. Burada bir dənə də ulsun qartal yuvası yux idi. O, ipi çəkməyi qardaşdarına işarə etdi. Qardaşdarı isə imtina etdilər. İpi çəkmək üçün şərt quydular:

– Əyər atam sənə verən mülkü bizə verməyə and içsən, səni yuxarı çıxararıx.

– Mən sizə and içirəm, bütün əmlakı sizə verəcəyəm.

– Hələ bu azdır. Ata sənə verən quyun sürüsünü bizə verməyə and içsən, səni çıxaracağıq.

– Beli, razıyam, and içirəm, quyun sürüsünü sizə verəcəyəm. İndi məni çıxardın.

– Yox, hələ üçüncü şərt qalıb, una da əməl etsən, səni çıxaracağıq.

– Sən and iç ki, arvadın Sürmayəni bizə verəcəksən, onda səni bu uçurumdan çıxaracağıq.

– Hələ bu süzü eşidən kimi Mustafanın başı hərləndi. Paxıl qardaşlar gür nə yerə əl atırlar, – dedi.

– Yux, mən sağ qalıb bu şərtə razı ula bilmərəm, nə isdəsəniz, edin. Mən arvadımı sizə verəsi deyiləm.

Qardaşdar bu süzdəri eşitcək ipi kəsdilər. Mustafa bir daş kimi uçux qayanın bucağında oturdu.

Axşam düşdü. Qardaşdar uvdan evə qayıtdılar. Bacıları Zümrüd gürdü ki, Mustafa yuxdur. O, qardaşlarınnan Mustafanın hara getdiyini suruşdu. Qardaşları isə sirri gizlətdilər.

Zümrüd, qardaşının arvadı Sürmayəni də alıb dağa yullandı. Onnar çağıra-çağıra Mustafa olan uçurumun təpəsinə çatdılar:

– Qardaş, səni bu hala kim saldı? – deyə undan suruşdular.

Kəməndi aşağı atdılar ki, onu çekib yuxarı çıxartsınnar. Qardaşı bunu rədd edib, özünü qayadan atdı. Onun sümüyləri dərənin içinə tüküldü, qanı isə uçurumun altından axan çaya qarışıb, güz gürünənə qədər çayı al-qırmızı rəngə buyatdı.

Zümrüd ilə Sürmayə uçurumun ətəyinə düşür, mərhumun leşini çeşmə ilə yuyub evə gətirdilər. Bu zaman qardaşlar

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

evdə Mustafanın malını bülüşdürürdülər. Onnar qışqıra-qışqıra dedilər:

– Alın! Alın! Xayin qardaşlar, əyər mal azdırsa, bu sümükləri, ət parçalarını paylayın, qanını su kimi için – deyə arxalarındakı leşi onnarın qabağına atdılar. Hünkür-hünkür ağlamağa başdadılar. Ərtəsi gün meyidi dəfn etdilər. Bu əhvalat bütün kəndə yayıldı. Bütün kənd əhli bu iki qardaşa lənətlər oxuyub, kənddən çıxarıb quvdular.

MAHMUD XAN VƏ QUCA

Bəzdaran şəhərində Mahmud adda bir xan var imiş. Mahmud uca buylu, qucalmış palıd ağacının kütüyünə bənzəyirdi. Qura saqqallı, iri güzdü, qaşlarının tükləri qılpıqlarını basmış bir adam idi. Onu bir dəfə gürənnər, bir daha gürməyi isdəməzdi. Odur ki, bəzi məclisdərdə daim onun əksinə sühbətlər gedirdi.

Şəhərdə Mirbaba adında hürmətli bir quca yaşayırdı. Qucanın Murad adlı bir oğlundan, bir də arvadından qeyri bir kesi yux idi. Bir gün qucalar kəndin uçarında sühbət edəndə Mirbaba, Mahmudun pis adam ulduğunu süylədi. Casus tez xana xəbər çatdırdı ki, uçarda qucalar onun əksinə sühbət edillər.

Xan bu işin üsdünü açmax üçün bir neçə qucanı sühbətə çağırdı. Ancax qucalar bir-birini satmadılar. Sunra xan hiyləyə əl atdı. Hər gün bir qucanın başını meydançada kesdirmeye başladı. Murad atasını bir xəlvət sarayda gizlədib saxladı. Şəhərin qucaları azalıb heçə çıxdı. Ancax bircə Mirbaba qaldı. Bu sirri heç kəs bilmirdi. Günnər, aylar, illər keçdi. Şəhərə bir aclıx düşdü.

Murad atasına az-az yemək tapıb verirdi. İş o yerə çatdı ki, adamlar heyvan dərilərini yeməyə başdadılar. Murad atası üçün bir parça camış dərisi bişirib getdi.

– Oğul, bu nə işdir? Niyə məni belə hürmətsiz edirsən? Onda məni üldür, birdəfəlik rahat olum: – deyə Mirbaba uğluna etirazını bildirdi.

Mirbaba dedi:

– Ata, şəhərdə ələ aclıx var ki, insannar az qala birbirinin ətini yesin. Daha elac yuxdur, hələ bu dəri düşməyinə Allahına şükür elə: – dedi.

Oğlum, qulax as, sən get xana de ki, Kələmşə quruğunda ulan qarışqa təpələrini eşsin, o təpələrdə buğda ulacax, yığıb əkdirsin. Bir də əkin sahələrini yanında keçən yullarının kənarrarında sahələri əkdirsin. Orada yaxşı buğda bitəcək.

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Murad əhvalatı xana süylədi. O, əvvəlcə bu işə fikir vermədi. Sunra isə xan əmr verdi ki, qarışqa təpələrini eşsinnər. Təpələrin içindən bir qədər buğda çıxardılar. Zəmiləri əkdilər, yulların da kənarlarındakı sahələri sürdürdü. Yeni ildə zəmilərdə elə məhsul düzəldi ki, ümründə belə bur məhsul almamışdı. Xan Muradı yanına çağırıb suruşdu:

– Bu tədbiri sən haradan bildin? – deyə undan sual ələdi.

Murad qorxa-qorxa xana dedi:

– Xan sağ olsun, bunu mənə atam təklif etdi. Mən atamı gizdədib saxlamışam, indi qılınc sənin, buyun mənim, ixtiyar sahibisən, boynumu vur.

Xan əmr edir ki, qucanı unun sarayına getirsinnər. Murad cəlladla birgə atasını xanın hüzuruna getirdi. Xan ayağa qalxıb, ədəblə qucanı qucaqlayıb eyləşdi. Xan Muradı saraya baş cəllad, Mirbabanı isə özünün baş vəziri təyin etdi. Şəhər əhalisi aclıxdan xilas oldu, bu iş üçün bütün xannıx Mirbabaya əhtiram edir, onun hürməti birə-un artır.

Qucaların məsləhəti o günnən xalq arasında ən yüksək bir qüvvə kimi nüfuz qazammağa başdadı.

BAĞBANLA ÜÇ OĞLU

Uzundərə adlanan bir kənddə qucaman bir bağban yaşayırdı. Bağbanın üç oğlu var idi. Ancax hər üçü də işsevən deyildi. Bağban artıx taqətdən düşmüş, iş bacara bilmirdi.

Fikri onda idi ki, gürəsən, mən ülənnən sonra bu bağın halı necə olacax? – deyə öz-özünə fikirrəşirdi.

Bir gün bağban yuxu gürür. Ona Azreil deyir ki, sabah sənin canını alacam, quhum-qardaşlarla vidalaş, oğlannarına vəsiyyət elə. Bağban səhər yuxudan ayıldı. Bu nə yuxudur mən gürdüm? – dedi. Bağban oğlannarını yanına çağırıb onnara vəsiyyət etdi. Ancax ürəyində bağ idi.

O vəsiyyətdən sunra oğlanların təkbətək özünün yanına dəvət etdi. Böyük oğlu Mərdana dedi:

– Oğlum, gürürəm qardaşlarınnan sən bir qədər zəhməti sevənsən, sənə bir sirr açım. Bağın xəlvət yerində mən xəzinə basdırmışam. Mən ülənnən sonra onu axtarıb taparsan, ancax qardaşdarına pay verməyi unutma. Sonra urtancıl oğlunu çağırıb həmin süzdəri ona da dedi.

Axırda kiçik uğluna bu əhvalatı süylədi. Hə, indi rahat ülə bilərəm – dedi. Doğrudan da, Azreil öz vaxtını güzləyirdi, o yetişib bağbanın canını aldı. Bağban Allah rəhmətinə getdi. Oğlannar hər üçü də onu layiqincə dəfn etdilər. Ancax ata vəsiyyətini hər üç uğul ürəyində gizli saxlayırdı.

Bir gün büyük oğlan tab gətirməyib bağı **təpləməyə*** başladı. O biri uğlannar işi belə gürüb ona quşulur. Oğlannar, "xəzinə əhvalatı"na görə bağı o baş bu başa ələ təpdilər ki, daha torpaxda amin qalmadı. Ancax xəzinədən bir iz tapılmadı. Oğlannar belə məsləhətə gəlillər ki, təpilmiş sahəyə buğda əksinnər. Onnar sahəni əkib bir yerə tupladılar. Atanın

---

* təpləmək-belləmək.

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

gizli sühbətini aşkar etdilər. Onnar bildilər ki, atası bağı becərsinnər deyə bu sühbəti onnara təkbətək deyib. Məhsul yığımında, oğlannar başa düşürlər ki, bu, hələ ata deyən xəzinə imiş. Odur ki, hər il turpağı becərib bu xəzinəyə sahib ulmağa başdadılar. "Əsil xəzinə turpaqdır" deyə işə can-başla girişdilər.

ƏDALƏTLİ VƏZİR

Bir şah öz malekanəsində ona xayin çıxan bir şəxsi tutub zindana salır. Müqəssir bir neçə gün zindanda yatır, nə edəcəyini bilmirdi. Şaha nə desin, nə üçün ona xəyanət edib, yoxsa ki, bu bir bəhanədir. Günnərin bir günü şah əmr edir ki, müqəssiri meydançaya gətirib dar ağacınnan assınlar.

Budur, müqəssir gətirilir, onu dar ağacına yetirib, ona sun süz verillər. Müqəssir demə, yerri adam deyilmiş, ona sun süz süyləməyi əmr edirlər. Müqəssir öz dilində başlayır danışmağa, ancax onun dilini və dediklərini heç kəs başa düşmürdü. Şah üzünü vəzirə tutub müqəssirin nə süylədiyini suruşdu. Vəzir:

– Şah sağ ulsun, müqəssir deyir ki, mən çux şahlıqlar gəzmişəm, çux şahlar gürmüşəm, ancaq sənin kimi mərhəmətli şaha rast gəlməmişəm, əhsən şəninə, ədalətinə, hürmətinə sənin nüfuzun xalq içində çux yüksəkdədir. Ancaq bir şey var, bilmirəm necə deyim? Əyər məni bu cəzadan xilas etsən, hər yerdə səni tərifləyərəm, nüfuzun birə-min artar. Şah bu süzlərdən şad oldu, müqəssiri bağışdamağı qərara aldı.

Demə, tuplaşannarın içərisində müqəssirin dilini bilən bir nəfər varıymış. O, irəli çıxıb şaha süylədi:

– Şah sağ olsun, vəzir tamamilə yalan deyir, müqəssir səni tərifləmir, əksinə, sənin ədalətsiz, ən qəddar bir şah ulmağını süyləyir. Şah yerindən qalxıb deyir:

– Səsini kəs! Mən ədalətsiz, qəddar şah deyiləm. Vəzir düz tərcümə edib, siz yalançısınız.

Cəlladdara əmr edir ki, müqəssirin əvəzinə həmin şəxsi dar ağacınnan assınlar. Müqəssir isə azad edilir. Vəzirə isə mükafat verir.

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

KAFİRİN MÜSƏLMAN OLMASI

Dini İslamın künlünnən yapışan şah Ələrah, bütün saray əhlinə əmr edir ki, harda onnara kafir rast gəlsə, tutub gətirsinnər.

Bir gün şahın nükərrəri küçə ilə keçən bir yulçudan suruşur.

– Sən müsəlmansan, ya kafir?

– Mən müsəlmanam, – deyə cavab verən yulçunu eşidən nükər, onun kafir ulmasını təsdiq edir.

Şah əmr edir ki, onu, "mən müsəlman deyiləm" – deyənə qədər düyün. Nükərrər əmri yerinə yetirirlər. Yulçunu düyənnən sunra şahın hüzuruna gətirillər.

Şah:

– Hə, de gürüm indi düzünü deyirsənmi?

– Beli, şah sağ olsun, sizdə bir qayda var: kafir müsəlman ulanda zurla una xələt verirsiz. Bəs mən müsəlmanam, nə üçün zurla kafir edirsiz?

Beləliklə, yulçu yaxasını şahın əlindən qutardı.

ATA VƏSİYYƏTİ

Addı-sannı bir kənddə bir tanımmış kişi yaşayırdı. Onun adına quşpərəs Sultan deyillər.

Sultan kişini, nəinki mahalda, bütün qunşu kəndlərdə tanımayan yux idi. Onun əvi bir karvansara kimi idi. Qunaqsız bir günü keçmirdi. Sultanın Nesür addı bir oğlu var idi. Nesür atasının cumərddiyinə həsrət edirdi. O da atası kimi ulmaq isdəyirdi.

İllər keçdi. Sultan kişinin saçı-saqqalı ağardı, beli büküldü. Artıq ülüm onun başının üsdünü kesdi.

Ölümünü hiss edən Sultan kişi uğlunu yanına çağırıb una vəsiyyət etdi:

– Oğul, sən cumərd bir uğul ul, məni əvəz et. Ancaq unu da deyim ki, – hər kənddə bir ev tik, hansı kəndə qunaq getsən, quy evin ulsun.

Nesür atasının vəsiyyətin eşitdi, ancaq əsli mənasını bilmədi. Sultan Nesür üçün çuxluca mal-düvlət quyub getdi. Oğul heç bir şeyə möhdac deyildi.

Atası ülənnən sunra Nesür işə başdadı. O, hər kənddə bir ev tikməli uldu. Bir-iki kənddə ev tikəndən sunra Sərin dağ kəndinə ev tikmağa getdi. Şavrat atıb, evin binəsını quranda yulla bir sinli kişi keçirdi. Bu kişi Nesüru o biri kənddərdə ev tikəndə gürmüşdü, ancaq fikir verməmişdi. Bu dəfə o, su içmək üçün Nesürun şavratı üsdə gəldi. Bir qədər sərinləşdikdən sunra, o Nesürdan suruşdu: – Oğlum, bu nə işdir, sən hər kənddə ev tikirsən?

Nesür dedi:

– Bu mənim rəhmətlik atamın vəsiyyətidir. O, mənə vəsiyyət etdi ki, hər kənddə bir ev tikim – deyə Nesür qucaya cavab verdi.

Quca bir qədər gülümsədi, sonra dedi:

– Oğlum! O, sənə şavrat atıb ev tik deməyib, hər kənddə

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

bir qunaq dust tut, hər zaman kəndə gələndə o, sənin üçün evdir. Sən atanın vəsiyyətini başa düşməmisən, uğlum. İndi sən hər kənddə bir qunaq dust tut, unda sənin atanın vəsiyyəti yerinə yetirilmiş olacaq. Nesür həmən qucanın məsləhəti ilə hər kəndə bir qunaq, bir dust tutdu, bu da ev oldu. Nesür qucanın dediyi süzlərdən çux razı ulub una xuşbəxtlik arzu etdi. Nesür ununla da qunaq, dust oldu.

XUDAYARIN QIZI

Adı hər yerdə məşhur olan bir mahalda Xudayar addı, bir nurani kişi yaşayırmış. Onun bir bir xüsusiyyəti var imiş. Nə dilək diləsə, Allah onun diləyini qəbul ədərmiş. Xudayarın güzəl-güyçək bir qızı var idi. Qız həddinə çatanda, una elçilər gəlməyə başlayır.

Birinci elçi kəndin qazısının uğlundan gəlir. Xudayar qızı una verməyə razı olur.

İkinci gün elçi Mulla Xəlilin uğlundan gəlir. Xudayar:

– Razıyam, verərəm – deyib elçiləri yula salır.

Üçüncü gün elçi şahzadəTurandan gəlir. Xudayar qızı una da verməyə süz verir.

Bir cümə günü elçilər qızı aparmaq üçün məsləhətə gəlillər. Gərək gələn bazar tuy ulsun deyə razılıq alan quhumlar əvlərinə qayıdıllar. Xudayar arvadı Məmləkətlə məsləhətləşir ki, indi mən qızı hansı elçiyə verim? Arvad deyir:

– A kişi, niyə fikir çəkirsən? Bizim bir ulağımız, bir də kar itimiz var. Allaha yalvarırsan, unnarı da qız eləsin. Onda hər üç əlçi də razı qalar.

Arvadın bu cur məsləhətinə Xudayar razı olur. O, əşşəyi bayıra çıxarıb, başına əl çəkir, Allah unu Xudayarın diləyinə gürə qıza döndərir. Sonra xan iti də bu cür ədir. Xudayarın üç qızı ulur. Ələ bil bunnar hər üçü bir almaya bənzəyir. Onnarı bir-birindən ayırmaq olmurdu.

Qızdardan birincisinin adı Suna ulduğu üçün unnarın üçünün də adı Suna oldu. Qızlar hər üçü ərə getdi. Öz ayiləsilə yaşamağa başdadılar.

Bir gün Xudayar arvadına dedi:

– Arvad, mən darıxıram, bir gedib qızdara baş çəkim. Arvad razı oldu. Amma unutma ha, əsil qızımızı tanımağa cəhd elə. Xudayar asasını əlinə alıb yula düzəldi. Yulu hələ birinci geyavı Mulla Xəlilin uğlunun evinə düşdü. Mulla Xəlilin oğlu Sərdar qeynatasını hürmətlə qarşıladı. Yemək-içməkdən sonra

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Sərdar arvadına dedi:

– Get saraydan bir qarpız gətir yeyək! Arvad həmli idi. O, yavaşca düşüb, bir qarpız gətirdi.

– Onu yux, get başqasın gətir – deyə əri səsləndi.

Arvad səs çıxarmadan qayıdıb, yenə həmin qarpızı gətirdi, (demə, əvdə olan tək bir qarpız idi).

– Onu yux, o birini gətir! – deyə əri səslənəndə Xudayar: – Quy hələ bu bəsdir! – deyə səsləndi. O, fikirrəşdi ki, əsil qızım budur.

Səhəri gün o, kəndin qazısının uğlunun evinə qunaq düşdü.

Yemək-içməkdən sunra giyov arvadına: – Get bir qarpız gətir; – dedi. Arvad gedib evində ulan bir qarpızı gətirdi.

– Onu yux, başqasını gətir. Arvad getmədi. Arvad, sənə o biri qarpızı gətir dedim – deyə əri təkrar etdi. Arvad yenə də səssiz durdu.

Xudayar bildi ki, bu qız əşşəkdən ulan qızdır.

Üçüncü gün Xudayar üçüncü qiyavı Şahzadənin evinə getdi.

Şahzadə Turan qaynatasını hürmətlə qarşıladı. Şahyana xürəklər hazırlatdı. Yemək-içmək başa çatannan sunra Turan arvadını çağırıb bir qarpız gətirməyi tapşırdı. Arvad bir qarpız gətirib ərinə verdi. "Bunu yux, başqasın gətir" – deyəndə, arvad mühkəm qışqırdı: – olan bir zəhərin var, başqasını hardan gətirim? – deyə əlindən qarpızı yerə quydu.

Xudayar o sahat başa düşdü ki, bu, itdən dönən qızıdır.

Beləliklə, Xudayar hər üç qızın hansı insan, hansı əşşək, hansı it cinsi olmağını bildi. Odur ki, qunaq gedərkən əsil öz qızının əvinə gedirdi. İt, əşşək cinsindən olan qızlarına isə heç fikir belə vermirdi.

O günnən sunra Xudayar qadınnarın cinsini düzgün təyin etməyə hazır uldu.

QİSMƏTİN QOYRUĞU KƏSİLDİ

Bir kiçik kənddə iki nəfər qunşu yaşayırdı. Onların evləri bir küçədə üzbəüz idi. Qunşuların biri Fatı, o biri isə Sadi idi. Mehriban qunşular uzun illər bir-birindən inciməmişdilər. Fatinin bir küpəyi var idi. Hər gün Fatinin ayiləsi günorta yeməyini başlayanda, küpək pəncərənin altında dayanıb qoyruğunu bulayırdı. Sadi də tez özünü Fatının evinə çatdırırdı. Fatı qunşunu – gəl-gəllə qarşılayırdı. Sadi isə bu mənim qismətimdir. – deyirdi. Bu cür qismət çux uzandı. Hər yemək vaxtı Sadi küpəyi izdəyirdi. Hələ ki küpək qoyruq buladı, bilirdi ki, yemək başlanır. Tez Fatıgilə gedib süfrə qırağında utururdu. – Doğrusu, məni qismət gətirir – deyirdi.

Bir gün Sadi evdə yatmşdı. Arvadına tapşırmışdı ki, küpək qoyruğunu bulayanda una xəbər eləsin. Arvad da uturub küpəyin qoyruq bulamasını güzləyirdi. Arvad evdə günorta xürəyini qablara tükür. Küpək qoyruğunu bulamağa başdadı. Sadinin arvadı: – A kişi, küpək qoyruğun buladı, tez get; – dedi. Bu süzdəri Fatı eşidib evə girdi. Dalınca Sadi də evə daxil oldu.

– A kişi, yenə məni qismətim gətirdi, – dedi. Ertəsi gün Fatı bir balta alıb küpəyin qoyruğunu dibindən çatdı. Vadə günortu oldu, az keçdi, bir qədər yenə keçdi, ancaq küpək qoyruğun bulamırdı. Sadi durub qunşuya getdi, ələ bu zaman xürək yeyilib, qab-qacağ yuyurdu. Fatı dedi:

– Gəl qunşu, amma gecikdin.

Hə qismət olmadı, nə olsun, – deyə Sadi dinmədi.

Daha o qisməti gürməzsən, qunşu, çünkü qismətin quyruğunu lap dibindən kəsmişəm – deyə Fatı dilləndi. O günnən Sadinin qisməti Fatının əvindən kəsildi.

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

PƏHLƏVAN NƏZƏRİN NAĞILI

Ərəb vilayətinin Ucqar kəndində Nəzər addı bir təmbəl kişi yaşayırdı. Onun Səlimə addı bir arvadı var idi. Nəzər gecə-gündüz evdə yatıb, "Ver yeyim, ürt yatım, güzlə canım çıxmasın", – deyə yaşayırdı. Səlimə onun əlinnən lap təngə gəlmişdi, bilmirdi ki, nə etsin.

Bir gün Nəzər arvadını çağırıb, onnan çürək istədi. Arvad, çürək həyətdə süfrədədir, dur al: – dedi. Nəzər çux dedi, arvad eşitmədi. O, çarasız qalıb həyətə çıxdı, hələ bu zaman arvad qapını bağladı: – Hara istəsən get! – dedi. Nəzər gürdü ki, iş xarabdır, arvad ona qulaq asmır, xahiş etdi ki, atasınnan qalan qılıncı una versin. Arvad qılıncı una tərəf tulladı. Ancaq qapını bərk-bərk bağladı. Naəlac qalan Nəzər, üzü də bilmədən bir yula düzəldi.

Aclıq unu əldən salmışdı. Yulda bir alma ağacının altında əyləşib, alma yeməyə başladı. Birdən unun güzü kiçik bir qarışqa təpəsinə daraşdı. Qarışqalar karvan kimi düzülüb təpəyə sürsət daşıyırdılar. Bunnan Nəzərin acığı tutdu. O, qılıncı çekib qarışqa təpəsinə elə vurdu ki, qarışqalar qırılıb tüküldülər. O, ülən qarışqaları hesabladı. Düz qırx qarışqa üldürmüşdü.

O, bir qədər dincələnnən sunra, yenə yula düzəldi. Bir azdan o bir dəstə dəvəçiyə rast gəldi. Onnara salam verdi, sunra özünü onnarla aparmağını xahiş etdi. Dəvəçilər onnan kim ulduğunu suruşanda o, "pəhləvan Nəzərəm, bir qılıncla, qırxın əzərəm" – dedi. Onda gəl qüvvətini sınayaq – deyə dəvəçilər dilləndi.

Nəzər razı oldu. Yulda çuxlu quldur olur, əyər onnardan bizi xilas etsən, sənin qüvvətinə inanarıq – deyə bir dəvəçi süz atdı. Dəvə karvanı arasında bir fil də var idi. Dəvəçi Nəzərə dedi:

– Əyər sən bir tülüq su içə bilsən, sənin qüvvətinə inanarıq.

Nəzər dedi:

– Buyurun, tuluğu bura verin, su duldurum. Nəzər tuluğu alıb çeşməyə gedir. Tuluğa bir az su tüküb, sunra küpdürür ki, guya tuluq su ilə duludur. Nəzər tuluğu çiyninə alıb gəlir:

– İndi icazə verin, içim, – deyir.

Dəvəçilər ona tuluğdakı suyu içməyə icazə verillər. O, yavaşca bir ağır yük kimi tuluğu başına çəkir və yavaşca buşaltmağa başlayır. Tuluğ buşalannan sunra hamı onun hünərinə təcüb edir. Sunra o filin dalına minib, yula düzəlirlər. Fil birdən dillənir:

– Axı sən lap yüngülsən, pəhləvan ağırlığın yuxdur – deyir. Nəzər bir az gülüb, una deyir:

– Mənim sənə yazığım gəlib, ağırlığımı vermirəm, əyər ağırlıq versəm, sən dərhal yerə yatarsan, deyir.

Fil ondan xahiş edir ki, hələ bir ağırlığını ver, baxım nə qədər ağırsan. Nəzərin cibində çarıq tikən biz var idi. O, əlini cibinə salıb bizi çıxardır. Heç kəs gürmədən filin gicgahına ələ basır ki, fil bir nalə çekib yerə oturur. Dəvəçilər bunnan sunra Nəzərin qüvvəsinə inanıllar. Bir qədər yul gedənnən sunra, karvanın qabağına bir dəsdə quldur çıxır. Dəvəçilər Nəzərə deyillər ki, əyər bunnardan bizi qurtarsan, hərəmiz sənə bir dəvə yükü ilə bir yerdə bəxşiş edəcəyik. Nəzər heç kefini pozmayıb quldur başısının yanına gedir. Ona deyir ki, karvan Şah Abbasındır, üzü də yüz nəfər atlı ilə karvanın dalınca gəlir, cəhd edin başınızı qutarın, yuxsa hamınızı qıracaq. Quldur başçısı Nəzərin süzünə inanıb, dəstə ilə qaçmağa üz quydu. Karvan isə öz yuluna davam etdi.

Bəzirgannar Həbəşistan şəhərində dəvələrini mallarla duldurub geri qayıdıllar. Onnar Nəzərin yaşadığı Ucqar kəndinə yetişəndə, Nəzər öz dəvələrinə sahib ulmaq üçün, dəvəçi bəzirganlara müraciət edir. Bəzirganlardan biri dinllənir: – Adə, biz səni neçə həfdə yedirib içirmişik, bu sənə bəs deyilmi? – deyir.

Bəs **icral*** – deyə Nəzər dillənir və deyir ki, əyər icrala

---

*icral – söz, vəd.

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

gürə hərəniz bir dəvə yükü ilə verməsəniz, hamınızı qırıb, bütün malınıza sahib olacağam. Yaxşıdır ki, kişi tək icralınıza əməl edin. Bu zaman o, qırx qarışqanı bir vurmaqla əzən qılıncı qınından çıxarır.

Hə, nə deyirsiz? Başlayımmı? Yux, yux dayan, əl saxla, hansı dəvəni istəyirsən, seç ayır, – deyə karvanın başçısı dilləndi. Bəzirgannar altı nəfər idi, o, hərəsinnən bir dəvəni ayırdı, indi gedə bilərsiniz, – dedi. Karvan yula düzəlir. Nəzər isə altı dəvə ilə üç həftəlik yuldan sunra öz Ucqar kəndinə arvadının yanına çatır. Arvadı həyətdə altı yüklü dəvəni gürəndə mətəl qalır. Bunun sirrini Nəzərdən suruşur. Nəzər bütün başına gələn əhvalatı una süyləyir. O günnən ər-arvad, altı dəvə yükü ilə varranıb, xuşbəxt yaşamağa başdayıllar. Siz də xuşbəxt olasız.

Nəzər mənə üç qızıl alma vermişdı, yulda quldurlar əlimdən aldılar, mənsə əlibuş gəldim.

YUXSUL KƏNDLİ VƏ XUDAYAR BƏY

Xudayar bəy bir gün nükərrərlə maral ovuna çıxmışdı. Çux yerrəri ovladıxdan sunra qalınnıq bir məşədə bir ərkək maral vurdu. Nükərrər tez maralı suyub ciyərrərinnən bəyçün kabab bişirillər. Kabab bəyin xuşuna gəldi. O, ikinci bir maralı vurmağı və təzə kabab bişirməyi nükərrərə tapşırır. Ancax iş baş tutmadı. Daha maral rastına gəlmədi. Axşam yaxınnaşdı. Bəy nükərrər əvə qayıtmağı məsləhət gürdü. Onnar bir məşənin yulu ilə əvə qayıdıllar. Demə bu zaman meşəyə quru udun yığmaq üçün bir yuxsul kəndli gəlmişdi. O, çiynində udun şələsi yul ilə gedirdi. Birdən at ayağının səsinə geri baxdı, gürdü ki, Xudayar bəy nükərrərlə yul ilə gəlir. Yuxsul kəndli, bəyin güzünə gürümməmək üçün yuldan çıxıb bir kulun dalında gizlənir. Bəy onu uzaxdan gürmüşdü. O, kəndliylə tənləşəndə, ona baxıb:

Ey axmaq, niyə qaçıb çıxdın yuldan,
Nə baxırsan dunuz kimi kuldan.

– Deyə səsləndi, sunra isə ona fikir verməyib yuluna davam etdi.

Yuxsul kəndli urdan udun şələsi ilə əvə gəldi. O, şadlığınnan nə edəcəyini bilmirdi. Arvadı unnan suruşdu:

– Xeyir ula, bu nə şaddıqdır?

– Arvad! Məni məşədə bəy dindirdi.

– O sənə nə dedi?

– Dedi ki, əy axmaq, niyə qaçıb çıxdın yuldan, nə baxırsan dunuz kimi kuldan?

– Afərin kişi! Bəyin süyüşü də bir məlhəmdir – deyə arvad kişi ilə birgə sevimməyə başlayır.

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

SELİM VƏ SULTAN

Atası Allah rəhmətinə gedənnən sunra Selim ilə Sultan anaları Huri ilə yaşayırdılar. Selim büyük qardaş idi. Anası unu bir kəndçi qızı ilə əvləndirdi. Bir neçə ildən sunra onun iki uşağı uldu. Selimin arvadı xayin bir qadın idi. Qardaşdar arasında hürməti qırmaq istəyirdi. Ancaq qardaşdar una qulaq asmırdılar. İki qardaş təsərfatlarını ayırmışdılar, hərə ayrı bir əv sahibi ulub yaşamağa başdamışdılar. Onnar atadan qalan turpaqlarda taxıl əkib, məhsulu iki yerə bülürdülər.

Bir il məhsul ili idi. Qardaşdarın məhsulu birə-beş artıq idi. Əkin zəmiləri dərya tək ləpə vururdu. Qardaşdarın sevinci də hələ bundan artmışdı. Məhsul yığımı başdandı, zəmilərin dərci biçilib tayalara quyuldu. Qardaşdar xırman açıb taxıl düyməyə başdadılar. Bir neçə xırman düyülüb paylandı. Bir gün onnar xırmanda buğda paylayırdılar. Buğdanı hərəsi xırmanın bir tərəfinə yığıb quydular. Büyük qardaş evə getdi. Kiçik qardaş Sultan fikirrəşdi: – Axı mən təkəm, qardaşımın ayləsi çuxdur, quy mənim payımnan una verim, yükü bir qədər yüngül ular: – deyə öz payının yarısını unun payına tərəf itələdi. Belə versəm, qardaşım almaz, yaxşıdır ki, özü ulmayanda unun payının üsdünə tüküm.

Bir az keçənnən sonra Selim gəldi. Qardaş sen əvə get, indi mən nüvbə çəkim. Axşam taxılı əvlərə daşıyarıq – dedi. Sultan əvə gedənnən sunra Selim fikirrəşdi: – Axı mən əvlənmişəm, uğul-uşağım da var. Sultan isə əvləmməyib, una tuy üçün xərc lazımdır, quy mənim payımın yarısını özü bilmədən una verim. Beləliklə, Selim buğdanı yarı bülüb, Sultanın payına qarışdırdı.

Belə meriban qardaşlara nə ad vermək olar? Onnar hər ikisi öz fikirini özlüyündə bildilər. Bu işi ancaq bir Allah bildi, bir də ayrılıqda iki qardaş. Allah insanın ürəyinə baxıb, düvlət

verər. Allah bu iki qardaşın taxılını o qədər artırdı ki, gecə yarıya qədər taxılı daşıdılar, yenə qutara bilmədilər. Qardaşdar bu işə mat qaldılar. Sultan Selimdən suruşdu, Selim Sultandan, ancaq heç biri bu suala cavab verə bilmədi.

Qardaşdar sirri bir-birinə deyənnən sunra başa düşdülər ki, Allah taxıla yux, düzgün insana tərəfdir.

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

İKİ QUNŞU

Bir kənddə iki nəfər qunşuluğla yaşayırdı. Birinin cütü, arabası, taxıl zəmiləri var idi. O birinin isə bir ulağı, bir az əkin yeri vardı. Yayda hər iki qunşu məhsulu yığıb əvlərdə ambarrara tükdülər. Qış hazırrığı üçün onnar deyirmana un üyüdməyə gedirdilər. Varrı qunşu arabaya on müşük buğda yükləyir; o biri qunşu isə ulağa iki yük quyur, ya ulsa-ulsa cəmi bir müşük yarım buğda olardı. Onnarın hər ikisi də bir deyirmana düşüllər. Deyirman xəlvət idi. Deyirmançı məsləhət gürdü ki, əvvəlcə ulağı çeksin, sunra arabanı. Axşam yaxınnaşırdı. Deyirmançı deyirmanı nabatçılara tapşırıb əvə getdi. Ulaqçı unu üyüdüb yukləri bir tərəfə quydu. Gecə ulduğu üçün yula düşmədi. O, dəyirmançının yatağı üsdə uzanıb yuxuya gedir. Bu zaman arabaçı un üyüdürdü. Gürdü ki, ulaqçı qunşu şirin yuxudadır, tez yüklərin ağzını açıb hər yükdən iki **sah*** un öz müşüklərinə tüküb, yükləri əvvəlki kimi bağlayır.

– Bunu ancaq bir Allah bilir, bir də mən, – deyir.

Səhər ulaqçı yükləri ulağa yükləyib əvə gəlir. Arabacı da öz əvinə.

Bu uzunəllilikdən xəbər tutan Allah arabaçının on çuvalının bərəkətini ulaqçının yükləri üsdünə quyur. Bunu bilən olmur. Ulaqçının iki uşağı, bir arvadı, bir də quca anası, cəmi beş nəfər ayiləsi olur. Arabaçının isə bir oğlu, bir arvadı, bir də anası, cəmi dörd nəfər ayləsi ulur. Qışın hələ bir ayı başa çatınca arabaçının arvadı unnarı qurtarar. Ulaqçının arvadı nə qədər çürək bişirir, ancax gürür ki, un müşükləri belə duludur ki, dulu.

Arabaçı "Qışda un üyüdməyə necə gedim", – deyə fikirrəşir. Ulaqçı işə mətəl qalır. Nə üçün arabaçının on müşük buğda unu, mənim iki yükümnən tez qutardı? Axı mənim ayləm onunkundan bir nəfər də çuxdur.

---

*Şah – çəki vahidi; 2,5kq.

Bir gecə ulaqçı yuxu gürür. Allah yuxuda ona deyir ki, arabaçı sənin yükünnən oğurrayıb, öz müşüklərinə tükdü, sənin yükün dörd şah əksik oldu. Mən isə onun müşüklərinin bütün bərəkətini çekib sənin yüklərinə verdim. Halal mal dayim çux ular.

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Uğlum, uturduğun düşəkçənin altında nə var?

Vəzirin oğlu dedi:

– Düşəkçənin altında nə varsa, məni qaldırır. Hər nədisə, vəzndə yüngül, qiymətdə ağırdı, deyəsən üzükdü.

Padşah hirsdənib uğlunu dannadı. Padşahın oğlu baş gütürüb yula düzəldi ki, gedib üzünü dəryaya atsın. Vəzirin uğlu da unun dalınca getməyə başladı. Gəlib o vaxt çatdı ki, padşahın uğlu, az qalır özünü dəryaya atsın. Unun qulunnan tutub dedi:

– Qardaş, dayan, səbr elə, atadı, hirsdənib, onnan incimə.

Elə bu vaxt gürdülər bir gəmi onnara tərəf yaxınnaşdı. Bir əl gəmidən çıxıb yelləmməyə başdadı. Vəzirin uğlu dedi:

– İrəli get, əl səni çağırır.

Padşah uğlu dedi:

– Yox, səni çağırır.

Vəzir uğlu dedi:

– Sağ əldi, səni çağırır, məni çağırsaydı, sul əlini irəli uzadardı.

Padşah uğlu irəli yeridi, bu vaxt gəmidən una bir qara bağlama tulladılar. Bağlamanı açdılar. Bağlamadan bir cam, bir almaz, bir də bir üzük çıxdı. Vəzirin uğlu dedi:

– Cam Cam şəhəri deməkdi, almaz o deməkdi ki, mənim atam qəssabdı, üzük isə o deməkdi ki, mən qızam, üzük də onun nişanəsidir, səni güzdəyirəm, gəl.

Bəli, şah uğlu ilə vəzir uğlu az getdilər, çux getdilər, dərə-təpə düz getdilər, gəlib Cam şəhərinə çatdılar. Dedilər, bu şəhərdə bizə kümək eləsə, bir qarı eləyə bilər. Arayıb-axtarıb quca bir qarı tapdılar. Unun qapısını düydülər.

Qarı dilləndi:

– Kimdi?

Dedilər:

– Qarı nənə, Allah qunağı isdəyirsəmmi?

Qarı qapını açıb dedi:

– Allaha da qurban ulum, unun qunağına da, keçin içəri.

Padşah uğlu ilə vəzir uğlu içəri keçdilər. Gürdülər ki, bu bir qarıdı ki, unun başınnan bir batman darı tüksələr, biri də yerə düşməz.

Dedilər:

– Qarı nənə, biz qərib adamıx. Qalmağa yerimiz yuxdu, bizə yer verərsəmmi?

Qarı dedi:

– Qarı nənəniz sizə qurban ulsun, nə yeməyə çürəyim var, nə də qalmağa yerim.

Vəzir uğlu una bir az pul verib dedi:

– Qarı nənə, get bir az yemək al gətir, acıx.

Qarı getdi ayından-uyundan aldı gətirdi, bişirdi-düşürdü, yedilər-içdilər.

Qarı dedi:

– Uğlannarım, indi deyin görüm hardan gəlib hara gedirsiz?

Vəzirin uğlu dedi:

– Qarı nənə, mənim bu qardaşım hansı xanın, hansı bəyin qızını deyirik bəyəmmir, indi gəlmişik sizin şəhərə.

Qarı dedi:

– Bıy, elə mən deyəndi, qəssab Həmzənin qızı buna yaraşırdı, onu da nişannadılar vəzirin oğlu Kür pəhləvana, elə indi urdan gəlirəm.

Dedilər:

– Qarı nənə, bir də nə vaxt gedəcəksən?

Qarı dedi:

– Oğlannarım, biz qız gürməyə cümədən cüməyə gedirik.

Cümə günü gəldi. Qarıya yalvardılar-yaxardılar. Camı da bir bağlamaya quyub qarını yula saldılar qızın yanına. Dedilər:

– Qarı nənə, camı qızın özünə ver, başqa adama vermə.

Qarı gəldi qızın yanına. Bağlamanı açıb verdi qıza. Qız camı gürən kimi barmağın dişdədi: "Aha, gəlib çıxdılar". Bir

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

kağız yazıb qarıya verdi. Sunra altı qız saxladı, hərəsinə də bir heyva çubuğu verdi. Qızdar heyva çubuğu ilə qarını ülüncə düydülər, sunra da aparıb kənddən kənarda bir yerə atdılar.

Şah uğlu ilə vəzir uğlu qarını çux güzlədilər, qarı gəlib çıxmadı. Axırda dedilər, gedək qarını axtarax. Gəlib qarını şəhərdən qıraqda bir çükəkdə tapdılar. Gürdülər ki, qarını o qədər düyüblər ki, daha nə deyim.

Amma ülməyib, ülhaüldədi, başı güydə, ayaxları çüldədi. Qarını götürdülər gətirdilər evə. Yağladılar-duzladılar, yavaş-yavaş üzünə gəldi. Dedilər:

– Qarı nənə, bu nə işdi?

Qarı başına gələnnəri onnara danışdı. Qəssab qızının yazdığı kağızı da padşah uğluna verdi. Padşah uğlu gürdü ki, kağızda yazılıb: "Bu axşam səni heyva bağında güzdəyirəm".

Axşam uldu. Padşah uğlu ilə vəzirin uğlu gəldilər heyva bağına. Vəzirin uğlu dedi:

– Qardaş, bax yatma ha, yatsan, qız səni üldürəcək.

Padşah uğlu qız dediyi yerdə gözləməyə başladı. Bir saat, iki saat, padşah uğlu daha güzləyə bilməyib yatdı. Gecənin bir aləmi qız gəlib gürdü uğlan çuxdan yatıb. Sakitcə unun sinəsinin üsdünə bir çilig, bir də bir ağac quyub çıxıb getdi.

Səhər uldu. Vəzirin uğlu gəlib gürdü ki, padşahın uğlu yatır. Sinəsinin üsdündə də çilig-ağac. Tez unu qaldırdı. Padşah oğlu tutduğu işdən peşman oldu. Vəzirin uğlu dedi:

– Qız demək isdəyir ki, sən hələ uşaxsan, get çilingağacını uyna.

Kur-peşman gəldilər qarının evinə. Aradan bir neçə gün keçdi. Başdadılar qarını dilə tutmağa ki, qızın yanına yenə getsin, amma qarı daş atıb başını tutdu ki, mən bir də ura gedə bilmərəm. Getsəm, qız bu dəfə məni üldürəcək. Nəhayət, çux yalvarıb qarını yula gətirdilər. Dedilər:

– Keçən dəfə sakqız, xına quymamışdıx, yəqin una gürə qız səni düydürüb.

Bu dəfə də qız qarını düydürür. Məktub da göndərir ki, üzüm bağına gəl. Yenə uğlan yatır.

Üçüncü dəfə qız uğlanı nar bağına çağırdı. Padşah uğlu bu dəfə barmağını yarıb duz basdı. Qız gəlib gürdü ki, uğlan o tərəfə bu tərəfə var-gəl eləyir. Uğlan baxıd bir qız gəlir, qız nə qız, gəl məni gür, dərdimdən ül, yemə-içmə xətti xalına, məleykə camalına tamaşa elə. Onnar bir az sühbət elədilər, sunra qucaxlaşıb elə yatdılar ki, üsdlərinə bir səhəng su da tüksən ayılmazdılar. Qarovulçular gəlib gürdülər Kür pəhləvanının nişannısı bir uğlanla qucaxlaşıb yatıb. Tez bir palaz gətirib unnarı bükdülər palaza, kəndirlə də bərk-bərk sarıdılar.

Padşah uğlu ilə qəssab qızı burda qalmaxda ulsun, gürək vəzirin uğlu nə elədi. Elə ki, vəzirin uğlu bu xəbəri eşitdi, gəlib qarıya dedi:

– Qarı nənə, sənin ayrı paltarın varmı?

Qarı dedi:

– Niyə yuxdu, qadan alım, gəlinnik paltarım udu ey, sandıxdadı.

Qarı tez sandığı açıb gəlinnik paltarını verdi. Vəzirin uğlu dedi:

– Qarı nənə, mən hər il atama halva xeyratı verirəm.

Bəli, halva bişirib hazırradılar. Vəzirin uğlu qarının gəlinnik paltarını geyindi. Halvanın içinə də bihuşdarı tükdülər. Gəldilər qızla uğlanın yanına. Gürdülər ki, onnarı palaza büküb sarıyıblar. Halvadan qarovulçulara verdilər, onnar halvadan yeyib bihuş uldular. Vəzirin uğlu tez palazı açıb qızı çıxartdı, qarını unun yerinə palaza büküb sarıdı.

Bu yannan da meydan sulandı, təbil vuruldu, dar ağacı quruldu. Palazı gətirib meydanda açdılar, nə gürdülər? Palazın arasında iyirmi yaşlı bir uğlan, bir də bir qarı. Padşah suruşdu:

– Siz kimsiniz, buraya nəyə gəlmisiniz?

Uğlan dedi:

– Padşah sağ ulsun, nənəmlə şəhərə gəlmişdik. Gecə idi, yurulub burda yatmışdıx, gəlib bizi zurla palaza sarıdılar.

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Padşah əmr elədi unnarı açıb buraxdılar. Keşikçilərin buynunu vurdular. Qəssab qızı dedi:

– İndi ki, belə uldu, daha mən Kür pəhləvana getmərəm, bu uğlannan adım çıxıb, elə una da gedəcəm.

Padşah uğlu, vəzirin uğlu qarı ilə gürüşüb qızı da gütürüb öz məmləkətdərinə yula düşdülər. Padşah onnarın gəldiyinə çux sevindi.

Yeddi gün tuy vurdurdu. Qəssab qızı gülərək dedi:

– Kür qırağı sarımsax, kətan küynək canım sağ, cəfamı çəkdi Kür pəhləvan, məni gətirdi bir qurumsax.

Göydən üç alma düşdü, biri mənim, biri üzümün, biri də nağıl söyləyənin.

SÜLEYMAN PEYĞƏMBƏRNƏN SİMURQ QUŞU

Belə deyillər, bir gün Süleyman peyğəmbər taxtında uturub məclisindəki quşdarla, heyvannarla ulub keçənnən, urdan-burdan sühbət edirmiş. Simurq quşu da məclisdə imiş. Sühbət gəlib qəzavü-qədərdən düşəndə Simurq quşu üzünü saxlamayıb dedi:

– Məncə, qəzavü-qədər yuxdu.

Süleyman peyğəmbər dedi:

– Xeyr, var.

Simurq quşu inad edib dedi:

– Yuxdu.

Süleyman peyğəmbərlə Simurq quşu çux mübahisə edib deyişməli uldular. Axırda Süleyman peyğəmbər dedi:

– Ey Simurq quşu, bil və agah ul, bu gün günduğan padşahının bir qızı, günbatan padşahının isə bir uğlu ulub. Bu uşaqlar un beş yaşına çatıb evlənəcəklər. İşdi əgər evləmməsələr, sən deyəndi.

Simurq quşu razılaşdı. Süleyman padşahın məclisinnən mürəxxəs olub düz günduğana uçdu. Günduğan padşahının qızını uğurlayıb dənizin urtasındakı bir kimsəsiz adaya gətirdi. Başı güylərə çatan bir ağacın başında yuva tikdi. Sunra da qızı gətirib yuvaya quydu. Qız burda qalıb Simurq quşunnan quş dili üyrəmməyə başdadı.

Günduğan padşahının qızı burda qalmaxda ulsun, gürək günbatan padşahının uğlu necə uldu? Aylar dulandı, illər ütdü, uğlan gəlib un beş yaşına qədəm quydu. Bir gün u, atasının yanına gəlib dedi:

– Ata, mən uvçulux eləmək isdəyirəm.

Padşah dedi:

– Uğul, çux yaxşı, mən razı.

Padşah uğlunu addı-sannı bir uvçuya quşub tapşırdı ki, una uvçuluğu üyrətsin. O günnən uvçu padşahın uğlunu özüylə

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

gütürüb uva çıxmağa başdadı. Bir gün padşahın uğlu uvçuya dedi:

– Gəl sabah da dəniz uvuna gedək.

Səhər hər ikisi bir gəmiyə minib dənizə çıxdılar. Bir neçə gün yul gedənnən sunra dənizin lap urtasında tufana düşdülər. Tufan gəmini aşırıb batırdı. Padşahın uğlu bir taxta parçasınnan tutub üzə-üzə bir adaya çıxdı. Başdadı uranı-buranı gəzməyə. Gəzə-gəzə gəlib bir meşəyə rasd uldu. Baxıb gürdü burda ins-cins yuxdu. Birdən qulağına bir səs gəldi. Başını qaldırıb baxanda gürdü, bir hündür ağacın başınnan bir qız una baxır. Qızı səsdəyib xəbər aldı:

– Ay qız, kimsən, nəçisən, urda nə qayırırsan?

Qız una cavab vermədi. Axı bəni-adəm dilini başa düşmürdü. Elə ki uğlan qızla quş dilində danışdı u dedi:

– Mən Simurq quşunun qızıyam, özü də bu yuvada yaşayıram.

Uğlan xəbər aldı:

– Bəs heç yerə düşmürsən?

Qız dedi:

– Yux, atam icazə vermir, özüm də düşə bilmərəm.

Unda uğlan dedi:

– Bax, bu ağacın altında at leşi var. Mən girəcəyəm unun içinə. Atan gələndə de ki, at leşini yuvaya qaldırsın.

Elə də razılaşdılar. Uğlan at leşinin içinə girib güzdəməyə başdadı. Şər qarışanda Simurq quşu uçub gəldi. Qız uğlanın dediyi kimi elədi. Simurq quşu uçub at leşini gətirdi.

Səhər Simurq quşu uçub gedən kimi uğlan gizdəndiyi yerdən çıxdı. Bu minvalla uğlan da qızla yuvada qalıb yaşamağa başdadı.

Axır gəlib un beş il tamam uldu. Süleyman peyğəmbər Simurq quşunu yanına çağırıb dedi:

– Ey Simurq quşu, dənizin urtasında filan adada ağacın başında bir yuva var. O yuvanı bura gətir.

Simurq quşu o sahat uçub yuvanı gətirdi. Süleyman peyğəmbər baxıb gürdü uğlan da qızın yanındadı. Qızın da qucağında bir uşax var. Süleyman peyğəmbər uğlannan xəbər aldı:

– Bala, sən kimsən?

– Qibleyi-aləm, mən günbatan padşahının uğluyam, başına gələnnəri una nəql elədi.

Süleyman peyğəmbər una qulax asıb Simurq quşuna dedi:

– Simurq quşu, gürdünmü qəzavü-qədəri? İndi siftə onnarı apar günduğan tərəfə, qızın atasının yanına, sunra da uçarsınız günbatana.

Simurq quşu başını yerə dikib bir süz demədi. Sunra qızla uğlanı belinə mindirib uçub getdi.

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

KEÇƏL VƏ DAYISI

Kasıb bir kişi yaşıyırmış keşmiş dövürlərdə. Bu kişinin bir arvadı varıymış, bir özü. İkisi yaşıyırmışlar. Hə, deməli, bu arvad kişiin indi bəyənmirmiş, neyniyirmiş, istiyirmiş ki, uzaxlaşdırsın özünnən. Hə, qonşuları varıymış, mollanın oğlu. Molla fasonuymuş o da. Arvad da bunnan əlbirimiş. Bu kişi gedərmiş yaxşı ət alarmış, yaxşı un alarmış, yaxşı yağ alarmış. Evdə bu arvad bişirərmiş, düşürərmüş. Yaxşısını, yağlısını, ətdisini mollanın oğluynan özü yeyərmiş, kişidən bixəbər. Unu əliyərmiş, üzünün kəpəyini bişirirmiş, cad deyirmiş da, küt, verirmiş kişiyə. Kişi də küt yeməhdən ağzı yara olmuşmuş yazığın. Xörəyi bişirirmiş, yavan suyunu yeyərmiş, ətin, sümüyünü verərmiş. Bir gün bu kişi, o vaxt avamçılıx olur dana, guya başa düşmürmüş nəymiş. Yolu düşür qonşusuna. Gedir qonşuya, görür ki, elə gözəl xörəh iyi vurur bunu, ətri vurur. Oturub, süfrə açıblar, çörəh yeyillər. Kişini də buraxmıllar, gətirip otuzdurullar süfrələrinin başında. Bına da xörəh çəkillər. Çörəh qoyullar kişiyə burda, yeyir, görür ki, çox ləzzətlidi. Ama kişi fikirrəşir ki, axı elə bu kişi əti alanda mən də həmin ətdən almışam, niyə bullarda belə ləzətlidi, bizdə dadsız, duzsuz, yağsız, ətsiz? Bu un alanda həmən undan mən də alıram. Niyə belə? Bu fikirnən kişi durur gəlir öz evinə. Gəlir arvadına deyir:

–Ay arvad.

Deyir:

–Nədi, a kişi?

Deyir:

– Arvad, o qonşumuz alan unnan mən də allam, qonşumuz alan ətdən mən də allam, qonşumuz alan yağdan mən də allam. Nejə ollarda bişən xörəhlər, çörəhlər belə ləzzətdi, daddı olur, bizdə bişən belə dadsız, yavan? Mən ta küt yeməhdən ağzım-burnum yara tökübdü. Mən ölürəm axı, niyə belə?

Deyir:

– Əşi, başına daş düşsün. Hələ bilmirsən niyə belədi?

Deyir:

– Niyə, ay arvad?

Deyir:

– Ona görə ki, sənin bacın Bağdadda oturubdu. Əlli fırıldax eliyir orda, evin xeyir-bərəkətin aparır. Evdə xeyir-bərəkət qalmır. Ona görə belədi.

İstiyir ki, kişini uzaxlaşdırsın da, getsin Bağdada-bajısının yanına. Bu, öz bildiyini, öz kefini eləsin bırda.

Deyir:

–Arvad, düz deyirsən?

Deyir:

–Hə, kişi. Bəs indiyədək sən bilmirdin bını?

Deyir:

– Onda mənə yol çörəyinnən-zaddan qoy. Mən gedəciyəm o bacıma toy tutacıyam. Onun atasın belə eliyəjəm, anasın belə eliyəjəm. Da başdıyır da, kişi hirsdənir. Hə, arvad gətirir kütdən-zaddan bişirir, qoyur bının xurcununa. Kişi səhər durur, xurcunun atır çiyninə, ağacın alır əlinə, düşür yola. Az gedir, çox gedir, neçə illər gedir. O vaxt da piyada gedərmişdər. Neçə illər yol gedir, gəlir axırı ki, çıxır Bağdad şəhərinə. Bağdad şəhərinə çatır. Gəzə-gəzə, soruşa-soruşa gəlir. O vaxt bacısı da çıxmışmış həyətə. Bir də görür ki, bir kişi gəlir, bının qardaşına oxşuyur. Arvat neçə ildi ki, bı qardaş həsrətiylə yaşıyırmış da. Həə, gəlir yaxınnaşır, görür ki, doğrudan da, qardaşıdı, qaça-qaça yüyürür, qollarını açır.

Deyir:

– A qardaş, sən hara, bura hara, ay xoş gəldin, ay beş gəldin.

Qolun salır qardaşın boynuna.

Qardaşı deyir:

– Qardaşının da atasının goru belə olsun, sənin də. Həə, qardaşın yoxdu, ölüb qurtarıbdı, nə qardaş, qardaş.

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Deyir:

–A qardaş, nolub? Mən sənə neyləmişəm, neçə ildi sənin həsrətiynən yaşıyıram, qardaş həsrətiynən.

Deyir:

–Yox ee. Görürsən mənim ağzımı, burnumu?

Deyir:

–Nolup?

Deyir:

–Hamısı kəpəh yeməhdən, küt yeməhdən.

Deyir:

– Ay qardaş, mən sənə neyləmişəm? Neyliyirəm mən sənə? Bəs niyə belə olmusan? Gəl bir evə, görəh nədi, nə döyül.

Kişini götürür, gəlir evinə. Arvadın da bir oğlu olur, keçəl. Keçəllər də bic olullar axı. Çoxbilmiş olullar. Axşam olur, keçəl də işdən qayıdır, gəlir.

"Hə, dayı, xoş gəldin, beş gəldin". Görüşür, öpüşür dayısıynan. Həə, indi kişi başına gələn əhvalatı söhbət eliyir, mən elədiyim kimi bıllara söhbət eliyir. Keçəl əlbəhəl başa düşür. Barmağın dişdiyir, həə, bı arvadın fırıldaxları, işdəhləridi.

Deyir:

– Dayı, fikir eləmə, hər şey yaxşı olar, düzələr.

Kişini bir ay saxlıyıllar bırda, mığayat olurlar. Kişi bir əz əmələ gəlir. Sora keçəl kişini də götürür, gəlir dayısıgilə. İndi keçəl gəldiyinə görə arvad özün bir az naza qoyur, düzəldir guya. Heç bir şeydən arvadın xəbəri yoxdu guya. Gəlir keçəlnən.

– Ay Keçəl, xoş gəlmisən, beş gəlmisən. Nə yaxşı, nə yaxşı.

Deyir:

– Elə neçə il idi bəs görmürdüm dayımı da. Dayım gəldi, görüşdüh, dedim elə gəlim dayıdostumu da görüm eliyim, hal-əhval tutum, həm də bir az dayıma köməh eliyim işdərinə.

Deyir:

– Neynəh, çox əcəb, çox yaxşı.

İndi səhərisi gündən, deməli, keçəl dayısıynan gedir işə, çölə. Çöldə cüt əkillər, taxıl əkillər. Bı dayısına köməh eliyir. Arvad da qalır evdə. Amma Keçəl gedir yoldan qayıdır, busur, izdiyir bı arvadı. Hər dəyqasın izdiyir. Busur, görur ki, arvad mollanın oğluynan görüşür. Görür ki, arvad mollanın oğluna deyir ki, bəs cütünüz hansı tərəfdədi? Günorta bir az yeməhzad düzəldim, fəsəli-zad gətirim, yeyin. Deyir ki, cütümüzdə bir ala öküz var. Bir də səhər mən gedəndə yolnan alma soyajıyam, qabığın yola tökə-tökə gedəjiyəm. Həmən yernən, həmən yolnan gəlib görəysən. Bax gör, hansı cütdə ala öküz var, gəlginən, bil ki, o bizim cütdü. Həə, deməli, Keçəl səhər durur, qaçır dükana, beş-on metr ağ alır, aparır doluyur qara öküzün belinə. Həə, bir əz də alma alır, tökür cibinə, başdıyır evin yanında qabığın soya-soya, tökə-tökə gedir.

Həə, günorta üstü görür, həə, bıdı arvad bir bağlama alıb başına, gəlir. Tez deyir ki, dayı, cütü saxla, dayıdostu gəlir. Mən gedim, köməh eliyim ona, xeyir ola, nəə gəlir? Qaçır arvadın qabağına. Arvad görür ki, gələn Keçəldi. Həə, alır şələsini, götürür gəlir.

– Ay dayıdostu, bu nə əziyyətdi çəkirsən?

Deyir:

– Nə bilim e, dedim dayın da, sən də bırdasan, sizə bir əz ayın-oyun hazırradım, gətirdim ki, dayınnan yiyəsiniz.

– Həə, çox gözəl, nə zəhmət çəkirsən?

Gətirir.

– Dayı, cütü saxla, gəl bıra.

Açır dəstərxanı, görür arvadı bişirif-düşürüf hər şeyi, gətirib. Keçəl deyir ki, dayı, başda, başda ye. Oturullar. Bismillah eliyillər. Başdıyıllar yeməyə.

Arvad qalır qarnıynan qırıla-qırıla. Axırı dözə bilmir.

Deyir:

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

–A kişi!

Deyir:

–Nədi, ay arvad?

Deyir:

– Deyəsən bizim o qonşunun da cütü bıralardadı. Qonşu molladı. Adamın işi düşür. Onu çağır, gəlsin da, bir tikə yesin Allah verənnən. Allaha xoş gedər.

Kişi isdiyir dursun getsin, keçəl deyir ki, dayı, mən olan yerdə hara gedirsən? Otur yerdə, çörəyini ye, qoja kişisən. Bu saatı çağırram.

Keçəl durur, sıçrıyır, gedir çağırır kənara.

Deyir ki, bilirsən, köpəyoğlu, dayım səni hədəliyir, inan ki, səni tutsa ha, öldürəjəh, böyüh tikəni qulağın boyda eliyəjəh. Öldürəjəh səni, doğruyajax səni. Bu da şübhəlidi axı, özünnən. Deyir: "Yəqin bir şey başa düşüb kişi".

Qayıdır gəlir.

Deyir:

– Dayıdostu, vallah, billah, bu anda, bu qurana, nə qəddər elədim gəlmədi.

Bullar yeyillər. Arvad qalır qarnıynan qırıla-qırıla. Axırı deyir:

–A kişi, dur özün get. Sən ağsakqalsan, sənin sözünü sındırmaz.

Dəhmərliyir kişi, durur gedir. Kişi elə yaxınlaşdıxca mollanın oğlu götürülür ee, qaçır, kişi getdihcə o qaçır. Kişi görür ki, bından qaçdı, qayıdıp gəlir, deyir:

–Ay arvad, mən getdihcə o qaçır, gəlmədi. Nə təhər eliyim? Ta qisməti deyil.

Bıllar yeyirlər, içirlər, qurtarıllar. Keçəl bükür dəstər-xanı-zadı, verir arvadın qoltuğuna. Arvad düşür yola, qayıdır gəlir.

Cütlərin əkillər. Keçəl deyir:

– Heç bir söz danışma, demə. Ama mən nə desəm, mən-nən razılaş. Hər şey düşəjəh qaydasına.

Deyir:

–Nə deyirəm, Keçəl.

Bir gün də Keçəl yenə busurdu. Gördü ki, yenə mollanın oğluynan arvad nəysə xısın-xısın danışıllar öz aralarında.

Yavaşca qulax verir, görür ki, arvad oğlana deyir ki, bəlkə bir pir-zad yeri biləsən. Aparım bir nəzir-zad qoyum, bu keçəlnən dayısı ölsün, rədd olsun getsin, biz azad yaşıyax. Hə, bını keçəl eşidir. Genə çıxır gedir. Gedir dayısının yanına kö-məh eliyir. Axşam gəlillər evə. Oturullar, yeyip-içənnən sora dayıdostusuna deyir:

– Dayıdostu, bəlkə nəzrin, niyyətin-zadın ola? Bir yaxşı pir yeri bilirəm. Əgər varsa, apar. Nə desən, hasil olajax. Bilirsən nə ağır ocaxdı!

–Ay Keçəl, çoxdan mənim nəzirim-çırağım var. Belə bir ağır ocax tapa bilmirəm ki, aparım.

Deyir:

–Mən yerin billəm da. Yerin deyim saa, apar.

Deyir ki, bax o bizim cütdən yuxarı dağ var. O dağın üstündə bir dənə böyüh ağaş var. O ağaj ağır pirdi. Gərəh oca-ğa yaxın getməyəsən. Bir on beş metr aralıda dayanasan. Qol-larını açasan, çağırasan. Özü də səs verir çağıranda. Ay pir, deyəndə, səs verir, onda nə sözün var ürəyində deyirsən, apar-dığın ayın-oyunu da qoyursan yerə, dala baxmadan qayıdıp gəlirsən. Gələndən sora nə arzu eləmisən hamısı yerinə yetəjəh. Deyir ki, onda sabah günorta gələjəm. Deyir ki, fılan yolnan gələrsən, gəlib bizim cütün yanıynan keçəjəhsən, fılan yolnan gedib görəjəhsən böyüh bir dənə ağaşdı, palıd ağajı. Gərəh 15 metrdən qabağa getmiyəsən haa. Ayın-oyunu qoyub yerə çağırasan. Qayıdanda da geri baxmırsan. Arvad hazırlaşır. Çıraq-zad, fəsəli-zad bişirir, hazırrıyır. Səhəri düşürlər yola. Keçəl görür ki, arvad gəlir. Deyir:

– Dayı, sən cütü saxla, dinjəl, mən gəlirəm indi.

Qaçır gedir, ağacın küfülü olan arxasında girir küfülə.

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Görür arvad gəldi. Keçəl dediyi kimi eliyir. Çağırır ki, ay pir. Keçəl deyir ki, hıı.

Deyir:

– Keçəl ölsün.

Deyir:

–Hıı.

Deyir:

–Dayısı da ölsün.

Deyir:

–Hıı

Deyir:

–Mollanın oğlu məni alsın.

Deyir:

– Hıı

Nəysə, ürəyin boşaldannan sora ayın-oyunun qoyur orda yerə. Qaydır gedir, düzəlir yola. İsdiyir ki, getsin. Keçəl deyir ki, kəbin inəyin ətinnən kəs, ver,dayısı da, Keçəl də yeyib öləjəhlər. Elə deyir ki, arvad bını eşidir. Deməli arvad çıxır gəlir. Keçəl ayın-oyunun götürüb, gəlir dayısının yanına.

Açıllar, yeyillər, içillər.

Deyir:

– Dayı, biz axşam evə gedəndə, arvad sənə desə ki, dur kəbin inəyini kəs, sifdə bir əz oyan-buyan elə ki, arvad, nolubdu, inəyi niyə kəsim? Amma dərinə getmə. Mən də sənə köməh eliyəjəm. Durub inəyi kəsərih. Arxeyin ol! Gedib inəyi kəsəjiyih. Mən də ojağı qalıyajam. Ətindən kabab eliyib yeyərih doyunca. Doyandan sora mən uzanajam, deyəjəm dayı, mən ölürəm. Uzanıb tir-tap olajam, tərpənmiyəjəm. Sən də bir əz ye, uzan, denə, Keçəl, mən dəəsən öləjiyəm. Sən də uzan. Guya sən də öldün. Arvad tez sevinə-sevinə qalxajax, qaçajax mollanın oğlun çağırajax. Elə ki, gəldilər, sürütdəyəjəhlər ki, aparsınnar atsınnar bir yerə, tez mən sıçrayıp qapının dalın bağlıyaram. Sən də mənə köməh elə.

Axşam olur, işdərini qurtarıllar, gəlillər evə. Oturullar.

Arvad deyir:

–Kişi!

Deyir:

–Nədi, arvad?

Deyir:

– Kişi, dur inəyi kəs.

İnəh də, deməli, arvadın olur, cehiz veriblər arvada. Ona görə də, inəyin adı kəbin inəyidi.

Kişi deyir:

–Ay arvad, dəli olmusan, nəsən? Nejə yanı, dur inəyi kəs. İnəyi niyə kəsim?

Deyir:

– A kişi, inəh mənimdi. Deyirəm kəs, kəs da. Lazımdı ki, deyirəm da.

Kişi bir əz nəm-küş eliyənnən sora Keçəl də qarışır işə, deyir:

– Ay dayı, inəh dayıdostunundu. Gətiribdi, indiyənə kimi saxlıyıp, indi də saxlamır. Deyir kəs, sən də kəs da. Da bının nə şeyi var.

Nəysə, inəyi kəsillər, soyullar, doğruyullar, tökküllər, yeyillər. Yeyib doyannan sora tir-tab olur Keçəl, guya Keçəl öldü. Kişi uzanır, deyir ki, mən də öləjəm.

Kişi də uzanır, tir-tap olur. Arvad baxır ki, bullar ikisi də öldü. Tez durur, sevinə-sevinə qaçır. Mollanın oğlun çağırır ki, a kişi, gəl, bəs ikisi də ölüp. Gəl, onnarı sürütdüyəh, aparıb atax bir yana. Mollanın oğlu gəlir. Kişini götürüp qoyullar çölə ki, qayıdıp keçəli də aparsınnar. Tez Keçəl sıçrıyıp, qapının dalın bağlıyır.

Baltanı götürür əlinə, deyir ki, dayı, mənə köməh elə.

Deməli arvadı, mollanın oğlunu da doğruyullar, aparıb gejəynən tökküllər quyuya, qayıdıb gəlillər. Yeyillər, içillər, yıxılıb yatıllar. Səhər tezdən durur Keçəl, gedir kənddən bir yaxşı arvad tapır dayısına. Götürüb gəlir, qoyur dayısının

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

yanında. Deyir:

– Səni Allaha tapşırıram, dayımı saa. Əgər dayımın bir tükü əysih olsa, gəlib səni onnardan betər eliyəjəm. Dayı, qorxma ta. Nənəm deyir, ta evin dini-bərəkətini aparmıyajax. Hamısı burda qalajax. Yaşıyın.

Burda halallaşır, düşür yola. Gedir öz anasınını yanına, bunnar da burda başdıyıllar yaşamağa.

ŞİRLƏ TÜLKÜ

Bizim yerdə bir Süsən dağı var, bir də bir Əsgülüm dağı var. Süsən dağında bir şir yaşıyırmış. Eşidir ki, Əsgülüm meşəsində yaxşı yem var. Deyir, yaxşı, var, var da, gedim görüm mən də orda yaşıya bilərəmmi? Gedir bir çaydan keçir. Belə Əsgülüm sərhədinə girəndə bir tülkü, balaca bir açıx yer varmış, orda ov eliyirmiş, siçan tuturmuş. Oturub deşiyin ağzında marığa yatıbmış ki, siçan indi çıxar, bir azdan çıxar. O qədə marığa başı qarışır ki, bir də görür, bir şir yaxalıyıp bunu – iki-üç addım qalıp ona çatmağa. Qaçammır daa.

Deyir:

– Əə, şir lələ, xoş gəlmısən, sən hara, buralar hara?

Deyir:

– Əə, tülkü lələ, sən nə bilirsən ki, mən buralı deyiləm, bura gəlməyəm?

Dedi:

– Eee, şir sağ olsun, mən ömrümü bu Əsgülüm dağında yaşamışam. Nə qədi şirrər varsa, bəlkə beş dəfə biriynən, üç dəfə biriynən rasdaşmışam, ama səni indi görürəm.

Dedi:

– Doour deyirsən, mən Süsən dağınnan gəlmişəm. Deyillər, bu meşə səfalı meşədi, burda yaşamaq yaxşıdı.

Dedi:

– Çox səfalı meşədi.

Dedi:

– Axı mən nabələdəm.

Dedi:

– Gə mənnən qardaş olax, mən görsədim, sən də avla gəti, bir yerdə yəəh daa. Dolanax.

Dedi:

– İllap yaxşı.

Razılaşdılar.

Şir dedi:

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– İndi, qardaş, bərk acmışam.

Dedi:

– Bəri gəl.

Tülkü gördü, bir çoban qoyun aparır, bını apardı ora, dedi:

– İndi o qoyun, o da sən.

Şir sıçradı. Çoban gördü şir gəlir, qaşdı. Şir qoyunnardan birin vırdı cənginə götdü gəldi. Özünü verdi bir qaratikan kolunun dibinə. Allah heç həqqi tanıyanı ac eləməsin. Acıydı, başdadı yeməyə. Tülkü sınıdı durdu bir qıraxda. Şir birdən başın qaldırdı gördü, axı tülkü yemir. Dedi:

– Ə, tülkü qardaş, gəl sən də ye daa.

Dedi ki, axı qorxuram.

Dedi:

– Kimnən, nədən?

Dedi:

– Sənnən.

Dedi:

– Bə mən deyirəm dəə.

Dedi:

– Yox, desən də mümkün yoxdu.

Dedi:

– Neyniyəh?

Dedi:

– İndi ki, həylədi, qoyunun boğursağın – acı boğursaq götürüm, onnan sənin qollarını daldan yalannan bağlıyım.

Qoyunun acı boğursağınnan qurudub keşmişdə oxcular kiriş düzəldərdilər, çox möhkəm olardı.

Tülkü dedi:

– Qoy bu boğursağnan qolunu yalannan bağlıyım, guya ki, bağlısan. Mən arxeyin olum, bir tikə yeyim, aj qalmıyım.

Dedi:

– Noolar, qardaş olmuşux, bir dəyqa, iki dəyqa mənim qolum bağlı qalsın. Sən aj qalmıyassan ki?

Tülkü şirin qolunu bağladı. Gözdədi, gördü kü, gün

vurdu boğursağı qurutdu, oldu kiriş. Tülkü durdu belə dolaylandı getdi. Şir dedi:

– Tülkü qardaş, hara gedirsən?

Dedi:

– Çıxıram gedəm daa.

Dedi:

– Bə mənim qolum bağlı qaldı.

Dedi:

– Cəhənnəmə bağlı qalsın.

Şir qəzəpləndi, çəhdi kirişi, qolların yarıya qədər kiriş kəsdi. Kirişi şir qıra bilər? Hoppuldu o ənə, hoppuldu bu ənə, özünü verdi qaratikanın kölgəsinə, qaldı burda. Qan bunu aparır, neyləsin, heş bir çarəsi yoxdu. Gördü, bir siçan ordan hoppanır o ənə-bu ənə.

Dedi:

– Şir, a Allahın heyvanı, niyə belə qalmısan?

Dedi:

– Ha belə, vəziyyət belə oldu.

Dedi:

– Maa dəymərsən ki, sənin qollarını açam?

Dedi:

– Bir yaranmışı ki, zindannan qurtarasan, ona kim dəyə bilər?!

Siçan gəldi yavaş-yavaş gəmirdi, kirişdəri doğradı töhdü yerə, şiri qurtardı.

Şir Əsgülümnən Süsən dağına qayıtdı. Gedirdi yolda, Oxçu çayında bir şirnən rasdaşdılar. O şir soruşdu:

– Ə, şir qardaş, hardan gəlirsən?

Dedi:

– Əsgülümnən gəlirəm.

Dedi:

– Niyə gəlirsən? Deyillər, ora çox səfalı yerdi.

Dedi:

– Ə, nə səfalı yerdi?! Bir meşənin bağlıyanı tülkü ola, açanı siçan, o meşədə qalmaxdansa, qalmamağım yaxşıdı.

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

EKİZ QARDAŞLARIN NAĞILI

Bir vilayətin padşahı ölür. Vəzir-vəkil Tavuz quşun uçurullar, quş gedip qonur padşahın on dört yaşdı bir oğlu qalıpmış, onun əviin qabağına. Genə uçurullar, genə gedip qonur həmən oğlaan əviin üstünə. Vəzir-vəkil tökülüşür padşah oğluun qapısına, deyillər:

– Neçə dəfə quş uçurtdux, Tovuz quşu sənnən əl çəhmədi, gəl padşahlığı qabul elə, vilayatı dolandır. Padşahın oğlu deyir:

– Əşi, mən nəyəm ki, bı vilayatı dolandıram? Mən özümü hərriyəmmirəm, sizə nə təhər padşahlıx eliyə bilərəm? Yox, yox, mənnən keçin.

Vəzir-vəkil, cahamat deyir ki, yox, elə şey olar? Quş bir şey bilir ki, gəlip bıra qonur, ancax gərəh sən olasan patşah. Padşah oğlu baxır ki, başqa cürə olmuyaceh, deyir:

Onda maa bir il möhlət verin, sora olaram.

Naəlaş qalıp vilayatı bir illiyinə tapşırıllar vəzirə. Nağıl dili yüyrəh olar. Bir il fırranır keçir. Gəlillər padşah oğluun yanına, deyillər:

– Vədə tamamdı, çıx taxda.

Padşah oğlu deyir:

– Əvvəlcə məni atamın torpaxlarında gəzdirin, sərhəddəri gösdərin, sora çıxajem taxda.

Bəli, atdarı yəhərriyillər, çıxıllar səfərə. O kət sənin, bu kət mənim, bı vilaytın sərhəddərin dolanıllar. Bir gün gəlip çıxıllar bir kəndin yanına, görüllər çəmənnihdə bir sürü mal otduyur. Bir inəh yatıp yerə. Padşah oğlu deyir ki, kim diyər, bı inəyin qarnındakı balası dişidi, ya erkəhdi?

Heş kim bilmir. Padşah oğlu deyir ki, ama mən bilirəm, bı inəyin qarnındakı balası dişidi, bənöyüş bızavdı, alnında da qaşqası var. Padşah oğlu bını deyən kimi kolluxdan bir qahqaha səsi gəlir. Deməynən, elə padşah oğlu yaşında bir naxırçıdı, padşahın adamlarını görüp gedip kolluxda gizdənip-

miş. Padşah oğlu atın sürür kolluğa, deyir:

–Sən kimsən ki, məəm sözümə qah-qah çəhdin?

Bı oğlan, adı da ola Məhəmməd, kolluxdan çıxır, deyir ki, mən bı sürüün naxırçısıyam, adım da Məhəmmətdi. Sən hamısın düz dedin, ama bı buzov qaşqa dəyil, quyruğu qatdanıp gəlip alnına, odu ki, sən elə bildin qaşqadı. Padşah oğlu cibinnən bir kisə qızıl çıxarıp atır Məhəmmədə, deyir:

–Bı inəyin haqqı, kəsin görəh sən deyən düzdü, yoxsa mən deyən?

İnəyi kəsillər, görüllər ki, Məhəmməd deyən düzdü, bızov qaşqa dəyil. Padşah oğlu ürəyində deyir: "Əyə, bı mənnən ağıllıdı, gərəh bını aparam yanıma".

Deyir:

– Məhəmməd, maa vəzir olarsan?

Məhəmməd deyir ki, yox, məəm yolum başqadı, səninki başqa. Padşah oğlu nəkqədər eliyir, Məhəmməd razı olmur. Axırda padşah oğlu fikirrəşir ki, bı işdə zor fayda verməz. Gedim bir müddətdən sora məslahatnan gətirrəm yanıma

Padşah oğlu qayıdır sarayına. Bir müddət keçir, adam göndərip Məhəmmədi çağırtdırır yanına. Ora Məhəmməd, bıra Məhəmməd, Məhəmmədi tapammillər. İndi də saa kimnən deyim, Məhəmmətdən.

Məhəmməd axşam naxırı kəndə gətirir, fikirrəşir ki, bı padşah oğlu mənnən əl çəhmiyəjəh, nətəər eləyim, necə eləyim ki, məni tapamməsin? Məhəmməd götürür paltarın dəyişir, başına da bir qoyun dərisi keçirir, olur bir keçəl qız. Gəlir padşahın sarayına, yalvarır ki, bəs yetim qızam, maa bırda bir iş verin, işdiyim, həm də qalım. Bı keçəl qıza yazıxları gəlir, götürüllər yeməhxanıya, deyillər: "Yazıxdı, bırda qabdan-qajaxdan yuyar, həm də bir qarın çörəh yeyər".

Məhəmməd bırda qalsın, bı yannan da padşahın oğluun halı olur pərişan. Deyir: "Nətəər olsa, gərəh Məhəmmədi tapam". Vəzirnən vəkili çağırır yanına, hərəsinə bir kisə qızıl verir, deyir:

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Düşün vilayatdara, hər yerdə soruşun ku, dünyada ən güjdü şeytan hansıdı?

Patşah oğlu bilir ki, elə-belə axtarmaxnan Məhəmmədi tapmax olmaz, ona görə də bı sözü vəzirnən vəkilə deyip yola salır. Vəzirnən vəkil çox yeri dolanıllar, hər yerdə padşah oğlu tapşırdığı sözü soruşullar, hərə bir şey deyir. Vaxt tamam olur, vəzirnən vəkil yorğun-arğın qayıdıp gəlir. Padşah yeməhxanasının yanından keçəndə Məhəmməd qız paltarında, başında da qoyun dərisi çıxır bınnarın qabağına, deyir:

– Gəlin bir çay için, sora gedərsiz.

Vəzirnən vəkil girillər yeməhxanıya, oturullar, Məhəmməd bınnarın yanına gəlip deyir ki, mən bilirəm, siz nə axtarırsız, çayızı için, mən bir əhvalat danışacem, gedip padşah oğluna deyərsiz. Vəzirnən-vəkil deyillər: "Balam, bı keçəl qız nə bilir, biz nə axtarırıx?" Fikirrəşillər ki, yağın eşidipdi, eşidip bilənnərdən soruşupdu. Məhəmməd başdıyır nağıl eləməyə. Deyir:

– Bir kətdə bir ailə varmış, çox mehriban dolanırmışdar. Ata-anaymış, iki də qardaşıymış. Bınnarın qonşuluğunda bir qarı da varmış. Bı qarı ha çalışırmış ki, ayilənin mehribançılığını pozsun, bajarəmmirmiş. Vaxt olur ki, bı qardaşdarın ata-anası ölür. Bınnarın da evlənməh vaxtıymış. Yığışıp məslahat eliyillər ki, bəs gərəh bı qardaşdar evlənsinnər. Qardaşdar gedip hərəsi bir qız alır. Qonşu qarı deyir: "Həə, indi mən arzuma çataram, bı ailəyə bir məğlətə salaram". Bir gün qardaşdardan biri gedir çölə odun qırmağa, arvadı qalır əvdə. Qarı tumanını çırmayıp alır əlinə, gedir çöldəki qardaşın yanına, deyir: "Ay namıssız, sən bırda odun qırırsan, arvadın əvdə qardaşınnan oynuyur, belə də namıssızdıx olar?" Qarı oradan da gəlir bulaxda o biri qardaşın arvadına deyir: "Ay axmax, səən başın qarışıp bırda su götürməyə, ərin orda qayınarvadınnan pis əməldən çıxır, özüm görmüşəm". Bəli, çöldəki qardaş dəhrəni, baltanı qapıb cumur əvə, onnan qabax da bulaxdakı arvad özünü yetirir əvə, saşyolmasına çıxır. Bı yannan da

qardaşdar bir-birin qanına qəltan eyliyir. İndi bilin ki, dünyada ən gücdü şeytan adam şeytanıdı.

Vəzirnən vəkil çaylarını içip durullar ayağa, gəlillər padşah oğluun yanına. Padşah oğlu deyir ki, gəlib çıxdıız? İndi danışın görüm, nə öyrənipsiz? Bınnar eşitdihlərini danışıllar, padşah oğlu qəzəblənir, deyir:

–Sizə bı qədər qızıl vermişəm, elə öyrəndiyiz bınnardı? Cəllad, tez apar bınnarın başın bədəninnən üz!

Cəllad bınnarı cələhliyip aparanda vəkil deyir:

– Amandı, öldürməyin, bəs biri qalıp.

Padşah oğlu deyir:

– Danış.

Vəkil Məhəmməddən eşitdiyini nağıl eliyir. Padşah o saat başa düşür ki, bını danışan Məhəmməddi. Deyir:

– Deyin görüm, bını harda eşidipsiz?

Məhəmməd də bərh-bərh tapşırmışdı ki, bəs deməzsiz kimnən eşidipsiz. Ona gora da vəkil deyir:

– Bəs yadımnan çıxıp, yolda kimsə danışıp.

Padşah oğlu deyir:

– Tez ol yadaa sal, yoxsa ikiziin də boynu vırılaceh.

Qorxudan vəzir-vəkilin canına titrəmə düşür. Deyillər:

– Amandı, öldürtmə, deyəh. Bəs hal-nağıl belə, bını bizə səən yeməhxananda bir keçəl qız var, o danışıp.

Padşah oğlu əmr eliyir, Məhəmmədi gətirillər. Deyir:

– Əyə, sən doğurdanmı qızsan?

Məhəmməd baxır ki, padşah oğlu bının keçəl qız olmadığını əliin içi kimi bilir, deyir:

– Yox, mən elə Məhəmmədəm.

Padşah oğlu əmr eliyir, Məhəmmədi aparıllar hamama, yuyundurup-geyindirip gətirillər genə də padşah oğluun yanına. Padşah oğlu deyir:

– Məhəmməd, sən gəl, mənə vəzir ol.

Məhəmməd deyir:

– Padşah sağ olsun, sən də, mən də bir toxumnan əmələ

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

gəlmişih, ama, Allah-tala taleh yazanda saa bir ağ qoş göndərip, buynuzdu, kərə, quyruxlu qoşdu. Maa da bir qara qoş göndərip, buynuzsuz, quyruxsuz qoşdu. Ona gora ki, buynuzunnan quyruğunu qatdayıp qoparıp. İndi mən saa vəzir olammərəm, talehimiz ayrı cürə yazılıp. Padşah oğlu bıın dediyinən razılaşır. Məhəmməd patşah oğluynan halallaşıb genə qayıdır öz kətdərinə. Allahın verdiyi ömrü yaşıyır, padşah oğlu da öz ömrünü yaşıyır.

İndi ekiz olanda noolar, hərəən öz ömrü var, onu yaşamalıdı.

AQİL PADŞAH

Keçmiş zamanlarda Şah oğlu şah Abbas bir vilayətdə hökmranlıq edirdi. Çalışırdı ki, onun xalqı həmişə yaxşı güzaran keçirsin. Belə ki, şah Abbas həmişə şam edərkən əvvəlcə deyirdi:

Ey bizi xəlq edən Allah, əgər mənim vilayətimdə ac adam varsa qarşımdakı xörəyi mənə qismət etmə. Beləliklə hər axşam bu sözləri dedikdən sonra şam edərdi. Günlərin bir günündə axşam şam etmək istərkən həmin sözləri təkrar edib əlini xörəyə uzatdı. Bu zaman əlinə götürdüyü xörək töküldü və ona qismət olmadı. O əlini geri çəkib yerindən qalxdı. Öz imarətinin ətrafından bir imarətə çıxıb şəhərə göz gəzdirdi. Bu zaman şəhərdə evlərin bütün lampası sönmüş, lakin şəhərdən kənarda bir evdən işıq gəlirdi. Şah Abbas öz şahzadə libasını dərviş libası ilə dəyişib, bir qədər xörək götürüb həmin işıq gələn aynaya tərəf yola başladı. Get ha get bir qədər getdikdən sonra gəlib o evə çatır. Aynanın pərdəsi cırıq olduğundan evin içi görünürdü. Bu evin içinə baxıb nə gördü? Təxminən əlli yaşında bir qadın, evin müəyyən hissəsində olan ocağın üstündə bir qazan var. Bu qazanın altını qalayaraq hönkür-hönkür ağlayır, ətrafda isə cındır bir həsirin üzərində beş uşağın bir mitil altında uzandığını görür. Uşaqlar, “ana, bişdimi, ana, bişdimi?” – deyib fəryad qoparırlar. Ana isə gözündən qanlı yaşı axıda-axıda deyirdi: Hələ bişməyib.

Şah Abbas bu hadisəyə bərk təəccüb edib bu sirri öyrənmək fikri ilə qapını döydü.

Qadın: Kimsən? – deyə cavab verdi.

– Dərviş babayam, Allah qonağıyam. Qapını aç – deyə şah Abbas dilləndi. Qadın qəmli-qəmli köksünü ötürərək, get ruzunu başqa qapıdan istə, məndə heç bir şey yoxdur, dedi. Şah Abbas dilləndi:

– Mən pay verən dərvişəm, ay bacı, qapını aç. Qadın istər-istəməz qapını açır, Şah Abbas dərviş libasında otağa

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

daxil olur. İrəli yeriyir, ocaqdakı qazanın ağzını açır, görür ki, qazanda su ilə birlikdə qara çay daşı qaynamaqdadır. Şah Abbas onsuz da bu sirri bildiyinə baxmayaraq qadından soruşur:

Bu nə işdir, bunu mənə başa sal.

Uşaqlar qəmli, intizarlı gözləri ilə qonağı süzürdü. Qadın dedi: Allahdan gizli olmayan sizdən nə gizli olar. Bu gün səhər tezdən indiyə qədər uşaqların, mənim dilimə heç nə dəyməyib. Beləki heç bir şeyimiz yoxdur, yoxdan Allah da bezardır. Odur ki, qazandakı daşı qaynadaraq uşaqları aldadıram ki, yuxuya getsinlər. Bildiyimiz kimi ac adamın gözünə yuxu çətin gedər. Bəli mənim müsübətim belədir – deyə yenidən hönkürtü ilə ağladı. Bu zaman hirs başına vuran Şah Abbas vilayətində olan vəziyyətə təəccübləndi, gətirdiyi xörəyi ortalığa qoyaraq qadını, uşaqları doyunca yedirtdi. Nəhayət atasından yadigar olan üzüyü çıxarıb qadına verib dedi: Mən dövlətli dərvişəm bacı, neçə ki, mən sağam, sizin dolanmağınıza mən kömək edəcəyəm. Al bu üzüyü, səhər get, bazarda qırx ədəd zərgər tükanı var. Həmin tükanların qırxında da yəhudi işləyir. Birinci, ikinci yox, üçüncü tükançıya müraciət edib, bu üzüyü xırdalarsan. Sizə lazım olan şeyləri alıb, qaytarıb gətirərsən. Beləliklə sən o pulu xərclə, mən özüm səni həmişə yoxlayacağam. Bu sözü deyərək Şah Abbas qapıdan çıxır. Uşaqlar bir ağızla "çox sağ ol dərviş baba" dedilər. Şah Abbas öz imarətinə gəldi. Qadın, uşaqlar isə yatdı.

Necə deyərlər Allah səhəri üzümüzə açsın. Səhər açıldı. Qadının beş nəfər olan uşaqlarının böyüyü 8 yaşında, kiçiyi isə 3 yaşında idi. qadın uşaqları başına toplayıb evin qapısını qıfılladı, uşaqlarına dedi: Mehriban balalarım siz məni qapıda gözləyin. Mən sizə hər şey alıb gətirəcəyəm.

Uşaqların hərəsi bir tərəfdən dedi: Mənə qırmızı çəkmə al, biri isə mənə don al, digəri isə qırmızı yaylıq almağı təklif edirdilər. Hamısına vəd verərək, balalarını qapıda qoyaraq ana bazara üz qoydu. Gəlib həmin tükanların qarşısında durub

üçüncü tükanı müəyyən edib tükana daxil olur. Uzun göz, seyrək saqqalı olan tükan sahibi yəhudiydi:

Qardaş, xahiş edirəm mənim bu əmanətimi xırda edəsən, deyərək kağızın arasından birliyant üzüyü çıxarıb ona tərəf uzatdı. Yəhudi cəld qalxıb qadından bükülü kağızı aldı, açıb birliyant üzüyə diqqətlə nəzər saldı, qadına təklif etdi ki, içəri keç, xırdalayım. Qadın içəri keçdi. Yəhudi əlindəki birliyanta nəzər salıb müəyyən etdi ki, baxmayaraq qırx dükançının içində ən dövlətlisi mənəm, əgər dükanımdakı malı, qıraqdakı pulumu versəm yenə üzüyün qiymətini ödəyə bilmərəm. Qadına şər atmaq məqsədi ilə istər-istəməz qadına möhkəm bir şillə vurdu. Qadın özündən gedərək ağzı-burnu qanamış halda üzü üstə yerə düşdü. Bu halda həmin yəhudi haray salır, camaata belə elan edir ki, guya bir il bundan qabaq bunun tükanı yarılmış, həmin birliyant üzükdən bir cüt oğurlanmış ki, üzüyümün birinin başını bu qadında tutmuşam, digərini isə bu qadından tələb edirəm. Haray-həşirə gələn camaatın içərisində bazar darğası olan yəhudi gəlir, bu nə hadisədir – deyərək qoca yəhudidən soruşur.

Yəhudi isə bazar darğasına göz vuraraq deyir. Sənin yaxşı yadındadır ki, bildir mənim dükanım yarıldı, bildiyin kimi iki birliyant üzüyüm oğlurlandı. Onun isə birini bu qadında tutmuşam deyib, qadını göstərib təkrar edir.

– Əgər yalan deyirəmsə 12 imamın 6-sı sənə qənim olsun, 6-sı mənə. Vurğunu başa düşən darğa qoca yəhudinin dediklərini təsdiq edərək zavallı qadının qolların bağlayaraq aparır salır öz yaşadığı evin zirzəmisinə. Ağzına qıfıl vuraraq yəhudinin yanına gedir, onunla qarşı-qarşıya oturub şərab içərək qəniməti bölmələri haqqında söhbət edirlər. Qadının uşaqları isə intizarla analarının yolunu gözləməkdə idilər.

Qadın zirzəmidən fəryad qopararaq kimi isə köməyə çağırırdı. Darğanın arvadı zirzəminin qapsına gəlib, nədir deyərək, soruşur. Ay bacı, yanıram mənə rəhm et, mənə bir qədər su ver. Darğanın arvadı gedir, bir çaynik su gətirir,

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

qadına su içirdir. Qadın su içdikdən sonra yalvara-yalvara deyir:

– Mənim uşaqlarım yiyəsiz qaldı, qan-ürək olacaqlar. Ərin gələndə de ki, aldıqları üzük də onların olsun, məni buraxsınlar. Mənim heç bir işdən xəbərim yoxdur. Mən oğru deyiləm.

Darğanın arvadı deyəcəyini vəd edib, evinə döndü. Bir qədərdən sonra darğa sərxoş halda evinə daxil oldu. Arvadı qadının dediyi sözləri ərinə söylədi. Əri isə arvadına "qadını get gətir" dedi. Darğanın qarşısında diz çökən qadın çox and-aman etdi ki, mən oğru deyiləm. Bunu gecənin birində bir dəvriş verib. Məni azad et, gedim uşaqlarımın yanına. Darğa isə qadının dediklərini rədd edir, təzə itilədiyi dəhrə ilə kötüyü qarşıya gətirir. Qadına axırıncı dəfə müraciət edir. Ya üzüyün digərini boynuna al, ya da biləkdən iki əlini vurub salacağam. Qadın necə demişdi, yenə də elə söylədi. Çünki başqa çıxış yolu yoxdu. Düzü nədir o da budur. Darğa qadına əhəmiyyət verməyərək onun əlini biləkdən vurub salır, rədd ol get, deyir. Qadın qanlı göz yaşı axıdaraq darğanın arvadına müraciət edir. Aç mənim şalımı, əllərmi bağla, boynumdan as. Darğanın arvadı qadının əllərin boynundan asır, qadın uşaqlarının yanına yola düşür. İntizar içərisində analarını gözləyən uşaqlar analarını bu müsibətdə görüb hamısı vay-şivən edərək içəri daxil olurlar. Ana ilə balaları vay-şivənlə ağlamaqda olsunlar, sizə xəbər verim Şah Abbasdan. Şah Abbas həmişəki kimi həmin gecə də həmin sözləri təkrar edərək yemək istədikdə bu zaman elə bil onun qolu qurudu. Belə ki, xörəyə əl apara bilmədi. Qəzəbli halda həmin minarəyə çıxaraq şəhərə nəzər saldı, həmin aynalıqdan işıq gəlməsini müəyyən etdi. Cəld dərviş paltarı geyib üz tutdu qadının evinə. Həmin aynanı görürkən yerindən içəri nəzər salıb gördü ki, qadının iki əlləri biləkdən kəsilmiş, boynundan asılmışdır. Qadın qızıl qan içərisində çırpınır, uşaqlar ətrafında qoyun-quzu kimi mələşirlər. Bunu görüb qəzəblənən Şah Abbas qapını döyür. Qadın deyir

kimsən, şah cavab verir, həmin dərviş babayam, qapını aç.

Qadın deyir sən gələn yollara daş yağaydı, mən ona-buna nökərçilik edərək uşaqları birtəhəri saxlayırdım. Niyə sən mənə oğurluq üzüyü verib, əllərimi kəsdirib, məni zəlil etdin. İndi nə istəyirsən, get.

Şah Abbas inad edərək qapını açdıraraq içəri daxil olur. Xörəkdən uşaqları doydurub yatırdır. Qadını isə özü yedirdib, hadisənin necə baş verdiyini öyrənir. Mən sizə danışdığım kimi qadın da dərviş paltarında olan Şah Abbasa deyir. Şah Abbas səbr et, hamısı aydın olar– deyib evdən çıxır. Gecə ikən əmr verir, səhər heç bir tükan-bazar işləməsin. Səhər açılır. Şah Abbas qırmızı paltar geyib intiqam meydançasına gəlir. Bütün şəhər əhli meydançaya toplaşır. Şah Abbas öz əyanlarına qırx yəhudinin qolu bağlı gətirilməsini əmr edir. Əyanları otuz doqquz yəhudini qolu bağlı gətirib, cərgə ilə düzür, şahın hüzuruna gedib, qoca yəhudi darğanın tapılmamasını deyirlər. Şah əmr edir ki, bir saatlıq möhlət verirəm, əgər hər ikisin gətirməsəniz sizin boynunuzu özüm vuracağam. Necə deyərlər, can şirin olar. Əyanlar özlərini hər tərəfə vurub müəyyən bir samanlıqda, samanın altında bazar darğası ilə yəhudini qolları bağlı şahın hüzuruna gətirirlər. Şah öz oturduğu yerə gətirilməsini əmr edir, hər ikisini şahın yanına gətirirlər. Şah həmin birliyant üzüyü gətirdir, soruşur, qadının əllərini kim kəsib?

Qoca yəhudi darğanın üzünə baxır. Darğa cavab verir: "Bir oğurluq etdiyinə görə onun əllərini mən kəsmişəm".

Şah deyir: "Nə oğurlayıb?"

Bu zaman darğa qoca yəhudinin üzünə baxır. Qoca yəhudi deyir: Keçən il mənim tükanımdan bir cüt qızıl üzüyümü oğurlamışdır ki, onun da birini qadının əlində tutmuşam, digərini də istəyirəm.

Bu zaman şah deyir: Əgər bu üzük sizin olmasa sizə qarşı cəzanı qəbul edirsiniz?

Bəli, deyərək darğa, qoca yəhudi cavab verir. Həmin

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

üzüyü bağışlayan Şah Abbasın atasının ən yaxın dostu 125 yaşlı zərgəri Şah Abbas gətizdirib deyir: Əmi, bu üzüyü tanıyırsanmı?

Qoca zərgər üzüyə baxan kimi üzüyün hansı tarixdə kim tərəfindən kimə hazırlanmasını deyir. Bu zaman darğa ilə qoca yəhudi sübut tələb edir. Qoca zərgər cəld bir halda nəqqaş üzüyün zümrüd qaşını götürür, qaşın altında zərgarın dediyi sözlərin olduğu sübuta yetirilir. Bu zaman şah deyir, nədir sözünüz, bu zaman hər iki nankor müqəssir heç bir söz demədən başlarını aşağı salır. Şah qoca yəhudi ilə birlikdə qırx yəhudinin başını vurdurur. Darğanı isə qadının qarşısında qadına bir qədər təsəlli olsun deyə aşağıdakı kimi qətlə yetirir. Onun qollarını, qılçlarını bağladır, uzadır, sərəncamındakı ləzgini çağırtdırır, işi başla deyir. Ləzgi altı santimetr uzunluqda mismarların hər iki üzünü biz edib darğanın ağzını açır mismarın bir ucunu üst damağına o biri ucunu alt damağına qoyur. Qurğuşunu əridərək damcı-damcı onun xirtdəyinə tökür. Bu zülm ilə onu məhv edir. Mərəkə dağılır, şah vəzirinə əmr edir. Həmin qadını uşaqları ilə birlikdə apar, öz ailən kimi onlara baxarsan. Vəzir onları qəbul edib uşaqları ilə birlikdə qadını öz imarətinə gətirir, hamısına təzə paltar verib, lazım yemək-içmək ilə təmin edir. Günlərin birində şahın, vəzirin arvadı həmin qadını götürüb hamama gedirlər. Hamamdan qayıdarkən Allahın şikayətxanasına daxil olub ziyarət edirlər. Biləkləri boynundan asılmış qadın getmir. Bunların getməsini buyurur, mən bir qədərdən sonra gələrəm deyir. Bir qədər ağlayaraq Allahtəaladan özünə şəfa istəyir. Qadını yuxu aparır. Bir qədərdən sonra görür ki, bunu kim isə durquzub deyir ki qalx zavallı qadın, istədiyinə çatdın. Qadın gözünü açıb heç kimsəni görmür. Lakin hər iki əlin sağ-salamat olduğunu görüb ağlayır. Ağlaya-ağlaya uşaqların yanına gəlir, bunda sonra şad-xürrəm yaşayırlar.

TÜLKÜNÜN NAĞILI

Biri var imiş, biri yox imiş. Bir meşə varmış. Bu meşədə bir tülkü yaşayırmış. Tülkü tək-tənha ömür sürürdü. Bu ətrafda bir dəyirmançı da varmış. Bir gün tülkü fikirləşir ki, tək yaşadığım bəsdir, gedirəm dəyrmançının yanına. Tülkü onun yanına gəlib deyir:

–Aya, dəyirmançı, bir qulaq as gör nə deyrəm. Gəl əl-ələ verək, qardaş olaq, köməkli dolaşaq. Nə deyirsən, fikrin nədir?

Dəyirmançı deyir:

– Tülkü qardaş, mən razı. Lap yaxşı fikirdir.

Bəli, həmin gündən etibarən tülkü ilə dəyirmançı birlikdə yaşamağa başladılar. Onların həyatı kasıbçılıqla keçirdi. Tülkü fikirləşdi ki, gərək nə yolla olursa olsun biz varlanaq. O düşünüb tədbirlər tökməyə başladı. Tülkü ilə dəyirmançının yaşadığı bu yerdə bir padşah da var idi. Övlad sarıdan padşahın gözünün ağı-qarası təkcə bir qızı var idi. Əhd eləmişdi ki, qızını varlı bir adama verəcək.

Bir gün tülkü gəlib padşahın elçi daşının üstündə oturdu. Heç kim ona fikir vermirdi. Lakin padşah onu gördü, nökər-naibə əmr etdi:

–Ey, tez gedin o tülkünü bura gətirin, görüm orada nə məqsədlə oturur. Yəni tülkü mənim qızım üçün gəlib?

Bunu eşidən qulluqçu-qarabaşlar yüyürərək tülkünü şahın hüzuruna dəvət etdilər. Tülkü daşın üstündən qalxdı. Ağır-ağır, qulluqçulara yuxarıdan aşağı baxa-baxa gedirdi. Nəhayət o şahın hüzuruna yetişdi. İçəri daxil olan kimi şaha baş əydi. Padşah dedi:

–Ey tülkü, de görüm sən kimsən, nə səbəbə mənim elçi daşımın üstündə oturmuşdun?

Tülkü dedi:

–Böyük hökmdar, mən belə bir xəbər gətirmişəm ki, siz mütləq sevinəcəksiz. İndi isə bil, agah ol ki, mən İran şahının elçisiyəm. Gəlmişəm sizə deyəm, bizim hökmdar qızınızı oğlu

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

üçün istəyir. Fikriniz nədir?

Bu xəbər padşahı çox sevindirdi. O dedi:

– Mən razıyam, tülkü qardaş. Bu qohumluq mənim üçün şərəfdir.

Bəli, onlar çox danışdılar, çox götür qoy elədilər. Belə müəyyən etdilər ki, tülkü toy gününü qabaqcadan xəbər versin.

Məxləs, tülkü şad-xuraman, keyfi kök evə qayıtdı. Dəyirmançıya dedi:

– Aya, qardaş şadlıq evinin qapısını döyür. Padşahın qapısını iyləmişəm. Qızı verir. Birdən varlanacaqsan.

Nəhayət, toy günü yetişdi. Tülkü dəyirmançını da götürüb yola düşdü. Şahın sarayı yanında bir meşə var idi. Meşəyə çatcaq tülkü dedi:

– Dəyirmançı qardaş, sən burada dur, məni gözlə. İndi gəlirəm.

Tülkü gəlib saraya yetdi. Onu böyük hörmətlə şahın hüzuruna dəvət etdilər. Yetcək tülkü baş endirib dedi:

– Böyük hökmüdar, gəlmişik qızı aparmağa. Şahzadə də gəlib. Ancaq bizim yerlərdə belə bir adət var ki, gərək qaynatası kürəkənə bir dəst gözəl paltar, şahanə qılınc, kəhər at versin. O paltarı geyib, qılıncı taxıb, atı minib toya gəlsin. Şah əmr etdi, tülkünün dediklərini hazır etdilər. O bunların hamısını götürüb dəyirmaçının yanına gəldi. Dəyirmançı paltarı geydikdən sonra dönüb bir gözəl oğlan oldu. Tülkü qardaşını saraya apardı. Padşah oğlandan çox razı qaldı. Padşah da öz adətlərinə görə oğlana bir gözəl, misli-bərabəri olmayan saray bağışladı.

Padşah qırx gün, qırx gecə toy elədi. Qızını dəyirmançıya tapşırdı. Bəli qız, dəyirmançı, tülkü padşahın bağışladığı sarayda kefi kök, damağı çağ ömür sürdülər. Bir gün tülkü, fikirləşdi ki, aya, mən bü dəyirmançıya bu qədər yaxşılıq etdim, görəsən, o mənim qədrimi bilirmi? Gəlsənə onu bir yoxlayım. Bir gün tülkü özünü xəstəliyə vurdu. Tir-tap uzandı yerə. Qıraqdan baxan deyirdi ki, tülkü dünəndən ölüb. Eyvana

çıxan dəyirmançı dedi:

–Gedin görün o tülkü niyə uzanıb?

Nökərlər gəlib tülkünü tərpətdilər. Lakin o heç qımıldanmadı da.

Nökərlər dedilər:

–Ağa, tülkü çoxdan ölüb.

Dəyirmançı əmr etdi:

–Tez aparın onu bir dərəyə tullayın. Qoymayın həyətdə qalsın. Tez olun, aparın tullayın.

–Nökərlər yaxınlaşıb tülkünü götürmək istəyəndə o ayağa qalxdı, dəyirmaçıya baxıb dedi:

–Ay namərd, dostluğun, mərdliyin bu imiş? Mən sənin yolunda nə əziyyətlər çəkdim, ancaq yenə də dinmədim. Ay dəyirmançı oğlu dəyirmançı, bəs sən nə etdin? Hə, nə etdin?

Padşahın qızı tülkünün sözünü eşitdi. Tülküdən hər şeyi soruşub öyrəndi. Gördü ki, bu adam ona layiq döyül. Qız tez öz atasının yanına qayıtdı.

Tülkü də dəyirmançıdan ayrılıb getdi. Bir daha onun yanına ayaq basmadı.

Tək qalanda dəyirmançı yenə öz köhnə peşəsiylə məşğul olmağa başladı. Öz əməlinin nəticəsi olaraq yenə də kasıbçılıqla ömür sürməyə başladı.

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

YETİM MƏHƏMMƏD

Sizə hardan xəbər verim, keçmiş vaxtlarda bir nurani, mömin bir kişi vardı. Dünyada yüz iyirmi dörd min peyğəmbər olub. Onlardan bəziləri evlərində peyğəmbərlik eləyirdi, elə adam vardı ki, mahala peyğəmbərlik eləyirdi. Bu nurani kişi də öz evinin peyğəmbəri idi. Bunun var-yox, bir oğlu var idi. Adı da Məhəmməd. Elə oldu ki, kişi xəstələndi, yorğan-döşəyə düşdü. Qohum-əqrabası gəlib onun başına yığışdı. Kişi gördü ki, vəziyyəti ağırdı.

Dedi:

– Ay qohum-qardaş, mən gedirəm, bircə oğlumu sizə tapşırıram. Sizi and verirəm o bir olan Allaha, buna üz-göz eləməyin, qoyun xətri necə istəyir, eləcə də yaşasın.

Bunu deyib kişi öz ömrünü oğluna bağışladı.

Kişi ölən kimi arvad çıxdı damın ümtünə. Yönünü çevirdi qibləyə. Allah, Məhəmməd, ya Əli dedi. Xudavəndi aləm, mən kişidən ayrı yaşamaq istəmirəm, məni də kişi ilə bərabər götür dərgahına. Arvadın sözü Allah-taalaya xoş gəldi. arvad da öldü.

Aparıb kişini də, arvadı da basdırdılar. Gədə qaldı öydə təkcə. Aradan bir az keçəndən sonra qohum-qardaş yığışıb dedilər, a bala, gəl səni evləndirək, ələ-ələ verib dolanarsınız. Çox bunun üstünə düşdülər, əmma gədə boyun qoymadı. Axır bir də bunu məcbur eləyəndə, qayıtdı ki, məni Allah evləndirəcək, sizin işiniz olmasın. Bəzisinin gülməyi gəldi, bəzisi qəzəbləndi, bəzisi dedi ki, işə bax a, Allah gətirib buna arvad verəcək. Nə isə, bu minvalla bir müddət keçdi.

Bir gün qohum-qardaş yığılıb buna məcbur toy eləmək istəyəndə gədə dedi:

– Sizə demişəm ki, məni Allah evləndirəcək, mənnən işiniz olmasın. –Deyib qapını bağladı, papağı da basdı qoltuğuna, çıxıb getdi.

Bir az getmişdi ki, Xudavəndi-aləmdən cənabi-Cəbrayıla

səda gəldi. Dedi, qoyma, uşaq gedib tələf olar. Cənabi-Cəbrayıl nurani qoca sifətinə düşüb yolun kənarında oturdu. Gədə gəlib buna çatanda, dedi, salam. Dedi əleyküməsalam. Gədə bunun yanından ötüb getmək istəyəndə cənabi-Cəbrayıl dedi:

– A bala, hara gedirsən?

Dedi:

– İşim var, – deyəndə cənabi-Cəbrayıl bunun damarını burdu. Gədə baxdı ki, öz-özünə geri çevrilir.

Dedi:

– A bala, hara gedirsən, bir mənə de görüm nə işdi?

Dedi:

– Əmi, gedirəm də.

Dedi:

– Yox, mənə düzünü de.

Dedi:

– Haqq-hesab belədi, məni zornan evləndirmək istəyirlər, – deyəndə, dedi, bə əmin evləndirsə, olarmı? Dedi, nə deyirəm ki.

Cənabi-Cəbrayıl dedi:

– Dalımca gəl.

Bu qabağa düşdü, gədə də bunun dalınca. Başladılar getməyə. Elə bir dağın damarında gedirdilər ki, kişi dedi:

– Ay oğul, bilirsənmi nə var?

Dedi:

– Yox.

Dedi:

– A bala, havaxt dilləndirdim, onda dinərsən. Mən neyləyirəm işin olmasın. Mənnən heç nə soruşma.

Dedi:

– Əmi, nə deyirəm.

Getdilər, bir dağın başında bir talaya çıxdılar. Baxdılar ki, bir sürü qoyun, bir çobandı. Qoyunun üstündə bir çəngə belə yun yoxdu. Çobanın dili bir belə eşikdə, nə illah edirsə, qoyunu bir yerə yığa bilmir. Salam, dedi, salam. Çoban qoyun-

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

ların ardınca qaçmaq istəyəndə, cənabi-Cəbrayıl dedi:

– Yavaş, a bala, hara gedirsən?

Çoban dedi:

– Ay ağa, mənim başımı qatma, qoyun dağılacaq.

Dedi:

– Ay oğul, dala qayıt, qoyun yığılar da, yunu da olar, bala da verər, bəri qayıt.

Bu belə dedikcə, çoban gördü ki, qoyun bir yerə yığıldı. Dedi, a bala, eşitginən bu sürü elə bir sürü olacaq ki, hamı sənə qibtə edəcək. Ancaq dedi, mən gedirəm. Budu, sənə tapşırıram, bax, insafını əldən qoyma ha!

Gədə yanında, addayıb getdi.

Gəldilər, gördülər bir bağbandı belə durub, beli də qucağına qoyub zülüm-zülüm ağlayır. Salam, bəli, salam.

Dedi:

– Niyə ağlayırsan?

Dedi:

– Ay qadan alım, niyə ağlamayım, bu qədər bağı görürsən, əmma halıma bax, gecə-gündüz işləmişəm, indi bir salxım üzüm tapmıram ki, yeyəm.

Dedi:

– Bu bağ elə bir bağ olacaq ki, müştəri əlindən tərpənə bilməyəcəksən. Daa müştərilərin növbəsi dünyadan çıxacaq. Əmma sana tapşırıram, insafını əldən qoyma.

Gənə keçib getdilər. Gədəyə dedi, dalımca gəl. Bir xeylaq getmişdilər ki, bir şəhərə çıxdılar. Bu şəhərdə bir şah vardı. Bunun adı gələndə bütün adamların qorxudan içəriləri dağılırdı. Gəldilər düz bu şahın qapısına. Cənabi-Cəbrayıl, gədə də dalınca qapıdan içəri girdi. Şah durdu, dedi:

– Ayə, kimdi ki, belə naqafil mənim yanıma girdi.

Ayağa qalxmaq istəyəndə ayaqları qurudu. Cənabi-Cəbrayıl bir balaca bunun damarını boşaltdı, şah ayağa qalxıb bunun yanına gəldi.

Dedi:

– Ay şah, niyə dillənmirsən?

Dedi:

– Vallah, heç bilmirəm nə olub, heç ağlım başımda deyil.

Dedi, ay şah, bir az tələs. Dedi, Vallah, söhbət nədən gedir, bilmirəm, dedi, o sirapərdənin* dalındakı qızının əlindən tutub soyundur, alt paltarında gətir, bu gədənin əlinə ver, biz gedək, – deyəndə, bu hirsləndi.

Cənabi-Cəbrayıl birdə bunun damarını yığdı. Şah oturdu. Dedi icazə ver, vəzir-vəkili çağırıb məsləhətləşim. Şah çölə çıxıb vəziri çağırdı, vəzir gəlib gördü ki, bir qoca kişiylə bir qoca uşaq oturub. Əhvalatdan hali olandan sonra vəzir dedi, qız filan padşahın oğluna nişanlıdı. O şah bu şahdan əzazil idi. Şah dedi, a qoca, qızım nişanlıdı, bə mən nə edim?

Dedi:

– İsmarla qoy gəlsin.

Vəzir bir kağız yazdı ki, bəs deməzsən hal, vəziyyət belədi. Di durma gəl. Padşah məktubu alıb oxuyub, çox qəzəbləndi. Atlanıb yola düşdü. Yolda asıb-kəsir, söyüş söyürdü, deyirdi, kimdi bu mənim gəlnimi almaq istəyən. Gəlib çatdı, atdan düşüb içəri girmək istəyəndə, cənab-Cəbrayıl bunun da damarını burdu, şah eləcə qapıdaca qurudu. Cənabi-Cəbrayıl şahdan soruşdu:

– Qızın qaynatası budumu?

Dedi:

– Bəli, budu.

Dedi:

– Ay padşah, sənin gəlnini bu gədəyə alıram, bə nə deyirsən?

Dedi:

– Ay qoca, axı bu mənim gəlnimdi. Elə şey olmaz. Dedi, nə xərc çəkmisən, de verək, qızdan əl çək. Şah belə baxanda

---

*Sirapərdə – pərdə dalında, açılmamış pərdə.

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

gördü ölüvay bir qocadı, dedi, tərəzinin gözündə özü ağırlığında qızıl çəkib vermişəm, onu ver, razılaşaq.

Cənabi-Cəbrayıl dedi:

– Ay bala, dur.

Gədəni gətirdi düz çaylağa, bir torba çay daşı doldurub gədənin çiyninə atdı. Gəldilər düz şahlığa. Ağzını açdılar ceyxa* qızıl. Da hər iki şahın deməyə sözü qalmadı. Durub eşiyə çıxdılar. Üç yüz il bundan əvvəl qapıda bitən xurma ağacının çürük kötüyü o biri şahın ayağına dəydi. Dedi, bu nədi burda çürüyür? Şah cavab verincə cənab-Cəbrayıl dilləndi ki, bu xurma ağacıdı. Dedi, ayə, burda xurma olarmı? Dedi, indi baxın görün olur, ya olmur. Şahlar içəri girəndə, bu oxudu-üfürdü, o saat bir xurma ağacı hazır oldu. Şahlar eşiyə çıxanda, xurma ağacını görüb qurudular. O biri şah dedi, daha mənim sözüm yoxdu. Bu çıxıb getdi. Cənabi-Cəbrayıl dedi, qızı gətirin, biz tələsirik. Şah qızının özü öz əlilə gətirib gədəyə verdi. Cənabi-Cəbrayıl dedi, üzün ağ olsun, di sağ ol.

Qabaqca cənabi-Cəbrayıl, onun dalınca gədə, onun dalınca qız yola düşdülər. Bunlar şəhərdən aralandılar. Bir bulağın üstündə oturdular. Cənabi-Cəbrayıl dedi:

– A bala, indi bilirsənmi nə var?

Dedi:

– Yox.

Əlindəki əsa ilə yerdə xətt çəkib dedi bu sənin mallığın, bu sənin atdığın, bu sənin evin. Dedi, bu daşı görürsənmi? Bunu qaldırarsan, altında yeddi küp qızıl var, çıxardıb bu mülkü tikərsən. Ancaq insafını də əldən qoyma. Dedi, ayə, bu kimdir məni güdür. Qızla oğlan belə dönüb baxanda, gördülər qoca yoxdu. Gədənin gəlbini qaraltdı. Belə olanda qız dedi, ayə, niyə elə eləyirsən, dedi, görmürsən, qoca bizi gətirib qoydu bu çöllü-biyabanda, özü də qeyb oldu.

---

*Ceyxa – təmiz, tamam.

Qız dedi:

– Ayə, kişi sənə hər şeyi başa saldı. Bir buranı qaz.

Qazdılar, gördülər kişi necə demişdi, yeddi küp qızıl. Da dağa dedilər kimdən qorxursan? Dedi, pulludan, verər məni dağıtdırar. Həmin pulnan kişinin dediyi imarəti tikdilər. Gədə bir çöl ceyranı tutub gətirdi, bağladı evə. Bir cavan oğlanda gətirdi qoydu qapıda. Dedi, sənə ayda üç yüz tümən pul verirəm, burda oturub yolnan keçəni gözləyirsən. Atam ərvahına, burdan bir adam keçsə, yedirib-içirtməsən, paltarı olmasa, paltar verməsən, onda özünü ölmüş bil. Bu da orda oturub yol gözləməyə başladı. Vaxt gəldi bunların bir oğlan uşaqları oldu.

Xudavəndi-aləmdən cənabi-Cəbrayıla bir səda gəldi. Dedi, get onları sına, gör düzəliblər, ya yox. Cənabi-Cəbrayıl getdi həmin çobanın yanına, sürü elə sürü olmuşdu ki, gəl görəsən. Gəldi gördü ki, çoban bir bulağın başında yanını verib yerə, itlər də yanında. Bir kənarda durub çobanı səslədi:

– Ay çoban, ay çoban.

Çoban belə qalxıb gördü ki, bir kişidi. Cənabi-Cəbrayıl dedi:

– Bir buraya gəl.

Dedi:

– Ayə, özün gəl də.

Nə isə, cənabi-Cəbrayıl gördü ki, bu qanan deyil, axırda özü gəldi bunun yanına. Çoban dedi, nə var, nə lazımdı?

Dedi:

– Oğul, sənin yanına bircə şeydən ötrü gəlmişəm, indi özün bil Allahın bilsin.

Çoban dedi, nədi, de görüm.

Dedi:

– Oğluma toy eləyirəm, bircə dənə qoyunum çatmır. Oradan bura sənin üstünə gəlmişəm. Ölərəm, qoyunu halal eləyərsən, qalaram, qoyunu qaytararam.

Belə deyəndə, çoban cin atına mindi. Dedi, ayə, qoyun nədi, zad nədi. Dedi, a bala, bircə qoyun nədi ki, onu da ver-

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

mirsən? Çoban gördü yox, bu qocanı başa sala bilməyəcək, bayaq itləri səslədi, dedi, qoyma gəldi. Cənabi-Cəbrayıl dedi, a bala, etmə, eləmə, əvvəlki gününə düşərsən, ağzından bu söz çıxmışdı ki, çoban gördü əvvəlki gününə düşüb. Yerdən bir daş götürüb kəlləsinə vurdu.

Cənabi-Cəbrayıl ordan düz yol aldı bağbanın yanına. Gəldi gördü ki, növbə göz çıxarır. Tərəzi enib-qalxır, çəki daşları şaqqaşaqda. Cənabi-Cəbrayıl hərlənib gəldi düz bağbanın yanına.

Dedi:

– A bala, mənə bir az üzüm ver.

Bağban əlinin dalınan üzümün zir-zibilini siyirib kişiyə tərəf itələdi, götür, dedi, a kişi, aralan, ə görmürsən, dedi, müştəri gözləyir, ə, bir aralan da.

Dedi:

– A bala, o salxımı ver, mən də adamam axı.

Bağbanın cin başına vurdu, dedi, ə, sənə deyirəm aralan. Qabağında bir az üzüm var idi. Satdı qurtardı, nökərlərə dedi, gedin bağdan üzüm gətirin. Getdilər gördülər bağ quruyub. Bağban gəlib gördü ki, qabaqcadan necə idi, indi də elədi. O saat kişinin sözü yadına düşdü. Tərəzidən daşı götürüb kəlləsinə vurdu. Bu ilmi gedibsən, bildirmi? Tir-tab dəydi yerə.

Cənabi-Cəbrayıl sail* donunda ordan gəldi yetim Məhəmmədin yanına. Elə aralıdan durub baxırdı ki, qapıda duran oğlan bunun gördü. Cəld qocanın yanına gəlib salam verdi.

Dedi:

– Əmi, burada niyə durubsan?

Dedi:

– Oğlum, buradan o yana gedəcəm.

Dedi:

– Əmi, gedək bir az çaydan-çörəkdən ye, bir az dincini al, gedərsən.

---

*Sail – dilənçi.

Dedi:

– Ay oğul, mən buradan ora düşüm, birdə geri qayıdım, bu mənə çətin olar, elə yaxşısı budu, öz yolumnan gedim. Gəl sən məni yolumnan eləmə.

Oğlan dedi:

– Əmi, sən bilməyən işlər çoxdu, mənim ağam mənə ayda filan qədər pul verir ki, burdan gedənlər gəlib gərək yeyib-içib gedələr. Mən səni dalıma alıb aparacağam. Orada da sən dalıma alıb gətirəcəm bura. Əgər ağam eşitsə ki, səni aparmamışam, məni qovar.

Cənabi-Cəbrayıl dedi:

– A bala, sən məni apara bilməzsən, qoy mən yolumnan çıxıb gedim.

Oğlan baxdı ki, bir qoca kişidi, bunu elə quş kimi götürüb aparar. Olmadı, bu dedi, o dedi, axırda qoca razılaşdı. Oğlan dalını çevirdi ki, qocanı dalına götürüb apara. Cənabi-Cəbrayıl barmağının ucu ilə onun çiynindən basdı. Oğlanın gözünnən yaloy dalandı.

Dedi:

– Əmi, əmi, burada dur, bu saat gəlirəm.

Bu tərpəndi evə. Tövləni açıb kalları qoşdu arabaya. Gəldi qocanın yanına.

Dedi:

– Əmi, indi dur gedək.

Bu belə baxanda dedi, a bala, Vallah, peşmançılıq olacaq. Qoy çıxım öz yolumnan gedim, mənə bənd olma.

Dedi:

– Əmi, Allaha bax, Tanrıya bax, gəl gedək.

Olmadı, kişi qalxdı, yanını eləcə arabanın gopuna qoydu. Kallar dağı çəkərdilər, əmma arabanı çəkə bilmədilər. Elə bil arabanın təkərləri yerə mıxlanmışdı. Kalların biri belə dartdı, biri elə dartdı, boyunduruq ortadan qırıldı, kallar özlərini verdilər tövləyə. Oğlan beləcə qurudu.

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Kişi dedi:

– A bala, niyə peşmançılıq eləyirsən? Qoy yolumnan çıxım gedim.

Oğlan dedi:

– Əmi, burada dur, bu saat gəlirəm.

Oğlan düz gəldi yetim Məhəmmədin yanına. Yetim Məhəmməd dedi, ayə, nədi, oğlan dedi, belə, belə. Yetim Məhəmməd dillənmədən arvad dedi:

– Ayə, kal da ölsün, mal da ölsün, get qonağı bəri gətir.

Bunların var-dövlətə bərabər bir atları var idi. Oğlan tövləyə gəlib atı çəkdi düz kişinin yanına.

Dedi:

– Əmi, gəl min ata gedək.

Cənabi-Cəbrayıl dedi:

– Əyə, Vallah bu at da məni aparmaz.

Dedi:

– Ay əmi, sən nə danışırsan?

Qoca qalxdı, əlini atın belinə qoyan kimi atın beli iki qırıldı. Oğlanın rəngi dəyişdi, dedi, ağaya mən nə cavab verəcəm. Gətirdim, atı da öldürdüm.

Oğlan dedi:

– Əmi, burada dur, bu saat gəlirəm.

Gəldi gördü Məhəmməd arvadnan söhbət eləyir. Bunu görəndə arvad dilləndi.

Dedi:

– Ayə, qonaq gəldimi?

Oğlan dedi:

– Yox.

Arvad dedi:

– Ay Məhəmməd, dur özün get, qonağı bura gətir.

Yetim Məhəmməd, bir də oğlan gəldilər qocanın yanına. Cənabi-Cəbrayıl baxanda gördü ki, yetim Məhəmməd özü gəldi. Hər kəsən öz mənliyini göstərməli idi. Yetim Məhəmməd də öz mənliyini göstərdi. Salam verdi.

Dedi:

– Əmi, mənim bu nökərimi niyə incidirsən? Gəl bir tikə çörəyimi ye, çayımı iç, bəlkə bir şeyə ehtiyacın var? Mən də bunu bura qoymuşam ki, bu işə qulluq eləsin. – Dedi, – indi özüm gəlmişəm səni aparmağa. Səni bu çiynimdə aparacam.

Qoca dedi:

– Ay oğul, nə deyirəm, indi ki, özün gəlmisən, gəl gedək.

Bu dəfə cənabi-Cəbrayıl oldu bir quş ağırlığında. Oturdu gədənin çiyninə. Arvad pəncərədən baxırdı. Gördü ki, yetim Məhəmməd qocanı çiynində gətirir. Onacan arvad buna yer düzəltdi. Tez ərinin qabağına gedib kişini qucağına aldı, qoydu yerə. Kişini rahatladılar. İndi ərlə-arvad arasında olan məhəbbət nə dildə deyiləsiydi, nə də kitabda yazılası. Kişi arvaddan xəbərsiz, arvad kişidən xəbərsiz istəyirdilər qocaya hörmət eləsinlər. Qonağın hörməti gündən-günə artırdı.

Bir gün arvad dedi:

– Ayə, dur gör qonaq nə yeyəcək, hazırlayım.

Cənabi-Cəbrayıl gördü əlli il də belə qalsa, hörməti yenə də artacaq. Dedi, gəl sən bunları sına. Gejdənnən başını sarıdı. Yetim Məhəmməd içəri girəndə, gördü kişi başını sarıyıb.

Dedi:

– Əmi, olmasın azar, nə olub, bə sən nə yeyirsən, nə hazırlatdırım.

Dedi:

– Bala, ürəyim heç nə istəmir.

Yetim Məhəmməd dedi:

– Ay əmi, ola bilməz, ürəyin nə istəyir de. Səni and verirəm o qolsuz Həzrət Abbasa, de.

Cənabi-Cəbrayıl bilirdi ki, ceyran otaqda bağlıdı.

Dedi:

– Oğul, bir çöl heyvanı olsa, bəlkə onun ətindən bir tikə yeyəm.

Yetim Məhəmməd içəri girdi, dedi:

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Arvad, tüfəngi bəri ver.

Dedi:

– Ayə, tüfəngi neynirsən?

Dedi:

– Qonaq xəstələnib, heç nə yemir. Dedi, bəlkə bir ov əti olsa, yeyərəm.

Arvad dedi:

– Ayə, sən gedib çöldə ov axtarınca, qonaq acmı qalacaq? Ceyranı tutub kəs. Gəldilər. Cənabi-Cəbrayıl gördü ki, hörməti günü-gündən artır. Yenə bir gün başını çəkdi, özünü vurdu xəstəliyə.

Tezdən yetim Məhəmməd özünü verdi qonağın yanına ki, nə yeyəcək. Nə illah elədisə, qonaq dillənmədi. Axırda dedi:

– A bala, niyə məni məcbur eləyirsən.

Bunların bir yaşında uşaqları var idi, təzəcə yeriyirdi.

Dedi:

– A bala, indi ki, məni məcbur eləyirsən, gərək deyim. Bax, o uşağı kəsərsən, qanından bir stəkan verərsən, ondan sonra bəlkə bir şey yeyə bildim.

Yetim Məhəmməd dedi:

– Əmi, bu saat.

Arvad suya getmişdi. Bu arvadı gözləmədən gətirib uşağın başını kəsdi. Aparıb qoydu yük yerinə, üstünə də örtdü. Qanından bir stəkan doldurub qocaya verdi. Cənabi-Cəbrayıl özünü elə göstərdi ki, guya qanı içdi.

Dedi:

– Ay oğul, Allah sənin gözünə işıq versin, gözümə işıq gəldi. Sağ ol, ay bala, da bunnan da qurtardı. Da indi mən gedəsi oldum.

Bu çıxdı oturdu dərədə. Dedi, indi harada olsa, yetim Məhəmməd gələr.

Arvad sudan gəldi, dedi:

– Ayə, qonaq hanı, bə ona nə hazırlayım?

Yetim Məhəmməd dedi:

– Qonaq getdi.

Dedi:

– Bəs niyə getdi?

Dedi:

– Bə belə-belə, – deyəndə, arvad dedi, da mən səndə oturmaram.

Dedi:

– Niyə?

Dedi:

– Mən o uşağa bir çəkdiyim əziyyəti sən yaşının əvvəlindən axırınacan çəkməmisən. Qoyeydin mən də gəleydim, mən də onun əl-ayağından tuteydim, sən də başını kəseydin, savabdan mənə də çateydi, sana də. İndi sən savabı buradaca təkcə qazan, mən də quru süfrəyə dua. Elə şey yoxdu. Neçə ki, qonağı gedib tapıb gətirə bilməyəcəksən, qonaq da diliynən deməyib savabdan sana da çatır, mən sənlə razılaşmayacağam. Bax, sana deyirəm, indi özün bilərsən.

Yetim Məhəmməd durdu çıxdı eşiyə, baxdı ki, qonaq dərədə oturur.

Dedi:

– Ay əmi, sənin qadanı alım, gəl gedək evə.

Dedi:

– Ay oğul, yoxsa dalaşdız?

Dedi:

– Yox, ay əmi, gəl evə gedək.

Dedi:

– Nə olar, gedək.

Dedi:

– Ay qızım, yoxsa uşağın başının kəsilməyinnən narazı qadın?

Dedi:

– Ay əmi, indi dil də deyir, əmma qəlb Allahın yanındadı. Əgər mənim qəlbim buna görə bulandısa, Allaha

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

əyandı. Ancaq mənim ərim burada savabı tək qazanır, buna görə narazıyam. İndi qoyeydi mən də gəleydim, heç olmasa, əl-ayağını tuteydim, savabdan mənə də düşeydi.

Cənabi-Cəbrayıl dedi:

– Düz deyirsən, bala, savabın çoxu sənindi. Ancaq bəlkə ərin uşağı kəsməyib, mənə gətirib bəlkə ayrı qan verib? Gətirin uşağı bir görüm doğrudanmı uşağı kəsib, ya yox? – Gətirdilər, uşağı verdilər. Cənabi-Cəbrayıl dedi, – bir siz eşiyə çıxın görüm. – Bunlar çıxdılar.

Cənabi-Cəbrayıl uşağı qoydu yerə, qabağına. Yönünü çevirdi haqq dərgahına. Dedi, xudavəndi-aləm, sənə hər şey əyandı. Uşaq başladı oynamağa. Bunlar içəri girəndə, gördülər uşaq oynayır. Da uşağa baxmayıb yüyürdülər qocaya sarı.

Dedilər:

– Ay əmi, sana qurban olaq, bu nə işdi?

Dedi:

– A bala, səni evləndirən mənəm, halal olsun, mən sana dedim insafını əldən qoyma. Genə insafını əldən qoyma. –

Dedi:

– Ayə, bu məni güdənlər kimdi?

Ərlə arvad çönüb baxanda qoca yox oldu. Onlar başladılar orada yaşamağa, biz də burada.

NAĞILLARI SÖYLƏYƏNLƏR VƏ TOPLAYANLAR HAQQINDA MƏLUMAT

Köynək. İlk dəfə "Şah Abbasın arvadı" nağıllar toplusunda çap olunub. B., 1996, s.52-65. Söyləyəni Məmmədov Saleh, Daşkəsən rayonu. Toplayanı Füzuli Bayat.

Təpəgöz canavar. İlk dəfə "Şah Abbasın arvadı" nağıllar toplusunda çap olunub. B., 1996, s.65-75. Söyləyəni Məmmədov Saleh, Daşkəsən rayonu. Toplayanı Füzuli Bayat.

Əhməd şahın nağılı. İlk dəfə Azərbaycan folkloru antologiyasının III cildində (Göyçə folkloru) çap olunub. B., 2000, s.372-375. Söyləyəni Abbasov Bayram Zeynalabdı oğlu, 70 yaşında. Toplayanı Hüseyn İsmayılov.

Xor-xor molla. İlk dəfə Azərbaycan folkloru antologiyasının IV cildində (Şəki folkloru) çap olunub. B., 2000, s.166-167. Söyləyəni Salahova Reyhan Molla Cuma qızı. Toplayanı Ramazan Qafarlı.

Tülkünün hiyləbazlığı. İlk dəfə Azərbaycan folkloru antologiyasının IV cildində (Şəki folkloru) çap olunub. B., 2000, s.167-169. Söyləyəni Salahova Reyhan Molla Cuma qızı. Toplayanı Ramazan Qafarlı.

Tülkü və xoruz. İlk dəfə Azərbaycan folkloru antologiyasının IV cildində (Şəki folkloru) çap olunub. B., 2000, s.169-170. Söyləyəni Salahova Reyhan Molla Cuma qızı. Toplayanı Ramazan Qafarlı.

Armudan bəy. İlk dəfə Azərbaycan folkloru antologiyasının IV cildində (Şəki folkloru) çap olunub. B., 2000, s.215-216. Söyləyəni Məsimova Dürdanə Nurqələm qızı, təvəllüdü 1922-ci il. Toplayanı Vaqif Aslan.

Sehrli kisə. İlk dəfə Azərbaycan folkloru antologiyasının V cildində (Qarabağ folkloru) çap olunub. B., 2000, s.45. Söyləyəni Dövlət Qurbanov, təvəllüdü 1910-cu il.

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Səbr daşı. İlk dəfə Azərbaycan folkloru antologiyasının V cildində (Qarabağ folkloru) çap olunub. B., 2000, s.46-48. Söyləyəni Bəhlul Paşayev, Əsgəran rayonunun Xocalı kəndi, təqaüdçü.

Dartanla Yırtan. İlk dəfə Azərbaycan folkloru antologiyasının V cildində (Qarabağ folkloru) çap olunub. B., 2000, s.49-50. Söyləyəni Bəhlul Paşayev, Əsgəran rayonunun Xocalı kəndi, təqaüdçü.

Sehirli ilan. İlk dəfə Azərbaycan folkloru antologiyasının V cildində (Qarabağ folkloru) çap olunub. B., 2000, s.55-56. Söyləyəni Quliyev Qazı.

Padşahla oğlu. İlk dəfə Azərbaycan folkloru antologiyasının V cildində (Qarabağ folkloru) çap olunub. B., 2000, s.56-57.

İki qardaş. İlk dəfə "Azərbaycan dilinin Nuxa dialekti" kitabında çap olunub. B., 1968, s.212-213. Həmidov Həmid Həmid oğlu, Şəki rayonunun Baş Göynük kəndi, az savadlı, 35 yaşında. 1955-ci ildə qeydə alınıb.

Molla ilə dovşan. İlk dəfə "Azərbaycan dilinin Nuxa dialekti" kitabında çap olunub. B., 1968. Söyləyəni Tükəzban nənə, Şəki rayonunun Qışlaq kəndi, savadsız, 68 yaşında. 1956-cı ildə qeydə alınıb.

Üç sual. İlk dəfə "Azərbaycan dilinin Nuxa dialekti" kitabında çap olunub. B., 1968. Söyləyəni Mədinə Qafar qızı, Şəki rayonunun Qışlaq kəndi, savadsız, 65 yaşında. 1956-cı ildə qeydə alınıb.

Xan ilə oğlu. İlk dəfə "Azərbaycan dilinin Nuxa dialekti" kitabında çap olunub. B., 1968. Söyləyəni Salmanov Əsədulla Nəsrulla oğlu, Şəki rayonunun Biləcik kəndi, savadsız, 74 yaşında. 1955-ci ildə qeydə alınıb.

Aslanla canavar. İlk dəfə Azərbaycan folklor antologiyasının VI cildində (Şəki folkloru) çap olunub. B., 2002, s.171. Söyləyəni Mahmudov Həsən, Şəki rayonunun Aşağı

Şabalıt kəndi, 90 yaşında. 1990-cı ildə qeydə alınıb.

Haqqı-say. Azərbaycan folklor antologiyasının VI cildində (Şəki folkloru) çap olunub. B., 2002, s.172-174. Söyləyəni Abdurrahmanov Təslim Məhəmməd oğlu, Şəki rayonunun Baqqal kəndi, təqaüdçü, 75 yaşında. 2000-ci ildə toplanıb.

Qorxaq. İlk dəfə Qafqaz Əraziləri və Xalqlarının Təsvirinə dair Mavteriallar Toplusunda (QƏXTMT (SMOMPK)) çap olunub. 1892-ci il, s.295-297. Zaqafqaziya Müəllimlər Seminariyasının tələbəsi İsmayıl Əfəndiyev tərəfindən qeydə alınıb.

Xeyirxahla Alçaq. İlk dəfə QƏXTMT-də çap olunub. 30-cu buraxılış, 1905-ci il, III şöbə, s. 101-105. Nuxa rus-tatar məktəbinin müəllimi S.Əbdürrəhmanov tərəfindən toplanıb.

Halvaçının nağılı. Azərbaycan folkloru antologiyasının X cildində (İrəvan-Çuxuru folkloru) çap olunub. B., 2004, s.121-127. Söyləyəni Bayramov Məhərrəm, Vedi rayonunun Kotuz kəndi, 80 yaşında. Toplayanlar: Hüseyn İsmayılov, Əziz Ələkbərli.

Tacirnən kənddi. Azərbaycan folkloru antologiyasının X cildində (İrəvan-Çuxuru folkloru), B., 2004, s.156-162. Söyləyəni İsmayılov Əli Məhərrəm oğlu, Zəngibasar rayonunun Dəmirçi kəndi, 68 yaşında. Toplayanlar: Hüseyn İsmayılov, Əziz Ələkbərli.

Bəhramın nağılı. Azərbaycan folkloru antologiyasının X cildində (İrəvan-Çuxuru folkloru) çap olunub. B., 2004, s.165-167. Söyləyəni Ələkbərov Yaşar Əkbər oğlu, Qəmərli rayonunun Torpaqqala kəndi, 64 yaşında. Toplayanlar: Hüseyn İsmayılov, Əziz Ələkbərli.

Üş bacının nağılı. Azərbaycan folkloru antologiyasının X cildində (İrəvan-Çuxuru folkloru) çap olunub. B., 2004, s.178-182. Allahverdiyev Əziz Abdulla oğlu, Zəngibasar rayonunun Dəmirçi kəndi, 68 yaşında. Toplayanlar: Hüseyn İs-

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

mayılov, Əziz Ələkbərli.

Qadın Sədaqəti və Qara sövdəgər. Azərbaycan folkloru antologiyasının XI cildində (Şirvan folkloru) çap olunub. B., 2004, s.141-145. Toplayanı Seyfəddin Qəniyev.

Mürsəlin nağılı. Azərbaycan folkloru antologiyasının XI cildində (Şirvan folkloru) çap olunub. B., 2004, s.145-148. Toplayanı Seyfəddin Qəniyev.

Kasıvın nəfsi. Azərbaycan folkloru antologiyasının VIII cildində (Ağbaba folkloru) çap olunub. B., 2004, s.156-158. Söyləyəni Əli baba, Ağbaba bölgəsi, Təzə İbiş kəndi, 76 yaşında.

Daş-ağac. Azərbaycan folkloru antologiyasının IX cildində (Ağbaba folkloru) çap olunub. B., 2004, s.158-162. Söyləyəni Xəstə Zərnişan, Ağbaba bölgəsi, Təzə İbiş kəndi, 80 yaşında.

Dərviş Xudayarın nağılı. Azərbaycan folkloru antologiyasının IX cildində (Gəncəbasar folkloru) çap olunub. B., 2004, s.133-136.

Ədalətli vəzir. Azərbaycan folkloru antologiyasının IX cildində (Gəncəbasar folkloru) çap olunub. B., 2004, s.207-210

Qaraçuxasını axtaran kişi. Azərbaycan folkloru antologiyasının XII cildində (Zəngəzur folkloru) çap olunub. B., s.130-134. Söyləyəni Cəbrayılov Xuduş Həsən oğlu, Zəngilan rayonunun Gilətağ kəndi, 1926-cı il təvəllüdlü, orta təhsilli. Toplayanlar: V.Nəbioğlu, M.Kazımoğlu, Ə.Əsgərov

Gülü qah-qahın nağılı. Azərbaycan folkloru antologiyasının XII cildində (Zəngəzur folkloru) çap olunub. B., 2005, s.134-139. Söyləyəni Məhərrəmov Bayram İmamqulu oğlu, Qubadlı rayonunun Sarıyataq kəndi, 1935-ci il təvəllüdü, ibtidai təhsilli. Toplayanı V.Nəbioğlu

Nargilə. Azərbaycan folkloru antologiyasının XII cildində (Zəngəzur folkloru) çap olunub. B., 2005, s.140-141. Söy-

ləyəni Quliyeva Adilə Fərrux qızı, Laçın rayonunun Güləbird kəndi, 1934-cü il təvəllüdlü. Toplayanı İlkin Rüstəmzadə

Fatmanın nağılı. Azərbaycan folkloru antologiyasının XII cildində (Zəngəzur folkloru) çap olunub. B., 2005, s.141-144. Söyləyəni Hüseynova Şamama Qasım qızı, Qubadlı rayonunun Qaracallı kəndi, 1922-cı il təvəllüdlü, natamam-orta təhsil. Toplayanı V.Nəbioğlu

Göyçək Fatma. Azərbaycan folkloru antologiyasının XII cildində (Zəngəzur folkloru) çap olunub. B., 2005, s.144-147. Söyləyəni Təhməzova Gözəl Behbud qızı, Cəbrayıl rayonunun Xələfli kəndi, 1920-cı il təvəllüdlü, ibtidai təhsilli. Toplayanı Zəfər Fərhadov

Ovçu Pirim. Azərbaycan folkloru antologiyasının XII cildində (Zəngəzur folkloru) çap olunub. B., 2005, s.170-171. Söyləyəni Təhməzova Gözəl Behbud qızı, Cəbrayıl rayonunun Xələfli kəndi, 1920-cı il təvəllüdlü, ibtidai təhsilli. Toplayanı Zəfər Fərhadov

İtin payı. Azərbaycan folkloru antologiyasının XII cildində (Zəngəzur folkloru) çap olunub. B., 2005, s.171-172. Söyləyəni Əliyev Mirseyib İslam oğlu, Zəngilan rayonunun Baharlı kəndi, 1916-cı il təvəllüdlü, ibtidai təhsilli. Toplayanlar: V.Nəbioğlu, M.Kazımoğlu, Ə.Əsgərov

Darının nağılı. Azərbaycan folkloru antologiyasının XII cildində (Zəngəzur folkloru) çap olunub. B., 2005, s.186-188. Söyləyəni Quliyeva Adilə Fərrux qızı, Laçın rayonunun Güləbird kəndi, 1934-cü il təvəllüdlü. Toplayanı İlkin Rüstəmzadə

Aşbaz oğlu padşahın nağılı. Azərbaycan folkloru antologiyasının XIV cildində (Dərbənd folkloru) çap olunub. B., 2006, s.85-88. Toplayanlar: H.İsmayılov, S.Xurdamiyeva

Dəvə ilə dəvəçinin nağılı. Azərbaycan folkloru antologiyasının XIV cildində (Dərbənd folkloru) çap olunub. B., 2006, s. 88-89. Toplayanlar: H.İsmayılov, S.Xurdamiyeva

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Zümrüd quşu. Azərbaycan folkloru antologiyasının XIV cildində (Dərbənd folkloru) çap olunub. B., 2006, s.90-92. Toplayanlar: H.İsmayılov, S.Xurdamiyeva

Şahzadə Yusif və Ceyran qızının nağılı. Azərbaycan folkloru antologiyasının XIV cildində (Dərbənd folkloru) çap olunub. B., 2006, s.92-96. Toplayanlar: H.İsmayılov, S.Xurdamiyeva

Zərnişan xanımın nağılı. Azərbaycan folkloru antologiyasının XIV cildində (Dərbənd folkloru) çap olunub. B., 2006, s.96-100. Toplayanlar: H.İsmayılov, S.Xurdamiyeva

Paxıl qardaşlar. Azərbaycan folkloru antologiyasının XIV cildində (Dərbənd folkloru) çap olunub. B., 2006, s.101-102. Toplayanlar: H.İsmayılov, S.Xurdamiyeva

Mahmud xan və quca. Azərbaycan folkloru antologiyasının XIV cildində (Dərbənd folkloru) çap olunub. B., 2006, s.103-104. Toplayanlar: H.İsmayılov, S.Xurdamiyeva

Bağbanla üç oğlu. Azərbaycan folkloru antologiyasının XIV cildində (Dərbənd folkloru) çap olunub. B., 2006, s.104-105. Toplayanlar: H.İsmayılov, S.Xurdamiyeva

Ədalətli vəzir. Azərbaycan folkloru antologiyasının XIV cildində (Dərbənd folkloru) çap olunub. B., 2006, s.105-106. Toplayanlar: H.İsmayılov, S.Xurdamiyeva

Kafirin müsəlman olması. Azərbaycan folkloru antologiyasının XIV cildində (Dərbənd folkloru) çap olunub. B., 2006, s.106-107. Toplayanlar: H.İsmayılov, S.Xurdamiyeva

Ata vəsiyyəti. Azərbaycan folkloru antologiyasının XIV cildində (Dərbənd folkloru) çap olunub. B., 2006, s.107-108. Toplayanlar: H.İsmayılov, S.Xurdamiyeva

Xudayarın qızı. Azərbaycan folkloru antologiyasının XIV cildində (Dərbənd folkloru) çap olunub. B., 2006, s.108-110. Toplayanlar: H.İsmayılov, S.Xurdamiyeva

Qismətin qoyruğu kəsildi. Azərbaycan folkloru antologiyasının XIV cilidndə (Dərbənd folkloru) çap olunub. B.,

2006, s.110-111. Toplayanlar: H.İsmayılov, S.Xurdamiyeva

Pəhləvan Nəzərin nağılı. Azərbaycan folkloru antologiyasının XIV cildində (Dərbənd folkloru) çap olunub. B., 2006, s.111-113. Toplayanlar: H.İsmayılov, S.Xurdamiyeva

Yoxsul kəndli və Xudayar bəy. Azərbaycan folkloru antologiyasının XIV cildində (Dərbənd folkloru) çap olunub. B., 2006, s.113-114. Toplayanlar: H.İsmayılov, S.Xurdamiyeva

Selim və Sultan. Azərbaycan folkloru antologiyasının XIV cildində (Dərbənd folkloru) çap olunub. B., 2006, s.114-115. Toplayanlar: H.İsmayılov, S.Xurdamiyeva

İki qunşu. Azərbaycan folkloru antologiyasının XIV cildində (Dərbənd folkloru) çap olunub. B., 2006, s.115-116. Toplayanlar: H.İsmayılov, S.Xurdamiyeva

Keçəlin nağılı. Azərbaycan folkloru antologiyasının XV cildində (Dərələyəz folkloru) çap olunub. B., 2006, s.217-223. Söyləyəni İbrahimov Mirzəlioğlu, Dərələyəzin Qovuşuq kəndi, 1889-cu il təvəllüdlü.

Şah Abbasın nağılı. Azərbaycan folkloru antologiyasının XV cildində (Dərələyəz folkloru) çap olunub. B., 2006, s.223-228. Söyləyəni İbrahimov Mirzəlioğlu, Dərələyəzin Qovuşuq kəndi, 1889-cu il təvəllüdlü.

Kimin əvvəli, kimin axırı. Azərbaycan folkloru antologiyasının XV cildində (Dərələyəz folkloru) çap olunub. B., 2006, s.228-229. Söyləyəni Əhməd Cəfərqulu oğlu, Dərələyəzin Ələyəz kəndi, savadsız.

Törənin nağılı. Azərbaycan folkloru antologiyasının XV cildində (Dərələyəz folkloru) çap olunub. B., 2006, s.229-231. Söyləyəni Əhməd Cəfərqulu oğlu, Dərələyəzin Ələyəz kəndi, savadsız.

Dəmirdişin nağılı. Azərbaycan folkloru antologiyasının XV cildində (Dərələyəz folkloru) çap olunub. B., 2006, s.232-233. Söyləyəni İbrahim Mirzəlioğlu, Dərələyəz kəndi, 1889-

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

cu il təvəllüdlü. Toplayıcısı H.Mirzəyev

Süleyman şahın yuxusu. Azərbaycan folkloru antologiyasının XV cildində (Dərələyəz folkloru) çap olunub. B., 2006, s.233-236. Söyləyəni İbrahim Mirzəlioğlu, Dərələyəz kəndi, 1889-cu il təvəllüdlü. Toplayıcısı H.Mirzəyev

Pulun bəlası. Azərbaycan folkloru antologiyasının XV cildində (Dərələyəz folkloru) çap olunub. B., 2006, s.236-237. Söyləyəni İbrahim Mirzəlioğlu, Dərələyəz kəndi, 1889-cu il təvəllüdlü. Toplayıcısı H.Mirzəyev

Yusif və Mərcan. Azərbaycan folkloru antologiyasının XV cildində (Dərələyəz folkloru) çap olunub. B., 2006, s.238-243. Söyləyəni Həziyev İmam, Dərələyəzin Sallı kəndi, 62 yaşında.

Qoca ilə qarının nağılı. Azərbaycan folkloru antologiyasının XV cildində (Dərələyəz folkloru) çap olunub. B., 2006, s.243-254. Söyləyəni Həziyev İmam, Dərələyəzin Şallı kəndi, 62 yaşında.

Tapdıx. Folklor İnstitutunun arxivi. Söyləyəni İbrahimova Yaxşı Məhərrəm qızı, Gədəbəy rayonunun Qaravəlilər kəndi, 76 yaşında, savadsız.

Ağıllı şah qızı. Folklor İnstitutunun arxivi. Söyləyəni Orucov Qara, Göyçə mahalının Çaxırlı kəndi, 70 yaşında.

Kasıb Məhəmmədlə ağılsız pəhləvanın nağılı. Folklor İnstitutunun arxivi. Söyləyəni Şamil Həsənov, Göyçə mahalının Yuxarı Zağa kəndi, 70 yaşında.

Heş zad. Ata nəsihəti. Folklor İnstitutunun arxivi. Söyləyəni Zeynalabdin Cəfərov, Göyçə mahalının Kərkibaş kəndi (Şəfəq kəndi), ali təhsilli, 70 yaşında.

Pəhlivanın dostluğu. Folklor İnstitutunun arxivi. Söyləyəni Məmmədəli Süleymanov, Göyçə mahalının Çaxırlı kəndi, 65 yaşında.

Aylülə. Folklor İnstitutunun arxivi. Söyləyəni Həsənov Şamil, Göyçə mahalının Yuxarı Zağa kəndi, 70 yaşında.

Birə beş, beşə min. Folklor İnstitutunun arxivi.

Oğlan paltarlı qız. Folklor İnstitutunun arxivi. Söyləyəni Göyçə mahalının Ağbulaq kənd sakini Cəmil Musa oğlu Nəsibovdan qeydə alınıb, 85 yaşında.

Ovçu Pirimin övladları. Azərbaycan folkloru antologiyasının XVI cildində (Ağdaş folkloru) çap olunub. B., 2006, s.186-198. Söyləyəni Əhmədov Rəsul Məhərrəm oğlu, Ağdaş rayonunun Xosrov kəndi, 7 illik təhsil, 67 yaşında. Toplayanı İlkin Rüstəmzadə

Bilici gəlmiş qəhrəman. Azərbaycan folkloru antologiyasının XVI cildində (Ağdaş folkloru) çap olunub. B., 2006, s.211-224. Söyləyəni Əhmədov Rəsul Məhərrəm oğlu, Ağdaş rayonunun Xosrov kəndi, 7 illik təhsil, 67 yaşında. Toplayanı İlkin Rüstəmzadə

Bibilcanın nağılı. Azərbaycan folkloru antologiyasının XVI cildində (Ağdaş folkloru)ç çap olunub. B., 2006, s.227-229. Söyləyəni Lətifova Çiçək Umar qızı, Ağdaş raoynunun Şəmsabad kəndi, 1920-ci il təvəllüdlü, orta təhsilli, pensiyaçı. Toplayanı İlkin Rüstəmzadə

Xəncərin şahidliyi. Azərbaycan folkloru antologiyasının XVI cildində (Ağdaş folkloru) çap olunub. B., 2006, s.267-268. Söyləyəni Osmanov Dursun Əli oğlu, Ağdaş rayonunun Bulaqotağı kəndi, 1935-ci il təvəllüdlü, naxırçı, mantyor, son illər isə uşaq baxçasında qarovulçu işləyib. Toplayanı İlkin Rüstəmzadə

Şah oğlu və naxırçı qızı. Azərbaycan folkloru antologiyasının XVI cildində (Ağdaş folkloru) çap olunub. B., 2006, s.343-345. Söyləyəni Nağıyeva Afıqa Alı qızı, Ağdaş rayonunun Şəmsabad kəndi, 1933-cü il təvəllüdlü. Toplayanı İlkin Rüstəmzadə

Cəmşid padşah. Azərbaycan folkloru antologiyasının XVI cildində (Ağdaş folkloru) çap olunub. B., 2006, s.376-377. Söyləyəni Şirinov Əsgər Əhməd oğlu, Ağdaş rayonunun

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Qumlaq kəndi, 1933-cü il təvəllüdlü. Toplayanı İlkin Rüstəmzadə

Qaz göndərsəm yolarsanmı? Azərbaycan folkloru antologiyasının XVI cildində (Ağdaş folkloru) çap olunub. B., 2006, s.377-378. Söyləyəni Şirinov Əsgər Əhməd oğlu, Ağdaş rayonunun Qumlaq kəndi, 1933-cü il təvəllüdlü. Toplayanı İlkin Rüstəmzadə

Oğurrux. Azərbaycan folkloru antologiyasının XV cildində (Dərələyəz folkloru) çap olunub. B., 2006, s.284-285. Söyləyəni Nağıyeva Nazlı İbrahim qızı, Dərələyəzin Qovuşuq kəndi, 75 yaşında, 2005-ci ildə qeydə alınıb.

Qonax. Azərbaycan folkloru antologiyasının XV cildində (Dərələyəz folkloru) çap olunub. B., 2006, s.286. Söyləyəni Nağıyeva Nazlı İbrahim qızı, Dərələyəzin Qovuşuq kəndi, 75 yaşında, 2005-ci ildə qeydə alınıb.

Yazıya pozu yoxdu. Azərbaycan folkloru antologiyasının XV cildində (Dərələyəz folkloru) çap olunub. B., 2006, s.287-289. Söyləyəni Həsən Mirzəyev, Dərələyəzin Qovuşuq kəndi, 79 yaşında.

Şah oğlu ilə vəzir oğlu. İlk dəfə "Allah yıxan evi qızlar tikər" nağıllar toplusunda çap olunub. B. Yazıçı, 1994, s.215-220. Söyləyəni Əliyev Sahib Oruc oğlu, Qazax rayonu, Musagöy kəndi, orta təhsilli, 75 yaşında. Toplayanlar: Oruc Əliyev, Rza Xəlilov

Süleyman peyğəmbərnən Simurq quşu. Azərbaycan folkloru antologiyası, XV kitab (Dərbənd folkloru), B., 2006, s.193-195.

Keçəl və dayısı. Azərbaycan folkloru antologiyasının XII cildində (Zəngəzur folkloru) çap olunub. B., 2005, s.305-311. Qafan rayonunun Gomaran kənd sakinindən qeydə alınıb. Söyləyici adının kitaba salınmasını istəmədi. Toplayanı Sevinc Bağdadova.

Şirlə tülkü. Azərbaycan folkloru antologiyasının XII cildində (Zəngəzur folkloru) çap olunub. B., 2005, s.313-316. Söyləyəni Cəbrayılov Xuduş Həsən oğlu, Zəngilan rayonunun Gilətağ kəndi, orta təhsilli, 1926-cı il təvəllüdlü. Toplayanlar: V.Nəbioğlu, M.Kazımoğlu, Ə.Əsgərov.

Ekiz qardaşların nağılı. Azərbaycan folkloru antologiyasının XII cildində (Zəngəzur folkloru) çap olunub. B., 2005, s.288-292. Söyləyici Məhərrəmov Bayram İmamqulu oğlu, Qubadlı rayonunun Sarıyataq kəndi, ibtidai təhsilli, 1935-ci il təvəllüdlü. Toplayanı V.Nəbioğlu.

Aqil padşah. Azərbaycan folkloru antologiyasının IX cildində (Gəncəbasar folkloru) çap olunub. B., 2004, s.217-221.

Tülkünün nağılı. Azərbaycan folkloru antologiyasının IX cildində (Gəncəbasar folkloru) çap olunub. B., 2004, s.228-230.

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

NAĞILLARIN SÜJET GÖSTƏRİCİSİ

Göstərici Aarne-Andreyev və Şərqi slavyan xalqlarının müqayisəli süjet göstəriciləri (qısa adı SUS) əsasında tərtib olunmuşdur. Həmin kataloqlarda qarşılığını olmayan süjetlər göstəricidə mötərizə içərisində şərti rəqəmlər altında verilmişdir. Bundan başqa, bəzi süjetlərin qarşılığı müəyyənləşdirərkən Aarne-Tompson və Kurdovanidzenin gürcü sehrli nağılları əsasında tərtib etdiyi göstəricilərə də istinad olunmuşdur. Aarne-Andreyev və SUS kataloqlarında eyni süjetə bəzən müxtəlif nömrələr atlında təsadüf olunur. Belə halla qarşılaşdıqda nömrənin qarşısında bərabərlik işarəsi qoymaqla onun digər kataloqdakı nömrəsi verilmişdir. Süjet birləşmələrini göstərmək üçün + (üstəgəl) işarəsindən istifadə olunmuşdur.

Göstəricidə aşağıdakı şərti ixtisarlardan istifadə olunub.

AA - Andreyev N.P. Ukazatel skazoçnıx sujetov po sisteme Aarne, L.: 1929

AT - Thompson S. The types of the folktale. A classification and bibliography. Second revision, 1973.

K - Kurdovanidze T.D. Sujetı i motivı qruzinskix volşebnıx skazok (sistematiçeskiy ukazatel po Aarne-Tompsonu) / Literaturnıe vzaimosvyazi. Tom.VI, Tbilisi: Mesniereba, 1977 c.240-263

SUS - Sravnitelnıy ukazatel sujetov: Vostoçnoslavyanskaya skazka (sost.: M.Q.Baraq, İ.P.Berezovskiy, K.P.Kabaşnikov, N.V.Novikov) L.: Nauka, 1979

Köynək. AA 315*B = 318 (Paslı qılınc) + 881 (Böhtanlanmış)

Təpəgöz canavar. AA 465C (Gülüqahqah)

Əhməd şahın nağılı. (995*) (Ölünün qulağına söz demək)

Xor-xor molla. AA130 (Pişik və vəhşi heyvanlar)

Tülkünün hiyləbazlığı. AA 55 (Şərikli göl).

Tülkü və xoruz. AA *61 II = SUS 61B Aarne-Andreyev gösəricisində xoruz pişiyin, Azərbaycan variantında isə itin köməyi ilə tülküdən xilas olur.

Armudan bəy. 545B

Sehrli kisə. 566 (Buynuz)

Səbr daşı. AA 533*B = SUS 533**

Dartanla Yırtan. SUS 313J* = AA *313 II (Adamyeyən qız)

Sehrli ilan. Aarne-Andreyev göstəricisində belə bir süjetə təsadüf olunmur.

Padşahla oğlu. AA 406 (İlan oğlan)

İki qardaş. AA 1643 (Dəli kəsəyənə ət satır) + AA 1653B = SUS 1653A (Dəli və ağıllı qardaş ağacda gecələyir)

Molla ilə dovşan. SUS 185* (Poçtalyon dovşan) + (1539*) (Sehrli tütək)

Üç sual. (922*)

Xan ilə oğlu. (915*) (Qurbağaların səsini kəsmək)

Aslanla canavar. AA *119 = SUS117* (Uğursuz təqlid)

Haqqı-say. (788*) (Gələcək nəsil)

Qorxaq. AA 1641 (Yalançı falçı)

Xeyirxahla Alçaq. AA 613 (Xeyir və Şər)

Halvaçının nağılı. AA 560 (Sehrli üzük)

Tacirnən kənddi. AA 882A (Sədaqətli arvad) + AA *313 I = SUS 313H* (Müxtəlif əşyalar tullamaqla divdən qaçma)

Bəhramın nağılı. (895**)

Üç bacınını nağılı. AA 707 (Uşaqların dəyişdirilməsi)

Qadın Sədaqəti və Qara sövdəgər. AA 485B = SUS 485A + SUS 612* (Ər arvadın qəbrində)

Mürsəlin nağılı. (522*)

Dərviş Xudayarın nağılı. (994**) (Səxavətli qız) + 0 (Korun əhvalatı) + 0 (Özünü minarədən atan molla) + (839*) (Dəmirçinin əlini od yandırmayır)

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Ədalətli vəzir. (908*) (Bayquşların söhbəti) + (833**) (Qeyri-adi sünbül)

Qaraçuxasını axtaran kişi. AA 460B (Bəxtin axtarılması)

Gülü qah-qahın nağılı. AA 465C

Nargilə. K 451B* (Yeddi qardaş bir bacı)

Fatmanın nağılı. AA 480B = SUS 480*

Göyçək Fatma. AA 450 (Axsaxca ceyran)

Ovçu Pirim. 670 + 0 (Ovçu Pirim keçi dərisinə bürünmüş oğlunu vurur)

İtin payı. AA 750B

Darının nağılı. AA 327C

Aşbaz oğlu padşahın nağılı. AA 925* = SUS 655

Dəvə ilə dəvəçinin nağılı. Aarne-Andreyev göstəricisində belə bir süjetə təsadüf olunmur.

Zümrüd quşu. Aarne-Andreyev göstəricisində belə bir süjetə təsadüf olunmur.

Şahzadə Yusif və Ceyran qızının nağılı. (706E**) (Arzuolunmaz övlad)

Mahmud xan və qoca. AA 981* (Qocaların öldürülməsi)

Bağbanla üç oğlu. AA 910E (Bağa basdırılmış küp)

Ata vəsiyyəti. (910S*) (Hər kənddə bir ev tik)

Xudayarın qızı. SUS 828*** (Bir qıza üç elçi)

Qismətin qoyruğu kəsildi. Aarne-Andreyev göstəricisində belə bir süjetə təsadüf olunmur.

Pəhləvan Nəzərin nağılı. AA1060 (Qoxaq Əhməd)

Yoxsul kəndli və Xudayar bəy. Aarne-Andreyev göstəricisində belə bir süjetə təsadüf olunmur.

Selim və Sultan. (833*) (Qızıla dönmüş taxıl)

İki qunşu. 752 (Torbanın bərəkətini dağara verir)

Keçəlin nağılı. (1539F*) (Bilici quş) + AA 1115 + AA 1380 (Gom-gom piri) + AA 1530 (Uçan qaya) + (1539E*) (Sehrli dəyənək) + (1539H*) (Sehrli ağac) + (1593*) +

(1594*A) (Kim yerini bulasa, öldürüləcək)

Şah Abbasın nağılı. SUS 1590A* (İnsana paltarına görə hörmət edirlər) + SUS 888A* (Baftaçı Şah Abbas)

Kimin əvvəli, kimin axırı. (868*)

Törənin nağılı. (1449**) (İz eşşəyin, fel gəlinin) + (1449***) (Gəlin qayınanasının sözlərini özünə sərf edən şəkildə izah edir)

Dəmirdişin nağılı. AA *313 II = SUS313J*

Süleyman şahın yuxusu. Aarne-Andreyev göstəricisində belə bir süjetə təsadüf olunmur.

Pulun bəlası. Aarne-Andreyev göstəricisində belə bir süjetə təsadüf olunmur.

Yusif və Mərcan. Aarne-Andreyev göstəricisindən belə bir süjetə təsadüf olunmur.

Qoca ilə qarının nağılı. AA *559 I = SUS 559* (Danışmayan qız) + 661* (Xarrat, dərzi və molla) + AA 653A (Üç qardaş)

Tapdıx. AA 460B

Ağıllı şah qızı. Bu nağılın süjeti N.Gəncəvinin "Yeddi Gözəl" poemasında verilmiş "Fitnə" süjetinə uyğundur.

Kasıb Məhəmmədlə ağılsız pəhləvanın nağılı. AA 1060 (Qorxaq Əhməd) + AA 1115

Heş zad. AA1696A = SUS 1696 (Döyülən axmaq)

Ata nəsihəti. SUS 911* (Gədədən pul istəmə, atını başqasına vermə, arvadı atası evinə getməyə qoyma)

Pəhləvanın dostluğu. Aarne-Andreyev göstəricisində belə bir süjetə təsadüf olunmur.

Aylülə. AA 301A (Boyu bir qarış) + AA 300A = SUS 3001 (Suyun qabağını kəsmiş əjdaha)

Birə beş, beşə min. Aarne-Andreyev göstəricisində belə bir süjetə təsadüf olunmur.

Oğlan paltarlı qız. AA 884* = SUS 884B* (Qız gəldim, qız getdim)

Ovçu Pirimin övladları. AA 301A (Boyu bir qarış) +

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

AA 300A = SUS 3001 (Suyun qabağını kəsmiş əjdaha)

Bilici qəhrəman. SUS 671F* (Balıqların gülməsi)

Bibilcanın nağılı. AA 480A = SUS 480*

Xəncərin şahidliyi. (780**) Aarne-Andreyev göstəricisində belə bir süjetə təsadüf olunmur.

Şah oğlu və naxırçı qızı. AA *934 = SUS 930A (Təyin olunmuş arvad)

Cəmşid padşah. SUS 1590A* (İnsana paltarına görə hörmət edirlər)

Qaz göndərsəm yolarsanmı? SUS 921

Oğurrux. Aarne-Andreyev göstəricisində belə bir süjetə təsadüf olunmur.

Qonax. AA 750 + AA 300A = SUS 3001(Suyun qabağını kəsmiş əjdaha)

Yazıya pozu yoxdu. (930K*) Aarne-Andreyev göstəricisində belə bir süjetə təsadüf olunmur.

Şah oğlu ilə vəzir oğlu. (928***) + AT 861 (Döşəyin altındakı üzük)

Süleyman peyğəmbərnən Simurq quşu. (930K*)

Keçəl və dayısı. AA 1725 + AA 1380 (Gom-com piri)

Şirlə tülkü. AA 75 (Şir, tülkü və çaqqal)

Ekiz qardaşların nağılı. AA 1165* = SUS 1353 (İnsan şeytanı aldadır) + (928**) (İnəyin qarındakı buzov)

Aqil padşah. (972*) (Qızıl təsbeh) Aarne-Andreyev göstəricisində belə bir süjetə təsadüf olunmur.

Tülkünün nağılı. AA 545B (Armudan bəy)

Nağılların süjet göstəricisinin tərtibçisi
İlkin Rüstəmzadə

MÜNDƏRİCAT

Köynək....3
Təpəgöz canavar....18
Əhməd şahın nağılı....29
Xor-xor molla....33
Tülkünün hiyləbazlığı....35
Tülkü və xoruz....38
Armudan bəy....40
Sehirli kisə....42
Səbr daşı....43
Dartanla Yırtan....46
Sehirli ilan....48
Padşahla oğlu....49
İki qardaş....51
Molla ilə dovşan....52
Üç sual....53
Xan ilə oglu....55
Aslanla canavar....56
Haqqı-say....58
Qorxaq....62
Xeyirxahla bədxah....65
Tacir Mehdinin nağılı....68
Halvaçının nağılı....75
Tacir oğlu....82
Ovçunun sirri....87
Tacirnən kənddi....90
Bəhramın nağılı....98
Üş bacının nağılı....101
Qadın sədaqəti və ya qara sövdəgar....106
Mürsəlin nağılı....112
Kasıvın nəfsi....116
Daş-ağac....119
Dərviş Xudayarın nağılı....124

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Ədalətli vəzir.....128
Qaraçuxasını axtaran kişi.....133
Gülü qah-qahın nağılı.....138
Nargilə.....145
Fatmanın nağılı.....147
Göyçək Fatma.....150
Ovçu Pirim.....153
İtin payı.....155
Darının nağılı.....157
Aşbaz oğlu padşahın nağılı.....159
Dəvə ilə dəvəçinin nağılı.....163
Zümrüd quşu.....165
Şahzadə Yusif və Ceyran qızın nağılı.....168
Zərnişan xanımın nağılı.....172
Paxıl qardaşdar.....176
Mahmud xan və Quca.....179
Bağbanla üç oğlu.....181
Ədalətli vəzir.....183
Kafirin müsəlman olması.....184
Ata vəsiyyəti.....185
Xudayarın qızı.....187
Qismətin qoyruğu kəsildi.....189
Pəhləvan Nəzərin nağılı.....190
Yuxsul kəndli və Xudayar bəy.....193
Selim və Sultan.....194
İki qunşu.....196
Keçəlin nağılı.....198
Şah Abbasın nağılı.....204
Kiminin əvvəli, kiminin axırı.....208
Törənin nağılı.....210
Dəmirdişin nağılı.....212
Süleyman şahın yuxusu.....214
Pulun bəlası.....217
Yusif və Mərcan.....219

Qoca ilə qarının nağılı.....224
Tapdıx.....234
Ağıllı şah qızı.....327
Kasıv Məhəmmədlə ağılsız pəhlivanın nağılı.....241
Heş zad.....245
Ata nəsihəti.....249
Pəhlivanın dostluğu.....255
Aylülə.....264
Birə beş, beşə min.....274
Oğlan paltarlı qız.....277
Ovçu Pirimin övladları.....284
Bilici qəhrəman.....300
Bibilcanın nağılı.....318
Xəncərin şahidliyi.....321
Şah oğlu və naxırçı qızı.....323
Cəmşid padşah.....326
Oğurrux.....328
Qonax.....329
Yazıya pozu yoxdu.....331
Şah oğlu ilə vəzir oğlu.....333
Süleyman peyğəmbərnən Simurq quşu.....339
Keçəl və dayısı.....342
Şirlə tülkü.....351
Ekiz qardaşların nağılı.....354
Aqil padşah.....359
Tülkünün nağılı.....365
Yetim Məhəmməd.....368
Nağılları söyləyənlər və toplayanlar haqqında məlumat.394
Nağılların süjet göstəricisi.....395

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Azərbaycan folkloru külliyyatı, IV cild,
Nağıllar (IV kitab),
Bakı, “Nurlan” nəşriyyatı, 2007.

Nəşriyyat direktoru:
Elşən Hətəmzadə

Kompüterdə yığdı:
Aytən Cəfərova
Ləman Qafarova

Korrektorları:
Ləman Süleymanova
Səbinə İsayeva

Kompüter tərtibçisi və
texniki redaktoru:
Baxşəli Süleymanov

Kağız formatı: 60/84 1/16
Mətbəə kağızı: №1
Həcmi: 25 ç/v
Tirajı: 500
Qiyməti müqavilə ilə.

Kitab AMEA Folklor İnstitutunun
Redaksiya-Nəşriyyat şöbəsində yığılmış, səhifələnmiş,
“Nurlan” nəşriyyatında hazır diapozitivlərdən
ofset üsulu ilə çap olunmuşdur.

400

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com